# ŞƏHADƏT AŞİQİ

**Hərəm müdafiəçisi Şəhid Hüseyn Mehrabinin həyat yoldaşı Mərziyə Bələdiyyənin xatirələri**




**Kitabın adı:....................................Şəhadət aşiqi**
**Qələm alan:.....................................Bətul Padam**
**Çapa hazırlayanlar:...Zəhra Əhsən Müqəddəm**
**və Zeynəb Axundi**
**Tərcümə edən:..............................Ü. Hüseynova**
**Çap tarixi:...................................................2023**
**Çap növbəsi:............................................Birinci**
**Tiraj:..............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 56-50-024519-54

# 1

Məhlanı qucağıma alıram. Göz yaşlarım axmağa başlayır. Ağlıma belə gəlməzdi ki, hələ getməyə macal tapmamış, onun üçün bu qədər darıxacam.

Anam yaxınlaşıb Məhlanı məndən ayırır. Onun göz yaşlarından islanmış üzünü öpürəm. Mənim qayıtmaq istəyinin cavabında yalnız bunu deyə bilirəm: "Ana qurban, söz verirəm ki, tezliklə geri dönəcəyəm."

Hüseyn artıq çamadanları maşına yerləşdirib məni gözləyir. Əyləşən kimi, sürücü maşını işə salır və uzaqlaşdığımız anda atam arxamızca bir kasa su atır.

Üzümü çevirib atama bir də baxıram. Sanki, Məhlanın ağlamaq səsləri hələ də qulaqlarımda cingildəyir. Ürəyim əsir, əlim-ayağım boşalır. Gedib-getməmək arasında qalmışam. Bir tərəfdən, illərdir arzusunda olduğum səfər məni çağırır, digər tərəfdən isə Məhladan ayrılmağım məni üzür.

Hisslərimi kiminləsə bölüşmək istəyirəm. Üzümü Hüseynə tuturam. Sakitcə yerində əyləşib. O qədər sevinir ki, içimdəki fırtına haqqında danışmadan dodaqlarımı bir birinə sıxıram. Hava limanına tərəf irəliləyərək, bir-bir küçə və xiyabanlardan keçirik. Çox uzaq deyil.

Maşın dayanır. Hüseyn çamadanları götürüb, qrupumuzun bütün üzvləri buradadır. Hamısı da böyük həvəs və səbirsizliklə nə vaxt gedəcəklərini gözləyir. Hüseyn qrupun rəhbərini axtarmağa gedir. Mən çamadanların kənarında dayanıram. Bir saat gözlədikdən sonra, qrup rəhbərinin göstərişi ilə hamımız yola düşürük. Qapılardan keçib, çamadanlarımızı təhvil veririk və avtobuslara minərək, təyyarəyə tərəf hərəkət edirik.

Oturacağa əyləşən kimi, başımı Hüseynin çiyninə dayayıram.

Sənə nə olub? Narahatsan?

Heç nə olmayıb. Yaxşıyam. Bircə...

Söhbətimi davam etdirmək istəyirdim ki, öncə pilot, sonra isə stüardessa fars və ingilis dilində sərnişinləri salamlayır, təyyarənin hansı şəhərə uçduğunu elan etməklə, sözümü kəsir. Beləliklə, aldığımız biletlərə əsasən, biz Kirmanşaha səfər edirik.

Kirmanşahı sevirəm. Hərçənd, oradakı ötəri dayandığımız və şəhəri seyr etdiyimiz müddət, avtobusu gözlədiyimiz qədər oldu. Kirmanşahla tanışlığımız isə küçələri, sakinləri, mağazaları, ağacları, bu yaşıl şəhəri və nəhayət Mehrana aparan dağ yollarını kənardan seyr etməklə bitdi. Yerli əhalinin geyimi və əyinlərindəki enli şalvarlar mənə çox maraqlı görünürdü; xüsusilə bir motosikletçinin küləyə düşdüyü zaman, şalvarının hər iki tərəfdən hava ilə dolub, iki su tuluğu kimi yellənməsi.

Başımı şüşədən çəkib baxışlarımı Hüseynə dikirəm. O, sanki başqa aləmdədir. Dodaqaltı nə dediyini bilmirəm, kim bilir, bəlkə şəhidlərlə pıçıldaşır, bəlkə də onlar üçün zikr deyir. Buralarda şəhid olan az deyildi, Hüseyn isə bu əhvalatların dəlisi idi. Mən hələ də Məhlanı düşünürəm. Ondan nə qədər çox uzaqlaşıramsa, darıxmağım bir o

qədər artır. Başına bir iş gələcəyini düşünürdüm. Dilim qurusun, onu bir daha görə bilməyəcəyimdən qorxurdum.

Qədimdə düz demişlər ki, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Mehrandan Nəcəfə qədər, yol boyu qəribə hiss keçirirdim. Nəcəf haqqında çox eşitmişdim, şəkillərini görmüşdüm, amma o eşitdiklərim hara, bu gördüklərim hara...

Avtobus çoxlu yoxlama postlarının yerləşdiyi dağılmış, ensiz yollardan keçir. Bəzən postlarda hamını avtobusdan düşürüb, pasportlarımızı yoxlamaq üçün sıraya düzürlər. Bu zaman başdan-ayağa kamuflyaj forması geyinmiş iki hərbçi önə çıxaraq, əllərində tapançaya bənzər, amma ucunda uzun antena olan bir cihazla bütün avtobusu yoxlayırdı. Hüseyn deyirdi ki, bu yoxlama gizlədilmiş bombanı tapmaq üçündür.

İrəlilədikcə qüruba yaxınlaşırıq və hava bir qədər soyuyur. Amma havanın istiliyi və rütubətin yüksək olması da ürəkaçan bir şey deyil. Hər yoxlama postuna çatdıqda, işimizin tez bitməsini və tezliklə avtobusun rahat oturacaqlarına və kondisionerin sərinliyinə qayıtmamızı ürəkdən arzulayıram.

Bir qədər də irəliləyirik. Qrupumuzun rəhbəri dəhlizin ortasında dayanaraq, yolun şimal-qərb istiqamətindəki bir nöqtəyə işarə edib deyir: “Ora hərəmdir.” Hamımız uzaqdan salam göndəririk. Qəribçilik hiss edirəm.

Əmirəlmömininin şəhərinə çatanda, artıq hava qaralmışdı. Avtobus enli bir prospektin kənarında dayanır. Hamımız çamadanlarımızı əlimizə alıb gözləyirik. Məsul şəxslərdən biri, içərisində otelimizin adı, ünvanı və yerləşdiyi məkanın xəritəsi olan broşüraları bizə paylayır. Sonra yola düşürük. Hamımız darmadağın olmuş qoşunun əsgərləri kimi yorğun-arğın addımlayırıq.

Yorğunluğumuz yoldan çox, ardıcıl yoxlamalar və avtobusdan enib-minmə ucbatından idi. Hüseynin səsi eşidilir: "Müharibə şəraitindəki ölkə belə olar, hələ də təhlükəsizlik təmin olmayıb, belə çoxsaylı yoxlamalara haqları var."

Otelin gözləmə zalında əyləşirik. Qrupumuzun rəhbəri böyük bir dəftərin kənarına çoxlu miqdarda açar yığaraq, otaqları arımızda bölüşdürüb açarları paylamağa başlayır. Hüseynlə mənim payıma qoşa çarpayılı bir otaq düşür.

Liftlə yuxarı mərtəbəyə qalxırıq. Belim ağrıyır. Bu qədər uzun müddət avtobusla səfər etməyə öyrəşməmişəm. Ömrümdə etdiyim ən uzun və sevimli səfər uşaqlıq illərimə aiddir; hamımız birgə atamın motosikletinin arxasında əyləşib, təbiətin qoynuna getdiyimiz zamanlara. Məşhədin ətrafında motosikletlə gedə biləcəyimiz xoş ab-havaya malik və istirahət üçün münasib nə qədər yer vardısa, hamısını gəzmişdik. O zamanlar atam mənimlə Raziyəni növbə ilə benzin bakının üstündə oturdar, İbrahim isə anamdan arxada əyləşərdi. Atamın yanında oturmaq üçün həmişə dava edərdik. Sanki motosikletin VİP hissəsi ora idi və hər kim orda əyləşsəydi, səfərimizin dadını çıxarmış olurdu. Özümüzlə apardığımız xalçanı da oturacağa sərirdik ki, çox yer tutmasın. Anam çox sadə bir yemək hazırlayıb, hər şeyi motosikletin arxa hissəsinə bağlanmış qırmızı səbətə yığardı. Bəzən arxada əyləşərdim, özü də qorxa-qorxa, çünki, motosiklet hər sürət tənzimləyicisini adlayanda, arxadakı şəxs yerə yıxıla bilərdi. Atam ürəklə qaz pedalını sıxar, anam atamın belindən tutar və beləcə, şad-xürrəm yola düşərdik.

Öz-özümə düşünürdüm ki, kaş o zaman onlarda olan səbr və rahatlığın bir hissəsi indi məndə olaydı. Ürəyimdə

hələ də Məhladan ayrılmağımın fırtınasını yaşayıram. Bilirəm ki, bu fikir məni səfərin sonunadək rahat buraxmayacaq.

Hüseyn çamadanları açmağa getdi. Zəncirbəndin açılmasının və polietilen paketinin xış-xış səsi eşidildi. Hüseyn məni tərifləyərək deyirdi: “Əhsən, sənin kimi xanıma deyərlər əsil ömür-gün yoldaşı.”

Çevrilib, əlimi yanağıma dayayaraq ona baxıram. Əlindəki qara köynəyi görəndə cavab verirəm: “Həyat yoldaşını tanımayan birinin, ölməyi daha yaxşıdır.”

Ay dəli, bu nə sözdür! Allah eləməsin.

Hüseyn tapıntısından razı halda dodaqaltı rövzə zümzümə etməyə başlayır. Yaxşısı budur ki, mən də geyimimi dəyişim. Bu gecə şəhadət axşamıdır. Hüseyn pəncərədən çölə baxdığı halda səsini azacıq qaldırıb deyir:” Bu gecə başsağlığı vermək üçün hərəmə getməliyik.”

# 2

Olmaz, olmaz cənab, bu işin cavabdehliyi var. Bizə icazə verməyiblər. Belə israr edirsinizsə, məsuliyyəti öz üzərinizə götürüb gedə bilərsiniz, heç kim qarşınızı kəsmir.

Bu, qrup rəhbərinin cavablarıdır. Hamının birgə ziyarətə getməsinə heç bir şəkildə razılıq vermək istəmir. Qorxulu olduğunu deyir. Şəhərdə təhlükəsizlik yoxdur. Bizim gecə gedib-gəlməyimizə icazə verməyiblər. Hüseyn hey təkrar edir: “Ay qardaş, heç belə iş olar ki, həzrət Fatimənin (ə) şəhadət gecəsi, Nəcəfdə olduğun halda oteldə qalasan?! Biz ki bura qədər ölümümüzü gözümüz önünə alıb gəlmişik, bundan sonra baş verənləri də Allaha tapşıra bilərik.

Bir kənarda dayanmışam. Heç kim öz sözündən dönmək istəmir. Hüseyn sanki bu gecənin ziyarətinin dadını tənha dadmaq istəmir.

Kimsə onların hər ikisini yola gətirmək üçün deyir: “Hər kim istəyirsə getsin, amma bu Allah bəndəsi də sizə görə məsuliyyət daşıyır. Birgə getmənizə icazə verə bilməz. Kim bilir, bəlkə də öz başına iş açmaq istəmir. İkiniz gedin, ay qardaş.”

Hüseynlə otelin restoranına gedirik. Sadə şam yeməyindən sonra hərəmə yola düşürük. Hər ikimiz çox səbirsizlənirik. İlahi! Nəcəf necə də səfalıdır.

Avtomobildə əyləşən kimi gördüyümüz ilk iş pərdələri çəkmək olur. Bunu sürücünün istəyi ilə edirik; hər tərəfdə dayanan amerikan əsgərlərinin ucbatından.

Hüseyn kənarımda əyləşib. Bizimlə birgə gələn zəvvarlardan bir neçəsi isə maşının önündə əyləşiblər. Sürücü dolu bədənli, xoşsöhbət bir ərəbdir. Fars dilində cümlələrin qolunu-qanadını sındıraraq danışır. Nə getdiyimiz yoldan, nə də onun uzun ya qısa olduğundan heç nə anlamadım. Yalnız qarşı tərəfi görə bilirdim. Qaranlıq və işıqlı küçələr, hərbçilər, daha sonra enli və ensiz prospektlər və toz-torpaq.

Maşından düşən kimi, Hüseyn sürücüyə bol-bol təşəkkür edərək, hamının yol pulunu hesabladı. Yoldaşlarımızın bu məsələyə etiraz etmələri ilə də razılaşmadı. Yola düşdüyümüz zaman üzünə baxıram, gülümsəyir.

İstəyirəm ki, hamının ziyarətindən mənə də pay düşsün.

Həmişə bu qədər zirək idi. Onun bu dərəcədə zirək olmağına qibtə edirdim, misal üçün, hərəmə daxil olduğumuz an hamıdan öncə həzrət Zəhraya (s) salam verdi.

Dilxorluqla deyirəm: “Mənə də bu işlərindən bir neçəsini öyrət.”

Cavab verir: “Hələ ki gec deyil, indi də salam verə bilərsən.”

Sonra əlini sinəsinə qoyaraq, irəli çıxıb uca səslə hər ikisinə salam verir və ziyarətnaməni oxumağa başlayır. Bir neçə nəfər kənarda dayanıb səssizcə onu dinləyir. Hamı razıdır və kimsə danışmır.

İçəri daxil olanda həyətin və daxili zalların səssiz və demək olar ki, boş olduğunu görürük. Daxilimdə xoş bir hiss var. Bu hiss gecənin sərinliyindən, qızıla bürünmüş daxili zalın görünüşündən, Quran və dua səslərindən, ətrafda eşidilən ərəb dilinin müxtəlif ləhcələrindən, əyinlərinə qara ya ağ rəngdə uzun milli libas geyinmiş və hər biri bir sütuna söykənib öz aləminə qapılmış müxtəlif insanların vücudundan qaynaqlanır. Əba geyinmiş qadınlar, otuz il öncə öz yurdumuzda da dəb olduğu kimi, körpələrinin gözünə sürmə çəkmiş, övladlarını ağ parçaya bələyərək, qundağa qoymuş və çiyinlərinə qızıl sancaqla ya nəzər duası, ya da qızıl tikəsi vurmuş əliuşaqlı analar daxil olurlar. Yan-yana əyləşərək, bir ağızdan həzin-həzin mərsiyə oxuyub, sinə vururlar.

Hüseyn bir neçə yol yoldaşı ilə birgə üzərində "Kişilər" yazılmış qapıdan daxil olur, mən isə qadınlara məxsus qapıdan içəri girərək, elə bir yer seçirəm ki, Hüseynə yaxın olum; kişilərin göründüyü və səslərinin eşidildiyi dəmir millərin yaxınlığındakı bir yer.

Dayandığım yerdən Hüseynin səsini və çox vaxt oxuduğu "Bağışlayın ki, həqiqi şiə deyiləm, amma min bir ümidlə özümü bura çatdırmışam" rövzəsini eşidirəm.

Möhür götürüb ziyarət namazı qılmağa hazırlaşırdım ki, yenidən Hüseynin səsini eşitdim: "Ağa can, bu gecə sizin üçün çox çətin keçib, sizə olan ehtiramımızı bildirməyə gəlmişik, salamımızı alın."

# 3

Həmişə Hüseynin səsinin, xüsusilə də oxuduğu mərsiyələrin aşiqi idim. Bunu hələ indiyə kimi özünə deməmişəm.

Qəbiristanlıqda oxuduğu rövzəni dinləmək üçün əyləşən ilk insan mən oluram. Sonra qrupun digər üzvləri və hətta həmişə işlərini görməyə tələsən qrup rəhbəri də gəlib əyləşir. İnsanların sayı artdığından, onlardan aralanmağa məcbur oluram. Bir küncə çəkilərək, Vadi əl-Salamın irili-kiçikli qəbir və sərdabələrinin arasında dolaşıb, Hüseynin oxuduğu rövzə ilə qəribə bir harmoniya yaradan küləyin səsini dinləyirəm.

Artıq, camaatın uğultusu azalıb. Hüseyn bu şəhadət günündə xanım Zəhra (s) üçün mərsiyə deyir. Bura gəlməzdən öncə hərəmə getmişdik, sonra birbaşa Vadi əl-Salama gəldik. Bu yerin əzəməti, böyüklüyü, qədimliyi, həmçinin torpaq altında yatan tanınmış şəxsiyyətləri məni sükuta dəvət edir ki, həyat yoldaşımın nə dediyini, nəzərinin necə olduğunu anlayım.

-Möminlərin və şəhidlərin ruhları bu yerdədir. Allah eləsin ki, bizi də bura gətirsinlər.

Qəbirlərin, hündür və alçaq sərdabələrin arasından, yuxarı-aşağı gedirik. "Əl-mizan" təfsirinin müəllifi əllamə Təbatəbainin ustadı Seyid Əli Qazi, cənubda ingilislərlə döyüşən cəsur yerlimiz Rəisəli Dilvari, Məhəmməd Hüseyn Kaşif əl-Ğita və s. Nəcəf şəhəri gör nə qədər tanınmış insana öz qoynunda yer verib. Bir tərəfdən neçə-neçə böyük şəxsiyyəti özündə cəm edən hərəm; Əllamə Hilli, Mustafa Xomeyni, Müqəddəs Ərdəbili, seyid Həsən İsfahanidən tutmuş, Hüseynin sadaladığı, mənim isə adlarını belə eşitmədiyim adamlara qədər. Digər tərəfdən də Vadi əl-Salam...!

Rövzə bitən kimi yola düşüb qəbiristanlığın mərkəzinə aparan torpaq yola tərəf gedirik. Hüseyn dodaqaltı zümzümə edir, yenə fikir və xəyaldadır.

Belə böyük ərazidə bu qədər qəbri müşahidə etmək qəlbimə vahimə salır. Yəqin bu kimi yerlərdə insan bu dünyanın nə qədər fani olduğunu anlayır.

Qəbiristanlıqdan yorğun və toz-torpaq içində qayıdırıq. Ürəyimdən bir az yatıb istirahət etmək və bir stəkan sərin şərbət içmək keçir.

Yorulmusan?

Mənə baxıb deyir:

Hansı yorğunluq? Ömür boyu buranı ziyarət etmək arzusunda olmuşam, nəhayət gəlib çatdığım zaman isə yorğun olduğumu deyim?!

Çevrilib başqa səmtə baxıram, gözüm yol çəkir. Qəbirlərin üstündən xətt çəkən, ya da qəbir-qəbir gəzərək, yerə sərilib təbərrük axtaran zəvvarlara tərəf baxıram.

Belə şeyləri görəndə əhvalım pozulur. Sanki xurafat heç vaxt insanlardan əl çəkməyəcək.

Buranın yüksək məqamı haqda o qədər eşidiblər ki, hər işə əl atırlar.

Nahardan sonra xəbər verirlər ki, hamı saat üçdə otelin gözləmə zalında yığışıb, Kufə və Səhlə məscidinə getmək üçün hazır olsun. Naharımı yeyən kimi otağımıza gedirəm. Hüseyn məndən gec gəlir. Qrupumuzun üzvləri ilə söhbət edirdi. Çox istiqanlıdır, hamı ilə dil tapıb ünsiyyət qura bilir. Nə vaxt gəldiyini bilmirəm, yatmışdım. Hüseynin səsini eşidib gözlərimi açıram.

Mərziyə xanım, hazırlaşmaq istəmirsən? Hamı gözləmə salonundadır.

-Bilmirəm niyə bu qədər yorğun və yuxulu olmuşam.

-İstilikdən, qızmar günəşdən və ab-hava dəyişikliyindəndir.

-Mən öyrəşənə qədər səfərimiz bitər ki...

Hüseyn saçını darayıb köynəyini geyinir. Tez çadramı başıma atıb aşağı düşürəm. Biz məscidə çatanda artıq qüruba yaxınlaşırdıq, amma havanın istiliyi hələ də azalmamışdı. Qızmar günəş və havadakı rütubət hələ də narahatedici idi. Avtobusumuz uzaqda dayandığından piyada getməli oluruq. Bir neçə yoxlama postundan keçirik. Hüseyn bir küncdə dayanıb ona çatmağımı gözləyir.

Kufə məscidinə yaxınlaşarkən, bu tikilinin nə qədər böyük olduğunu çox rahat görmək olur; dörd bir tərəfdən onu əhatə edən o gözəl eyvanları, həyətin mərkəzində yer alan günəş saatı, ağ piltələri və çoxsaylı sütunları ilə çox möhtəşəm görünür.

Məscidə daxil olduğumuz an Hüseyn kövrəlib ağlamağa başladı. Belə ki, digərlərinin də diqqəti bizə tərəf cəlb olundu. O, həmin halda yüksək səslə Ali-Yasin ziyarətini oxumağa başladı. Kənarında dayanıb dinməzcə, bütün vücudumla səsinə qulaq asırdım. Onun bu halını pozmaq istəmirdim. Tədricən zəvvarların sayı artırdı, çoxu

kişi olduğundan, mən yenə də Hüseyndən kənara çəkilməyə məcbur oluram. Tək-tənha bir tərəfdə dayanıb, onunla birgə dua etmək istəyimi qəlbimin dərinliklərində həbs edirəm.

# 4

Nəcəf ziyarəti çox tez sona çatdı, vaxtın necə keçdiyini bilmədim. Əgər Məhladan ayrı düşməsəydim, bu ziyarətin bu günə gədər etdiyim ən gözəl səfər olduğunu ürəklə deyə bilərdim.

Otağın açarlarını təhvil verib çamadanlarımızı və çantalarımızı əlimizə alıb maşına tərəf yola düşürük. Bu yolu piyada getməliyik. Günəş səhər açılandan dayanmadan havanı qızdırırdı, kürəyimizdən süzülən tər damcıları buna aydın sübutdur. Avtobusa qan-tər içində əyləşirik, kişilərdən çoxunun köynəyi tərdən islanıb. Hüseyni bir qədər yelpinclə sərinlədirəm. Nigaranam. Bilirəm ki, bu həddə istilik və bu qədər tərləmək onun üçün zərərlidir. Su butulkasını ona uzadıram.

-İç, susuzluq sənin üçün zərərlidir.

-Narahat olma, bir şey olmaz.

Avtobus yola düşən kimi, Hüseyn rəng verib, rəng almağa və yerində qıvrılmağa başlayır. Nigaran olmağım əbəs yerə deyildi. Böyründəki ağrılar yenidən baş qaldırmışdı. Böyrək çatışmazlığı ucbatından, bu səfərin onun üçün qorxulu olduğunu bilirdim. Bu hədsiz isti və ardıcıl tərləməsi bədənindəki suyun azalmasına və

böyrəyindəki narahatçılığın yenidən baş qaldırmasına səbəb olmuşdu.

Butulkadakı su bitir. Ayağa qalxıb yol tədarükünə cavabdeh olan şəxsə yaxınlaşaraq, ondan su istəyirəm. Bir neçə dəfə gedib qayıtsam da bunun Hüseynin ağrılarına bir təsiri olmur. Başının üstündə dayanıb nigaran baxışlarımla onu süzürəm.

Məndən əyləşməyimi istəyib deyir: "Əyləş Mərziyə, narahat olma, yəqin ki, bu ağrıda bir hikmət var. Bu böyür ağrısından həzrət Zəhraya (s) pənah aparıram, inşallah halım düzələr."

Əyləşib salamat olması üçün zikr deyirəm. Kərbəlaya çatanda artıq hər şey sakitləşib; həm Hüseynin ağrıları, həm də mənim nigarançılığım.

Kərbəlada qürbət və qəribçilik hissi vücudumu bürüyür. Qrupumuzun rəhbəri çatdığımızı elan edən kimi, oranın torpağına ayağım dəydiyi ilk anda bunu hiss etdim. Bura Kufə və Nəcəfdən fərqli idi. Şəhər amerikan və iraq əsgərləri, milli geyimlərdə olan kişilər, əba geyinmiş qadınlar, ərəb dilində oxunan rövzələr, küçələrin kənarında duran xırda alverçilər, toz-torpaq və öz qarışıqlığı və dolaşıqlığı ilə hörümçək torunu xatırladan, hərdən evlərin qapısına qədər uzanmış, elektrik simləri ilə dolu idi. Hara gedirdiksə, qrupumuzun rəhbəri izdihamlı yerlərdən və cəmiyyətin sıx olduğu məkanlardan uzaq olmağı tövsiyə edirdi. Bomba partlayışları və çoxsaylı şəhidlər haqda olan xəbərlər bitmək bilmirdi, amma həqiqi Hüseyn aşiqi bu kimi şeyləri nəzər almır.

Məhla və hətta atam-anam üçün həmişəkindən çox darıxırdım. Onları yenidən görmək istəyirdim. Əlimdən heç nə gəlmirdi, nə onlarla qalmağa və nə də onlardan ayrılmağa gücüm vardı.

Hüseynlə hərəmə doğru gedirik. Dünənki kimi, oteldən çıxanda idman ayaqqabılarını ayağından çıxarır, bağlarını bir-birinə bağlayıb boynundan asır.

Yenə də Hürrün hərəkətini təkrar edirsən?

Hürr də imamdan ayrı düşmüş, qayıdanda isə onun görüşünə yalın ayaqla getmişdi.

Həzrət Əbülfəzin (ə) ziyarətinə gedirik. Namaz qılıb dua edirik, sonra isə böyük qardaşını ziyarət etmək üçün izn alırıq. Həzrət Əbülfəz (ə) həya, nəciblik və ədəbin göstəricisi deyilmi?! Bu üzdən onun izni və xeyir-duası ilə həm qardaşını ziyarət etmək üçün yola salınarıq, həm də bu bizim üçün onun tərəfindən xüsusi bir dəvət kimi hesaba alınar.

Beynəl-Hərəmeyndən İmamın ziyarətgahına tərəf yola düşürük. Hava istidir. Qanadlarının üstündə iki xətt olan, müxtəlif rəngli və müxtəlif növdən olan göyərçin dəstəsi görürük. Göyərçinlərin adını bilmirəm. Rəngləri və ölçüləri şəkillərdə gördüyüm, Bəqi qəbiristanlığındakı göyərçinlərlə eynidir.

Mərziyə, mən əvvəl elə düşünürdüm ki, bura gəlib Nəhr əl-Qəme və qətlgahı görsəm ürəyim partlayar, amma halım yaxşıdır. Yəqin bunun səbəbi eşitdiyim həmin rəvayətdir: "Kərbəlada bir neçə mələk çiynindən vuraraq səni sakitləşdirir."

Mən də özümü yüngül hiss edirəm.

Günorta azanı verilir, bir-birimizdən ayrılmazdan öncə xahiş edirəm və az qala yalvarıram ki, namazını kölgədə qılsın. Havanın belə isti olmasının onun böyrəkləri üçün ziyanlı olduğunu bilirəm. Əba geyinmiş xanımların sırasına keçirəm və oradan da Hüseynə diqqətlə baxıram.

Günün altında bir kişinin arxasında namaza dayanıb. Mən də namazımı qıla-qıla narahatçılıq hissi keçirirəm.

Çox vaxt elə bu işi görürdü, namazı oteldə qılmağımız üçün vaxt uzatmağımın heç bir faydası olmurdu. Onun ağrı çəkməsini istəmirdim. Ağrısı olanda, elə bil mənim də bütün bədənim ağrıyırdı.

Namazdan sonra əlimdə bir butulka su tutaraq ona yaxınlaşıram.

-Yenə də öz bildiyini etdin?

-Kim bilir, bir də bura gələ biləcəyik? Mən burada hiss etdiyim o xüsusi hal üçün hər şeydən keçməyə hazıram.

Bu keçirdiyi hallar bəzən mənə qəribə görünürdü. Artıq neçə il idi ki, birgə həyat sürürdük. Hər dəfə onu tanıdığımı düşünəndə, yenə də vücudunda yeni bir şey kəşf edirdim, ya eşidirdim, beləliklə onu hələ də yaxşı tanımadığımı anlayırdım. Oteldə yemək süfrəsinin arxasında oturduğumuz vaxtlar kimi; süfrəyə ətlə bişmiş bir yemək gətirəndə, ətləri ayırıb başqa boşqaba qoyduğunu görürdüm.

-Bu yemək xoşuna gəlmədi?

-Biz ət yeyib əylənməyə gəlməmişik ki..

Təll Zeynəbiyyəyə və qətlgaha gəlmədi. Oranı görməyə taqəti çatmadığını dedi. Onunla nə qədər danışıb xahiş edirdim ki, özünü bu qədər yormasın, heç bir faydası olmurdu. Elə bil məni görmürdü, yalnız arxasınca gəzə bilirdim. Sözlərini dinləyir və kənardan əməllərinə baxırdım; getdiyimiz hər yerdə imam Zaman üçün namaz qılaraq deyirdi ki, imam buranı ziyarət etmək üçün gəlir, səsimizin təsiri bu məkanda qaldığından, o həzrətin xeyir-duası bizə də şamil olur.

Heç bazara da getmədik. Ailəm və qızım üçün sovqat almaq istəyirdim, amma Hüseynin həvəssiz olması mənim də qarşımı alırdı. Səfər yoldaşlarıma tapşırmışdım ki,

seçib bəyəndiklərindən bizim üçün də alsınlar. Hüseyndən ayrılmaq istəmirdim. Hara gedirdisə, onunla gedirdim.

Cümə axşamı ziyarətə getdik. Səfərimizin son saatları idi, dəqiq desək, son gecəsi. Məhla üçün çox darıxmışdım. Ziyarətdən qayıdan kimi, əşyalarımızı toplayıb çamadanlara yığmağa başladım. Hərdən Hüseyn də mənə kömək edirdi. Quranı açdığı halda soruşdu: "Ziyarətin necə keçdi?"

-Hamı üçün, xüsusilə də ata-anam üçün dua etdim.

-Yalnız bu?

Namaz çadramı çamadana qoymaq üçün bükdüyüm halda, sual dolu gözlərimi ona dikdim. Cümə axşamı imam Zaman (ə) Kərbəlanı ziyarət edir. Həmin gün burada olmaq hamının arzusudur, belə olan halda sən ağadan yalnız bir şey arzulamısan?

Hüseyn həmişə hamıdan irəlidə idi; hər vəziyyətdə. Həmişə arxasınca hərəkət etdiyim kimi, bu dəfə də ondan geri qalmışdım. Onu itirməkdən qorxurdum, eynilə dünənki kimi; bu səfərdə baş verən buna oxşar hadisələr kimi. Onun halı ağırlaşmışdı, mən isə onu itirmişdim. Bir-birimizi tapanda narahat və dilxor idim. O zaman gülərək demişdi: "Sənə narahat olmaq yaraşmır. Məgər nə baş verib?!"

-Gələn dəfə gəlmək istəsəm, tək gələcəyəm.

-İnşallah, inşallah!

# 5

Hüseynlə mənim müştərək hekayəm və talelərimizin qovuşmasının bu ilə və bu səfərə heç bir aidiyyəti yoxdur. Dəqiq yadımdadır, 2001-ci ilin avqust ayı idi. Yayın isti günlərinin birində, başım dərs oxumağa qarışan zaman ev telefonunun zəngi çalındı. Zəng vuran xalam idi. Bunun necə baş verdiyini bilmirəm, amma ürəyimə nə isə dammışdı, sanki mühüm bir hadisənin baş verəcəyini bilirdim. Sanki, kimlərinsə həyatın üçün plan qurub sənin haqqında danışdıqlarını hiss edirsən.

Kitablarımı açıb, kəsildiyim iki dərsi oxumaqla məşğul idim. Məktəbi bitirirdim, yalnız kəsildiyim bu iki dərs attestat almağıma mane olurdu.

Başımı kitablardan ayırıb xalamla astadan danışan anama yaxınlaşdım. Anam soruşdu: “Mərziyə?”

Qulaqlarımı şəklədim. Göz-qaşla anamdan nə baş verdiyini soruşdum. Anam işarələrimə fikir vermədən sözünə davam etdi. Bu səbəbdən yenidən kitablarımın yanına qayıtdım, amma bir daha diqqətimi toplaya bilmədim.

Anam dəstəyi asanda anladım ki, düz bilmişəm, elçi daşımızın üstündə oturan var.

Atam çox ağır xasiyyətli, dürüst və nəzmli insan idi. Bəlkə də bu bütün ziyalılara xas olan xüsusiyyətlərdir. Məsələ bundadır ki, atam Firdovsi adına ali məktəbin ədəbiyyat fakültəsinin kitabxanaçısı idi. Hər gün gözünün önündən çox sayda tələbə, müəllim, şagird və həmkarı keçdiyindən, bizim də təhsilimizə xüsusi diqqət ayırardı. Heç bilmirəm həmin il nə baş verdi ki, bu iki dərsdən kəsildim. Aldığım qiymətlər də illiyimə yazıldı. Qiymətlərim orta həddə idi. Bəlkə də düz deyirlər ki, dulusçu sınıq kuzədən su içər. Atam nə qədər dərs oxumamıza təkid etsə də, heç bir nəticə hasil olmadı. Axırda övladlarından heç biri onun istədiyi məqama çatmadı.

Dərs oxuduğumuza görə atam elçilərin ayağını evimizdən kəsmişdi. Hər kim bu məqsədlə evə zəng vururdusa, atamın cavabı əvvəldən məlum idi: “Qızım təhsilini davam etdirmək istəyir.” Evin qızları olan mənimlə Raziyənin nəzərini isə heç kim soruşmurdu.

Raziyə mənim əkiz bacım idi. Yeganə fərqli cəhətimiz, onun məndən beş dəqiqə gec, mənim isə ondan beş dəqiqə tez dünyaya gəlməyim idi. Bu qısa zaman fasiləsi bais olmuşdu ki, mən İbrahimdən sonra ikinci, o, isə üçüncü övlad sayılsın. Ailəmizin sonbeşiyi isə Mehdi idi. Ağlağan uşaq olan Mehdi bir çox imtiyaza və ona göstərilən xüsusi qayğı və diqqətə sahib idi. O, evin sonbeşiyi adı ilə qoyulan bütün qadağaları çox rahat adlayırdı.

Xalamın həmin gün etdiyi telefon zəngi böyük bir dəyişikliyin başlanğıcı oldu. Anam yox deyə bilməmişdi, çünki, xalamla elçiləri bizə tanıtdıran şəxs arasında xətir-hörmət vardı. Anamla xalam gizlində bu qərara gəldilər ki, “yox” cavabı vermək üçün sadə bir elçilik mərasimi keçirsinlər. Sonra da məşhur “istixarənin cavabı mənfi

gəldi" ifadəsinə əsasən elçiləri əliboş yola salsınlar. Belə olan halda heç kim bizdən inciməzdi.

Əlbəttə, Allahdan gizli deyil, bəndədən nə gizlin, ürəyimdə elçilərin gəlməyinə sevinirdim. Hər necə olsa, məktəb yoldaşlarım öz elçiləri ilə yaman öyünürdülər; kaş görəydiniz, filankəs necə gəlmişdi, necə gül dəstəsi gətirmişdi, boyu necə idi, nələr danışdıq birgə. İstəyirdim ki, mənim də dostlarımın qarşısında danışmağa bir sözüm olsun. Mən də bu elçilik yarışında iştirak edib, öz hekayəmi danışım.

Belə oldu ki, anam atama xəbər vermədən, elçilərin gəlməsinə icazə verib, bəyin anasının və bacılarının bizə gələcəyi günü təyin etdi.

# 6

Elçilik günü məni həyəcanlandıracaq bir şey yox idi. Dostlarımın söylədiklərinin əksinə olaraq, qonaqlarımız bizə heç bir iztirab hissi yaşatmadan gəlib çatdılar. Onlara çay apardım. Söhbət edib bir-birimizlə tanış olduq. Xalam söz verməsinə baxmayaraq gələ bilməmişdi və anam şərti şumda kəsib, onlara bildirdi ki, qızım təhsilini davam etdirmək istəyir və atası onun ailə qurmasına razı deyil. Necə deyərlər, onlar hər nə qədər israr etsələr də, anam “olmaz” deyib dayandı.

Qonaqlar gedəndən sonra anamla birgə otaqları səliqəyə saldıq. Sanki, nə gələn vardı, nə gedən. Həyat yenidən öz minvalı ilə davam etməkdə idi ki, sabahısı gün yenidən xalam bizə gəldi.

Elçiləri ağızdolusu tərifləyəndən sonra, onları tanıtdıran şəxs tərəfindən bir dəfə də gələ bilmələri üçün icazə istədi. Anam bir qədər dinməzcə xalama baxıb, sonra atamın bu məsələdən xəbərdar olmadığını xatırlatdı.

Yenidən dərslərimi oxumağa başladım, amma qəlbimin dərinliyində bu get-gəlin bir qədər də uzanmağına pis baxmırdım. Bura qədər qəbahətli bir şey baş verməmişdi, sadəcə olaraq iki çadralı xanım bizə qonaq gəlmişdi.

Ürəyim istəyirdi ki, elçilik mərasimi rəsmi keçirilsin. Bura qədər baş verənləri dostlarıma danışmışdım. Onlarla bu barədə deyib-gülüb hətta bəyi çaşdırmaq üçün çoxlu sual da hazırlamışdıq. Bəyə rişxənd etmək üçün mövzu tapıb dostlarımı güldürmək istəyirdim.

Mətbəxə gedib ətirli və pürrəngi çay dəmlədim, qənddanı hilli nabatla doldurub xalamın qarşısına qoydum.

Əllərinə sağlıq Mərziyə can, inşallah toy plovunu yeyək. Anam ona tərs-tərs baxdı. Bir neçə sürətli addımla otaqdan çıxdım ki, anamın baxışlarından uzaq olum.

Xalamın səsi eşidilirdi: "Bacı can, Mərziyə uşaq deyil ki, maşallah bu il məktəbi bitirir, gətirdiyi çaya bir bax, rəngi xoruz quyruğu qıp-qırmızıdır. Qız oldu qırmızı alma, qızı gözdən salma!"

Anam cavab verdi: "Axı atasının xəbəri yoxdur, biz belə danışmamışdıq. Sən demişdin ki, aramızda xətir-hörmət var, icazə ver gəlsinlər, sonra onlara "yox" cavabı verib yola salarıq. Mən də elə etdim. Amma bu gün dediklərin bambaşqadır."

-Mən ki bundan qeyri bir şey demirəm. Heç kim səndən istəmir ki, elə indi Əhməd ağaya hər şeyi danışasan. İcazə ver onlar bir dəfə də gəlsinlər, bax gör nə olur, sonra atasına deyərsən.

Anam cavab vermədi. Xalam durmadan danışır, mən də boş-boşuna kitablarımı vərəqləyərək onun sözlərinə qulaq asırdım.

Xalam gedəndə anamla sözləşdilər ki, elçilərin gələcəyi günü xəbər versin. Anam mətbəxə getdi və mən də çalışdım ki, dərslərimi daha ürəkli oxuyum. İmtahanların başlamasına az qalmışdı.

İkinci görüşümüz də atamın bu məsələdən heç bir xəbəri olmadan baş tutdu. Bu dəfə oğullarını da özləri ilə gətirmişdilər.

Elçilər qonaq otağına daxil oldular. Onlara çay gətirdim. Qardaşım İbrahim də əsgərlikdən icazə alıb gəlmişdi. Onun bu məclisdə olmağı istər-istəməz hər şeydən xəbərdar olması demək idi. Bir qədər keçdikdən sonra anamdan bəylə söhbət etməyim üçün icazə istədilər. Anamın deməyə sözü yox idi. Mən də bu barədə heç nə düşünmürdüm, imtina etməkdən çox, maraq göstərirdim.

Sinif yoldaşlarımla birgə bəy üçün hazırladığımız sualları nəzərə almasaq, daha çox belə məqamlarda nəyin soruşulub, nəyin danışıldığını bilmək istəyirdim.

Mən sadə bir ev uşağı idim. Ailə qurmaq, elçilik və kişilər haqqında bildiklərimi isə sinif yoldaşlarımın söhbətlərindən öyrənmişdim.

Çadramı səliqəyə salıb anamın məni çağıracağını gözləməyə başladım. Anam məni səsləyən kimi özümü otağa çatdırıb, qarşımda dayanan qədd-qamətli cavanı gözucu nəzərdən keçirdim. Əynində qəhvəyi şalvar və köynək var idi. Zahiri görünüşünü bəyəndim. Amma hələ də heç nə hiss etmirdim. Nə stress, nə həyəcan, yalnız yeniyetməlikdən irəli gələn maraq hissim vardı.

Bir kənarda söhbət etmək istəyirdik ki, İbrahim razı olmadı. Atamın elçilik mərasimində olmadığını və bu mərasimin rəsmi şəkildə keçirilmədiyini dəlil gətirdi. Anam heç nə demədi. Bu arada xanım Mehrabi, bəyin anası dönüb qızına baxdı. Sonradan bildim ki, bu baxışla öz aralarında bir çox şeyləri həll etmişdilər. Mənsurə xanım üzünü qardaşıma tutub dedi: “Siz özünüz də cavansınız və bu yaxınlarda inşallah ata-ananız sizin üçün qollarını çırmalayıb, hazırlığa başlayacaqlar. Fərz et ki,

sən də getmisən elçiliyə və belə bir hal sənə üz verib. Onda özünü necə hiss edərsən? Düzdür, sən qardaşısan, narazı olmağa haqqın var, amma bizi də başa düş. On dəqiqə söhbət etmələrinə icazə ver, görək fikirləri nədir.”

Mənsurə xanımın yaxşı danışıq qabiliyyəti vardı. İbrahimi şirin dillə çıxılmaz vəziyyətə salıb, etiraz etməsinə icazə vermədiyi halda, işarə ilə bizi otağa göndərdi. “Diplomatik” müzakirələrin aparılmasında mahir idi. Təkidlə bildirdi ki, söhbətimiz on dəqiqədən artıq uzanmasın.

Otağa daxil oldum. Divanın kənarında əyləşib gözləməyə başladım. Cənab Mehrabi məndən sonra otağa daxil olanda ayağa qalxdım. O, əyləşməyimə işarə edib dedi: “Buyurun, xahiş edirəm, qalxmayın.”

Anam bizim üçün meyvə gətirdi, onun gedişindən sonra otağa sükut çökdü. Nə deyəcəyimi bilmirdim. Özümü itirmişdim. Mənim susduğumu görən cənab Mehrabi “ Bismillahir Rəhmanir Rəhim “deyərək, sözə başladı. O, çox məntiqli və düzgün danışırdı. Gözəl danışıq tərzi vardı. Sözləri ilə nəzərimi cəlb edə bilmişdi. Bir qədər özü haqqında və qadınlara bəslədiyi dərin hörmət hissi barədə danışdı. Deyirdi ki, qadınlara dəyər verən hər bir kəs, özünə də hörmət qazanmış olur. Deyirdi ki, hər bir kişinin həyat yoldaşı onu uğurlara doğru yönəldən amil ola bilər. Əgər kimsə öz həyat yoldaşına qarşı kobudluq edərsə, hər şeydən öncə öz şəxsiyyətini alçaltmış olar.

Bir də ayıldım ki, səssiz-səmirsiz əyləşib onu dinləyirəm. Dostlarımla hazırladığımız bütün suallar zehnimdən silinmişdi, digər tərəfdən də həmsöhbətimi narahat etmək, ya da onu lağa qoymaq istəməzdim.

Sözlərini bitirəndən sonra özü mənə sual verdi: “Məndən heç nə soruşmaq istəmirsiniz?”

Daha sonra əlini meyvə qabına uzadıb alma ilə xiyar götürdü. Meyvələrin qabığını soyub dilimlədi. Ona xatırlaya bildiyim bir-iki standart sual verdim.

-Ailənizlə rəftarınız necədir?

Dilimlənmiş meyvələri mənə uzadaraq sözə başladı: "Mən həyat yoldaşını özündən üstün tutan insanlardanam. Əldə edəcəyim hər bir şey onun üçündür. Mənə verəcəyiniz cavabın mənfi, ya müsbət olacağınından xəbərim yoxdur, amma hər halda çalışın ki, gələcəkdə ailə quracağınız şəxs Allahın qoyduğu qanunlara əhəmiyyət versin. Yüz faiz dindar adam olduğumu iddia etmirəm, amma Allahın təyin etdiyi hədd-hüduda riayət edirəm. Etiqadlı insan həyat yoldaşını sevməsə belə, ona zülm etməyəcək, çünki, şəriət qanunları bunu qadağan edir."

Qabığı soyulmuş və dilimlənmiş meyvə ilə dolu boşqabı əlimdə tutmuşdum. İndiyədək kimsə mənə qulluq etməmişdi. Sözlərinə məftun olmuşdum; təkcə sözlərinə deyil, səsinə, qətiyyətli danışığına, səsinin məlahətinə, rəftarına da. Şübhəsiz, onu həmin anda bəyənmişdim. Artıq, burda qalmağımın səbəbi yalnız maraq hissi deyildi. Daha dostlarıma danışmaq üçün gülməli süjet axtarmırdım. Əslində qarşımdakı bu xoşsöhbət cavanı tanımaq istəyirdim. Söhbətimiz bir tərəfli olmasın deyə, namaz qılmağım və ibadətim haqda bir neçə sual soruşdu. Düşünürəm ki, danışıq və təfəkkür tərzimi yoxlamaq istəyirdi, çünki gəlməmişdən öncə də bizim dindar ailə olduğumuzdan, tez -tez hərəmi ziyarət edərək, rövzə məclislərində iştirak etdiyimizdən xəbərdar idi. Mən bu barədə danışarkən, o, da əhli-beyt heyətində fəaliyyət göstərdiyini, bəsic qərargahının məsulu olduğunu və şəri qaydalara riayət etdiyini söylədi. Ailəsinin çoxuşaqlı olması haqqında da danışdı. Bu ailədə hamı bir-birinə arxa

və dayaq idi. Onun sözlərini dinləyərək, öz-özümə düşünürdüm ki, belə mehriban və çoxuşaqlı ailənin üzvü olmaq necə də gözəldir. Doğrusu sözlərinin nə dərəcədə səmimi olduğunu bilmirdim. Hansının həqiqət, hansının lovğalıq olduğundan xəbərim yox idi. Onu heç tanımırdım, amma daxilimdəki bir hiss mənə deyirdi ki, danışıqlarında heç nəyi artırıb azaltmır. Sözlərinə inanırdım. Məncə artıq ona vurulmuşdum.

# 7

Həmin gün bitdi, amma onun sözləri, hərəkətləri, rəftarı hələ də gözümün önündə idi. Sözlərini zehnimdə çək-çevir edirdim. Zənnimcə sədaqətli idi. Əgər sədaqətli olmasaydı ailəsi haqqında bəzi incəlikləri mənim üçün açıqlamazdı. Atası qənd fabrikində çalışırdı. Çox güman ki, ailələrimiz sosial baxımdan fərqli idi. Zənnimcə, onun sözləri ya sədaqətin, ya da zirəkliyin əlaməti idi; əvvəl şirin dilini işə salıb məni ələ gətirmək, sonra isə öncədən hər şeyi sədaqətlə danışdığını etiraf etmək üçün.

Mənim üçün ailələr arasındakı fərq mühüm deyildi. Hərçənd ətrafımızdakıların çoxu məhz bu nöqtəyə işarə edərək, gələcəkdə çətinliklərlə üzləşəcəyimizi bildirirdilər. O, dönəmdə vacib bildiyim yeganə cəhət, bu cavanın etiqadi cəhətdən nə tənha ailəsi və dost-tanışından, hətta məndən belə yuxarı səviyyədə dayanması idi. İstəmədən müqayisə etməyə başlamışdım. Mən hər şeyi çox asan tutaraq, heç nədə ziyadə qətiyyət göstərmirdim. Hər şeyin öz yeri və zamanı olduğunu düşünərək, şəri cəhətdən qadağan olunmayan xırda əyləncələrdən özümü məhrum etmirdim. Amma o, çox dəqiq idi. Belə olduğunu da mənə hələ ilk görüşümüzdə demişdi.

Əgər rəftarı nəzərimi cəlb etməsəydi, kim bilir, bəlkə də çox rahat bu elçilik məsələsini xətm edərdim. Amma düşüncələrində məni özünə cəzb edən bir yenilik, qəribəlik və cazibədarlıq var idi; eyni ilə birgə meyvə yeməyimiz kimi. Söhbətimizin sonuna qədər nə o, dilimlənmiş meyvələrdən yemişdi, nə də mən. Əl dəyilməmiş boşqablara baxıb dedi: "Bəsdir danışdıq, gəlin meyvə yeyək."

Qədd-qamətinə ötəri nəzər saldım. Hüzurunda xəcalət çəkdiyimdən, özümü rahat hiss edə bilmirdim, qarşısında meyvə yeməkdən utanırdım.

Yenidən təkidlə dedi ki, siz meyvəyə əl uzatmayınca, mən də yeməyəcəyəm.

Davranışı çox maraqlı idi. Çünki heybətinə, bığ-saqqalına və danışdığı bütün sözlərə nəzərən, qarşımdakı insanın çox sərt xasiyyətli dindar birisi olduğunu düşünmək olardı. Bu qədər rahat və səmimi olması, xasiyyətindəki bu yumşaqlıq, özü də ilk görüşümüzdə, doğrudan da çox qəribə idi.

Əlimi boşqabdakı alma tikəsinə uzatmaq istəyirdim ki, kiçik qardaşım Mehdi qapını döydü. Zənnimcə söhbətimiz qırx dəqiqədən də artıq çəkmişdi. Mehdi ikinci sinifdə oxuyurdu, evin kiçiyi idi. Evdə heç kim ona ciddi yanaşmırdı. Heç bilmirəm necə oldu, amma cənab Mehrabi də onunla belə davrandı. Mehdi ikinci dəfə qapını döyüb içəri boylananda, cənab Mehrabi nə baş verdiyini soruşdu.

-Vaxta görə qapını döyür, düşünürəm ki, bizə verilən on dəqiqə artıq çoxdan bitib.

-Boş verin, fikriniz qalmasın, ürəyiniz nə vaxt istəsə, o vaxt da söhbətimizi bitirərik.

Sözünə gülməyim tutdu. Elə indidə sözlərini çək-çevir edəndə, qeyri-ixtiyari güldüyüm kimi. Düşünürəm o, məni güldürüb, sevindirə bilən və qayğıma qala bilən birisi idi; arxalana biləcəyim bir insan. Artıq ailə qurmaq haqda nəzərim dəyişmişdi.

Mən onu gələcək həyat yoldaşım kimi görürdüm.

# 8

Oğullarının məni bəyənib-bəyənmədiyi xəbərini bizə verəcək olduqları bu iki gün mənə bir ömür kimi göründü. Ürəyim yerində deyildi. Daim Raziyə ilə bu barədə danışırdım, o da məni səbirli olmağa çağırıb ürək-dirək verirdi. Raziyə mənə boş oturmayıb, heç olmasa, anama ürək sözlərimi deməyi məsləhət bildi. Əks halda, onlar zəng vuranda, anam ürəyimdə olub-keçənlərdən xəbərsiz halda rədd cavabı verib, məni bədbəxt edə bilərdi. Raziyənin sözləri düzgün və məntiqə uyğun olduğundan, tez anamın yanına getdim. İbrahimin corabını tikirdi. Kənarda əyləşib dedim:

-Anacan, əgər görüləsi işin varsa, de, kömək edim.

-Mənə uzun-uzadı baxdı.

-Sözlü adama oxşayırsan.

Mətbəxə gedib göyərtiləri gətirdim. Anam axşama piti asmışdı. O, məni gözucu süzürdü. Səbəti əlimin altında qoyub bir dəstə reyhan götürdüm. Ətri burnuma doldu. Anamla rahat danışa bilərdim, amma heç bir müqəddimə olmadan, birbaşa elçilik söhbətinə keçməyə xəcalət çəkirdim.

Anam iynəni saplaya-saplaya soruşdu: "İmtahanı necə verdin?"

-Yaxşı verdim, anacan.

Sonra reyhanı ona uzadıb dedim:

-Gör necə də ətirlidir. Mən reyhan ətrini çox sevirəm.

-Ay uşaq, göyərtini çək burnumun altından, palçıqlıdır, de görüm sözün nədir?

-Anacan, o adamlardan nə xəbər oldu, zəng vurmadılar?

-Kim?

-Elçiləri deyirəm; xanım Mehrabigili.

-Yox, zəng vurmayıblar.

-Əgər zəng vurmasalar necə?

Sən ki ailə qurmaq istəmirdin! Mən onlarla demək olar ki, heç danışmadım. Rədd cavabı verəcəyini düşünürdüm. Nə baş verdi ki nəzərin dəyişdi?

Bir dəstə tərxun götürüb iylədim.

-Sözlərini bəyəndim.

O, arzusunda olduğum birisidir. Ailə qura biləcəyim şəxs yalnız odur. Anam duruxduğundan, iynəni barmağına batırıb ufuldadı. Sonra onu gülmək tutdu. Sözlərimi ciddi qəbul etməmişdi. Belə düşünürdü ki, həyəcanlandığımdan uşaqlıq edib belə danışıram, sabah artıq bu dediklərimi unudacağam.

-Anacan, mən tam ciddi danışıram.

Üzümə baxmadan cavab verdi: "Yaxşı, dediyini anladım."

Göyərtini arıtlayıb ləyənə tökdüm. Rahatlığımı əldən vermişdim. Birdən zəng vurmasalar necə? Əgər cavabları mənfi olsa necə? Cavabları müsbət olarsa da, atam razı olmasa necə? Əgər... Əgər... Bütün bu əgərlər məndə can qoymamışdı.

Sabahısı gün, anam evdə olmayanda xalama zəng vurdum. Bilirdim ki, onlara tanışlıq verən adamı tanıdığından çox şeydən xəbəri ola bilər. Digər tərəfdən də xalamla səmimi idim. Nömrəni yığdım və ilk olaraq, hal-əhval tutdum. Sonra soruşdum ki, elçilərdən nə xəbər oldu? Bir söz demədilər ki? Xalam xəbəri olmadığını söylədi. Bu barədə heç nə bilmirdi. Sanki, heç kim məni bu nigarançılıq və iztirabdan azad etmək istəmirdi. Ürəyimdə, nə olursa olsun deyib, bir də soruşdum: "Xalacan, siz ki, tanışlıq verən o adamı tanıyırsınız, bir soruşun görün nə oldu, cavabları nədir?"

Dəstəyin o başında sükut çökdü. Zənnimcə, söylədiklərim ağılsızlıq idi və xalam nə deyəcəyini bilmirdi. Nəhayət, cavab verdi: "Xala qurban, ayıbdır, belə iş tutmaq olmaz. Mən sənin xalanam, zəng vurub onlara deyə bilmərəm ki, nə oldu, niyə gəlmirsiniz!"

Dəstəyi asandan sonra ürəyim az qala parçalanacaqdı. Bütün qapılar üzümə bağlı idi, səbr etməkdən başqa çarəm yox idi.

# 9

Həmin gün yuxudan ayılandan özümdə deyildim. Bir qədər əsəbi idim, digər tərəfdən də əlimdən bir iş gəlmirdi. Raziyə halımı bir az dəyişmək üçün bazara getməyimizi təklif etdi. Anamı razı salmağı isə öz üzərinə götürdü. Halım olmasa da qəbul etdim. Raziyə anamla söhbət edərkən telefon zəng çaldı. Ürəyim yerindən qopdu. Öz-özümə düşündüm ki, bəlkə zəng vuran cənab Mehrabinin özüdür.

Telefona tərəf gedirdim ki, anam əlini uzadıb dəstəyi götürdü. Söhbət ciddi olduğundan, özgə adamla danışdığı məlum idi. Stulda əyləşdim. Anam təkrar-təkrar deyirdi: "Bəli, bəli, rica edirəm, bəli, mən gərək atası ilə danışım."

Raziyəyə baxdım, mənə göz vurdu. Zəng vuran elçilərim idi. Anam dəstəyi asandan sonra anladım ki, onlar bu dəfə atamın da məsələdən xəbərdar olmağını istəyirdilər. Ataların görüşməsi, ailələrin bir qədər yaxından tanış olması və bu dəfəki görüşün daha rəsmi keçirilməsi üçün icazə alırdılar. Həyəcanlandım. Necə yəni, söhbəti uzatmağın nə mənası var?

Əvvəlcə bu zənglə hər şeyin bitəcəyini düşündüm. Onlar məni bəyənmişdilər və gəlib məsələni həll etmək

istəyirdilər, amma bu telefon zənginin mənası ailələr arasındakı tanışlığın daha yaxından baş tutması istəyi idi. Bu işlərin nə ilə bitəcəyi məlum deyildi. Bütün bunlar bir tərəfə, işin ən mühüm tərəfi atamı razı salmaq idi. Şam yeməyindən sonra anam bu elçilik əhvalatını atama danışdı. Mənimlə Raziyə də otaqda idik. Mehdi isə televizora baxırdı. Həm anam, həm mən, həm də Raziyə gözümüzü atama dikmişdik, onun nə deyəcəyini, nə edəcəyini gözləyirdik. Atam susurdu. O, danışıb etirazını bildirməzdən əvvəl söylədim: “Atacan, çox yaxşı insandır.”

-Hələ ailə qurmaq çox tezdir. Qarşında bütün yollar açıqdır. Təhsilini davam etdirməlisən.

Atamla bir qədər söhbət edib onun üçün müxtəlif dəlillər gətirdim. Anamın baxışı məni sükuta vadar etdi. İndi o, bu məsələyə müdaxilə edərək, öz sözünü deməli idi.

-Oğlan özü Mərziyəyə deyib ki, dərs oxuyub təhsilini istədiyi yerə qədər davam etdirə bilər. Dediyinə görə, savad çox mühümdür və insana başucalığı gətirir. Pis ailəyə oxşamırlar. Gəlmələrinə icazə ver. O zaman özün onlarla görüşüb danışarsan.

Anamla mənim israrlarım öz işini gördü. Atam elçilərin gəlməsinə icazə verdi. O gecə min bir ümidlə yuxuya getdim. Elçilərin gələcəyi gün anam və Raziyə ilə tam tədarük görmüşdük. Otaqları süpürüb hər yerin tozunu silmişdim. Meyvələr qablara yığılmış, çay isə dəmə qoyulmuşdu. Hamımız elçiləri gözləyirdik.

Keçən dəfədən fərqli olaraq, bu dəfə bir qədər bəzənmişdim. Ağ libas və krem rəngində şalvar geyinmişdim. Mavi və çəhrayı gülləri olan ağ çadramı da başıma salıb, səbirsizliklə qonaqların yolunu gözləyirdim.

Baxışlarımı, səliqə ilə dırnaqlarımı boyadığım şəffaf, soğan qabığı rəngində olan dırnaq boyasına zilləmişdim.

Qapının zəngi çalınan kimi, hamımız gələnləri qarşılamaq üçün ayağa qalxdıq. Qapını atam açdı. Anamla mən qapının qarşısında dayanmışdıq. Elə bilirdik ki, qonaqların sayı keçən dəfəki kimi dörd-beş nəfərdən artıq deyil. Amma bu dəfə daha çox adam gəlmişdi; Hüseynin özü, atası, anası və həyat yoldaşları ilə birgə iki bacısı.

Hamı içəri keçdi. Qonaqların qarşılanma mərasimi öz qaydası ilə davam edirdi. Raziyə mətbəxdə idi. Sinidəki stəkanlara bir neçəsini də əlavə etdim. Fikrim qonaq otağında, elçilərin yanında qalmışdı. Hər kəs bir söz deyirdi. Anamla mən qonaqlara qulluq edirdik.

Hüseynin atası, söhbətə başlayanda qulaqlarımı şəklədim. O, öz çoxuşaqlı ailəsi haqqında danışırdı. Beş oğul və dörd qız atası idi. Ailənin sonuncu övladı məktəbdə oxuyan kiçik oğlu idi. Oğullarının beşi də sağlam düşüncəli, pis vərdişlərdən uzaq və dindar insanlar idi. Onları halal zəhmətlə böyütmüşdü.

Mən divanda anamın yanında əyləşəndə, cənab Mehrabi söhbətini davam etdirərək dedi: "Əgər Hüseyn təhsilini davam etdirmək istəsə, ümumiyyətlə hər ikisi dərs oxumaq istəsələr, onlara əlimdən gələn köməyi edərəm."

Deyəsən onlar atamın təhsilimi davam etdirmək barədə olan təkidlərindən xəbəri var idi. Bu nöqtəyə işarə etməklə, onun razılığını əldə etmək istəyirdi. Zənnimcə, anamla xalam atamın nə səbəbdən mənim ailə qurmağıma razı olmadığını onların qulağına çatdırmışdılar.

Cənab Mehrabi sözünü bitirdi. Amma atam hələ də çox ciddi və rəsmi şəkildə, sanki oxlov udmuş kimi əyləşmişdi. Qonaqla səmimi olmaq istəmirdi. Bəlkə də rədd cavabı vermək üçün fürsət axtarırdı. Anamla bir-

birimizə baxdıq. Nə edəcəyimizi bilmirdik. Gözlənilmədən, atam üzünü Hüseynə tutub, ona işi barədə sual verdi. İşıq idarəsində hansı işlə məşğulsan?

Atama onun işıq idarəsində sadə işçi olduğunu demişdik. Anamla mən atamın adi suallar verəcəyini düşündüyümüz halda, o, qətiyyətlə soruşdu: "Nəyə arxalanaraq qızımı istəməyə gəlmisən? Dünya malından nəyin var?"

Atam çox ciddi və demək olar ki, əmr formasında danışırdı. Mən Hüseynin yerində olsaydım narahat olardım.

Hüseynin atası sakitcə oturmuşdu. Atam isə yalnız Hüseynə baxırdı.

-Heç bir var-dövlətə sahib deyiləm, cənab Bələdiyyə.

-Tutalım ki, mən sənə qızımı verdim, bəs toyun pulunu necə əldə edəcəksən? Hələ gəlin bazarlığını demirəm, qızılı, geyimi və s. hansı pulla alacaqsan? Nə köməyin var, nə evin, nə bura qədər bir miqdar pul toplaya bilmisən, bu vəziyyətlə nə etmək istəyirsən?

Anam narahat olduğundan, çadrasını əli ilə daha bərk sıxdı. Heç nə deyə bilmədiyindən, sadəcə rəng verib rəng alırdı. Atamın sözlərindən dilxor olmuşdu. Bilirdi ki, atamın məqsədi Hüseyni imtahan etməkdir. Çünki həm ata-anam, həm də tanıdığım bir çoxları ailə həyatına demək olar ki, əliboş başlamışdılar.

Ovuclarımın içi tərləmişdi. Qonaqların atamın sözlərindən narahat olacağından, hər şeyi bir-birinə vurub, belə qız almağın xeyrindən keçəcəklərindən qorxurdum. Hüseynin üzünə nəzər saldım. Narahat olub-olmadığını bilmirdim, çünki heç nə biruzə vermədən, mətanət və təmkinlə atama belə cavab verdi:

-Hacı ağa, mən Quranın, “Ailə qurun və sizin ehtiyacınızı təmin edərəm.” ayəsinə əsaslanıb sizə gəlmişəm. Allahın, istədiyi hər bir kəsə yetirəcəyi ruziyə arxalanaraq, qızınıza elçi düşmüşəm. Allah-Taalanın razılığı ilə ailə qururam. İnşallah, Özü mənim bütüm ehtiyaclarımı ödəyəcəkdir.

Onun bu sözləri otaqda canlanma yaratdı. Atam hələ də susurdu. Baxışlarındakı razılıq əlamətini sezə bilirdim. Təkcə atam deyil, hamı Hüseynin bu cavabından təsirlənmişdi. Allaha bu qədər təvəkkül etməsi mənə qəribə gəlirdi. Artıq, Hüseynin cazibəli siması mənim üçün daha da əziz olmuşdu. Ona heyranlıqla baxırdım.

Atam bir qədər yumşalmışdı. Hətta səsinin tonu və danışıq tərzi belə dəyişmişdi. Hüseynin sözləri sanki onun ürəyinə yatmışdı. Bütün baş verənlər Allahın bizə olan lütfü idi.

Atamın icazəsi ilə söhbət etmək üçün otağa keçəndə, Hüseyn mənə öz yuxusunu danışdı:

-Gördüm ki, imam Hüseynin məqbərəsindəyəm. Ağanın zərihi ilə üzbəüz tək-tənha dayanmışam. Birdən zərihin qapıları açıldı. İçəri keçib başımı qəbir daşının üzərinə qoydum; üstündə ya Əba Əbdillah yazılmış qırmızı parçanın üstünə.

Deyəsən, Hüseynin Allaha təvəkkül etməsi barədə dediyi sözlərdən və atamın ürəyinin yumşalmasından sonra qonaq otağındakı vəziyyət dəyişilmiş və hər iki ailə bu evliliyin baş tutması ilə razılaşmağa başlamışdı.

Yuxusunu danışanda ötəri dinləyib, bir yuxudur deyə, rahat üstündən keçdim. Bəlkə də onu tanımağa başlamışdım deyə, belə bir yuxu görməsinə heç təəccüblənməmişdim. Toydan söhbət düşəndə soruşdum: “Sizin toy adətləriniz necədir?”

-Əgər bəzi dost-tanışların toyunda çalınan musiqi barədə soruşursunuzsa, mən bu işlə razı deyiləm. Bu sözündən bir qədər tutulub fikrə getdim.

Toyumuzda musiqi səslənməsinin heç də pis olmadığını düşünürdüm. Əslində, toyun çal-çağırlı keçməsini istərdim, musiqinin toya şadlıq qatdığını düşünürdüm, amma bunun daha mənim üçün əhəmiyyəti yox idi. Əgər o, toyun musiqili keçməyini istəmirdisə, mən də istəmirdim.

Əlimi qablara tərəf uzadıb boşqablardan birini onun qarşısına, digərini isə öz qarşıma qoydum. Əlimə baxdığını hiss etməmişdim.

Üzünü mənə tutub dedi: "Bəli, mən musiqini sevmirəm, boyanmış dırnaqları da xoşlamıram. Siz özünüz xoşlayırsınız?" Ovcumu sıxıb dedim: "Mən heç vaxt küçəyə çıxanda dırnaq boyasından istifadə etmirəm."

Danışığı xətrimə dəymədi, səsində həm qətiyyət, həm bu işin məsuliyyətini özümə tapşırmaq istəyi, həm də sanki bu sözləri deməyə ixtiyarı çatırmış kimi çalarlar sezilirdi. Fikrini azad şəkildə, qorxub-çəkinmədən bəyan etdiyinə sevindim. Zənnimcə, daha nəyi bəyənib-bəyənmədiyini öyrənib bilmək üçün vaxt tələb olunurdu. Dünyalarımız bir qədər fərqli olsa da, onu sevirdim, bu üzdən, ortaq məxrəcə gəlməyin o qədər də çətin olmadığını düşünürdüm. Bəyəndiyi birisi olmaq istəyirdim.

Ondan anası ilə olan münasibəti haqda soruşdum.

-Anamın hörmətini saxlayıram, onu dəlicəsinə sevirəm.

Dediyi sözlərə gülməyim tutdu; sədaqətinə, standart cavab əvəzinə, anamın hörmətini saxlayıram deməsinə, anasını dəlicəsinə sevməyinə... Məncə, ata-anasının hörmətini saxlayan bir kəsə inanmaq olardı. Oradaca

anasının ən mühüm xüsusiyyətlərinin nədən ibarət olduğunu düşündüm. Hüseyn qabdan yemiş və qarpız dilimi götürərək, mənim üçün xırda-xırda doğradı. Ona dedim: “Bu dəfə anamdan xahiş etmişəm elə tədarük görsün ki, süfrəyə qoyduğu meyvələrin qabığını soymağa ehtiyac olmasın. Sizə bir daha zəhmət vermək istəmirəm.”

Gülümsədi. Müxtəlif mövzular barədə danışdıq. Bu dəfə bir qədər özümdən, bacı-qardaşlarımdan danışdım. Aramızdakı münasibətlərdən, evimizdə hansı fəzanın hökm sürdüyündən söhbət açdım. Mən söhbət edirdim, qarşımda əyləşən bu xoşsima cavan isə sözlərimə diqqətlə qulaq asırdı. Bu dəfə artıq, evin sonbeşiyi və sevimlisi hər dəqiqə qapımızı vurmağa cürət etmirdi, bu işə lüzum yox idi. Ürəklənib rahat şəkildə, istədiyimiz qədər söhbət etdik. Əyləşdiyimiz otağa işarə edib xoşladığım şeylər barədə danışdım.

Hüseyn dedi: “İlk görüşümüzdə sizin seyyidə xanım olduğunuzu bilməmişdim, bu gün eşitmişəm.”

Onun anası da seyid qızı idi. Nəslimizin imam-peyğəmbər sülaləsindən olması Hüseyni çox sevindirirdi.

Mənə dedi ki, Allahın yolunda irəliləmək və səadət sahibi olmaq üçün sədaqətli həyat yoldaşına ehtiyacı var. Ailə həyatı və kişilərin dünyasından heç nə bilmirdim, amma onun səadət ulduzu, sevimli həyat yoldaşı olmaq istəyirdim.

Otaqdan çıxmağımız böyüklərin cehiz və mehriyyə haqda danışıqları ilə üst-üstə düşmüşdü. Mənim üçün belə şeylərin əhəmiyyəti yox idi. Əsas məsələ onun özü, əqidəsi və sözləri idi.

Böyüklərimiz hələ də mehriyyəyə görə çənə vururdular. Bu artıq bir adət halını almışdı. Bəyin ailəsi məbləği azaltmağa, gəlinin ailəsi isə artırmağa çalışırdı. Bu arada

söhbəti xətm etmək üçün mütləq bir nəfər deyərdi: "Yaxşı görək, bu vaxta qədər nə mehriyyə alan olub, nə də verən. Xoşbəxt olsunlar inşallah! Xoşbəxtlik belə şeylərlə deyil." Hamı bu fikirlə razılaşar və yenidən söhbətin əvvəlinə qayıdardı. Nə bilim, filan qohumun qızı üçün bu qədər mehriyyə təyin edilib, biz isə qızımız üçün bu qədər istəyirik, məbləği bir qədər azaldın və bu kimi söhbətlər.

Otaqda birgə söhbət edərkən, Hüseyn mehriyyə barədə, eləcə də bəyin almalı olduğu əşyalara görə çənə vurmaq adətini bəyənmədiyini söyləmişdi. Cənab Mehrabi yüz qızıl sikkənin kifayət olduğunda, atam isə yüz əlli sikkədə dayanmışdı. Hüseyn bu mübahisəyə son qoymasaydı, heç biri öz sözündən vaz keçməyəcəkdi. O, uca səslə dedi: " Siz deyən olsun, cənab Bələdiyyə! İstədiyiniz yüz əlli sikkəyə, əllisini də mən əlavə edirəm - olsun iki yüz sikkə. Sağlıq olsun inşallah."

Bu sözlər hamını çaşqınlığa saldı, amma bəhsə son nöqtə vurulduğu üçün heç kim əlavə olaraq bir kəlmə demək istəmədi.

Sonralar Hüseyn o vaxt səhv etdiyini deyirdi. Atasının sözünün üstünə söz deməməli və söhbətin adətə uyğun, öz qaydasında getməsinə icazə verməli idi. Deyəsən ailəsi onun sözlərindən narahat olmuşdu. Əlbəttə, bunu da əlavə edərdi ki, sənin üçün elə yaxşı həyat yoldaşı olacağam ki, özün bu məbləğin son sıfırını siləsən.

Mehriyyə təyin olunduqdan sonra, cənab Mehrabi cehizimin iki ən bahalı əşyasının alınmasını öz üzərinə götürdü. Nəhayət o, üzünü mənə çevirib dedi: "Gəlinimiz bizə ətirli bir çay gətirsin."

Mətbəxə getdim. Raziyə artıq stəkanları siniyə düzmüş, çayı da dəmə qoymuşdu. Hüseynin gətirdiyi şirniyyat

qutusunu masanın üzərinə qoyaraq, Raziyə ilə birgə qaba yığdım.

Çayları süzüb, çadramı düzəldərək sinini qonaq otağına apardım. Qonaqlar getdi, mənə qalan isə həmin gün baş verən bütün hadisələrin şirin xatirəsi oldu.

# 10

Bu dəfə məktəbin mühiti tam fərqli idi. Sinif otaqlarından ayrılıq qoxusu gəlirdi.

İmtahanların nəticəsini öyrənmək üçün məktəbə getmişdim. Hər iki imtahanı uğurla adlamışdım. Artıq attestat ala bilərdim. Amma hələ təhsilimi davam etdirmək barədə düşünmürdüm. Atam dərs oxumağıma təkid etsə də, mən daha çox ailə həyatı qurub, övlad sahibi olmaq fikrində idim.

Kölgədə olan skamyaların birində əyləşib saatıma nəzər saldım. Sinif yoldaşlarımla görüşməyi planlaşdırmışdıq. Hamımız attestat aldıqdan sonra gələcək həyatımızın necə olacağından xəbərsiz idik. Görəsən, yenə də bir-birimizi görə biləcəkdik? Bu səbəbdən görüşümüz bir növ vida mərasimi idi.

Dostlarımı gözlədiyim zaman, kimsə gəlib məktəbin mühasibinin mənimlə vacib işi olduğunu söylədi. Çantamı götürüb məktəbə qayıtdım. Şəxsi işimə dair bir neçə suala cavab verməli oldum. Attestat almaq üçün hamımızı idarəyə göndərmək istəyirdilər. Mən qayıdana qədər dostlarım artıq bir yerə toplaşmışdılar. Məni görən kimi

hay-küy salıb söz atmağa başladılar. Əl çalıb nişanlı qız, gəlinbacı deyə zarafat edirdilər.

Onlara elçilik barədə danışmışdım, hər şeydən xəbərləri vardı. Biri soruşdu ki, nə oldu, gəldilər? O biri dedi: "Bu dəfə də sən divanda, o isə yerdə əyləşmişdi?"

Keçən dəfə Hüseyn otağa keçəndə, mən divanda oturmuşdum, ayağa qalxmağıma razı olmadığına görə, yenidən yerimdə oturmağa məcbur oldum. Bu işin necə böyük səhv olduğundan xəbərim yox idi. Amma sinif yoldaşlarıma bu barədə danışanda, məni bir xeyli danladılar.

Dedim ki, yox. Bu dəfə sizin sözünüzə qulaq asıb yerdə əyləşdim. Amma kaş ki, sözünüzü dinləməzdim.

-Niyə? Məgər nə baş verdi?

-Daha nə olmalıdır ki! O qədər söhbət etdik ki, ayaqlarım yatdı. Hər iki ayağım dayanmadan gizildəyirdi. Daim yerimi dəyişməyimə baxmayaraq, söhbətimiz sona çatanda, otaqdan çıxmaq üçün ayağa qalmaq istəyirdim ki, ayaq üstə dura bilməyib yıxıldım.

-Qızlar bir ağızdan qışqırdılar: "Vay! Hara yıxıldın?"

-Az qalmışdı ki, oğlanın üstünə yıxılım.

Hamı gülməyə başladı. Üstünə yıxıldın? Doğrudanmı üstünə yıxıldın? Yox, nə danışırsız, tez özünü kənara çəkdi. Bunu dilxorluqla dedim, doğrudan da narahat olmuşdum. Qızlardan biri dedi: "Niyə narahatsan ki? İstəyirdin əllərini açıb səni tutsun? Bu ki lap pis olardı. Utandığından yerə girərdin."

-Yox, məni qucaqlamasını istəmirdim ki... Heç olmasa kömək edərdi. Az qala başım divara dəyəcəkdi. Müvazinətimi itirməmək üçün çadramın üstündən əlimi tuta bilərdi.

Dostlarım mənə ürək-dirək verib dedilər: “Olan olub, keçən keçib. Özünü bu qədər narahat etmə. Sən də onun yerində olsaydın, bu işi görərdin.”

Qızlar mövzunu dəyişmək üçün geyim, qonaqların qarşılnama və danışığımız barədə sual verdilər. Dedim ki, Hüseyn zövqə uyğun və səliqəli geyinmişdi. Geyim tərzi müasir və cavansayağı idi. Paltarı ütülü, saçları isə gözəl daranmışdı.

Bir qədər onun idman nailiyyətlərindən danışdım. Həmçinin, bodibildinq (kulturizm) məşqinə getdiyini və əlavə gəlir mənbəyi kimi, gələcəkdə idman klubu açmaq istədiyini də bildirdim. Bəyin idmançı görkəminə malik olduğunu dedim. Qapıya gələn adamın idmançı, sağlam və sadiq olmasının qızlar üçün nə qədər vacib olduğunu vurğuladım. O, bütün bu xüsusiyyətlərə malik olduğundan, dostlarımın nəzərinə görə, tipik olaraq “yaxşı oğlan” idi.

# 11

O ilin avqust ayının gecə və gündüzləri digər illərdən fərqli idi. Təqdirin məni tamam başqa bir yola tərəf istiqamətləndirdiyini duyurdum; sonu məlum olmayan bir yola. Bu yollardan keçməli olduğumu, bu günlərin şirinliyini isə bir tikə nabat kimi dadmalı olduğumu bilirdim.

Bu günlər atamın da halı həmişəki kimi deyildi. Hələ də özünü qane edə bilməmişdi. Deyəsən, bu baş tutmuş elçilik onu vaxtsız yaxalamışdı. Bu işin belə tez baş verəcəyinə inanmırdı. Bəzən anamla söhbət edir və fürsət ələ düşən kimi üzünü mənə tutub deyirdi: "Qızım, məsələyə bu qədər ciddi yanaşma. Elə düşünmə ki, gətirdikləri bir qutu şirniyyat və dildə etdiyimiz bəzi söhbətlərə görə artıq fikrini dəyişə bilməzsən. Hələ ailə qurmaq çox tezdir. Məncə, təhsilini davam etdirsən, daha yaxşı olar. Ailələrinə söz ola bilməz. Oğulları da çox yaxşı oğlandır, razıyam, amma bunu da nəzərə al ki, həyat çox çətindir, enişli-yoxuşludur. Bu Allah bəndəsi də əliboşdur. Nə evi, nə maşını, nə pulu, bir sözlə heç nəyi yoxdur. Həyatını quru yerdən başlamalı olacaqsan. Mən səni naz-nemətlə böyütmüşəm. Ola bilsin ki, qarşındakı çətinliklərə

davam gətirməyəsən. Atasının da ailəsi böyükdür. Ona arxalana bilməyəcəksiz. Əgər mənim nəzərimi dinləsən, elə indidən özünü rədd cavabı verməyə inandır, bu məsələ burdaca bitsin. Sənin üçün ondan da yaxşı elçilərin gələcəyinə əminəm.

Bir sözlə, atam çox danışırdı, mən az eşidirdim. Mən öz sözümün, o, isə öz sözünün üstündə dayanıb durmuşduq. Anam mənim tərəfimdə idi. Hər ikimiz atamı razı salmaqla məşğul idik. Bu xəmir hələ çox su aparacaqdı.

Atam sadəliklə sözündən dönən adam deyildi. Zarafat deyil, cəmi iki qızı var idi və ilk övladını gəlin köçürəcəkdi. Ona haqq qazandırmaq olardı, bəlkə belə dönəmdə hər bir atanın əl-ayağı əsər və ürəyi titrəyərdi. Amma mən Allaha təvəkkül edirdim və bir könüldən min könülə Hüseynə aşiq olmuşdum.

Nişanlımın ailəsi iki gündən sonra zəng vurub son cavabımızı almaq və danışıqları yekunlaşdırmaq üçün icazə istədi.

Bu dəfə öncədən razılıq əldə olunmuşdu deyə, sevincimin həddi-hüdudu yox idi. Atamla anam elçilərin gəlmə tarixini təyin etdilər. Ailəmiz yenidən vəlvələyə düşdü. Anam, Raziyə və mən çox sevinirdik. Evimizin nadinc balası isə hey soruşurdu ki, bacı can, gəlin olmaq istəyirsən?

Həmin axşam Hüseyn böyük bir gül dəstəsi ilə içəri girdi. Gətirdiyi gül səbəti o qədər böyük idi ki, onun özünü görmək olmurdu. Zənnimcə, səbətdə ən azı iyirmi qladiolus, on ədəd məryəm gülü və adını bilmədiyim bir çox başqa güllər vardı. Güllər zövqümü oxşadı, belə işlərdə son dərəcə diqqətli olması məni çox sevindirdi. Sonralar bildim ki, aylıq maaşının üçdə birini bu gül səbətinə xərcləmişdi. Əynindəki kostyum onun idmançı

görünüşünü və şux qədd-qamətini bir az da ürəyəyatan etmişdi.

Hüseyn gül dəstəsini atama verib hamı ilə salamlaşdı, hal-əhval tutduqdan sonra otağa keçdi. Mən isə arxada dayanıb ona tamaşa edirdim.

Sevinc dolu bir axşam idi. Axı səadətə aparan bu yolun böyük hissəsini keçdiyimizi bilirdim. Əgər bir hadisə baş verməsəydi, həmişəlik bir-birimizin taleyinə yazılacaqdıq. Həm güllərə, həm də atama görə çox sevinirdim. O, artıq, olanları qəbul etmişdi. Qonaqları xoş üzlə qarşılayıb onlarla birgə otağa daxil oldu. Dövlət qeydiyyatından keçmək, kəbini kəsdirmək, genetik analiz vermək və bu kimi irili-xırdalı məsələlərin tarixi razılaşdırıldıqdan sonra, növbə danışıb-gülməyə və zarafata çatdı.

Mən anamın yanında oturmuşdum. Hüseynin anası və bacıları məhəbbət və alqış dolu nəzərlərlə mənə baxırdılar. Sevincimin həddi-hüdudu yox idi. Həmin an Allahdan istəyəcək daha bir arzum qalmamışdı. Allahımdan razı idim. Öz-özümə düşünürdüm ki, kaş bu sevinc dolu anlar, bu gül dəstəsi, şirnilər, gülümsəyən simalar, bir sözlə bütün bunlar ömrümün axırınadək şirin bir xatirə kimi yaddaşımda həkk olunsun. Kaş ürəyimə yol tapan o cavan, eynilə qısa söhbətlərimiz və müxtəsər görüşlərimiz zamanı tanıdığım birisi olsun. Qonaqlar gedəndən sonra, böyük bir şövqlə gül dəstəsini götürüb öz otağıma qoydum. Bu məhəbbət simvolunun daim gözümün qarşısında olmasını istəyirdim. Belə ki, başımı balışa qoyan zaman, ay işığında ağ, çəhrayı və qırmızı rəngli güllərə baxaraq, ümidlərə bürünmüş gələcəyim haqda düşünə bilim. Yataqda uzanmışam, amma gözümə yuxu getmir, məryəm gülünün ətri bütün otağı bürüyüb. Hüseyni düşünürəm. Səhər bizi aparmağa gələcək. Necə olursa olsun, bir az yatıb istirahət

etməliyəm. Səhər mən, anam və Hüseyn analiz vermək üçün laboratoriyaya getməliyik. Bir az nigaranam. Pis bir hadisə baş versə necə? Bir problemlə qarşılaşsaq necə? O zaman nə etməliyik?

Gözlərimi güllərdən çəkib ayın nazik zolağına baxıram. Allahım, aqibətimizi xeyrə yaz, Özün işimizi yoluna qoy!

Laboratoriyanın həyətində əyləşib irili-xırdalı gül dibçəklərini nəzərdən keçirirəm. Çadramı üzümə salıram, deyəcəyim sözlərdən ovuclarımın içi belə tərləyir. Hüseynə ötəri nəzər salıb, söyləyəcəklərimi zehnimdə çək-çevir edirəm.

Anam gedib əl-üzünü yuyacağını dedi. Kim bilir, bəlkə də bilərəkdən bizə şərait yaratdı ki, əgər bir-birimizə deyəcəyimiz bir söz varsa, danışaq. Fürsətdən istifadə edib ürəyimin sözünü dilimə gətirirəm.

-Əgər qan analizimizin cavabı mənfi olsa necə? Demək istəyirəm ki, əgər ailə qura bilməyəcəyimizi açıqlasalar, hansı hissləri keçirəcəksiniz?

Belə bir xəbəri eşitmək qorxusundan ürəyim yarpaq kimi əsirdi. Bunu eşitməmək üçün aləmi bir-birinə vurmağa hazır idim. Hüseynin iri, qara gözlərinə nəzər salıram. Mənim əksimə olaraq, sakit və aram oturub. Bir qədər düşünüb cavab verir:

-Narahat olaram. Məlum məsələdir, çox narahat olaram. Amma mən İlahi qismətə inanıram, o üzdən, qoy Allahın istədiyi kimi olsun.

Öz-özümə dedim: “Bir buna bax, mənim içimdə fırtınalar qopur, o, isə tam sakitdir.” Özünü Allaha tapşırmışdı. Sanki bu evliliyə rəğbət bəsləyib daim israr edən onların ailəsi, hey imtina edib, rədd cavabı verməyə çalışan isə bizim ailəmiz deyildi. Hüseynin sakit və

təbəssümlü siması sözlərini təsdiqləyirdi. Onun bu sakitliyi məni bir qədər narahat etsə də heç nə demədim.

Pasportlarımızı hazırlayıb içəri girdik. Qəbul otağında bir qadın əyləşmişdi. Pasportumu Hüseynə verdim. Gözucu mənə baxıb dedi: “Dırnaqlarını boyamadığına görə çox sevindim. İstəklərimə hörmət etdiyinə görə təşəkkür edirəm.”

Sözləri ürəyimi təlatümə saldı. Onun sevinci məni də sevindirdi. Hüseynin razılığını qazanmaq üçün əlimdən gələn hər işi görməyə hazır idim. Bu hadisəni bacıma danışanda narahatçılıqla dedi: “Gör bir necə diqqətlidir! Məncə, şirin dili ilə səni ələ almaq istəyir.”

Amma mənim baxışım Raziyədən fərqli idi. Onun bu həssaslıq və diqqətini mənə bəslədiyi eşqin tərənnümü sanırdım.

Qeydiyyat şöbəsinin müdiri incə bir xanım idi. Adımızı və familyalarımızı soruşdu:

-Mərziyə Bələdiyyə

Hüseyn pasportu açıb təkidlə dedi: “Bibi Mərziyə Bələdiyyə, xanım, Bibi Mərziyə!”

Həmin qadın bir mənə baxdı, bir Hüseynə, sonra adımın qarşısına “bibi” sözünü əlavə etdi. Yavaşca dedim: “O qədər də mühüm deyil.”

-Çox mühümdür, mənim üçün mühümdür. Həmişə adının qarşısında olmalıdır.

İçəri keçib stulda əyləşdim və qan analizi vermək üçün növbəmin çatmasını gözləməyə başladım.

İynə damarıma sancılanda nə şprisə, nə də qanın yığıldığı balaca şüşəyə baxmadım. Hər şey bitəndən sonra başımın gicəlləndiyini hiss etdim.

Analiz götürülən otaqdan çıxanda, hələ də yüngül başgicəllənməm var idi. Anam əlimdən tutmuşdu. Hüseyn

də mənə tərəf gəldi. Nigaran olduğu bilinirdi. Anamın köməyi ilə stulda yenicə əyləşmişdim ki, əlində meyvə şirəsi, keks və başqa şirniyyatlarla qarşımda dayandı.

-Bir az meyvə suyu için ki, təzyiqiniz qalxsın.

Heç nə istəmirdim. Aramızda fasilə saxlayaraq əyləşdi. Öz əlində və mənim əlimdəki şirin meyvə suyuna nəzər saldı.

-Siz için ki, mən də içə bilim.

Anam özünü eşitməzliyə vurdu. Üzünü mənə tutub dedi ki, gedim görüm hansı işlərimiz qalıb. Hüseynin əlindəki meyvə suyuna baxdım. Çətinliklə bir qurtum içdim. Hüseyn hələ də gözləyirdi. Mən meyvə suyunu yarıyadək içməyənə qədər, o, heç nəyə əl vurmadı. Anam gəlib çatana kimi halım bir qədər düzəlmişdi. Dedi ki, iştirak etməli olduğumuz bir ailə sinfi var. Mütləq orada olmalıyıq.

Hər birimiz özümüzə aid sinfə getdik. Gələcək həyat yoldaşını tanımağın üsulları və bir çox başqa məsələlər barədə danışırdılar. Etiraf etməliyəm ki, bəzi mövzuları eşitməkdən xəcalət çəkir və başımı aşağı salırdım. Sözsüz ki, daha çox ailə planlaşdırılmasının üzərində təmərküzləşmişdilər. Guya ailənin azuşaqlı olması qürurverici bir hal idi. Hər kimin uşaqlarının sayı daha az olardısa, o, daha ağıllı hesab olunurdu.

Dərsdən çıxanda nə ailə, nə övlad, nə də gələcəyimiz haqda düşünmürdüm. Fikrim yalnız analizin cavabında idi. Bir qayda olaraq, cavabları bir gün sonra təhvil verirdilər. Ey kaş, cavabı daha tez alardıq, o zaman bu nigarançılığın daşını ata bilərdim. Qeydiyyat şöbəsinə bu günlərdə getməli idik, amma analizin cavabı olmadan bizi qeydiyyatdan keçirməyəcəkdilər. Hüseyn bunları bildiyindən, analizlərin cavabını bu gün almaq üçün bir

neçə dəfə israr etsə də, heç bir nəticə əldə etmədi. Laborantların işi çox idi, biz isə alın yazımızı bilmək üçün bir gün də səbr etməliydik. Qərara gəldik ki, Hüseyn sabahısı gün cavabları almağa getsin.

# 12

Dəstəyi qaldıranda tanış bir səs könlümü oxşadı. Danışan Hüseyn idi. Sevinirdi. Analizlərin cavabını almışdı, şükür Allaha heç bir problem yox idi. Sanki dünyanı mənə bağışlamışdılar, nə qədər sevindiyimi gizlətmirdim.

Anam dəstəyi məndən aldı. Danışığının ciddiliyindən və hal-əhval tutma tərzindən, Hüseynin anası, ya da bacılarından biri ilə söhbət etdiyini anladım. Söhbət bitəndən sonra anam bildirdi ki, bu axşam Hüseynin ailəsi nişan mərasimi üçün evimizə gələcəklər. Onu yenidən görə biləcəyim üçün çox sevinirdim.

Anam atama xəbər verdi. Atam o qədər də sevinmədi. Hələ də bu evliliyin baş tutmayacağına ümid bəsləyirdi. Bilirdim ki, atam təhsilimin natamam qaldığından, bu işə bir o qədər də razı deyil. Axşam qonaqlarımız gəldi. Bu dəfə yalnız özləri idi. Hüseynin anası israr edirdi ki, gətirdiyi nişan üzüyünü oğlu özü mənim barmağıma taxsın. Amma Hüseyn bu işə razı olmadı. Dedi ki, qoy məhrəm olacağımız vaxta qalsın. Sözləri məntiqli idi. Amma mən onun özünün bu üzüyü barmağıma taxmasını istəyirdim.

Üzüyü barmağıma taxdım. Anam mənim üçün gətirdikləri çadranı, noğulla nabatı və konfetləri masanın üstünə qoydu. Sonra biz qonaqlara qulluq etməyə başladıq. Üzük barmağıma bir az böyük olduğundan, çay sinisini gətirmək mənim üçün bir qədər çətin idi. Sini əlimdən düşə bilərdi. Digər tərəfdən də barmağımdakı üzük mənə yeni bir hiss yaşadırdı. Ailə qurub yeni həyata qədəm qoymağıma bir addım qalmışdı. Sabah bir-birimizə məhrəm olacaqdıq, amma elə günü bu gündən hamının gözündə artıq evlənmiş kimi idik. Kəbinimizin kəsilməsi və adlarımızın bir-birimizin pasportunda qeyd olunmasından başqa bir iş qalmamışdı.

Sabah saat doqquzda nikah bağlamaq üçün qeydiyyat idarəsinə getməli idik. Bu səbəbdən axşamkı mərasimi tez bitirdik.

Axşam başımı balışa qoyanda neçə dəfə barmağıma baxdım. Bir tərəfdən sevinirdim, digər tərəfdən də baş verənlərə inana bilmirdim. Xəyallarımda bu qədər tez ailə qurmağı planlaşdırmamışdım. Amma hal-hazırda evliliyin bir addımlığında idim. Peşman deyildim, bunu özüm istəmişdim və fikrim qəti idim. Hüseyn yadıma düşəndə qəlbim şiddətlə döyünməyə başlayırdı. Ona bütün vücudumla bağlanmışdım. Bu məhəbbətin haradan peyda olub, qəlbimdə necə yuva saldığından özüm də xəbərsiz idim. Ola bilsin ki, mənə göstərdiyi diqqət, ya dediyi sözlər, ya da şux qədd-qaməti ilə idmançı görünüşü bu eşqin yaranmağına bais olmuşdu. Bəlkə də bunların heç biri, ya da hamısı birgə. Kim bilir... Çox güman ki, bu, bizi bir-birimiz üçün yaradan taleyin müdrik bir seçimi idi.

Nikah qeydiyyatı idarəsində Hüseyn məni bacı-qardaşları, onların həyat yoldaşları və mərasimdə iştirak etmək üçün gələn yaxın qohumları ilə tanış edirdi. Onları

ilk dəfə gördüyümdən, çox vaxt dəyişik salırdım. Bu yeni tanışlıqlar və çoxsaylı söhbətlər məni çaşqın hala salmışdı.

Ağ paltar geyinmişdim. Krem rəngində yaylıq bağlayıb gəlinlik çadramı başıma atmışdım. Bu dəfə geyimimə xüsusi diqqət ayırmışdım.

Şöbə rəisinin istəyi ilə sənədlərimizi imzalamaq üçün əyləşdik. O, bir-bir səhifələri vərəqləyir, biz də növbə ilə imza edirdik. Bu sənədin neçə səhifədən ibarət olduğunu bilmirəm, amma o qədər çox idi ki, sonda gülməyim tutdu. Nəhayət, həmin işçi barmağını daha bir səhifənin üstünə qoyub dedi: "Bu da son imzanız. İnşallah qoşa qarıyasınız."

İmzalayıb, qələmləri kənara qoyduq. Növbəti mərhələ kəbinin kəsilməsi idi. Məclisə sükut çökdü. Bütün pıç-pıçlar, ağızucu gülüşlər sakitləşdi, kəbinimizi kəsən şəxs isə öz yerində əyləşdi. Çadramı gözümün üstünə çəkdim. Bizi lentə alan videokamera və əl telefonlarının səsi fikrimi yayındırırdı. Həyatımın ən gözəl fotosu çəkilmək üzrə idi. Hüseynlə mən ailə qururduq, əbədi birgə olmaq üçün. Bu andan başlayaraq, bir-birimiz üçün vəfalı ömür-gün yoldaşı olacaqdıq.

Kəbinimiz kəsildi. Hüseynlə mən böyüklərimizin icazəsi ilə "bəli" cavabını verdik, ata-anamın göz yaşları heç nəyə macal vermirdi. Hər kəs bacardığı kimi atamı sakitləşdirməyə çalışırdı. Biri ona ürək-dirək verir, digəri isə bizə xoşbəxtlik arzulayırdı. Buna baxmayaraq, ata-anam durmadan ağlayırdılar. Bu günədək atamın ağladığını görmədiyimdən, onun bu halı mənim üçün çox təəccüblü görünürdü. Atamın bu həddə həssas və ürəyiyumşaq olduğunu bilmirdim.

Sonda yalnız bir nəfər atamı sakitləşdirə bildi. Hüseyn irəli çıxaraq atamın əlini öpdü. Qulağına nəsə pıçıldadı.

Sonra hər ikisi qucaqlaşıb halallaşdılar. Şirniyyat paylandı. Artıq bir-birimizə məhrəm olmuşduq, mən nəhayət ki, rahatlıq, amma eyni zamanda xəcalət hissi ilə Hüseynin qara gözlərinə baxa bildim.

Mərasimdən sonra bütün qonaqlar nahar yeməyi üçün evimizə dəvət olunmuşdular. Hamımız küçəyə çıxıb, VVAQ-ın qarşısında dayanmışdıq, Hüseyn qəfildən əlimi tutdu. Çadramı gözlərimin üstünə çəkdim, çox utanırdım. Hamının qarşısında belə bir iş görəcəyini gözləmirdim. Həm atam, həm də Hüseynin qardaşları orada dayanmışdılar. Əlimi çəkməyə çalışdım, amma elə möhkəm tutmuşdu ki, bütün səylərim mənasız idi. Qərara gəldik ki, birlikdə ilk dəfə olaraq imam Rizanı (ə) ziyarət etdikdən sonra nahar üçün evimizə qayıdaq. Həmin yerdən hərəmə qədər məsafə çox olmadığından, yolu piyada getmək qərarına gəldik. Müxtəlif mövzulardan danışırdıq.

Hər il olduğu kimi, bu il də avqust ayında ziyarətgah zəvvarlarla dolu, izdihamlı və səs-küylü idi. Seçdiyimiz məkanda əyləşdik. Hüseyn «Əminallah» ziyarətnaməsini oxuyurdu, mən isə qiraətin bitməsindən sonra yenidən birgə söhbət etməyimizi gözləyirdim. Düşünürdüm ki, sözümüz və qəlbimizlə haqq yolunun imamını ziyarət etdikdən sonra, sevgilimizi də ziyarət etsəydik pis olmazdı. Məni qınamayın, ömrümdə ilk dəfə aşiq olmuşdum. Hüseynin özünəməxsus cazibəsi vardı. Onunla birgə olanda həm yüksək sevinc hissi, həm də daxili sakitlik yaşayırdım. Arzularım həyata keçmişdi. Hüseyn bir həqiqəti açıqlayıb dedi: “Mən səni imam Rizadan (ə) istəyib demişdim ki, namuslu, iffətli və hicablı bir xanım arzusundayam. Elə bir xanım istəyirdim ki, onunla ailə quraraq, Allahın buyurduğu kimi, dinimi kamil edim.”

Hüseynin sözləri ürəyimə yağ-bal kimi yayılırdı. Sözlərini, danışıq tərzini, səsini çox sevirdim. Heç birimiz zamanın necə keçdiyini hiss etmirdik. Ondan soruşdum ki, kəbinimiz kəsildikdən sonra atamın qulağına nə pıçıldadın ki, sakitləşdi?

-Mənalı-mənalı gülümsəyərək cavab verdi: "İki kişi arasında olan bir söhbət idi."

Heç nə demədim. Məsələni açıqlamaq istəmirdisə, yersiz israr etməyin heç bir mənası yox idi. Qol saatıma nəzər saldım, artıq gec idi. Birlikdlə polad pəncərəyə yaxınlaşıb dua etdik. Hüseynin duasını eşidirdim ki, İmamdan əməli saleh bir övlad istəyirdi. Onun bu duası, istəyini məhz bu şəkildə bildirməsi, özü də kəbinimizin kəsildiyi ilk gündə mənə çox qəribə və təəccüblü görünürdü. Dua edərək, Allahdan gələcəkdə dinin dayağı olacaq bir oğul istəyirdi. Adını Əlirza qoyacaqdı, çünki imam Rizanı (ə) evliliyimizin banisi bilirdi.

Gözlərinə baxaraq dedim: "Heç bilirsən ki, bizim nəslimiz imam Musa-Kazimə çatır?"

Hüseyn elə sevindi ki, nəzərimcə dünyada heç bir xəbər onu bu dərəcədə sevindirə bilməzdi. Şövqlə dedi: "Sənə demədim ki, evliliyimizin banisi imam Rizadır!"

Məqbərədən çıxanda qarşımıza çıxan ilk maşına minib evimizə getdik. Ata evimizin yerləşdiyi Mütəhhəri prospekti hərəmdən çox da uzaq deyildi, amma biz məclisə gecikirdik. Atamın narahat olduğunu və indiyədək anamı bir xeyli danladığını düşünürdüm.

Evə çatanda gözlənilmədən üstümüzə noğul və konfet yağışı yağdı. Hamı sevinirdi, xanımlar şadyanalıq edirdilər.

Qadınlar kişilərdən ayrı əyləşmişdilər. Nahardan sonra baldızım məni otağıma aparıb, saç düzümüm və

makyajımla məşğul olmağa başladı. Məni bəzəmək üçün anamdan icazə almışdı. Baldızımın gözəllik salonu vardı, bu səbəbdən çox tez bir zamanda saç düzümümü qaydaya salıb, makyajımı tamamladı. Geyimimi dəyişib, xanımların olduğu otağa keçdim.

İçəri girdiyim zaman xanımlar mənim üçün əl çalıb, şadyanalıq etdilər. Məclisin yuxarı başındakı stulda əyləşdim. Kimsə bəyi çağırmağa getdi. Hüseyn içəri girən kimi üzünü bacısına tutub dedi: “Get üzərlik yandır, maşallah, gəlinimiz çox gözəldir.”

Xanımları gülmək tutdu. Baldızım cavab verdi ki, doğrudan elə düşünürsən ki, indi üzərlik yandırmaq vaxtıdır?

-Baldızlıq etməyəsən ha!

Hüseyn mənimlə yan-yana əyləşdi. Çox gözəl an idi. Bir-birimizə deyiləsi o qədər sözümüz var idi ki, sanki otaqda bizdən başqa heç kəs yox idi. Üzərliyin tüstüsü, Hüseynin ətri, xanımların şadyanalığı və salavat sədaları çox ürəkaçan və xoşagələn idi. Hamı deyirdi ki, ikilikdə nə danışırsızınız? Söhbətlərinizi sonraya saxlayın.

Amma biz hələ yenicə bir-birimizə qovuşmuşduq.

Məclis bitdikdən sonra qonaqları yola saldıq. Otaq demək olar ki boşalmışdı. Hüseyn soruşdu: “Mən də anamla getməliyəm?”

Üzümü ona tərəf çevirdim, baxışlarımı qalın qara qaşlarına dikdim. Qalmağını istəyirdim. Bu üzdən dedim: “Düşünürəm ki, siz qalmalısınız.”

Hüseynin atası dedi: “Özün üçün ev geyimi götürmüsən? Hüseyn gülümsədi, mən isə başımı aşağı saldım.”

O gecə Hüseyn bizdə qaldı. Səhərə qədər söhbət etdik. O qədər danışdıq ki, elə bil dilotu yemişdik. Sözsüz ki,

mən daha çox dinləyirdim. Hüseyn bütün ailə üzvləri, onların xasiyyətləri, birgə yaşadıqları xatirələr haqda danışırdı. Keçirdiyi əsgərlik illərini də unutmadı. Bir sözlə o qədər məzəli əhvalat danışdı ki, gülməkdən az qala halım pisləşəcəkdi. Vaxtın necə keçdiyini hiss etmirdik. Sanki bizim üçün zaman, Hüseynin şirin xatirələrinə güldüyümüz anlarda cəm olmuşdu. Səhərin necə açıldığını bilmədik. Gözlərimin göynəməyindən və durmadan əsnədiyimdən, çox yorğun olduğumu anladım. Dünənki gecə gözümə yuxu getməmişdi. Bu gecəni də heç yatmadığımı nəzərə alsaq, iki gecə idi ki, yuxunun nə olduğunu bilmirdim. Nə vaxt yuxuladığımız heç yadıma gəlmir. Bircə onu bilirəm ki, gözümü yuman kimi yatdım.

# 13

Nikah qeydiyyatı idarəsinə getdiyimiz günlə xeyir işimizi keçirəcəyimiz gün arasında on beş gün fasilə vardı. Bu müddətdə toy alış-verişlərini etdik. Güzgü- şamdan, geyim, ayaqqabı, çanta və bu kimi şeyləri aldıq. Bazara getmək istədiyimiz gün, böyüklərimizlə bir araya gələrək, birgə alış-verişə yollandıq. Növbə bəy bazarlığına çatanda, əməlli-başlı yorulduq. Hüseyn heç nə almağımıza imkan vermirdi. Hətta üzqırxan belə ala bilmədik. Dedi ki, özündə olandan istifadə edəcək.

Kişilər üçün özünə qulluq vasitələrindən bir neçəsini götürməsini istədim.

Bu sözümə gülüb dedi: “Mən ki xanım deyiləm.”

-İstifadə etməsən də götür.

Yenidən gülümsədi.

-İstifadə etməyəcəyim şeyi niyə almalıyam ki!

Raziyə əlimi sıxmaqla mənə bildirdi ki, niyə yersiz israr edirsən! Görmədin ki, anam da israr etdi, amma heç bir nəticəsi olmadı?!

Əkiz bacımın haqlı olduğunu düşündüm.

Hüseynin istəyi ilə Raziyə üçün də bir dəst paltar aldıq. Deyirdi ki, Raziyə əkiz bacındır, sənin üçün olunan bütün

bazarlığın müqabilində ona da kiçik bir pay ayırmalıyıq. Qoy elə düşünməsin ki, heç kim ona diqqət ayırmır.

O zaman Hüseynin bu hərəkətinə çox da fikir vermədim, mənim üçün o qədər də mühüm deyildi. Amma Raziyənin, onun üçün alınmış geyimi həvəslə başqalarına nümayiş etdirərək, bunu mənim üçün kürəkənimiz alıb deməsi, Hüseynin necə də diqqətli olmasını göstərirdi.

Kostyum satılan dükanda Hüseyn artıq bəhanə gətirərək, "yox" deyə bilmədi. Bəylik kostyumunun alınması zəruri idi. Hüseyn qədd-qamətli və enli kürək olduğundan, öz ölçüsünə uyğun kostyum tapana qədər neçəsini dəyişməli oldu. Çox çətin bir seçim idi. Geyindiyi heç bir kostyum onun səliqəsinə uyğun gəlmirdi. Axır ki, köməkləşib birini seçdik. Qalstuku yalnız mənim davamlı israrlarımdan sonra aldı. Çox istəyirdim ki, məclisimizdə qalstuk bağlasın.

Alış-verişimizin böyük hissəsini bitirmişdik. Yalnız nişan paltarını almaq qalırdı. Bu qədər mağaza gəzdiyimizə baxmayaraq, heç yorğunluq hiss etmirdim. Amma günorta vaxtı olduğundan, çoxları yorulmuşdu. Hüseyn bizi restorana dəvət etdi; həm nahar, həm də istirahət etmək üçün. Xosrəvidə dörd yolun kəsişdiyi yerdən, Sədi xiyabanında yerləşən restorana qədər olan yol çox da uzun deyildi. Bu səbəbdən, hamımız arxayınlıqla, yavaş-yavaş yola düşdük.

Restorana daxil olan kimi lülə kabab, toyuq kababı və düyünün üstünə gəzdirilən ərinmiş yağın ətri burnuma dəydi. Hüseynlə ayrıca bir masada əyləşdik. Digərləri isə böyük bir mizin arxasında yerləşdilər.

Nahardan sonra nişan paltarı almaq üçün Xosrəviyə getdik. Hüseynlə mən hamıdan öndə gedir və mağazaların vitrinindəki paltarları bir-birimizə göstərirdik. Ağ tül və

qırçınlı ətəklər məni uşaqlıq illərimə qaytarırdı; qohumlarımızın toyunda böyük həvəslə gəlinlərin bir kənarında əyləşərək, onların geyimlərindəki qırçınlara həsrətlə baxdığım o vaxtlara.

Hüseyn geyimin kifayət qədər qapalı olmasına, mən isə modelinə diqqət yetiridim. Nəhayət uzun, ağ rəngdə duvağı olan bir geyim seçdik.

Mərasim keçirildiyi gün evimizin vəziyyəti həmişəkindən fərqlənirdi. Səhər tezdən hamı qaçaqaçda idi. Məşhədlilərin adətinə görə, nişan məclisinin keçirilməsi gəlin ailəsinin öhdəsinə düşürdü. Anam məclisin yüksək səviyyədə keçirilməsi üçün əlindən gələni əsirgəmirdi.

Səhər yeməyimizi yeyən kimi, anam gözəllik salonuna getmək üçün hazırlaşmağımı istədi. Əvvəlcədən qərara gəldiyimiz kimi, gündüz keçiriləcək nişan məclisinə hazır olmaq üçün, səhər tezdən salona getməli idim. Anamla evdən çıxarkən, atam işçilərlə birgə, kirayə götürdüyü miz və stulları kiçik yük maşınından boşaldırdı. Xanımların məclisi qonşumuzun evində, kişilərin məclisi isə öz evimizdə keçiriləcəkdi.

Bunun səbəbi xanımların rahatlığının təmin olunması və qonşun həyətin gözəlliyi idi. Qonşumuzun həyəti başdan-başa ağac əkilmiş çox böyük bir sahə idi. Qırmızı rəngdə məxmər stulları ora düzəndən sonra, bu həyətin toyların keçirildiyi gözəl bağlardan heç bir fərqi olmayacaqdı.

Anam məni gözəllik salonuna çatdırıb evə qayıtdı. Bir az nigaran idi. Onun nə qədər həssas olduğunu bilirdim. İstəyirdi ki, hər şey ən gözəl şəkildə həyata keçsin. Gözəllik salonunun özünəməxsus qanunları vardı. Saç rəngi, saç lakı, dırnaq boyası, göz karandaşı və bu kimi

şeylər mənim üçün yeni idi. Bu günə kimi nəmləndirici kremdən başqa, heç bir kosmetik vasitədən istifadə etməmişdim. Makyajım və saç düzümümün işi tamamlanan kimi, Hüseynin videoçəkənlə gəldiyini dedilər.

Öncə videoçəkən xanım, arxasınca da Hüseyn salona daxil oldu. Uzun gəlinlik duvağı ilə özümü tamamilə örtdüm. Operator dedi: "Cavan oğlan, gəlinin əlindən tutub qapıya tərəf gedin. Sonra gözləyin ki, gəlib sizi ön tərəfdən çəkə bilim."

Biz çəkilişə hazır idik, amma Hüseyn nə mənim əlimdən tutdu, nə də qapıya tərəf getdi, əvəzində üzünü mənə tutub dedi:

-Çadranı ört yola düşək.

Duvağımı qaldırıb cavab verdim: "Çadra nəyə gərəkdir? Duvağım uzundur. Məni tamamilə örtüb. Heç nə bilinmir."

-Bu nə deməkdir! Çadrasız çıxmaq olmaz ki!

- İndi hamı belə geyinir. Gəlinlər daha çadra örtmürlər. İndi dəbdə olan bu uzun gəlin paltarıdır.

Hüseynin nəyə görə bu qədər israr etdiyini anlamırdım. Bütün dostlarım və sinif yoldaşlarım bu son dəbə uyğun rəftar etmişdilər. Hüseyn stulda əyləşdi. Üzümü ona tutub dedim: "Hamı bizi gözləyir, gecikərik."

-Evinizə zəng vur. İndi hamı evdədir. De ki, sənin üçün çadra gətirsinlər.

Evdə qarışıqlıq idi. Mənə çadra gətirə bilən bir kimsəni tapa bilməyəcəyimdən əmin idim. Çarəsiz idim. Hüseyn də dilxor olmuşdu. Mənə dedi ki, hamıya islam qaydaları əsasında toy keçirməyi məsləhət bilən halda, həyat yoldaşımı çadrasız necə küçəyə çıxara bilərəm. Dostlarıma, ən əsas da Allaha nə cavab verərəm?

Donumun ətəyindən tutub fırlandım. Hüseynin narahatçılığını azaltmaq istəyirdim. Bax, duvağın altından demək olar ki, heç nə görünmür. Bir də ki, buradan çıxanda maşına əyləşəcəyəm, heç kim məni görməyəcək.

Məni başdan-ayağa süzdü.

Dırnaqlarının boyasına bax, ayaqların görünür.

Cavab vermək istəyirdim ki, sözümü kəsdi.

Bu məsələnin neçə saat uzanması mənim üçün mühüm deyil, biz buradan yalnız kamil hicabla, yəni çadrada çıxacağıq.

Bu sözləri elə qətiyyətlə dedi ki, etiraz edə bilmədim. Evə zəng vurdum. Ürəyimdə özümü danlayırdım ki, Raziyə çadramı götürməyi məsləhət biləndə nədən ona qulaq asmadım. Onda düşünmüşdüm ki, Hüseyni çarəsiz durumda qoyub, razı sala bilərəm və bütün gəlinlər kimi məclisə duvaqla daxil olaram.

Bir qədər gözlədikdən və ona-buna ağız açdıqdan sonra, nə rəngi, nə də görünüşü gəlinə uyğun olmayan bir çadra ilə məclisə yola düşdük. Hüseyn öz evlərinə gedərək, mənim üçün anasının namaz çadrasını gətirmişdi. Avtomobildə əyləşdim, Hüseyn çadranı üzümə çəkdi və biz yola düşdük. Yol boyu söhbət edirdi. Dilxor olduğumu bilirdi. Çadranın altından gözlərimi uzun, boyanmış dırnaqlarıma dikib danışmırdım.

-Aha, operator xanım orada olduğundan, sənə nə qədər gözəl olduğunu deyə bilmədim. Sən onsuz da çox gözəlsən, demək istəyirəm ki, ilk baxışda səni tanımadım.

Hüseynin sözlərini eşidirdim, bəzən gülümsəyirdim. Evimizə çatanda artıq ürəyimdə heç bir xal qalmamışdı, hər şey ötüb-keçmişdi. Məclisə daxil olduq. Hamı şadyanalıq edirdi. Hüseyn çadramı götürdü. Bacım və baldızlarımla qərarlaşdığımız kimi, bağın axırında

qoyulmuş maqnitofondan uca səslə oxunan musiqi sədaları eşidildi: "Gəlin toyun mübarək, ay bəy, toyun mübarək"

Hüseyn sual dolu nəzərlərini mənə dikdi. Ətrafımızda qarışıqlıq yarandı. Hamı bizi təbrik etmək üçün irəli çıxdı. Qonaqları salamlamaq üçün məclisə tərəf getdik. Musiqi sədaları, yanan üzərlik qoxusu, güllərin və meyvələrin ətri bağı başdan-başa bürümüşdü.

Hüseynlə əl-ələ tutub irəliləyərək, bizim üçün hazırlanmış yerə çatıb stulda əyləşdik. Hüseyn bir qədər fikirli idi.

Növbəti musiqi səslənəndə, Hüseynin bacıları rəngbərəng geyimləri ilə bir araya gəlib, ürəkdən sevinərək rəqs etməyə başladılar... Həmin an mənim üçün yalnız sevinc, musiqi və maqnitofondan səsi gələn ifaçı vardı.

Hüseyn başını qaldırmadı, rəngi boğulmuşdu. Bu işi onsuz planlaşdırmışdıq. Hüseyni bu halda görəndə peşman oldum.

Sonralar Hüseyn heç vaxt nişan məclisimizi yada salmırdı. Filminə də baxmırdı. Hər dəfə israr edərək, onu televizor qarşısında oturdanda, baxmağa meyl göstərməyib, fikrini başqa səmtə yönəldirdi.

Mən seçim haqqını ondan almışdım. Bu, hər ikimizin xeyir işi idi. Amma mən onun istəklərini nəzərə almadan, öz ürəyimdən keçənləri həyata keçirmişdim.

# 14

Axşam qonaqlar getmiş, atamla qardaşım stulları həyətin bir küncünə yığmışdılar. Gəlinliyimin ətəyini yığaraq, özümü pəncərənin qarşısına çatdırdım. Hüseyn həyəti yığışdırmaqda atama kömək edirdi.

Uca səslə dedim: “İşiniz nə vaxt bitəcək?”

Hüseyn səssiz gülümsədi.

Atam dedi: “İndi gəlirik, ata qurban.”

Raziyə yavaşca qulağıma pıçıldadı: “Hər şey hazırdır, nə vaxt desən, hazırladığımızı gətirə bilərəm.”

Hüseynlə atam evə qayıdana qədər pəncərənin qarşısında dayandım. Geyimimi dəyişib mətbəxə getdim. Raziyə gülümsəyirdi. Soyuducudan tortu çıxartdım və Hüseynə yaxınlaşaraq dedim: “Ad günün mübarək!”

Tortun şamlarını yandırdım. Hamımız əl çalaraq bir ağızdan oxumağa başladıq: “Ad günün mübarək. Ad günün mübarək...”

Hüseyn uşaq kimi sevinərək, ürəkdən gülürdü.

-Ad günümü xatırlayacağını heç düşünmürdüm.

Sonra üzünü hamımıza tutub dedi: “Zəhmət çəkmisiniz, əllərinizə sağlıq”.

Hədiyyələrini mizin üstünə yığdım. Hər kəsin adından hədiyyə almışdım. Öz adımdan odekolon, Raziyənin adından idman ayaqqabısı və bir çox başqa şeylər. Tortu kəsdi, biz də ona uzun ömür arzulayıb əl çaldıq.

-İndiyədək heç kim mənim üçün ad günü keçirməmişdi.

Hədiyyələri açmaq vaxtı çatanda, Hüseyni sanki bir uşaq olaraq görürdüm. O, həvəslə hədiyyə kağızını və lentləri açaraq, gördüklərinə sevinirdi.

-Bu, aldığım ilk hədiyyədir.

Tort, şirniyyat, meyvə, şam yeməyi, sevinc və gülüş səslərindən sonra işıqlar bir-birinin ardınca söndü və hamımız şad-xürrəm yuxuya getdik.

# 15

Gülü mənə təqdim etdi. Gülümsədim.

-Güldən gözəl həyat yoldaşıma təqdim olunur.

Bu, onun həmişəki adəti idi. Heç vaxt əliboş gəlməzdi. Bir dəstə gül, irili-xırdalı hədiyyələr, yaylıq, daraq, ətir. Hər hədiyyədən iki dənə alardı, ikincisi ekiz bacım üçün idi. Deyirdi ki, Raziyə inciyə bilər. Kiçik qardaşım məni lağa qoyurdu ki, deyəsən Hüseyn gətirdiyi gülləri məhəlləmizdəki parkdan yığır. Onun bu zarafatından narahat olmurdum. Hüseynin göstərdiyi bu diqqət və qayğı mənim üçün çox əhəmiyyətli və dünyalar qədər qiymətli idi.

Əvvəllər Hüseynin mənim geyimimə və hicabıma nə dərəcədə həssas yanaşdığını görəndə, bir qədər nigaran olurdum. Amma rəsmi nikahımızdan bir neçə ay ötdükdən sonra tamamilə rahat olmuşdum. Anlamışdım ki, Hüseyn xırda şeylərə görə adamı qınayıb, istəklərinin üzərində israr edən bir insan deyil. Bacıları şikayət edirdilər ki, subay vaxtlarında Hüseyn onlara çox şeyi qadağan edirdi, amma nikahdan sonra mənimlə belə davranması heç yadıma gəlmir. Onun məhəbbəti yamanca ürəyimə

düşmüşdü. Gün keçdikcə mənim ona, onun isə mənə olan məhəbbəti birə min artırdı.

Kinoteatra, parka, əyləncə məkanlarına, hərəmə, restorana, alış-verişə, bazara, bir sözlə hər yerə birgə gedirdik. İmam Rizanın (ə) hərəmini müntəzəm ziyarət edirdik. Cümə axşamları, ya da necə deyərlər dördüncü günlər. Bu ziyarətlər ruhumuzu oxşayır və gözəl xatirə olaraq yaddaşımızda qalırdı. Onunla keçirdiyim saatlar sanki ömrümdən hesab olunmurdu, hər biri təklikdə şövq, səadət və səmimiyyətlə dolu idi. Hüseyn həftədə bir gün evimizə gələrdi. Raziyənin və qardaşlarımın evdə olmasını nəzərə alaraq, çox vaxt həftə sonları gəlməzdi. Onların da evinə çox getməzdik. Evdə cavan qardaşı və subay bacıları vardı. Amma bu kimi şeylər görüşməyimizə mane olmurdu. Hər fürsətdən istifadə edib, onunla görüş təyin edirdim. Atam bizim tez-tez görüşməyimizə razı deyildi. Hər bir şeyin lazımi qaydada olmasının tərəfdarı idi, amma sevən ürək söz eşitməz deyiblər. Hər dəfə bir bəhanə ilə anamdan icazə alıb, Hüseynlə gəzməyə çıxırdıq.

Raziyə ilə dərzilik kurslarına yazılmışdıq, amma atamın gözündən uzaq, dərsə getmək əvəzinə üçümüz birgə, yəni mən, Raziyə və Hüseyn gəzməyə və əylənməyə gedirdik.

Nişanlı vaxtlar, hər insanın həyatında ən şirin dövr hesab olunur. Mən də hamı kimi çalışırdım ki, bu dövrdən düzgün istifadə edim. Belə oldu ki, həmin günlərin birində, atam təhsilimi davam etdirə bilməyim üçün məni ali məktəbin hazırlıq kursuna yazdırmaq istədi, mən isə razılaşmadım. Məktəbi bitirmişdim. Ürəyimdən keçirdi ki, özümə bir il istirahət və əylənmək üçün fürsət verim. Dərs oxumaq istəyi tamamilə başımdan çıxmışdı. Hüseynlə

atam nə qədər israr etdilərsə, mən eşitmədim ki, eşitmədim.

Hüseyn təəccüblə deyirdi: “Sən dərs oxumaq üçün bu qədər israr edən həmin adam deyilsən?!”

Dərs oxumaq və təhsilimi davam etdirmək qərarım dəyişmişdi. Atam bu məsələdən çox narahat idi. Hüseyn də atamın tərəfini saxlayırdı. Bəzi vaxtlar özbaşınalıqlar adama zərər vurur. O günlər gələcək planlarımda yalnız yaxşı ana və yaxşı həyat yoldaşı olmaq vardı. Dərs oxumaq mənim üçün prioritet deyildi. Məqsədim tam fərqli idi; bütün vaxtımı Hüseynə həsr etmək.

Hədiyyə bağlamasını görəndə təəccübləndim. Hər ikisi eyni şəkildə, eyni ölçü və formada olan bir cüt hədiyyə.

-Nəyə görə bir cüt hədiyyə almısan?

Mənə təəccüblə baxdı.

-Məgər Raziyə xanımla siz ekiz deyilsiniz? Bu gün hər ikinizin ad günüdür.

Hədiyyəmi açdım. Raziyə tərəddüdlə hədiyyəsini alaraq, sevinə-sevinə açdı. Hər ikimizə eyni köynək və eyni odekolon almışdı.

Həmin anda bir şey demədim. Amma ürəyimdən keçirdi ki, mənim hədiyyəm özünəməxsus olsun. Günün sonunda bunu Hüseynə bildirdim.

Kaş mənim üçün başqa bir şey alardın, axı mən sənin həyat yoldaşınam, Raziyə isə baldızın. Aramızda bir fərq olmalıdır, ya yox. İki dənə eyni köynək və eyni tort almışdın. Mən bacıma hədiyyə alma demirəm, amma aramızdakı fərqi nəzərə al.

-Mərziyə can, bilirəm ki, sənin üçün elə daha xoş olardı, amma ürəyim gəlmədi. Raziyəni narahat etmək istəmədim.

Deməyə sözüm yox idi. Bir tərəfdən bu tərzdə düşünməsi təqdirəlayiq idi, amma digər tərəfdən narahat olurdum. Nəzərimcə, bu qədər diqqətli olmağa heç də gərək yox idi. Amma bu kimi işlər Hüseynin yüksək əxlaqi xüsusiyyətlərinin bir nümunəsi idi. Mən də onun bu xüsusiyyətlərinə alışmağa adət etməyə çalışırdım.

# 16

Xanım, hazırsan, ya yox?

Əlimdə yaylıq güzgüyə tərəf getdiyim halda ona göz vurdum.

-Baş üstə, bircə yaylığımı bağlayım, hazıram.

Güzgünün qarşısında özümü səliqəyə salmağa başladım. Yaylığımı çənəmin altında möhkəm bağlayıb, çadramı başıma atdım. Biz evdən çıxarkən, anam qonaq otağında noxud arıtlayırdı.

Küçədə Hüseyn adəti üzrə əlini sinəsinə qoyub salam verdi:

-Salam olsun şəhid Mahmud Kavəyə.

Ona şəhid Kavənin həyat yoldaşı ilə divar qonşusu olduğumuzu deyən gündən, hər dəfə bu işi görürdü. Küçədən keçəndə üzünü onların evinə tutub, şəhidə salam göndərirdi. İlk dəfə bu hərəkətini görəndə təəccüblənmişdim.

-Doğrudan da şəhidin buradan sənin salamını eşitdiyini düşünürsən?

-Böyük ehtimalla şəhid buralara gəlib ailəsini ziyarət edir, mənim salamım da mütləq şəkildə ona çatır.

Mütəhhəri xiyabanından üzü aşağı enib, küçənin başına çatdıq. Hüseyn maşın tutmaq istəyirdi, amma yarpaqları sarı, narıncı və qəhvəyi rəngə boyayan bu gözəl payız havası, sanki piyada gəzmək üçün yaradılmışdı. Dedim ki, heyif deyil, təbiətin bu rəngarəngliyini qoyub, maşına minək və bu gözəl havadan ləzzət almayaq? Belə havada piyada gəzmək lazımdır.

Millət parkına çatanda gündüz idi. Parkın mərkəzində yerləşən kafeyə getdik. Hüseyn iki çay və bir qədər çərəz sifariş verdi. Parkdakı skamyaların birində əyləşdik. Payızın sonu idi, günəşin istisi adama əziyyət verə bilməyəcək həddə azalmışdı. Bu sərin havada əyləşib yavaş-yavaş çay içməyin öz ləzzəti vardı.

Hələ yenicə əyləşmişdik ki, əxlaq polisinin məmuru bizə yaxınlaşaraq, bir-birimizə məhrəm olub-olmadığımızı aşkar etmək üçün sənədlərimizi istədi. Artıq ikinci dəfə idi ki, biz parka gələrkən məmur bizi sorğu-suala tuturdu. Hüseyn ciddi tərzdə təkrarladı: "Cənab, biz evliyik."

-Çox gözəl, amma bu faktı təsdiqləyən bir sənədiniz olmalıdır.

Belə bir şey heç birimizin ağlına gəlməmişdi.

-Yəni, hara getsək, özümüzlə pasport, kəbin haqqında şəhadətnamə, ya da ən azından şahid götürməliyik? Bu parka bir nəzər salın, bir-birlərinin yanında əyləşən tələbə qız və oğlanlarla doludur. Onlardan nə üçün sənəd tələb etmirsiniz? Mənim nişanlım hicablı olduğuna görə bizi qaralamısız?

Çayımızı içəndən sonra parkdan çıxdıq. Məmurların sorğu-suallarını cavablandırmağa həvəsimiz yox idi. Oradan birbaşa üz tutduq kinoteatra. Həmin gün "Məhəbbət həyəcanı" adlanan film nümayiş olunurdu.

Film bir-birilərini sevən iki nişanlı haqqında idi. Qızın atası onların birgə ailə qurmalarına qarşı çıxırdı.

Hüseynin əlini möhkəm sıxıram, onu səmimi qəlbdən sevirəm. Öz-özümə düşünürəm, nə yaxşı ki, muradımıza çata bildik. Çox şükür ki, atam tərsliyini kənara qoyub, evliliyimizə razılıq verdi. Artıq biz bir-birimizə məhrəmik və könül rahatlığı ilə kinoteatrın yumşaq kreslolarına söykənib filmə baxa bilirik. Hüseyn əlimi sıxır. Ekrandan zala süzülən zəif işıqda gözlərimə baxır və bir-birimizə gülümsəyirik.

-Dodaqaltı pıçıldayıram: "Səni sevirəm."

Hər ikimiz gülürük.

Stəkanları siniyə yığıram. Çaydanı samovarın üzərindən götürüb stəkanlara çaya süzürəm. Hilin qoxusu ilə çayın ətrini duyuram. Otaq səs-küylə doludur, bibilərim bizə qonaq gəliblər.

Uşaqlar qaçışır. Böyüklər söhbət edirlər. Hüseyn çay sinisini əlimdən alır. Bibilərimlə əyləşirəm. Kişilər bir kənarda bibi oğlanlarımla birgə əyləşiblər. Onların zarafatlarına gülürəm, səsim ucalır. Hüseynə nəzər salıram, sual dolu baxışlarla məni izləyir. Heç nə demir, amma baxışlarından hər şey məlumdur.

Hüseyngilin evinə getdiyimiz zaman da eyni şey təkrar olunurdu. Bacı-qardaşlarına dildə bir söz deməzdi, bəzi anlamları rəftarı, ya da sükutu ilə başa salmağa çalışırdı. Nişanlı olduğumuz bu bir neçə ayda, Hüseyndən çox şey öyrənmişdim. Nəzərimcə, heç nə deməmək, yersiz iradlardan və deyinmələrdən daha yaxşı idi. Bu siyasətin üstün cəhətlərindən biri də mübahisələrin qarşısının alınması və yaxın adamlar arasında xətir-hörmətin qorunması idi.

Hamı mövcud olan hörmət pərdəsini saxlamağa çalışırdı. Hüseynin rəftar, əxlaq və insani xüsusiyyətlərinin bacı-qardaşlarından fərqli olduğundan xəbərdar idim. Səbəbini bilmirdim, yəni Hüseynin nə səbəbdən musiqini sevməyib, İran televiziyasından qeyri televiziya kanallara baxmadığını və bəzi qohumlarının qarşısında səbirli olub, yalnız xəfif etiraz nümayiş etdirdiyini heç vaxt anlaya bilmədim. Bununla belə, bütün qohumları ilə əlaqə saxlayıb, onlara daim baş çəkər, ya da zəng vurub, telefonla hal-əhval tutardı; bir sözlə, mənim bəyənmədiyim bir iş. Bu üzdən həmin qısa görüşlərə mənsiz, tək gedərdi. Dediyim sözlərin qarşısında da öz dəlil və sübutlarını gətirərdi. Ona deyirdim:

-Hüseyn, niyə sənin sözlərini eşitməyən birinin qapısına gedirsən?

Cavab verirdi:

-Allah yolunda görülən işdə sorğu-sual mənasızdır. Kiminsə mənə qarşı olan münasibəti ilə nə işim var? Mən düzgün bildiyim bir şeyə əməl edirəm.

Amma mən sevilib-bəyənilmədiyim bir yerə gedə bilmərəm. Bibilərim gedəndən sonra qab-qaşıqları, boşqabları, kasaları Raziyə ilə birgə yuyuruq. Otaqları səliqəyə salıb, Hüseynin yanına gedirəm. Nəzərinin mənim üçün nə dərəcədə önəmli olmasını bildirməzdən öncə, sözüm yaddan çıxmamaq üçün deyirəm: "Hüseyn can, ucadan güldüyüm üçün bağışla, heç bilmədim necə oldu."

Qaşlarını çatıb zarafatla deyir: İndi ki, özün yadıma saldın, etdiyin hərəkətin nə qədər səhv olduğunu görürəm!

-Məni belə incitmə, Hüseyn! Hər şeyə bu qədər çətin yanaşma. Sən bu ağır xasiyyətinlə, başqaları da dünya-aləmi veclərinə almamaqda ifrata varır.

Yanımda əyləşərək gülümsəyir.

Bilirsən, Mərziyə can, elə düşünmə ki, etiqadım və düşüncə tərzim bir gecədə peyda olub. On yeddi- on səkkiz yaşıma qədər tamam başqa bir aləmdə idim. Amma vaxtı ikən qarşılaşdığım bir hadisə, bir xəbərdarlıq həyatımı tamamilə dəyişdi və bu gün gördüyün kimi oldum.

-Mənə bu barədə danış. De görüm nə baş verdi?

-Yalnız bunu deyə bilərəm ki, həmin xəbərdarlıq imam Hüseyn (ə) tərəfindən idi. İmam Hüseynin nicat gəmisi olması və bu gəminin digərlərindən daha sürətli hərəkət etməsini bütün vücudumla hiss etmişəm. Hüseynlə bir çox mövzular barədə söhbət etdik, nəhayət sözümüz vilayət məqamına çatdı. Bu, Hüseyn üçün müqəddəslik anlamı kəsb edən qırmızı xətt idi. Bu barədə danışdığı sözlərə, həqiqətə susamış birisi kimi qulaq asırdım. O, vilayəti-fəqihi imam Zaman ağanın naibi bilirdi. Bu sözləri mənə çox qəribə görünürdü. Mən sual verirdim, o, da səbir və hövsələ ilə cavab verirdi. Divanda əyləşib dedim: “Söylədiklərini isbat et.”

-Peyğəmbərimizin sözlərinə istinadən, Allah-Taala heç vaxt İslam ümmətini rəhbərsiz qoymayacaq.

Baxışlarımı gözlərinə dikirəm. Suallarım bitmək bilmir, amma hamısını hövsələ ilə cavablandırır. Əgər müəllimim olsaydı, böyük ehtimalla bütün dərslərimdən əla qiymətlər alardım.

Həmin gecəni söhbət, sual və cavabla səhərə çatdırdıq.

# 17

-Sənə necə xoşdur, Mərziyə can, bu fəqət bir təklifdir, istəmirsənsə, qəbul etməyə bilərsən.

Bu, Hüseynin mənə verdiyi həmişəki cavab idi. Bu barədə hər kimə danışırdım, deyirdi ki, gör necə siyasət işlədir. Sözünü sənə elə deyir ki, nə narahat olasan, nə də gileylənəsən. Çünki, bir söz desən, cavab verəcək ki, özün belə istədin.

Hamı yalnız stəkanın boş hissəsini görə bilirdi. Bu sözləri ilə ürəyimə vəlvələ salıb, məni qorxutmağa çalışırdılar. Amma onlar Hüseyni mənim tanıdığım qədər tanımırdılar. Bu seçim haqqının, gələcəkdə bizə üz verə biləcək çətinliklərə sinə gərmək üçün göstərilən, bir növ şəriklik hissinin olduğunu bilirdim. Xeyirdə və şərdə şərik olacağımızı nəzərdə tuturam. İrəli sürdüyü bütün təkliflər tamamilə öz istəyimə bağlı idi. Qəbul etməyə bilərdim. Amma Hüseynin son sözü bu idi ki, əgər mənimlə gəlmək istəyirsənsə, bu, tam razılıq, rəğbət və sevinc hissi ilə yanaşı olmalıdır. Narazı olmağını istəmirəm.

Hüseynlə nə qədər çək-çevir edirdiksə də, heç bir nəticəyə çatmırdıq. Nişan mərasimi və cehizimin onun üzərinə düşən hissəsi onun üçün baha başa gəlmiş və

bankdan kredit götürməyə məcbur olmuşdu. Əgər yaxşı düşünsəydik, Hüseynin toydan sonra onun valideynləri ilə yaşamaq təklifinin ən düzgün seçim olduğunu görərdik. Çünki ev kirayəsi ödəməkdən azad olacaqdıq. Öhdəmizə düşən yalnız bank krediti olacaqdı. Mən hələ toyun xərclərini demirəm.

Bir tərəfdən də çox adam deyirdi ki, qaynana ilə yaşamaq çox çətin və səhv bir seçimdir. Ərin ailəsi haqda olan qədim, kinəli təsəvvürlərə görə, məni bu fikirdən daşındırmaq istəyirdilər. Atamla anam bu məsələdə sükut edərək, seçim haqqını öz öhdəmə buraxmışdılar. Nəhayət, qərarımı verdim və mebel almaq üçün bazara getdiyimiz gün nəzərimi bildirdim.

-Olsun, sən krediti ödəyənə qədər, bir müddət valideynlərinlə yaşayarıq. O vaxta qədər bir az özümüzü tutub, ayaq üstə möhkəm dayana bilərik.

Bu sözlərimdən sevinci yerə-göyə sığmırdı, mənə təkrar-təkrar təşəkkür edirdi.

Bu seçimi yalnız Hüseynin borcları ucbatından etməmişdim, onun idarəetmə qabiliyyətinə inanırdım. Bilirdim ki, işlərimizi elə yoluna qoyacaq ki, heç bir qarşıdurma yaranmasın. Əlbəttə bunu qəbul etmək mənim üçün bir o qədər də asan deyildi. Hər halda çoxuşaqlı bir ailədə yaşamağa öyrəşmədiyimi yaxşı bilirdim. Uşaqların çoxunun ailə qurmasına baxmayaraq, bir baldızım və üç qaynım hələ də subay idilər. Bu azmış kimi, Hüseynin valideynləri qədim nəslin nümayəndələri olduqlarından, evləri həmişə qonaqla dolu olardı.

Qərarımı açıqladıqdan sonra, Hüseynin ailəsi Piruzi bulvarındakı evlərindən çıxaraq, Hürr Amelidəki mənzillərinə köçdülər. Bu, sahəsi səksən beş kvadrat metrdən artıq olmayan, balaca, iki mərtəbəli bir ev idi. Biz

birinci mərtəbədə yaşayacaqdıq, Piruzidəki ev də kirayə veriləcəkdi. Hüseynin dediyinə görə, atası qənd fabrikinin pensiyaya çıxmış bir işçisi olduğundan, əlavə gəlir əldə etmək üçün, evlərindən birini kirayə vermək məcburiyyətində idi. Beləliklə, bizim yeganə çıxış yolumuz Hüseynin valideynləri ilə birgə yaşamaq idi. Hüseynin böyük qardaşı Məhəmməd də belə etmişdi. Onlar da evliliklərinin ilk üç ilini valideynləri ilə birgə keçirmiş, sonra ev alaraq, öz mənzillərinə köçmüşdülər.

Evi gördüm. Hüseynlə birgə getmişdik. Pərdə almaq üçün pəncərələrin ölçüsünü götürmək istəyirdim. Qırx kvadrat metrə yaxın sahəsi olan balaca və xudmani bir mənzil idi. Girəcəyindəki üç pillədən yuxarı qalxıb, sonra aşağı enirdin. Bütün mənzil yalnız bir otaqdan ibarət idi. Onu pərdə ilə yarı bölüb, kiçik yataq otağı düzəltdik. Yuxarı mərtəbə daha böyük idi.

Hüseyn pəncərəni metrə ilə ölçdü, mən isə ölçüləri qeyd etdim. Toyumuza çox vaxt qalmamışdı, martın on beşi keçirməli idik. Bir həftə vaxtımız vardı. Anam çox çalışırdı, amma cehiz üçün nə qədər çox alış-veriş edirdiksə, yenə də alınası nəsə qalırdı. İlk qız övladı olmaqla yanaşı, ailə qurub evi tərk edən ilk övlad olduğumdan, cehiz almaqda o qədər də təcrübəmiz yox idi. Hüseyn daim israr edirdi ki, çox xərc çəkməyək, bu şeylər çox mühüm deyil. Valideynlərim onun sözünü qəbul etmirdilər. Mənim üçün elə də fərqi yox idi. Ata-anamı daha çox xərc çəkmək məcburiyyətində qoymurdum.

Hüseynin bu sözləri dilucu demədiyini yaxşı bilirdim, belə şeylərin onun üçün doğrudan da əhəmiyyəti yox idi. Yenicə aldığım qırmızı və çəhrayı gülləri olan ağ qazan

dəstimi ona göstərdim. Fikir vermədi. Yalnız bunu dedi ki, atanla anan sağ olsunlar, zəhmət çəkiblər.

Cehizimdən daha heç nəyi ona göstərmədim. Belə yanaşma tərzi ilə digər əşyaların də onun üçün mühüm olmadığını anladım.

Toya iki gün qalmış cehizimi aparıb yerbəyer etdilər. Hamı orada idi; bizim ailə üzvləri, xalam və Hüseynin ailəsi. Hamımız çox sevinirdik.

# 18

Axırıncı dəfə özümə güzgüdə baxdım. Ənlik, kirşan, göz kölgələri, saç düzümüm, hər bir şey nəzərimə gözəl və istəkli görünür.

Hüseynin ucadan ya Allah deməsini eşidib, cavab verirəm: “Buyurun.”

Daxil olur. Baxışlarını gözlərimə dikib, gül dəstəsini təqdim edir.

Saç düzümü yetərincə səliqəli olmuş, qalstuk taxaraq, sanki əyninə tikilmiş tünd göy rəngdə kostyum geyinmişdi. Odekolonunun ətri könlümü oxşayır. Şalı və ağ rəngli hicabı başıma atır. Bu dəfə gəlinlik çadramı özümlə gətirmişəm. Çadranı açıb başıma atır və iki ucunu mənə verir. Maşına tərəf yola düşürük. Hava soyuqdur, bahar fəslinin başlamasına bir həftə qalıb.

Maşının qapısını açır. Əyləşərək, sobanın istiliyindən ləzzət alıram. Maşın yerindən tərpənən kimi, xoş musiqi sədaları ətrafa yayılır. Hüseyn qulağıma sakit səslə eşq dolu sözlər zümzümə edir. Ürəkdən gülərək, başımı aşağı salıram.

Evimizə tərəf yola düşürük. Toy mərasimi ayrı-ayrı keçirilir. Gecənin sonunda gəlinlərini aparmağa

gəlməlidirlər. Biz çatan kimi, alqış və maşınların siqnal səsləri eşidilir. Hüseynin köməyi ilə maşından düşürəm. Çadranın altından yaxşı görə bilmirəm. Hüseynin əlindən möhkəm tuturam. O, mənim gözüm, qulağım, hətta dilim yerindədir. Korlar kimi irəliləyirəm. İçəri girən kimi çadramı açır.

Xanımlar şadyanalıq edirlər. Üzərliyin qoxusu, müxtəlif ətirlər, alqış səsləri, qonaqlara xoş gəldin deməyimiz, sürətlə bir-birini əvəz edir.

Hüseyn gedir. Bu qarışıqlıqda özümü itirirəm. Çox sevinirəm. Əyləşirəm. Zamanın necə keçdiyini hiss etmirəm. Adəti üzrə, şam yeməyindən sonra, gecənin sonuna yaxın Hüseyn ailəsi və qohumları ilə birgə gəlir. Atam bizi pendir-çörək, göyərti və xeyir-dua ilə yola salır. O, yenə də göz yaşlarına hakim ola bilmir. Anam və Raziyə ilə birgə ağlamağa başlayırlar. Atam alnımdan öpür. Küçəyə çıxanda mənə maşına minməyə kömək edir. Maşına əyləşirəm. İmam Rizanın (ə) hərəminin ətrafında dövrə vururuq. Siqnal səsləri, tormoz pedalını sıxaraq, yenidən işə salıb getmək, bütün bunlar gəlin köçürmə mərasiminin bir hissəsidir. Qohumlar bu soyuq havada motosikletləri ilə müxtəlif manevrlər edərək, gəlin maşınının güllərini götürməyə çalışırlar. Bəzən çadramın altından küçədə baş verənləri izləyirəm. Maşın dayananda evə çatdığımızı anlayıram.

Bu, müştərək həyatımızın ilk gecəsidir. Salam və salavat sədaları, üzərlik qoxusunun müşayiəti ilə Hüseynlə əl-ələ verib, yeni mənzilimizə qədəm qoyuruq. Bu gündən başlayaraq, daim birlikdə olacağıq. Bu hər ikimizin qərarı idi.

Mənə belə bir xoşbəxtlik nəsib olduğundan çox şadam.

Soğanı yağa tökürəm, əlimə bir neçə yağ damcısı sıçrayır, əlim yanır, barmağımı dişləyirəm. Çəkilmiş əti, tomat pastasını və ədviyyatı əlavə edirəm. Makaronu süzürəm, ətlə qarışdırıb dəmə qoyuram. Çayı da dəmləyib televizorun qarşısında əyləşirəm. Hüseynin işdən qayıtmağına az qalıb. Makaronun dadlı alınması üçün dua edirəm. Amma ürəyimdə sevinirəm, çünki anamın makaron bişirmə üsulunu eynilə təkrar etdiyimdən əminəm.

Kanalları bir-bir əvəz edirəm ki, Hüseyn tez gəlib çatsın. Saata baxıram. Yarım saat keçib. Barmağımı isladıb qazana su səpirəm. Cızıltı eşidilir. Nəzərimcə makaron dəmlənib. Qapağı qaldırıram. Buxarla birgə, üzümə yanmış qazmaq iyi dəyir. Başımı arxaya aparıram. Yeməyi qaşıqla yoxlayıram. Xəşil olub. Dərindən ah çəkirəm, ürəyim üzülür. Bişirdiyim ilk yeməkdir. Bundan öncə anamın köməyi ilə Hüseyn üçün yemək bişirəndə, anam yeməyin bütünlüklə mənə aid olduğunu deyərdi. Amma indi heç nə bacarmadığımı anlayıram. Qazanın altını söndürüb, qapağını kənara qoyuram və baxışlarımı xəşil olmuş makarona dikirəm.

-Bəs indi nə edim?

Hüseynin səsi heç nəyə macal vermir. Tələsik qapağı yerinə qoyub, Hüseyni qarşılamağa gedirəm. Qarşısına çay qoyub, hal-əhval tuturam, birgə söhbət edirik, amma ürəyimdə fırtınadır. Süfrəni Hüseyn salır. Utana-utana bir-birinə yapışmış makaronları boşqaba çəkərək, onları ayırmağa çalışıram. Amma faydası yoxdur.

-Bağışla, bu gün xörəyim xarab olub.

-Çox da yaxşıdır. Əladır. Əslində elə bu cür dadlıdır.

-Hələ yeməmisən ki...

-İndi yeyərəm.

Qaşığı ağzına qoyur. Gözlərimi üzündən çəkmirəm. Yalan- doğru, yemək yeməyi davam edib, ağız dolusu tərifləyir. Tərəddüdlə bir qaşıq makaronu ağzıma qoyuram. Çox dadsızdır. Sanki, ağzıma bir tikə xəmir qoymuşam. Nə uda bilirəm, nə də ağzımdan çıxara bilirəm. Yeməklə oynayıram, sanki, başım yeməyə qarışıb. Hüseyn yeməyini bitirib boşqabları yığır. Özümə ürək-dirək verirəm ki, mənim xörək bişirmə qabiliyyətimin işə düşməsinə hələ çox vaxt qalıb. Növbəti günlər bişirdiyim xörəklərə daha çox diqqət ayırıram. Amma faydasızdır. Hüseynin bəzi vaxtlar axşamüstü yuxarı mərtəbəyə qalxaraq, anasıgildə yemək yediyin anlayıram. Əvvəllər özümü bilməzliyə vuraraq, heç nə demirdim. Axırda səbrim tükəndi.

-Çox dadsız yemək bişirdiyimi bilirəm, Hüseyn can. Amma yuxarıda yemək yeməyə davam etsən, anan deməz ki, bu Mərziyə niyə yaxşı xörək bişirmir?

-Yox. Mən anamgilə yemək yeməyə getmirəm. Anam hələ də mənim payımı ayırır. Uşaqlıq illərimdəki kimi qarşısında əyləşib, iştaha ilə yemək yeməyimi çox xoşlayır. Mən də onun ürəyini şad etmək üçün yeyirəm.

Başa düşürəm ki, Hüseynin anası yemək bişirə bilmədiyimi anlayıb, amma üzümə vurmur. Bəzən mənə aşpazlıq öyrədir, mən də canla-başla onu dinləyirəm.

Hüseynin bəyəndiyi yeməyi bişirməyi arzulayıram. Çalışıram ki, sözün əsl mənasında evdar qadın olum.

# 19

Qaynanamın evi çox səs-küylü idi. Bir çox cümə axşamlarında olduğu kimi, bu gün də ailənin bütün övladları ata ocağına yığılmışdılar. Bu qəbildən olan daimi qonaqlıqlara öyrəşməmişdim. Bunu Hüseynə də demişəm. Onlar hər dəfə yığışanda, mənim bəzən olmayacağımı qəbul etmələri çox vaxt apardı. Bu barədə nə düşündüyümü qorxub çəkinmədən bildirmişdim. Məncə bütün yığıncaqlarda iştirak etməyimə heç bir lüzum yoxdur. Onlar bir ailənin üzvləridir, kim bilir, bəlkə bacı-qardaşlar özlərini kənar adamlar olmadan daha rahat hiss edirlər. Sözün düzü mən şəxsi sərhədlərimi qorumağa ehtiyac duyurdum. Düzdür, biz bir evdə yaşayırdıq, amma mənə öz evimdə qalmaq daha rahat idi, şəxsi vaxtımı öz bildiyim kimi istifadə etməyə üstünlük verirdim.

Hüseyn mənim nəzərimlə razılaşaraq, sözümün üstünə söz qoymadı. Onun təklifi ilə ali məktəb üçün hazırlıq kursuna yazıldım. Bu kurslarda bir neçə dəfə iştirak edəndən sonra Hüseynin atasının narazılığı məni bu işdən soyutdu. Qaynatam mənim dərs oxumağımın faydasız olduğunu düşünürdü. Bu barədə atam onunla həmfikir

deyildi. Söhbət atamın qulağına çatmamış, səssiz-səmirsiz məktəbə gedib, müdirə daha gəlməyəcəyimi bildirirəm. Amma Hüseyn mənimlə heç razı deyil. Onun fikrincə, dərs oxumaq üçün başqalarının nə düşündüyünü nəzərə almaq lazım deyil. Atasına gəlincə isə, bir qədər şikayət etdikdən sonra sakitləşəcəkdi.

Mübahisə edib, narahat olmağa hövsələm yoxdur. Hüseyn növbəti dəfə məktəbə getməyim üçün israr edəndə, ona qətiyyətlə cavab verib deyirəm: Biz həmişəlik bu evdə qalmayacağıq. Hər vaxt ev alıb köçsək, yenidən dərsə getməyə başlayaram. Bu evdə atan hər vaxt əlimdə kitab-dəftər görürsə, əhval-ruhiyyəsi pozulur. Sonra elə düşünər ki, mən tərslik edirəm. Bir halda ki, məktəbə getməyimdən narahat olur, niyə onun sözünün üstünə söz qoyum? Təhsilin bir neçə il yubanmasından hələ heç kimə zərər dəyməyib .

Hüseynlə yuxarı mərtəbəyə qalxırıq. Hamı yığışıb. Şam yeməyindən sonra söhbət etməyə başlayırıq. Bu vaxt Hüseyn üzünü mənə tutub deyir:

-Mərziyə can, anam xəstədir, artıq yaşa dolub, özü də mətbəxdə təkdir. Ona bir az kömək et. Əgər qablar yuyulmamış qalsa, anam onları tək yumağa məcbur olacaq.

Bu uca səslə deyilmiş, gözlənilməz buyruqdan narahat oluram. Cavabında deyirəm ki, burada bu qədər qız-gəlin ola-ola, niyə təkcə mənə iş buyurursan?

Bir neçə nəfər ayağa qalxır. Qabları yuyub təmizlik yaratmaq üçün mətbəxə keçirik. İşimizi bitirib çayımızı içdikdən sonra küçəyə çıxırıq. Məhərrəm ayıdır, rövzə və kədər dövrü. Həmişəki kimi ənsar əl-Cavad heyətinə gedirik.

Hüseyn əlimdən tutub deyir: “Əzizim, narahatsan?”

- Bilmirəm, niyə hər dəfə bu sözü mənə deyirsən, məgər bacıların da orada deyildilər? Başqaları ola-ola niyə yalnız mənə iş buyurursan? Niyə onlara heç nə demirsən?

-Çünki, sən narahat olsan, könlünü ələ ala bilərəm. Belə olan halda, bacı-qardaşlarımın da ehtiramını saxlamış oluram. "Qızım sənə deyirəm, gəlinim sən eşit" misalı həmişə daha çox işə yarayır.

Tehran prospektinə çatanda, izdihamın içində bir-birimizi itirə bilərdik. Hüseynlə əl-ələ tutub dondurma və meyvə şirəsi satılan kafeyə giririk. Hərəmizə bir stəkan şirin nar şirəsi sifariş veririk. Hüseyn baxışlarını gözlərimə dikir.

-Hələ də küsülüsən mənimlə?

Gülürəm.

-Yox, canım, narahatçılıq nədir! Yavaş-yavaş bu çəkişmələrə öyrəşməyə çalışıram.

-Belə gəlinə canım qurban.

Sözü uzatmaq, başqa sözlə çürütmək istəmirəm. İnsaf da yaxşı şeydir. Sözlərində həqiqət var. Hüseyn nahaq yerə, məntiqsiz iş görən birisi deyil. Yadıma düşür ki, atamla anam evimizə gələndə, Hüseyn əlimi ağdan qaraya vurmağa belə icazə vermir. Özü onların qulluğunda durur. Bu rəftarını çox bəyənirəm. Bəzi şeyləri Hüseyndən öyrənməyim heç də pis olmazdı, o zaman diqqətimi lazımi işlərə yönəldərdim. Kafedən çıxanda izdihamın içində heyətə tərəf yola düşürük. Gülməyim tutur. Hüseyn mənə baxır.

-Nə olub, nəyə gülürsən?

-Yadındadır, dünən evinizə bir xeyli qonaq gəlmişdi?

-Nə olsun ki.

-Qonaqlardan biri, adını çəkməyəcəyəm, məndən soruşdu ki, həyat yoldaşın dini heyətdən maaş alır? Sənin

daim heyətə getdiyini görüb düşünür ki, yəqin orada rəsmi bir işlə məşğulsan.

- Hüseyn də bu sözümə gülür, amma söhbəti davam etdirmir, qeybətə dönməyini istəmir. Hüseynin rəğbət bəslədiyi şeylərdən biri heyət, digərinin isə rövzə olduğunu bilirəm. Mən də rövzəni sevirəm, amma Hüseyndə olan şövq məndə yoxdur. Bunu, Hüseynin ucadan ağlamaq səslərini yada salıb deyirəm. Onun səsi həmişə başqa səslər içində rahatlıqla eşidilirdi.

Heyətə yaxınlaşırıq. Rövzə səsləri eşidilir: "Ya Əba Əbdillah."

# 20

Hüseynin anasının halı yaxşı deyil. Bu günlərdə tez-tez qonaq qəbul edirik, mən də kömək etmək üçün yuxarı qalxıram. Hüseynin bibisi həyat yoldaşı və oğulları ilə otaqda əyləşib. Çayı dəmə qoymuşam. Meyvələri yuyub qaba yığıram. Qapının səsini eşidəndə, otağa boylanıram, gələn Hüseyndir. Çay sinisini əlimdə tutaraq, mətbəxdən çıxıram. Hüseyn sinini məndən alıb qonaqlara çay paylayır. Mətbəxə qayıdıram. Boşqabları və meyvə bıçaqlarını hazırladığım halda, Hüseyn içəri girir. Gülümsəyirəm.

-Yorulmayasan, vaxtında gəlmisən.

Narahaçılığı açıq-aşkar hiss olunur.

Mərziyə, ya münasib paltar geyin, ya da kömək etmək üçün daha yuxarı qalxma. Özümü başdan-ayağa süzürəm. Əynimdə mavi rəngdə uzunqol köynək, ətək, yaylıq və güllü çadra var.

Hansı münasib geyimdən danışırsan? Mən ki, tamamilə hicablıyam!

-Mən manto və rəsmi geyimdən danışıram.

Hüseynin sözlərindən narahat oluram. Boşqabları və bıçaqları kənara qoyub aşağı düşürəm və qonaqlar gedənə

qədər otağımdan çıxmıram. Hər şeyə bu qədər ciddi yanaşmasının səbəbini anlaya bilmirəm. Öz-özümə düşünürəm ki, ona bəslədiyim məhəbbətin cavabı budurmu?!

Hüseyn qayıdıb gəlir. Mətbəx piltəsinin üstündə ət qovurması üçün kartof qızartmaqla məşğulam. Qovurma qazanının qapağını açır. Bəh-bəh! Yeməyin ətrinə bir bax!

Yaxşı yadımdadır, ilk dəfə bu qovurmanı bişirəndə, sarıkök qabı əlimdən xörəyin içinə düşmüşdü. Qazanı zibil vedrəsinə boşaldıb, balıq konservi yeməyə məcbur olmuşduq.

Hüseyn gülür.

-Küsmüsən?

Cavab vermirəm.

-Bağışla, Mərziyə can.

Əlimdən tutur.

-Mərziyə can, seyidsən, incimə, boş ver, bağışla.

-Kənara keç, səni bağışlayacağımı ağlına belə gətirmə.

-Mərziyə can, ər-arvad bir-birlərindən inciyəndə şeytan sevinir.

Oradan-burdan danışmağa başlayır, nəhayət, növbə gülməli xatirələrə çatır. Güldüyümü görəndə deyir: İndi ürəyim sakit oldu, barışdıq.

Heç vaxt uzun müddət küsülü qalmadıq. Həmişə də barışıq əlini ilk uzadan Hüseyn olurdu. Harada olduğumuzdan, kimin müqəssir olduğundan asılı olmayaraq; istər ailədə, istər bacı-qardaşlarımızın, istərsə də qohumlarımızın hüzurunda. Hamı bilirdi ki, barışıq üçün ilk addım atan Hüseyn olur.

Sabahı gün yuxarı qalxanda, Hüseynin anası ilə dərdləşməyə başlayıram.

-Ana can, mən hər dəfə qonaq gələndə rəsmi geyinərək, başıma çadra atıb sizə gələ bilmərəm ki!

-Ana qurban, Hüseynin narazı olmağa haqqı var. Geyimin münasib deyildi. Çadran açılır və geyimin görünürdü. Sən təzə gəlinsən, Hüseyn də həssasdır. Hamı ona başqa gözlə baxır, onun həyat yoldaşından da gözləntiləri çoxdur. Yerində baş üstə, deyə cavab ver, amma təklikdə söhbət edib, bir-birinizi qane etməyə çalışın. Amma aşağı düşüb daha yuxarı qalxmamağın Hüseyni çox narahat etdi. Bütün qonaqlar aranızda kiçik bir sözləşmənin baş verdiyini anladılar. Bir halda ki, daha siyasətli davranmaqla, məsələni rahatlıqla həll edə bilərdiniz.

Qayınanamın sözlərini və nəsihətlərini dinləyərək, qulağımda sırğa etməyə çalışıram ki, heç vaxt yadımdan çıxmasın. Səhv rəftar etdiyimi etiraf edirəm. Allah kişi ilə qadını bir-birləri üçün libas qərar verib. Hüseynlə mən bir-birimizdən incimişiksə, kənar adamların qarşısında eybimizi faş etməli deyilik.

Çayımı içib stəkanımı yuyuram. Ürəyim yüngülləşib. Əzimli və qərarlı addımlarla aşağı enirəm. Hüseynlə bəzi mövzular barədə danışmalıyam. Həssaslıq göstərdiyi incə nöqtələrdən xəbərim olsa, daha belə narahatlıqlarla üzləşmərik.

# 21

Bu günlər halım həmişəkindən fərqlidir. Hüseynə halımın fərqli olduğunu deyirəm. Həkimə gedib analiz veririk.

Bir neçə gündən sonra cavabları alıb birbaşa həkimin qəbuluna yollanırıq. Hüseyn analizlərimin cavabını masanın üzərinə qoyaraq deyir: “Sağlıq olsun, hamiləsən.”

Özümdən asılı olmayaraq, gözlərim yaşarır. Hamilə olmağa hazır deyildim. Bu qədər tez ana olmağı düşünmürdüm. Dərs oxuyurdum. İndi atama nə cavab verəcəyəm? Heç iyirmi yaşım tamam olmayıb hələ.

Hüseyn heyrətlə mənə baxır. Təəccübdən donub qalıb; həm hamiləlik xəbərimdən, həm də ağlamağımdan. Deyir ki, olacağa çarə yoxdur.

Halım çox pisdir, narahatam. Özümü uduzmuş birisi kimi hiss edirəm, bütün arzularım boşa çıxıb. Bir həftə bu halı yaşayıram. Hüseyn durmadan mənə ürək-dirək verir: “Bir fikirləş gör nə yaxşıdır, belə cavan yaşında ana olacaqsan.”

Sanki uşaqlıq dövrümə qayıtmışdım, tərsliyim tutmuşdu.

-Mən istəmirəm, uşaq istəmirəm.

-Mərziyə can! Körpəmiz olsa nə qədər yaxşı olar! Sənə bənzər birisi, çox şirin olar!

-Yox! Mən sənə bənzəməsini istəyirəm.

-Yox! Körpəmiz sənə oxşamalıdır.

Hüseynlə daim mübahisə edirdik ki, övladımız mənə yox, sənə oxşamalıdır. Heç birimiz də sözümüzdən dönmək istəmirdik.

Əhvalımın dəyişməsi üçün bazara, Tövhid meydanına getdik. Hüseyn məni uşaq malları satılan mağazaya apardı. Orada uşaq geyimi, oyuncaq, corab və balaca körpə ayaqqabıları satılırdı.

-Məni niyə bura gətirmisən? Elə bilirsən ki, bununla hər şey həll oldu?

-Məgər həll olası bir çətinliyimiz vardı? Niyə məsələni bu qədər çətinləşdirirsən, Mərziyə can? Heç bir şey barədə düşünmə. Bir bax buranın dünyası nə qədər kiçik və məsumdur! Qaşlarını bu qədər çatma, sən Allah! Belə bir məkanda narahat olmağa necə ürəyin gəlir!

Hüseynlə bütün dükanı yuxarıdan aşağıya kimi gəzdik. Onun təkidi ilə bir qədər alış-veriş edib dükandan çıxdıq. Vitrindən bizə iki dənə qara rəngli, eybəcər oyuncaq dil çıxarırdı. Hüseynlə birgə onlara baxıb gülürdük.

-Gör bir nə qədər məzəlidirlər.

Tələsik içəri girib hər ikisini mənim üçün aldı.

-Buyur, bunlar sənindir.

Uzun müddət bu işi gördük. Kefim pis olanda uşaq malları satılan mağazaya gedərək, uşaq geyimindən tutmuş oyuncağa qədər, ürəyimiz istəyən hər şeyi alırdıq. Yavaş-yavaş bu vəziyyətimə öyrəşirdim. Hüseyn mənə dəstək olurdu. Ana olacağımı qəbul etmək üçün mənə hər cür şərait yaradırdı. Axşamüstülər körpəmiz üçün

aldıqlarımızı paketdən çıxarıb onlara baxış keçirir və gülürdük. Artıq yavaş-yavaş ana olmağa hazır olurdum.

Anama hamilə olduğumu dedikdə, məni o ki, var danlayır. Deyir ki, belə şəraitdə, bu pulsuzluq və evsizliklə uşaq dünyaya gətirmək hələ tez idi. Ona cavab verirəm ki, özüm də istəmədən oldu. Mən ev alandan sonra ana olmaq istəyirdim, amma anam sözümü eşitməyib, hey öz dediyini təkrar edir. Anamın reaksiyası, atamın bu məsələyə necə yanaşacağıını düşünərək fikrə dalıram. Amma atam məsələni biləndə yalnız bir cümlə dedi: "Övlad Allahın nemətidir, ilahi bir hədiyyədir. Bu gündən gərək özünü qoruyasan."

Atam düşündüyümün tam əksinə olaraq, durumumla razılaşıb, Allahdan dünyaya gələcək körpəmin sağlam və ayağı düşərli olmasını istədi. Sonralar bildim ki, anamı dediyi sözlərdən dolayı danlamışdı.

Zaman keçdikcə halım pisləşirdi. Hamiləliyin özündə bu qədər problem daşıdığını bilmirdim. Bir neçə dəfə sistem köçürmək məcburiyyətində qalmışdım. İştaham kəsilmişdi. Daim ürəkbulanmam vardı. Bütün bunlar mənim dəymədüşər və küsəyən olmağıma bais olmuşdu. Hüseyn son dərəcə səbirli və mehribandır. Öz-özlüyümdə onun yaxşılığı və məhəbbətinə arxalanıram.

Süfrəni salıram, amma yeməyə iştaham yoxdur. Bu gün Hüseyn nahara gəlməyəcək. Günorta saat dörddən keçib. Qapının səsinə ayağa qalxıram, qarşımda məni nigarançılıqla süzən qaynanamın dayandığını görürəm.

-Nə olub Mərziyə can, halın yaxşı deyil?

Onu içəri dəvət edib, divanda əyləşməyini xahiş edirəm.

-Hələ nahar etməmisən? Hamilə qadın hara, bu vaxt nahar etmək hara? Gərək özünə qulluq edəsən, ana qurban.

Hüseynin anasını çox istəyirəm. Bütün xüsusiyyətlərində Hüseynlə eynidir. Çay və meyvə gətirmək istəyirəm, qoymur. Oturmağım üçün israr edir. Qaynanamın istəyinə uyğun əyləşirəm və ondan birgə nahar etməyimizi xahiş edirəm. Düşünürəm ki, bəlkə qonağın xətrinə, güclə bir-iki tikə yeyə bilim.

Sözümü yerə salmayıb süfrəyə əyləşir. Qazanın qapağını qaldırıram, qiyməli plovun ətri ürəyimi vurur. Artıq Hüseynin anasının köməyi ilə daha yaxşı aşpazlıq edirəm. Bəzən mənə çox incə şəkildə evdarlıq haqqında məsləhətlər verir. Mən də onlardan yararlanmağa çalışıram. Boşqabı qaynanamın qarşısına qoyuram.

-Buyurun, ana can, əlbəttə sizin dadlı yeməklərinizə çata bilməz. Hüseynin anasının gözəl əl qabiliyyəti vardı. Bişirdiyi yeməklərin dadından doymaq olmurdu. Ona çatmağıma hələ çox var.

-Çox dadlıdır, Allahın nemətidir. İstəməsən də özünü yeməyə məcbur et. Uşağı dünyaya gətirmək üçün gücün olmalıdır. Elə bilirsən asan məsələdir? Övladını böyüdənə qədər ananın nələr çəkdiyini kaş biləydin.

Yeməkdən zorla bir neçə qaşıq yeyirəm. Hüseynin anası məni qohumlarına baş çəkməyə dəvət etmək üçün gəlib. Bu işə həvəsim yoxdur. Halım o qədər də yaxşı deyil, digər tərəfdən Hüseyn olmadan harasa getməyi xoşlamıram.

-Hüseyn mənim gəlməyimə razı deyil.

Belə cavab verməyi Hüseyn özü mənə öyrədib. Bu cavabı verdikdən sonra daha heç bir sözə ehtiyac qalmır. Üzümə nəzər salır, rəngim solub. Ürəyiyananlıqla deyir:

-Elədir, ana qurban, gəlməsən daha yaxşıdır, rəng-ruhun solğundur.

Əlini dizinə çəkir. Ayağındakı artroz ona çox əziyyət verir. Süfrəni yığıram. Yaxşı, de görüm bu halınla niyə bizim də camaşırlarımızı yuyursan? Sən yaxşı-yaxşı dincəlməlisən. Gərək Hüseynə də tapşırım ki, bundan sonra evə daha tez gəlsin və sənin qulluğunda dayansın. Hamilə qadının xüsusi qayğıya ehtiyacı var.

Qaynanam camaşırlardan söhbət açanda, bunun Hüseynin işi olduğunu yəqin etdim. Tələsik dedim: "Camaşırları mən yumuram ki.. Paltaryuyan maşın özü yuyur, özü də qurudur, qalır yalnız sərmək."

Hüseynin anası ayaqlarında olan revmatizm ucbatından əlini suya vurmalı deyil. Hüseyn evlərindən camaşırları gətirib maşına yükləyir, yuyulandan sonra sərirdi. İpdən yığdığı quru camaşırları da səliqə ilə büküb evlərinə aparırdı. İndi anladım ki, anasına camaşırları mənim yuduğumu demişdi. Hüseynin arada mehribanlıq yaratmaq üçün etdiyi bu cəhdlərin aşiqi idim. Bu da həyəti yumaq və güllərə su vermək kimi bir iş idi. Sonra da deyirdi ki, Mərziyənin zəhmətidir.

Çox vaxt qaynanamgilin Nişapura getdiyi və evdə olmadıqları zaman bu işləri görürdü. Həyəti və pillələri yuyur, güllərə su verirdi. Onların qayıdacağı gün isə evi səliqəyə salaraq tərtəmiz edirdi. Mən də ailəsinin təşəkkürlərinin müqabilində heç nəyi büruzə vermirdim. Əgər Hüseyn belə olmasını istəyirdisə, ona qarşı çıxıb müqavimət göstərməyin mənası yox idi. Xüsusilə də, bu işlərin mənim üçün heç bir çətinliyi olmadığı bir halda. Bu qəbildən olan işlərə alışmışdım. Artıq, Hüseynin ailə üzvlərinin filan işimə, ya da filan hədiyyəmə görə təşəkkür etmələrinə təəccüblənmirdim. Yalnız "Rica edirəm, bir iş görməmişəm" ya da "Xahiş edirəm, özünüzü narahat etməyin" deyə, tələsik cavab verirdim.

Bu oyunda bəzən Hüseynin anası da bizimlə şərik olurdu. Evlərində yaşadığım birinci il, Hüseyn mənim üçün aldığı ad günü hədiyyəsini anasının adından mənə bağışlamışdı. Qaynanam hər şeyi çox adi qarşılayaraq özünü elə göstərmişdi ki, guya bağlamanın içində nə olduğundan belə xəbəri var. Hüseynin gülüşündən hər şeyi anlamışdım. Sonralar bu zirəkliyinə görə ona təşəkkür etmişdim.

Hüseyn anasına hörmətlə yanaşmamı istəyirdi. Bu səbəbdən sadaladığım işləri görürdü ki, anası ilə aramızda olan hörmət və məhəbbət hissi günbəgün artsın.

Hüseyn günorta işdən qayıtdı. Anası ilə bacıları da qohumlarının evindən qayıtmışdılar. Qapımızın önündən keçəndə, bizi onlarla birgə yuxarıda çay içməyə dəvət etdilər. Hüseyn üzünü mənə tutub deyir:

-Gözləyin baxım görüm Mərziyə gələ bilir, ya yox?

Hüseynin bu həddə diqqətli olub, mənim fikrimlə maraqlanması çox xoşuma gəlir. Əl-ələ tutub pillələrdən qalxırıq. Hüseyn mənimlədirsə, demək hər şey öz qaydasındadır. Çayımızı içəndən sonra qaynanam əlində bir boşqab plov və səbzi-qovurma ilə mətbəxdən çıxır.

-Nahara səbzi qovurma bişirmişdim, Hüseynin sevdiyi xörəkdir. Tək yeməyə ürəyim gəlmədi, bir pay ayırıb kənara qoymuşam.

Hüseyn sevincək yemək sinisini qarşısına çəkdi.

-Əllərinə sağlıq ana can, bəh-bəh, bir gör nə bişirmisən! Mərziyə, gəl birgə nahar edək.

-Yox, sağ ol, iştaham yoxdur.

-Sən yeməsən, mən də yeməyəcəyəm. Anacan, Mərziyənin də çox dadlı yemək bişirməyindən xəbərin var?

Evliliyimizin ilk günləri yadıma düşür. Bişirdiyim plov həmişə xəşil olar, aş qarası isə yaxşı alınmazdı. Həmin vaxt qaynanamın yanına qalxıb, ondan aşpazlıq haqda bir neçə sual soruşmuşdum.

-Anacan, nə edirsiz ki, bişirdiyiniz yeməklər bu qədər dadlı alınır?

Səbr və hövsələ ilə düyünün növlərini tanımaq qaydasını, nə qədər düyü islatmaq lazım olduğunu və süzülmədən öncə düyünün nə qədər qaynamasını mənə izah etdi. Sonra dedi:

-Özüm də bunları sənə demək istəyirdim, amma narahat ola biləcəyini düşünürdüm. Yaxşı ki, özün soruşdun.

Bu bir il ərzində qaynanamdan çox şey öyrənmişdim. Bəzən mənə gizlində kömək edərək, Hüseynin xüsusiyyətlərindən danışardı; nəyi bəyənib, nəyi bəyənmədiyini açıqlayardı. Bəzən də mən onunla dərdləşəndə deyərdi: "Hüseyn yaxşı oğlandır, amma onun da həssas olduğu cəhətlər var. Çalış ürəyini ələ al."

Hüseyn qaşığı mənə verərək əlimi yeməyə uzatmağımı gözləyir ki, özü də yeyə bilsin. Qaynanam deyir:

-Ye, Mərziyə can, sən günorta da heç nə yeməmisən. Hüseynlə birgə yeməyə başlayıram. Çox dadlıdır.

-Bəh-bəh necə də dadlıdır!

Hüseyn mənə baxır. Nuş olsun.

# 22

Hamiləliyimin üçüncü ayıdır, çəkim on iki kilo azalıb. Çox arıqlamışam. Qaynanam daim mənə baş çəkib halımı soruşur. Hüseyn hər addımda mənimlədir. O, da mənimlə yanaşı gün-gündən arıqlayır. Anası ona deyir: “Mən başa düşmürəm ki, Mərziyə hamilədir, ya sən.”

Səbəbini bilirəm. Süfrəni saldıqda, mənim yeyə bilmədiyimi görüb, özü də heç nə yemirdi. Harada olmağımızdan asılı olmayaraq, istər anamgildə, istərsə də qaynanamgildə, mən yeyə bilmədiyim halda, Hüseyn də əlini yeməyə uzatmazdı. Hüseynin arıqladığı məlum olduğundan, hamı məsələni anlamışdı.

Hüseyn üçün nigaranam. Kaş halım tez düzələrdi, Hüseynin də bu hamiləlik dövründəkiköməkləri bitərdi. Qaynanam həmişə soruşurdu: “Ana qurban, ürəyin nə istəyir, bişirim səninçün?”

Adını çəkdiyim hər yeməyi anında hazır edirlər. Məndən nə məhəbbət, nə də köməklərini əsirgəmirlər. Hərtərəfli dəstək olurlar. Yemək bişən kimi, Hüseyn mənim üçün qaba çəkib gətirir. Yeməklərin qoxusu mənə əziyyət verirdi. Hüseynin bacıları deyirdilər ki, filan

peçenyeni al ye, xeyirlidir. Ümumiyyətlə, mənə çox yaxşı məsləhətlər verərək, halımın düzəlməsinə bais olurdular.

Raziyənin ailə qurmaq vaxtı çatır. Aramızdakı yaş fərqinin bir neçə dəqiqə olmasına baxmayaraq, özümü böyük bacı kimi hiss edirdim. Raziyə üçün həyata keçirəcək bir çox planlarım var idi. Bu günlərdə qaçaqaçdayam. Elçilikdən tutmuş, hərinin verilməsinə qədər, bütün təfsilatdan xəbərdaram. Bəzən Raziyəyə xəbər çatdırıram. Allaha şükürlər olsun ki, ona yaxşı ailənin gəlini olmaq qismət oldu. Bacım razı idi, etiraz etmirdi. Bu məsələnin həllini böyüklərə etibar etmişdi. Mən Raziyə ilə ata-anam arasında körpüyə dönmüşdüm. Nişan bazarlığı, üzüklərin alınması, geyimlərin seçilməsi, hər bir işdə bacıma kömək edirdim. Hüseyn də etiraz etmirdi, imkan daxilində mənimlə gəlir, lazım bildiyi yerdə bəzi məsləhətlər verərək, mənə yol göstərirdi.

Raziyə də öz növbəsində Hüseynlə məsləhətləşirdi. Ailə üzvlərimlə Hüseyn arasında çox yaxşı münasibət vardı, onun sözünə etibar edirdilər. Raziyə hər çətin vəziyyətdə onunla məsləhətləşirdi. Sanki Hüseyn onun böyük qardaşı idi. Heç vaxt bacımı darda qoymazdı. Əlindən gələn heç nəyi əsirgəmirdi.

Hüseyn mənim ailəm üçün çox əziz və istəkli idi. Mən onun ailəsinin rəğbətini bu həddə qazana bilməmişdim. Nə üçün belə olduğunu başa düşmürdüm. Amma bütünlükdə deyə bilərəm ki, Hüseyndə olan qabiliyyətlər məndə yox idi. Hər kəsin ürəyini ələ gətirərək, onu özünə yol yoldaşı edə bilmək xüsusiyyətinə malik idi.

# 23

Artıq neçə vaxtdır ki, Hüseynin gördüyü yuxu hamınının müzakirə mövzusu olub. Yuxuda görmüşdü ki, oğlu dünyaya gəlib, adını da Əli qoyub. Baldızım məni Əlinin anası deyə səsləyirdi. Uşağa bazarlıq edəndə, çox vaxt oğlan üçün geyim və oyuncaq seçirdik.

Ürəyimdə Hüseynin yuxusunun çin olacağına inanıram. Hamiləliyimin altıncı ayında Hüseynlə birgə, Əhmədabad prospektində yerləşən klinikaya, həkim Azərmətinin qəbuluna gedirik. Hüseyn ultrasəs həkiminin qadın olmasına çox israr edirdi. Məni müayinə göndərəndə, Hüseynlə birgə qadın həkimi tapmaq üçün çox gəzib axtarmalı olmuşduq. Həkimin otağındakı çarpayıda uzanan zaman Hüseyn də bir kənarda dayanmışdı. Qısa müddət sükutdan sonra həkimin səsi eşidilir: "Xanım, körpəniz qızdır, Allaha şükürlər olsun ki, sağlamdır."

Qaş-qabağımı salladım. Gözləntilərim özünü doğrultmamışdı, yamanca pərt olmuşdum. Özümü körpəmizin oğlan olacağına hazırlamışdım. Amma Hüseynin çöhrəsində heç bir dəyişiklik görünmürdü. Sanki, məni oğlan övladının yolunu gözləməyə vadar edən, onun yuxusu deyildi. Qızımız sağlam idi, bu isə

Hüseyn üçün əhəmiyyət daşıyan yeganə məsələ idi. Ona bir daha yuxularına inanmayacağımı dedim.

-Qız övladı daha şirin, qəşəng, nazlı olur. Bir də ki, kim bilir, bəlkə ikinci övladımız oğlan oldu.

-Mən bir daha sənin yuxularına, vədələrinə inanmayacağam.

Evə qayıdanda Hüseynin anası pərt olduğumu hiss edir.

-Nə olub, ana qurban, niyə narahatsan?

-Bir şey olmayıb, ana can, hamısı Hüseynin təqsiridir. O qədər oğlan-oğlan demişdi ki, hamımızı körpənin oğlan olacağına inandırmışdı. Yoxsa, mənim üçün əvvəlcədən də körpəmizin oğlan ya qız olacağının fərqi yox idi.

-Mühüm uşağın sağlam olmasıdır, qızım. Bir də ki, indiki aparatlara inam yoxdur ki, Allahın bildiyi məsləhətdir.

Hüseyn stəkana Quran ayələri oxunmuş qabdan su süzərək mənə uzadır.

-Mən də elə onu deyirəm, ana can. Qız daha nazlıdır, daha ürəyəyatandır. Suyu içəndən sonra Hüseyn mənə üzərinə dua və Quran ayələri oxunmuş qırmızı alma verir. Əminliklə deyə bilərəm ki, hamiləlik dövründə üzərinə dua, ya Quran oxunmamış meyvə yeməmişdim. Hüseyn durmadan Quran xətm etməyimizə israr edirdi. Halım pis olduğundan, yalnız bir neçə cüz oxuya bilmişdim. Hüseyn mənə təzyiq göstərmirdi, amma çalışırdı ki, mənim üçün daha rahat şərait yaratsın. Hətta deyirdi ki, əgər sənin üçün dəstəmaz almaq çətindirsə, su gətirim, oturduğun yerdə dəstəmaz al.

Günlər bir-birini əvəz edir, getdikcə hamiləliyin sonuna yaxınlaşırdım. Hüseyn özü məni həkimə aparıb gətirirdi. Bir neçə gündən bir müayinə üçün həkimə gedirdik. Hüseyn də mənim qədər stress keçirib, nigarançılıq

çəkirdi. İşdən icazə almağa çalışırdı. İki gün mənimlə evdə qalırdı.

Ağrım gecə yarısı tutdu. Hüseyn öz anasına və mənim anama xəbər verdi. Çantamı yığıb hazırlamışdım. Analarımızla birgə “17 Şəhrivər” xəstəxanasına getdik. Xəstəxanadakı həkim müayinəsindən sonra ağrımın hələ təzə başladığını söylədilər. Hələ iyirmi dörd saat bu vəziyyətdə qala bilərdim. İstəsəm evə gedə bilərəm, əks halda xəstəxanada qalmalı olacağam.

Hüseyn xəstəxanada qalmağımı istəyirdi. Məni xəstəxanaya yatırdıqdan sonra Hüseyn, anam və qaynanamla birgə mənimlə qaldı. Doğum şöbəsinə yerləşdirildim, amma orada tək qalmağa taqətim çatmadı. Çadramı başıma atıb Hüseynlə söhbət etməyə gedirdim. Həkim gələndə qayıdırdım. Ağrım o qədər şiddətli deyildi ki, bu get-gəllərə halım olmasın. Bu minvalla bir neçə saat keçdi. Lakin ağrı güclənəndə artıq gedib-gələ bilmədim. Hüseyn hər şeyi anladı.

Anam deyirdi: “Hüseyn çox ağlayırdı. Qapının arxasında nigaran halda dayanıb dua oxuyurdu.”

Hüseyn özü sonralar danışırdı ki, sakitləşmək üçün namazxanaya getdim. Körpənin dünyaya gəlməsi xəbərini eşidənədək, Aşura ziyarətini oxumaqla məşğul oldum.

2002-ci il noyabr ayının 2-də Hüseyn əlində böyük bir gül dəstəsi tutaraq, doğum şöbəsinə daxil olmaq istədi, lakin ona icazə vermədilər. Həmin gün Məhlanın dünyaya gəlişi ilə həyatımızın ən duyğulu anlarını yaşadıq. Hər bir şeyin mənası və məfhumu dəyişmişdi. Hamı sevinirdi. Hüseynin anası və bacıları vaxtlı-vaxtsız məni və uşağı görməyə gəlir, amma onlara daxil olmaq icazəsi vermirdilər. Sübh tezdən ilk görmək istədiyim insan

Hüseyn olmuşdu. Həkim yeriməyimə icazə vermirdi. Bu üzdən məni xəstə arabasına oturdurlar.

Körpəni dizimin üstünə qoyub, tibb bacısının köməyi ilə doğum şöbəsindən xaric oldum. Şöbənin girişində pərdə asılmışdı, Hüseyn həmin yerə gəlmişdi. Çox sevinirdi. Üzü və gözləri qıpqırmızı idi. Bilmirəm ağlamaqdan, ya yuxusuzluqdan bu hala qalmışdı. Məni görər-görməz dizləri üstə çökdü. Boyumuz bərabərləşən kimi alnımdan öpərək, ehtiyatla Məhlanı qucağımdan götürdü.

-Gör bir nə qədər balacadır! Sənə necə də bənzəyir!

Gülümsədim

-Yox sənə bənzəyir.

Məhla atasına bənzəyirdi, hamı belə deyirdi. Hüseyn "Ayətəl-Kürsi" və "Qul" sözü ilə başlayan dörd surəni (İxlas, Fələq, Nas, Kafirun) uşaq üçün oxuyaraq, ətrafına üfürdü.

Ayətəl-Kürsini Məhla üçün, dörd "Qul"-u isə sənin üçün oxudum.

Biz Hüseynlə söhbət edərkən, Məhla sakitcə dizlərim üstə yatmışdı. Tibb bacısı neçə dəfə məni aparmağa gəldi. Axırıncı dəfə güclə bizi bir-birimizdən ayıraraq, məni doğum şöbəsinə qaytardılar. Həmin gecə çox uzun keçdi. Ürəyim istəyirdi ki, səhər tez açılsın və Hüseyn bizi evə aparsın. Salam və salavatla evə daxil oluruq. Baldızım üzərlik yandıraraq, mənimlə Məhlanın başına çevirir. Qonaq otağımız kiçilərək, L şəklinə düşüb. Otağın bir küncündə Məhlanın beşiyi, şkafı, oyuncaqları və Hüseynin bacı- qardaşları ilə mənim ailəm tərəfindən alınmış çoxsaylı hədiyyələri yer alıb.

Həyatımıza yeni məna bəxş edən körpəyə öyrəşməyimizə xeyli vaxt lazım oldu. Gecələr yuxusuz

qalmaq məni bir qədər yorurdu. Digər tərəfdən Hüseyn də Məhlanın üstündə çox əsirdi. Xəstəxanadan evə gəldiyimiz gündən bizi tək qoymurdu. Dost-tanış, əzizlərimiz bu hala etiraz edərək deyirdilər ki, ürəyimiz sıxıldı, bəsdir daha, gəl keç o biri tərəfə.

O qədər sevinirdi ki, bizdən ayrılmaq istəmirdi. Hüseynin anası mənə hərtərəfli kömək edirdi. Hüseyn inanırdı ki, anasının uşağa qulluqda bir mütəxəssis həkim qədər təcrübəsi var. Hüseyn hər şeyə elə diqqət yetirirdi ki, mənim danışdığım kiçik bir əhvalata ciddi yanaşaraq, özünü borca-xərcə salmışdı. Mənim bu işdən heç xəbərim yox idi. Bu hadisə hamiləliyimin son aylarında baş vermişdi. Yenicə övlad sahibi olmuş dayım qızına baş çəkməyə gedəndə, qaynanasının onun körpəsi üçün bahalı qolbaq aldığını görmüşdüm. Bunu heç bir məqsəd güdmədən, sadəcə söhbət xətrinə danışmışdım. Amma Məhlanın dünyaya gəlişindən bir neçə gün sonra, Hüseynlə anası böyük bir gül dəstəsi ilə evimizə gəldilər. Bir qədər oturduqdan sonra qaynanam mənə balaca bir hədiyyə qutusu uzatdı. Hədiyyəni açdım. İçində Məhla üçün bəzəkli qızıl qolbaq var idi. Qolbaq olduqca gözəl idi. Çox sevindim. Qolbağı körpəmin biləyinə keçirib, qaynanama bol-bol təşəkkür etdim. Sonralar həmin qızıl bilərziyin Hüseyn tərəfindən alındığını anladım. Anasına olan məhəbbətimi artırmaq üçün bilərziyi onun adından bağışlamışdı. Bəzən qaynanam guya onun adından mənim üçün alınan bu hədiyyələri açanda təəccüblənirdi, lakin heç bir şeyi büruzə vermədən susurdu. Mən də öz növbəmdə çoxlu təşəkkür edirdim. Mənim üçün bir ana tək ürək yandırırdı. Məhla ağlayanda nə edəcəyimi bilmirdim. Hüseyn pillələrdən yuxarı qaçaraq uşağı anasına aparırdı. Bilmirəm nə edirdilər, necə edirdilər,

amma körpəmi sakit və rahatlaşmış bir halda mənə qaytarırdılar. Əvəzində, gecələr oyaq qalmaqdan başqa çarəm olmurdu. Hüseyn həmişə mənə eşitdirirdi ki, ehtiyatlı ol, yuxulu olarsan, uşaq əlindən düşər.

Dilxor olurdum. Bəzən etiraz edərək deyirdim ki, mən də insanam, niyə heç kim mənim qayğıma qalmır?

Məhla böyüdükcə işim də artırdı. İşlərimin öhdəsindən gələ bilmirdim. Hüseyn mənə kömək etmək üçün Məhlanı yedirməyi öz üzərinə götürdü. İlk günlərində yaxşı yemirdi, amma sonralar min bir oyunla onu yedirməyə nail oldu. Bəzən bir neçə qarışqa tutaraq, ağ kağızın üzərinə qoyur və uşağın fikrini yayındıraraq, onu yedirə bilirdi. Bəzən də xırda oyuncaqları barmağına keçirərək, onları tərpədirdi ki, uşaq ağzını açıb yeməyini yesin. Elə olmuşdu ki, Məhla yalnız Hüseynin verdiyi yeməyi yeyirdi.

Mən də öz növbəmdə çalışırdım ki, onun sevdiyi yeməkləri bişirim. Hüseyn özünü bu nemət yağışından kənarda saxlamırdı. Misal üçün, qızarmış kartofu hər ikisi sevirdilər.

Ona deyirdim ki, kartofların yarıdan çoxunu özün yedin, uşağa nə qaldı?

- Məgər bunların zəhmət haqqı olduğunu bilmirsən? Necə ürəyin gəlir ki, mən heç nə yeməyim?

-Olmaz ki, zəhmət haqqını ayrı alasan? Bu şəkildə uşağın nə qədər yediyini anlaya bilmirəm.

-Əzizim, belə yeməyin öz ləzzəti var. Sən qarışma, biz ata-bala öz işimizi yaxşı bilirik.

Məhla böyük qız olanda belə, atası ilə yemək yeməyi çox sevərdi. Həmişə deyirdi ki, gözlə, atam gəlsin, süfrəyə birgə əyləşək.

**24**

Məhlanın dünyaya gəlişi Hüseynin işsiz qalmağı ilə üst-üstə düşmüşdü. Mən bu məsələdən çox narahat idim, o isə qətiyyən işə gedib-gəlməyə razı olmurdu. Əlbəttə gətirdiyi dəlillər tamamilə düzgün və məntiqli idi. Onu inandıracaq heç bir sözüm yox idi, məni yeganə narahat edən məsələ yaşayış xərcləri idi. Xüsusilə, ailəmizə yeni üzvün dünyaya gəldiyi bir şəraitdə. İşdən istefa verib evə qayıdan gün sevinirdi. O, Məhlaya süd verəndə gəlib çıxdı. Dedim: "Axır ki, öz işini gördün? Başqa yol tapa bilməzdin?" Məhlanı öpüb barmağı ilə onun balaca əlini tutdu.

- Sən razı olardın ki, mən işimə görə günaha batım? İmanım titrəsin? Sayğacı yoxlayan məmur kimi naməhrəm hesab olunduğum bir evə daxil olanda nə etməliyəm? Xanım açıq-saçıq vəziyyətdə qarşıma çıxanda mən həyətdə işləməliyəm? Otağın qapısını üzümə bağlayanda sən harada idin? Bir hiylə ilə qapını açıb evdən qaçdım. Belə bir işdə işləyə bilmərəm, Allahın peyğəmbəri də deyiləm ki, deyim bu tələyə düşməyəcəyəm. Gözümü yumub camaatın həyatinə girə bilmərəm ki... Belə vəziyyətdə mənim vəzifəm nədir?

- Hüseyn, mən sənə o işdə qalmağını demirəm ki... Bəlkə sən başqa şöbəyə keçəsən?

- Olmurdu, yoxsa başqa şöbəyə keçərdim. Allah Kərimdir, mən özümü günahdan xilas etmək üçün bu işdən əl çəkdim. Allah bizə əvəzini verəcək. Hüseynin sözləri və arqumentləri tamamilə düzgün idi. Mənim deməyə heç bir sözüm qalmamışdı. Allaha təvəkkül edərək, səbrli olmaqdan başqa çarəm yox idi. Hüseyn iş axtardığı günlərdə boş vaxtı daha çox olurdu və ev işlərində mənə yardım edirdi. Bir müddətdən sonra atasının əvvəllər işlədiyi fabrikdə işə düzəldi. Atası

təqaüdə çıxdığından, qanuna görə o, atasının yerində işləyə bilərdi. Hüseynin hesablamalarının həyata keçdiyini düşünürdüm. Allah bizim çəkdiyimiz əziyyətlərin əvəzinizi vermişdi. Mən elə bu fəhlə maaşına və ev almaq üçün qənaət etməyimə də razı idim. Məhla gündən-günə böyüyürdü. Artıq bir yaşı tamam olmuşdu. Həm Hüseyn, həm də bütün ailəmiz Məhlaya çox diqqət yetirirdi. Yayda bəzən həyətə həsir sərirdik və Hüseynin bacısı Məhlanı addım-addım gəzdirirdi. İndi işsiz qaldığım vaxt olmurdu. Mən bütün vaxtımı uşağa baxmağa və evdarlığa sərf edirdim. O gün də həyətdə oturmuşduq ki, Hüseyn gəldi. Yorğun idi, amma söhbət Məhladan gedəndə onun üçün yorğunluğun mənası yox idi. Bir az uşaqla oynadıqdan sonra otağımıza getməyimi istədi. Başı ağrıdığını dedi. Hüseynin arxasınca otağa daxil oldum və Məhlanı uşaq arabasına qoydum. Hüseyn fikirli idi, stulda oturdu. Soruşdum ki Hüseyn halın yaxşıdır? - Mərziyə, gəl otur mənə de görüm, bu xəbəri anama necə çatdırım? Yanında oturdum...- Nə baş verib? Hüseynin xalası oğlu qatarda baş vermiş partlayış nəticəsində dünyasını dəyişmişdi. O, isə bu xəbəri ürək xəstəsi olan anasına necə çatdıracağını bilmirdi. Nəhayət, çətinliklə də olsa xəbəri çatdırmağa məcbur olduq

Sabahı gün səhər tezdən, hamımız başsağlığı vermək üçün Hüseynin xalasıgilə yola düşdük.

Nahar vaxtı orada idik. Qayıdan zaman, qaynımdan Hüseynin ac olduğunu eşitdim, məclisdə əlini heç nəyə uzatmamışdı; nə çaya, nə xurmaya, nə suya, nə də ki yeməyə. Səbəbini yalnız Hüseyn anladıb, izah edə bilərdi.

-O Allah bəndəsinin azyaşlı övladları var. Bu yas məclisi də həmin körpələrin pulu ilə keçirilib. Mən körpələrin və yetimlərin malını yeyə bilmərəm.

Heç birimiz Hüseyn qədər diqqətli və qayğıkeş deyildik. Belə anlamlara fikir vermirdik. Bu il ərzində bir çox şeyləri hələ yenicə dərk edib, anlamağa başlamışdım. Hüseynin hər dəvəti qəbul etmədiyini və yediyi hər bir şeyə diqqət yetirdiyini görürdüm. Amma bu həddə incəliklərə fikir verəcəyini ağlıma belə gətirməzdim. Özümü bu həyat tərzinə, Hüseynin xasiyyətinə alışdırmağa çalışırdım. Mümkün qədər az etiraz etmək fikrindəydim. Zənnimcə, bu qədər ehtiyat etmək də artıq idi. Ürəyimdən keçirdi ki, o da başqaları kimi olsun, tanıdığım bir çoxları kimi. Amma Hüseyn hamıdan fərqli xəmirdən yoğrulmuşdu. Mən də zaman keçdikcə, nə qədər çətin olsa belə, onun bu rəftarlarına öyrəşməli idim. Çətin iş idi. Bir gün Hüseynin istəyi ilə hərəmə getdik. Çətinliklərlə üzləşəndə hərəmə üz tuturduq. Bu, təkcə problemlərimizin həllində deyil, ruhi rahatlığımız və təskinliyimiz üçün də yararlı idi. Bahar fəsli yenicə başlamışdı, hava mülayim və ürəkaçan idi. Gəzməyə çıxandan sonra evə qayıtmaq istəmirdik.

Məhla yavaş-yavaş addımlayaraq, hərəmin həyətindən çıxırdı. Hüseyn mənə baxdı.

-İndi hara gedək?

-Bilmirəm. Məgər gedəsi bir yer var?

-Niyə yoxdur ki... İranın hər qarışı gəzməlidir.

-Pulumuz yoxdur axı...

-Əxləmədə qədər gedə bilərik ki...

-Əxləməd? Belə bir vaxtda? İndi?

-Nə olar ki.. Elə indi gedərik ki, gedə bilməyimizin mümkün olduğunu görəsən.

-Axı biz adətən həftə sonları ora gedirik.

-Sən bu gün həftə sonu olduğunu düşün.

Atam Əxləməd kəndinin sakini olduğundan, babam hələ də orada idi. Onu hər ikimiz çox sevirdik, xüsusilə də Hüseyn. O, babamı ürəklərə yol tapa bilən, mərifət sahibi olan birisi kimi tanıyırdı. Babamın etdiyi söhbətlər ürəyəyatan idi.

Özümüzü parkın dairəsinə çatdırıb, Əxləmədə gedən bir maşın saxladıq.

Hüseynə dedim ki, özümlə heç nə götürməmişəm, nə geyim, nə yemək.

-Bəs mağazalara nə gəlib? Yolda alarıq.

Biz Əxləmədə çatanda artıq günorta idi. Bacardığımız qədər dağdan yuxarı qalxdıq. Məhlanı babamın evində, qohumumuzun qızlarının nəzarəti altında qoymuşduq. Qalxmaq çətin olan yerlərdə, Hüseyn əlimdən tuturdu. Çatan kimi dağın təmiz havasını ciyərlərimə çəkdim. Çox ürəkaçan bir gün idi. Babamgildə nahar edərək, evə qayıtdıq. Tezliklə pis xəbər eşidəcəyimizi bilmirdik.

Babamın ölüm xəbərini eşidəndə Hüseyn hamıdan çox narahat oldu. Sanki, ona doğmalarından birinin ölüm xəbərini gətirmişdilər. Qara geyinərək, qəmgin halda öncə anamın evinə, oradan da imam Riza qəbiristanlığına getdik. Babamı torpağa tapşıranda Hüseyni gözdən itirdim. Onu mərasim sona çatana yaxın gördüm.

-Haradasan, nigaran qaldım. Bayaqdan səni axtarıram.

Gözləri qızarmışdı. Şəhidlərin məzarını ziyarət etmişdi. İmam Riza qəbiristanlığına gəlib, şəhidlərin qəbrini ziyarət etməməsi mümkünsüz idi. Şəhidlər xiyabanına gedəndə də zamanın necə keçdiyini hiss etmirdi. Amma bununla yanaşı, bu gün bura nə üçün gəldiyimizi unudacağını ondan gözləmirdim.

Gözləri qızarmış halda qarşımda dayanmışdı.

-Getmişdim şəhidlərdən xahiş edim ki, Allahdan baban üçün bağışlanmaq diləsinlər.

Onun bu sözləri dağ çəkilmiş sinəmə səpilən bir içim su kimi idi. Qəlbim təskinlik tapdı.

# 25

Hüseynin neçə vaxt təzə işində işlədiyini bilmirəm, amma bir gün çox pərişan halda evə qayıtdı. Nigaran qaldım.

-Nə olub? İşə getməmişdin?

-Getmişdim.

-Bəs niyə qayıtmısan?

-Dedilər ki, daha gəlmə.

-Nə səbəbdən? Nə etmisən ki?

-Heç nə.

-Hamını işdən çıxarıblar, yoxsa təkcə səni?

-Yox, təkcə məni. Yalnız mən işdən çıxmışam.

Əlimdə Məhlanın əskisi vardı, onu qaz peçinin üzərində qurudurdum. Hava şaxtalı idi, bu il qış gözlənilmədən tez çatmış və özü ilə buzlu, soyuq hava gətirmişdi. Noyabrın axırı olmasına baxmayaraq, qış var gücü ilə tüğyan edirdi. Əlimdə əski Hüseynin yanında əyləşdim.

-Nə üçün işdən çıxdın? Özü də belə çətin vəziyyətdə. Körpəmiz yenicə dünyaya gəlib, evimiz yoxdur. Axı nə oldu? Nə etmisən?

-Heç nə. Yalnız zöhr namazı vaxtı beş dəqiqəlik dəzgahı söndürüb namazımı qıldım. Öncə də demişdim,

qəbul etməmişdilər. Tərslik edirdilər. Mən öz bildiyimi etdim. Onlar da məni işdən qovdular.

-Belə rahat?

Əlini əlimin üstünə qoydu.

-Yox, düşündüyün qədər də rahat deyildi. Neçə vaxt idi mənim bu tələbimə görə qarşıdurma yaranmışdı. Namaz vaxtını kompensasiya etmək üçün əlavə işləmək istəyirdim, amma razı olmurdular.

-Bəlkə də işçilərin sayını azaltmaq üçün bəhanə axtarırdılar.

Çiyinlərini çəkdi.

Qışın təzə başladığı bir vaxtda işsiz və pulsuz qalmışdıq. Səbr etməkdən başqa çarəm yox idi. Sonralar gümanımın düz çıxdığını anlamışdım. Fabrik doğrudan da işçilərinin sayını azaltmaq istədiyindən, hər kəs üçün bir bəhanə uydururdu.

Kənardan elə görünürdü ki, həyatımız öz həmişəki axarı ilə davam edir. Hüseyn neçə vaxt idi ki, sənaye şəhərciyində yerləşən adyal və tikiş fabrikində fəhləlik edirdi. İş rejimi üç növbəli və dəyişkən qrafikli idi. Hüseyn bəzən səhər, bəzən gündüz, bəzən də gecə növbəsində işləyirdi. Növbəsi nə vaxt çatırsa çatsın, biz bir söz deməyib, həmin işə razı və qane olmağa çalışırdıq. Həyatın öz çətinlikləri vardı. Biz də bunu bilirdik.

Məhlanın üç yaşını ikilikdə qeyd etdik. Bu, Novid şəhərciyində yeni evlərin tikilməsi ilə eyni zamanda baş verdi.

Novid şəhərciyi əldən-ayaqdan uzaq yerdə yerləşirdi. Şəhərin mərkəzindən və anamın evindən çox aralı idi. Amma bu evin bir yaxşı cəhəti var idi. Torpağın pulunun yarısını qaynatamın verməsinə baxmayaraq, bu bizim öz evimiz idi. Buna görə ona çox minnətdar idik.

Ev tikilən kimi Raziyə və anamın köməyi ilə əşyalarımızı qutuya yığıb, köçməyə hazır olduq. Güzgünü və Quranı əlimizdə tutub maşına əyləşdik. Əşyalarımızın yığıldığı kiçik yük maşını çatmazdan öncə, anam və Raziyə ilə yeni evimizə çatdıq. Balaca və rahat bir ev idi. Sevincim yerə-göyə sığmırdı. Hüseyn içəri girən kimi hay-küy saldı: "Xanım, ya Allah! Əşyalarımızı maşından boşaldım?"

Bu bomboş ev əşyaları və mebeli yığandan sonra üçümüzün yaşaması üçün rahat və sevimli bir məkana döndü. Hüseyn də mənim kimi sevinir və öz-özünə gülürdü. Ona dedim ki, heç ev sahibi ola biləcəyimizə inanırdın?"

Gülə-gülə dedi: "Artıq müstəqil olmuşuq. Daha ata-analarımızın bizə kömək edə biləcəklərini unutmalıyıq. Yalnız öz əlimiz, öz cibimiz.

-Kömək edə biləcəklərini? Ananı demirəm, amma başqaları çox vaxt köməyin mənasını səhv anlayırdılar.

Sözümü bitirməyə macal vermədi.

-Bu təbiidir, Mərziyə can. Fikir ayrılığı hər bir cəmiyyətdə yarana bilər, hətta səninlə bacın arasında belə.

-Mən etiraz etmirəm, bircə deyirəm ki, etdiklərini həmişə kömək adlandırmaq olmazdı.

Gülə-gülə deyir:

-Belə olsaydı, həyat maraqsız olardı ki, canım. Kin-küdurətin olmadığı həyat, həyat deyil ki...

Güzgünü dəsmalla silərək, ikimizin onda əks olunan görünüşünə gülümsəyirəm. Bu evdə yalnız ikimiz idik. Eynilə öz istədiyim kimi.

Səhər tezdən Məhlanın səsinə yuxudan ayılıram. Onu yatıran kimi, çaydanı qaynamağa qoyub, səhər yeməyi üçün süfrə hazırlayıram. Əyləşirik.

-Bu gündən avtomobil ilə işə gedib-gələcəyəm.

-İşə xüsusi xidmət maşını ilə getmirsən?

-Yox.

-Nəsə baş verib?

Olmaya işdən çıxmaq istəyirsən?

-Hələ yox. Əmr bil-mərufu yerinə yetirmək üçün yol axtarıram. Xidməti maşında haram musiqi səsləndirirlər. Bir dəfə onlara etiraz etdim, amma qulaq asmadılar. Digərlərini günahdan çəkindirə bilmədiyimi görəndə, etiraz əlaməti olaraq, özümü bu maşının sərnişinləri siyahısından silmək qərarına gəldim. Bəlkə vəziyyət düzələr.

-Yaxşı, bildiyin kimi hərəkət et!

Hüseyn hər gün maşınla işə gedir. Benzin puluna, nigarançılığa, yolun uzun olmasına baxmayaraq, heç nə demirdim. Amma bu iş bizə çətinlik yaradırdı, çünki, hər ayın büdcəsini, çəkdiyimiz xərcləri səbr və qənaətlə bağlayıb, ümid və arzu ilə yeni aya keçirdik.

Hüseyn mənə ürək-dirək verərək deyirdi: "Mərziyə can, axırzamanda imanı saxlamaq, ovucda od parçasını saxlamaq kimi olacaq."

Həmin il aşura günündə, keçən iki ildə olduğu kimi, Hüseynin işlədiyi fabrik öz işini dayandırmadı. Hüseyn bu məsələdən çox narahat idi. O, yaranmış vəziyyətə etiraz etmiş, hətta ərizə yazaraq, Aşura günündə əldə olunan gündəlik gəlirin heç bir xeyir və bərəkəti olmadığını bildirmişdi. İmam Hüseynin (ə) hörməti xətrinə fabrik iki günlük bağlanmalı və fəhlələr rahat əzadarlıq edə bilməlidilər. Hüseyn ərizəsini fabrikin təsisçisinə belə göndərməyə nail olmuşdu.

Bu işi diqqətlə araşdırdıqdan sonra, istisna olaraq, Hüseynə əzadarlıq edə bilməsi üçün iki günlük icazə

vermiş, fabrikin işini isə dayandırmamışdılar. Hüseynin yaranmış hər məsələyə görə davamlı təkid etməsi fabrikin müdiriyyətini narahat edirdi. O, digər insanlar kimi deyildi, başqa sözlə desək, digərlərinin dinə baxışı onun kimi deyildi. Bu, etirazların əsas səbəbi idi. Nigarançılığım yersiz deyildi. Qışın sonu, baharın əvvəlində fabrikin rəhbərliyi Hüseynlə sahibkar-işçi müqaviləsinin müddətini uzatmaqdan imtina edərək onu işdən çıxardı. Həmkarlar ittifaqına şikayət etməyimizin də heç bir nəticəsi olmadı.

Bir qədər ayaq döydükdən sonra Hüseynə iki ayın maaşı və iş sığortasını ödədilər. Mən aldığımız iki ayın maaşını Hüseyn yenidən iş tapana qədər çatdırmağa və səbr etməyə çalışıram. Hüseyn də özünü oda-suya vurub hər yerdə iş axtarır, hər elanın, hər işçi axtaranın sorağına gedirdi. Hər ikimiz təlaş edirdik Hüseyn isə həmişəki kimi Allahın Kəramətinə inanırdı. Deyirdi ki, Allah onun üçün iş görən şəxsin çətinliklərini aradan qaldırır.

Onun bu inamından əsəblərim gərilirdi. Allaha olan imanı çox güclü idi, amma mənim ürəyim yerində deyildi. Sakit və heç kimdən fərqlənməyən bir həyatım olmasını istərdim. Atamın məmur həyatında belə eniş-yoxuşlar yox idi. İşsizlik və pulsuzluq kimi məfhumlarla tanış deyildim. Bu çətinliklərə sinə gərmək o qədər də asan deyildi. Bəzən taqətim kəsilir və şikayətlənməyə başlayırdım. Hüseyn isə əqidəsinə zidd olanları qəbul etmir və heç kimin qarşısında əyilmirdi. Bəzən ürəyimdən keçirdi ki, kaş Hüseyndə olan səbr məndə də olardı.

# 26

“Allahdan nur almış insan” kitabını rəfdən götürürəm. Hüseynin onu oxuduğunu bilirəm. Evimizdə bu qəbildən olan kitablar çoxdur. Səhifeyi Səccadiyyə, Nəhcül-bəlağə, Şükran, şəhidlərin həyatı barədə kitablar... Hüseyn belə ədəbiyyata çox bağlı idi. Kitabı qarşısında tuturam.

-Hüseyn can, sən şəhid Burunsini özünə bir nümunə bilirsən, amma olan şey deyil. Onlar başqa növdən olan insanlar idi. Hər dövrün özünəməxsus zərurətləri olur... Zənnimcə, sən çox sadə məsələləri problemə çevirirsən. Biz halal ruzi istəyənlərdənik. Sən də onu qazanmaq üçün zəhmət çəkirsən. Bəs niyə hər şeyi bu qədər çətinləşdirib, heç bir işdə davam gətirə bilmirsən?

Şəhid Burunsinin həyatından bəhs edən kitabı oxumuşdum. O, həmin komandir idi ki, daim iş yerini dəyişir və İslam Keşikçiləri Korpusundan azacıq da olsa, kömək qəbul etmək istəmirdi. Bu kitab bütünlüklə çox çətin bir şəraitdə yaşayan kişi ilə qadın və onların çoxsaylı kiçik övladlarının əhvalatından ibarət idi. Şəhidlərin həyat çətinliklərini dadmaq istəmirdim. Sadəcə yaşamaq istəyirdim; başağrısız bir həyat arzusundaydım.

Qarşımda əyləşib kitabı məndən alır.

-Bəs bunlar kimin üçün yazılır, Mərziyə?

-Yəni sən şəhidlərin həyatından yalnız tez-tez iş yerini dəyişməyi öyrənməli idin?

Gülə-gülə deyir:

-Müharibə vaxtı deyil, yoxsa mənim tamamilə bir şəhid Burunsi olduğumu görərdin.

-Mən belə həyatı... Yəni demək istəyirəm ki, mən bu tərzdə yaşaya bilən bir insan deyiləm.

-Niyə ki... Sən elə həmin insansan. Özü də lap əlasından. Yoxsa mənim həyat yoldaşım olmazdın, Allah da bizi yan-yana qoymazdı.

Kitabı rəfə qoyur.

-Bu qədər özünü narahat etmə, xanım. Bir gün şəhid olsam, vicdanın sənə əzab verəcək ki, kaş bu işləri görməzdim.

Əlimdən tutur.

-Dur gedək bir stəkan təzə dəm çay içək.

Mətbəxə gedirik. Çaydanı qaynamağa qoyub oxumağa başlayır:

***Xoda gər ze hekmət bebəndəd dəri,***
***Ze rəhmət qoşayəd dəre digəri.***

(Allah öz hikməti ilə bir qapını bağlasa, sonsuz rəhmətilə digər bir qapını açar.)

Qaşqabağımı sallayıram ki, Allah heç bir qapını bağlamır, bəndələr özləri min bir bəhanə axtarmaqla məşğuldurlar.

Siniyə iki stəkan və boş qənddan qoyur. Qənd qabının harada olduğunu soruşur.

Qənd qabını götürüb qənddanı doldururam. Mənə məhəbbət dolu baxışlarla baxır. Qəndin birini mənə uzadır.

-Daha bəsdir qəm-qüssə yedin, əvəzinə qənd ye, ovqatın şirin olsun. Tezliklə meyvə şirəsi istehsal edən fabrikdə işləyəcəyəm, o zaman su əvəzinə meyvə şirəsi içərsən.

-Meyvə şirəsi özünə qalsın. Söz ver ki, orada qalıb işləyəcəksən. Mən başqa bir şey istəmirəm.

Hüseyn işə başlayandan, hər günüm iztirab içində keçir. Daim nəzir edirəm, zikr edərək, salavat çevirirəm ki, yenidən bir problemlə qarşılaşmayaq. Hüseyn şirkətin rəsmi meneceri olmaqla yanaşı, sənədlərlə də məşğul olur. Səhər işə gedib, günorta qayıdır.

Bu axşam evdə tənhayıq, Məhla yatıb. Televizoru yandırıram, rövzə oxuyurlar. Həzrət Zeynəbin vəfat günüdür. Göz yaşlarım yenicə yanaqlarıma süzülməyə başlamışdı ki, qapının səsi məni həzrət Zeynəbin müsibətinin fikrindən ayırır. Gələn əyninə qara köynək geyinmiş Hüseyndir. Təəccüblə qapıya tərəf gedib deyirəm: "Salam. Nə yaxşı tez gəlmisən. Məgər şam yeməyinə getməmişdin?"

Pərişan və hövsələsizdir. Geyimini əvəz edənə qədər iki stəkan çay süzüb masanın üstünə qoyuram. Ona sual dolu baxışlarımı dikib, cavab gözləyirəm.

-Hansı şam yeməyindən danışırsan? Həzrət Zeynəbin vəfat axşamı musiqi çalınan bayram məclisi keçirilir, daha buna nə ad qoymaq olar?!

-Hər şeyin üstündən bu sadəliklə adlayıb keçəcəklərini düşünməzdim. Həmin əvvəldən onlara bu gecə bayram keçirməmələrini tapşırmışdım. Cavab vermişdilər ki, həzrət Zeynəb imam deyil, o üzdən heç bir problem

yoxdur. Verdikləri cavaba bir bax. Mərasimdə şadyanalıq edərək, musiqiyə qulaq asıb məzəli verilişlərə baxmayacaqdılar.

-Sözünü kəsib deyirəm:

-İndi ki oranı qoyub bura gəlmisən, nə demək istəyirsən?

-Demək istəyirəm ki, mənim o bayramla heç bir əlaqəm yoxdur, bu gecə bayram keçirməyin əleyhinəyəm.

Stulda əyləşib, fikirli halda mənə baxıb deyir:

-Müdirimiz çox narahat oldu.

Əlimi dizimə qoyub dərindən ah çəkirəm. İndi nə olacaq?

Heç nə, uzağı məni işdən çıxaracaqlar.

Qaşqabağımı sallayıram, hönkürtü ilə ağlamaq istəyirəm. Hüseyn yanımda oturub gülür.

-Bax, sənə indi deyirəm, sonra bu sözlərimi yadına salarsan. Əgər məni ixrac etsələr, həzrət Zeynəb məni darda qoymayacaq.

Hüseyn düz demişdi. Məclisi tənqid edərək tərk etdiyinə görə işdən ixrac olundu. Yenidən keçmiş günlərimizə dönmüşdük. Tezliklə ikinci övladımız dünyaya göz açacaqdı və mən xərclərin öhdəsindən necə gələcəyimizi bilmirdim. İkinci övladımız da qız idi. Adını Məhtab qoymaq istəyirdim. Arzu edirdim ki, Hüseyn də mənimlə razılaşsın. Ondan qızımızın adını Məhtab qoymağımızı istədim.

Mənə baxıb güldü.

-Bilirsən niyə ikinci övladımız da qız oldu?

Tərəddüdlə ona baxıram. Nadinclikdən parlayan baxışlarını mənə dikib.

Nə düşündüyünü, nə demək istədiyini anlamırdım.

-Niyə?

-Çünki, bizim Fatiməmiz yox idi.

-Anamın adı Fatimədir, övladımızın adını Məhtab qoysaq daha yaxşı olmazmı?

Bir söz demədi. Məhla qaçıb Hüseynin dizlərinin üstündə oturdu. Məhtab adı ilə razılaşacağını düşündüm.

İsti yay fəslinin sonuna yaxınlaşırdıq. Hamiləliyimin son günləri idi, çox ağırlaşmışdım. Mətbəxə keçib yemək bişirməklə məşğul oldum. Hüseynlə Məhla əylənib oynayırdılar. Onların şən qışqırtılarını eşidəndə sevinirdim. Üç nəfərlik ailəmizə birinin də qatılacağı fikri həm sevindirici, həm də üzücü idi. Hələ də Hüseynin daim iş yerini dəyişməsinə alışa bilməmişdim, amma ikinci övladımızın dünyaya gəlişi ilə həyatımızda əsaslı dəyişikliyin yaranacağına ümidvar idim.

Düyünü aşsüzənə tökdüyüm halda dodaqaltı zümzümə edirdim:

-İnsanı yaşadan ümiddir.

Plovu dəmə qoyuram. Balaca mətbəximizə buxar və yemək qoxusu dolub. Ürəyim sıxılır və nəfəsim daralır. Hüseyn Məhlanı boynunda oturduğu halda mətbəxə yaxınlaşır.

-Əzizim, halın yaxşıdır?

Üzümə bir qədər su çiləyirəm. Hüseyn əlimdən tutub məni divanda oturdur. Sonra Məhlanın köməyi ilə bir qab sərin şərbət düzəldib mənimlə yanaşı əyləşir.

-Bir de görüm nə xəbərdir, niyə özünü bu qədər yorursan? Bir tikə pendir-çörək də yeyə bilərdik.

-Bu gün cümə günüdür, hamımız evdəyik. Xəstəxanaya getməzdən öncə sizə yaxşıca qulluq etmək istəyirdim. Sonra nə baş verəcəyindən xəbərim yoxdur.

İnşallah sağ-salamat gedib qayıdacaqsan!

Hüseyn qırmızı rəngdə olan sərin albalı şərbəti dolu stəkanı mənə uzadır. Şərbəti bir nəfəsə içirəm, yanğımı azaldır. Məhla əlimdən tutur.

-Gedib körpənin geyimlərini gətirim?

Cavab verməyə macal tapmıram. Məhla artıq qaça-qaça şkafa yaxınlaşıb. Arxasınca qışqırıram: "Ana qurban, sən ki, hər gün on dəfə bu geyimlərə baxırsan. Hələ doymamısan?"

Məhlanın səsi eşidilmir. Bilirəm ki, körpənin geyimlərinə baxmaqla məşğuldur. Onları öpərək dünyaya gəlməkdə olan bacısı ilə söhbət edir. Öz sözü ilə desək, evcik-evcik oynayır.

Hüseyn əlimdən tutub sıxır. Baxışlarımı gözlərinə dikirəm.

-Ailəmiz üçün çox zəhmət çəkirsən. Əcrini Fatimeyi Zəhra versin.

-Sən də çox zəhmət çəkirsən, Hüseyn can, bircə...

Sözümü zehnimdə çək-çevir edirəm. Narahat və dilxor ola biləcəyindən qorxuram.

-Bircə nə?

Hüseyn cavabımı gözləyir.

-Kaş bir iş yerində sabitqədəm olub işləyərdin. Yaxşı iş, yüksək məvacibin nəyi pisdir ki. Artıq ikinci övladımız dünyaya göz açacaq.

-Qədəmləri mübarək olsun. Mən evimizə halal çörək gətirmək istəyirəm, Mərziyə can! Bütün söylədiklərinlə mən də razıyam. Amma ilkin şərtim, zəhmət haqqımın halal olması, ikincisi isə dünya xətrinə axirətimi əldən verməmək istəyimdir. Bir də ki, sən nigaran qalma. Allah-taala bəndələrinin ruzisini yetirir. Hər uşağın öz ruzisi var.

Sözlərinin düzgün olduğunu qəbul edirdim, amma bu razılıq qəlbimdəki iman və etiqaddan qaynaqlanmırdı.

Bütün bu söylədikləri düzgün idi. Amma praktiki mənada ürəyimdən keçirdi ki, Hüseyn də başqaları kimi olsun. Bu dünyada minlərlə kişi yaşayırdı və onlardan heç biri Hüseyn qədər etiqadı məsələlərdə həssas deyildi. Onlar ailələrinin xərcini ödəmək üçün hər zəhmətə qatlaşırdılar. Amma Hüseynin ruhiyyəsi hamıdan fərqli idi. O, başqa kişilərə bənzəmirdi. Olduğu kimi idi. Görəsən nədən onun bu xüsusiyyəti və ruhiyyəsi ilə razılaşa bilmirdim?!

Dua edəcəyəm ki, dünyaya gələcək körpəmizin ayağı o qədər düşərgəli olsun ki, həyatımız başdan-başa dəyişsin.

-İnşallah sağlam və xoşqədəm olsun.

Həmin gecə ağrım tutduğundan Ümmülbənin xəstəxanasına yola düşürük. Sabahısı gün, sentyabrın səkkizi ikinci övladımız dünyaya gəlir. Bu dəfə də məni görməyə gələn ilk insan Hüseyn olur. Halım o qədər də yaxşı deyildi. Özümü necə hiss etdiyimi soruşur. Sonra uşağı qucağına alıb öpür.

-İlahi, Fatimə balama qurban olaram.

Bir neçə dəqiqə bundan öncəyədək, çarpayımdakı körpəni Məhtab deyə görürdüm. Amma Hüseynin bu sözlərindən sonra anladım ki, o, istədiyini dilinə gətirmişdi. Məhəbbət dolu baxışlarla məni süzürdü.

-Bu uşaq yalnız Fatimə ola bilər, Mərziyə can!

Gülümsədim və heç nə demədim.

-Adını Fatimə qoyuram ki, həyatımıza bərəkət gəlsin.

Dediyi kimi də oldu. Fatimənin dünyaya gəlişi ilə sanki ruzi bərəkət qapıları üzümüzə açıldı. Çox qısa müddətdə Mehr Gülbahar şəhərciyində yeni mənzil sahibi olduq. Bundan əlavə Hüseyn ağ rəngli prayd markalı avtomobil də aldı. Artıq, həyatımız yoluna düşmüşdü. Fatimə çox sevimli və toppuş bir bala idi. Hamının ürəyinə yol tapa bilmişdi. Hüseyn Fatiməyə həddən artıq diqqət ayırırdı.

Ətrafdakılar ona deyirdilər ki, Allah sənə bundan öncə də bir qız övladı bəxş edib və Fatimə sənin ilk övladın deyil.

Hüseyn Fatiməni o qədər əzizləyirdi ki, hamımız, hətta Məhla da bu məsələyə qarşı həssas olmuşdu. Sonralar uşaqlar birlikdə oynayanda, Fatimə Məhlanı incitsəydi də o, narahat olmayıb deyərdi: “Heyf ki, Fatiməsən, yoxsa vurardım səni.”

# 27

Həyətdəki qoyunun mələməsi Məhlanı pəncərənin qarşısına çəkir. Amma həyətə çıxıb qoyuna yaxınlaşmağa cürət etmir. Fatimənin dünyaya gəlişindən on gün keçib. Hüseyn onun adına qurbanlıq qoyun alıb. Anam yanımda əyləşib. Keçən on gün ərzində mənimlə qalıb, bütün işlərimdə kömək edirdi. Anam evdə olmayanda atamın nə qədər qərarsız olduğunu yaxşı bilirəm. Bu gün anam öz evinə qayıdır. Bu müddət ərzində Hüseyn bacardığı qədər anamla mənə kömək etmişdi.

İkinci övladımız dünyaya gələndən, Hüseyn Məhlaya da ev işləri öyrədərək, ona kiçik tapşırıqlar verməyə çalışırdı. Bəzən ev işlərində mənə kömək edərkən, Məhlanı öyrətmək üçün öz yanına çağırır. Şam yeməyindən sonra qabları yuyanda, kənarda kiçik bir taburet qoyaraq, Məhlaya deyir ki, mən qabları yuyuram, sən də suya çək. Azyaşlı övladımın iş görməsinə razı deyiləm. Hələ çox kiçikdir. Hüseyni səsləyirəm: “Əgər uşağımı işlətmək fikrinə düşmüsənsə, gəl keç kənara. Köməyini istəmirəm. Özüm bütün işləri görərəm.”

-Bizimlə nə işin var, əzizim? İmkan ver, Məhla da ev işlərini öyrənsin. Axı o, anasının balaca köməkçisi olmalıdır.

Hüseyn Məhlaya ev işlərini öyrədərək, ona kiçik məsuliyyətlər tapşırmağıma çox təkid etsə də mən bacardığım qədər onun sözlərindən yayınırdım. Ürəyim gəlmirdi. Hüseyn özü evdə olanda Məhlaya balaca süpürgə verərək, onu evi süpürüb, mənə kömək etməyə həvəsləndirirdi.

Bu gün durmadan Məhlanın otaqdan çıxaraq, qoyun ətinin bölünməsində ona kömək etməsini istəyir. Qəssab qoyunu kəsib ətini də doğramışdır. Anam nahar üçün bir qədər ət və ciyər qovuraraq, bişməyə qoyur. Günortadan sonra Hüseynlə Məhla anamı Məşhədə apardılar. Bölünərək, paketlərə yığılmış əti ehtiyacı olanlara paylamaq üçün avtomobilin baqajında yerləşdirmişdilər. On günlük Fatimə balamla evdə tək qaldım. Anam getməzdən öncə şam yeməyini də hazırlamışdı. Otaqdan üzərlik və portağal qoxusu gəlir. Fatiməyə süd vermişəm, o, doyaraq, mışıl-mışıl yatıb. Mən də gözlərimi yumub yuxuya daldım. Nə qədər yatdığımı bilmirəm, amma Hüseynlə Məhlanın səsinə yuxudan ayıldım. Nə vaxt qayıtdıqlarından xəbərim yox idi. Məhla gülür. Atası ilə bazara gedib. Sirr saxlamağa taqəti çatmır. Hüseyn bağlamanı təqdim etməyə macal tapmamış, Məhla mənim üçün hədiyyə aldıqlarını xəbər verir.

Hədiyyə kağızını açıram. Çəhrayı rəngli gözəl bir dondur. Hüseynin zövqünə söz ola bilməz. Məhla məni qucaqlayır.

-Anacan, donu əyninə geyin, görək necədir.

Tərləmişəm. Tərli bədənə təzə paltar geyinmək istəmirdim. Məhlanı öpürəm.

-Ana qurban, gözlə, hamama gedəndən sonra geyinərəm.

Hüseyn əyləşdiyi divandan hər ikimizə nəzər salaraq, Məhladan da çox israr etməyə başlayır: "Elə bu dəqiqə qalx hamama get və donu əyninə geyin."

Hamama gedirəm. Bədənim yüngülləşir. Yeni donumu geyinirəm. Məhla ilə Hüseyn məni gözləyirlər. Məhla üstümə qaçaraq, dizlərimi qucaqlayır.

-Anacan, necə də gözəl oldun.!

Hüseynə baxıb gülümsəyirəm. Razı qaldığı üzündən bəllidir.

-Bu müddət ərzində geyindiyin o enli hamiləlik donlarından cana doyduq.

Masanın üstünə daha bir paket qoyub deyir:

-Məhla ilə sənin üçün neçə dəst geyim almışıq. Bundan sonra yalnız aldıqlarımızı geyin. Amma öz aramızdır, necə də dəyişildin!

Hüseynin yanında əyləşirəm.

-Əllərinə sağlıq, zəhmət çəkmisən.

- Bağışla, əslində sənin üçün qızıl almaq istəyirdim, amma əliboş idim. Digər tərəfdən də səni bu gözəl geyimlərdə görmək istəyirdim.

Hüseynin təriflərindən və sevinc dolu baxışlarından vücuduma razılıq hissi dolur. Onun hamıya və hər şeyə qarşı bu qədər diqqətli olması məni sevindirir. Hüseyn həmişə hamını düşünürdü və nəzərindən heç nə yayınmırdı. Onun bu qədər qayğıkeş olduğuna ürəkdən sevinirəm.

# 28

-Səba, nəzərimcə Səba daha yaxşıdır.

-Yox, yaxşı olar ki, qızının adını Zəhra qoyasan.

Otaqdan Hüseynlə Raziyənin söhbəti eşidilirdi. Mən səssizcə qulaq asırdım, deməyə sözüm yox idi. Tezliklə Raziyənin ikinci qızı dünyaya göz açmalı idi. O, qızının adını Səba qoymaq istəyirdi. Məsələ bundadır ki, ilk qız övladının adını Sara qoyduğundan, Səba ilə Sara adlarının bir-birinə uyğun gəldiyini düşünürdü. Hüseyn onu inandırmağa çalışırdı ki, ikinci qızının adını Zəhra qoysun. Mübahisə əsnasında Raziyə öz dəlillərini gətirirdi. Digər tərəfdən də çox zarafatcıl olduğundan, zarafatları ilə qəti cavab verməkdən boyun qaçırmaq istəyirdi. Nəhayət, Raziyə fikir mübadiləsinə son qoymaq üçün zarafatla soruşdu: “Yaxşı, deyin görüm qızımın adını Zəhra qoysam, mənə nə qədər pul verərsiz?”

Əvvəl bacıma, sonra Hüseynə baxıram. Sanki o, bu sualı ilə Hüseynin inanc və etiqadının möhkəmliyini yoxlamaq istəyirdi. Araya söz qatmaq istədim ki, bu söhbət elə buradaca tamamlansın.

-Raziyə can, sən də söz danışdın da... Hüseyn, sən yaman israr edirsən. Xeyir ola...

Sözüm ağzımda qaldı. Raziyə sözümü kəsərək üzünü Hüseynə tutub dedi: “İki yüz min tümən. Əgər mənə iki yüz min tümən versəniz, qızımın adını Zəhra qoyaram.”

Hüseyn yubanmadan cavab verdi: “Yaxşı, qoy sən deyən olsun, amma uşağın şəhadətnaməsini mənə göstərməlisən. Mən də öz növbəmdə sənə iki yüz min tümən verəcəyimə söz verirəm.” Mat-məəttəl qalmışdım. Raziyə sevincək halda mətbəxə, anama kömək etməyə getdi. Hüseyn də sevinirdi, təbəssüm edib öz işindən zövq aldığı duyulurdu.

Ondan soruşdum ki, düz iş gördüyünü düşünürsən?

-Əlbəttə ki, düz iş görmüşəm. Bu gündən başlayaraq, ömrümüzün axırına kimi, körpəyə Zəhra adının qoyulmasına görə yazılan hər savabda mən də şərikəm.

Hüseynin bu sözlərindən baş aça bilmirəm. İki yüz min tümən iqtisadi şəraitimizin yaxşı olduğu bir vaxtda belə az pul deyildi. Məsələ elə bundadır ki, iqtisadi şəraitimiz də yaxşı deyildi.

Bir müddətdən sonra Raziyənin qızı dünyaya gəldi. Ona gözaydınlığı verməyə gedəndə, körpənin doğum şəhadətnaməsini bizə göstərdilər. Raziyənin ikinci qızının adı “Zəhra” idi. Hüseyn yerindəcə Raziyəyə iki yüz min tümən verdi. O, da sakitcə pulu götürdü.

Hüseyn digərlərinə də bu şəkildə göstəriş verərək təkid edərdi. Amma bu, öz gözümlə gördüyüm bir hadisə idi. Heç kimin dilindən eşitməmişdim. Lazım olan yerdə Hüseyn öz canından keçməyə hazır idi, özü də canla-başla. Mənə isə yalnız susmaq qalırdı. Şüşənin sınma səsini eşidən kimi, özümü qonaq otağına çatdırıram. Hələ çatmamış, bu qorxunc səsin səbəbkarının kim olduğunu bilirəm. Fatimə yenə də nəyisə sındırıb. Bu dəfə növbə mənim toy güzgümlə şamdanlarıma çatır.

Divanın üstünə çıxaraq onları şkafın üstündən aşağı atıb. Özümü ona çatdırıram. Özünü bilməzliyə vurur və həmin dəqiqə gözləri yaşla dolur. Onu bir qədər danlayandan sonra divandan düşürürəm və əlindən tutub otağına aparıram.

-Atan gələnə qədər otaqdan çıxmağa haqqın yoxdur.

Məhla məktəbdədir. Şapşaplarımı geyinib süpürgəni götürürəm və ilk öncə iri şüşə tikələrini yığmağa başlayıram. Şüşə qırıntıları bütün ev boyu səpələnib. Bu günə kimi evin demək olar ki, bütün şüşələrini neçə dəfə dəyişmişik. Süpürgə ilə əlim çatan hər yeri süpürürəm ki, olmaya bir yerdə şüşə tikəsi qalıb, uşaqların əl-ayağını yaralaya. Hüseyn evə gələndə ona bir vedrə dolu şüşə qırıntısını göstərirəm.

Nə etdiyinə bir bax. Belə də iş olar? Çox nadinc uşaqdır. Əslində oğlan olmalı idi, qız yox. Görəsən nə vaxt böyüyəcək ki, gördüyü bu işlərdən rahat olaq.

Hüseyn gülümsəyir.

-Narahat olma, əzizim. Fatimə mənim özümə oxşayır. Mən də uşaq olanda evdəki bütün şüşələri sındırırdım. Atam küçəmizin başındakı şüşəkəsəni daimi işə götürmüşdü.

-Atanla anan necə də səbirli olublar. Mən artıq bu uşağın şüşə sındırmağından dəli olmaq həddinə çatıram.

-Ata-ana olmaq elə bu deməkdir, canım. Gərək səbirli olaq. Səbr et, inşallah bu da düzələr.

Fikrim həmişə Məhlada idi. Artıq evdə şüşə sınmağının səsinə öyrəşmişdik. Hüseyn də buna ciddi yanaşmırdı. Fatimə bir qədər böyüdükdən sonra, rəftarı düzəldi. Eynilə atasının dediyi kimi.

# 29

Bahar fəslini həmişə sevmişəm. Bahar mənim üçün həmişə Novruz bayramı, noğul, çərəzlər və yenicə açılmış ağ-çəhrayı rəngli tumurcuqlar deməkdir. Bayram tətilləri yenicə başlayıb. Bu il qızlar mənə çox kömək etdilər. Bayram təmizliyi zamanı Hüseyn uşaqların ətrafında gəzişərək, onları mənə kömək etməyə həvəsləndirmək üçün deyirdi: "Qız anasının köməkçisi, pənahgahı və həmdəmidir."

Fatimə dodaqlarını büzüb Hüseynə tərəf gedir.

-Bəs ata necə olsun? Mən axı atamı da çox sevirəm.

Fatimə Hüseynə həddən artıq bağlıdır; atasının balasıdır.

Hüseyn onu qucağına alıb çarpayıların üstünə qoyur. Qışqırıram ki, mənə kömək etmək əvəzinə hər yeri dağıdırsınız. Uşağı çarpayının üstündən götür, hamısını bir-birinə qarışdırdın.

Bu günlərdə Hüseyn yenə də işsiz qalıb. Səbəbi çox sadədir, işçilər giriş-çıxış vaxtlarını iş tabelində düzgün qeyd etmədiklərindən, Hüseyn onların bu özbaşınalığı ilə razılaşmaq istəmirdi. O, tabeldəki qeydlərə cavabdeh olan məsul şəxs kimi iş yoldaşlarına xəbərdarlıq etmişdi ki, işə

vaxtında giriş-çıxışlarını qeyd etsinlər. İşçilərin cavabı çox qəribə idi. Hüseynə demişdilər ki, səndən öncəki işçimiz tabeldəki qeydlərə baş qoşmurdu. O, səndən daha yaxşı adam idi. Əgər müdiriyyətə xəbər verməsən sənin tərəfini saxlayacağıq, yox, əgər danışsan, başına gələn bəlalarda özün təqsirkar olacaqsan.

Hüseyn onlardan qorxub çəkinmədən öz sözünün üstündə durmuşdu. Belə olan halda, onların qrup rəhbəri Hüseyni təhdid etmişdi ki, bir aydan sonra səni işdən azad edəcəklər. Dediyi kimi oldu. Üç illik iş təcrübəsinin olmasına baxmayaraq, Hüseyn yenə də işsiz qaldı. Onu ixtisar etmişdilər. Hər ikimiz bu məsələdən narahat idik, amma nə etmək olar? Olan olmuşdu.

Hüseyn evin və ailənin xərcini ödəmək üçün işsizlik müavinəti almağa çalışırdı. Bununla yanaşı o, bu günlərdə öz maşını ilə çörək daşıyırdı.

Bayram tətilləri işıq sürəti ilə ötüb keçir. Bu günlərdə dost-tanışlara baş çəkirik. Bayramın ilk günündə uşaqlar min bir həvəslə təzə paltarlarını geyinirlər. Hüseyndən soruşuram: “Anangilə də gedəcəyik?”

Cavab vermir. Onu narahat edən məsələ haqda hətta mənimlə belə bölüşmək istəmir. Məhla ilə Fatimə maşına əyləşdikdən sonra Hüseyn mühərriki işə salır. Qaynanamgilə yola düşürük. Anasından uzaq qalmağa taqəti çatmadığını bilirəm.

Maşını evdən bir qədər aralıda saxlayır.

-Siz maşında qalın.

Hüseynin istəyinə uyğun maşında qalırıq, o, isə gedir. Şüşəni aşağı salıram ki, baharın ətri və əsən mehin təravətli nəfəsi əhvalımı düzəltsin. Hələ də həyəcanlıyam. Qardaşının Hüseyndən incidiyini bilirəm. Bütün baş verənlər peyk antenası ucbatından idi. Məsələ bundadır ki,

Hüseynin qardaşı xarici telekanallardan yayımlanan xəbər verilişlərini izləmək istəyirdi, Hüseyn isə istifadə üsulundan asılı olmayaraq, ümumiyyətlə evdə peyk antenasının qurulmasının əleyhinə idi. O, peyk antenasının evdən bərəkətin çəkilməsinə və müxtəlif çətinliklərin yaranmasına bais olacağını düşünürdü. Hüseyndən xahiş etdim ki, bu məsələyə qarışmasın. Dedim ki, onların istədiklərini etməyə haqları var. Sən yalnız öyüd-nəsihət verib, nəzərini söyləyə bilərsən. Amma belə sözlər Hüseynin eyninə deyildi.

Hadisə baş verəndə birlikdə idik. Anasını görməyə getmişdik. Qaynanamın ürək ağrıları yenidən baş qaldırdığından, halı yaxşı deyildi. Evdə heç kim yox idi. Çay sinisini masaya qoyub, hamıya meyvə payladım. Hüseyn anasına dedi: “Anacan, ürəyimə damıb ki, peyk antenasını evdən çıxarıb atsanız, hər şey yerinə düşəcək. Sənin də halın düzələcək.” Hüseyn çox sakit danışırdı, amma sonda hər şeyin onun istəyinə uyğun olacağını bilirdim. Bu zaman qaynanamın səsini eşitdim:

-Yaxşı, ana qurban, mənim adımdan dama qalxıb o antenanı aşağı ata bilərsən.

Hüseynə baxdım. Ona göz-qaş etməyimə baxmayaraq, dama qalxdı. Arxasınca həyətə qaçıb onu səslədim: “Bu işi görmə, antenanı aşağı atma, qardaşın narahat olacaq.”

Qışqırdı ki, kənara keç, başına düşməsin.

Peyk antenası məftilləri və xırda detalları ilə birgə yerə düşdü. Antena əzik-üzük oldu. Əlimlə o biri əlimin üstünə vurdum. Bu işin aqibətinin yaxşı olmayacağını bilirdim. Hüseyn damdan düşüb gördüyü işdən zərrə qədər narahat olmadığı bir halda, sevincək anasının yanına getdi. Antenanı həyətin bir küncünə qoydum. Evə qayıdan kimi ardıcıl olaraq, telefon zəngləri çalınmağa başladı. Hüseyn

hamıya səbr və hövsələ ilə cavab verirdi. Onu qınayırdım. Nəzərimcə təqsirkar idi. Bəlkə də bu işi başqa yolla həll etsəydi, daha yaxşı olardı.

Dəstəyin o biri tərəfində deyilənlər bitsə də, küskünlük yenicə başladı. Ona səbr diləməkdən başqa çarəm yox idi. Bəlkə zaman ötsəydi, ailəsi bu narazılığı unudardı.

Hüseyn qapının qarşısında dayanıb. Maşının pəncərəsindən boylanıram. Sərin külək əsir. Məhla ilə Fatimə sakitcə oynayırlar. Fatimənin üç yaşı var.

Bu üç yaşlı körpənin bayram süfrəsində Hüseynə and verdim ki, ailəsi ilə olan küskünlüyə son qoysun. Ailəsindən ayrı düşməyə taqəti çatmadığını yaxşı bilirəm. Gah bayram süfrəsindəki Qurana, güzgüyə və televizordakı bayram verilişinə baxıram, gah da Hüseyni nəzərdən keçirirəm. Niyyətinin xeyir, istəyinin isə yaxşılıqdan başqa bir şey olmadığını bilirdim. Televizorla eyni zamanda Novruz duasını zümzümə edirdim:

يَا مُقَلِّبَ الْقُلُوبِ وَ الْأَبْصَارِ

(Ya muqəllibəl qulubi vəl əbsar)

Bu kəlmələri durmadan təkrarlayırdım. Nəhayət, topdan açılan yaylım atəşinin səsi və yeni ilin (1391 hicri şəmsi) başlanması münasibəti ilə edilən təbrik sədaları eşidildi. Yerindəcə yeni ilin xeyirli və bərəkətli olması üçün dua etdim.

Hüseyn hələ də küçədə, qapının kandarında dayanıb mənə baxır. Mən də baxışlarımı ona dikirəm. Qapının qarşısında yubanır. Gözləyir.

Fatimə soruşur: “Anacan, atam niyə bizi özü ilə aparmadı?”

-Qonaqlığa getməyib ki, ana qurban, indi qayıdacaq.

Hüseynin ata-anası qapıya çıxırlar. O, əvvəl atasının əlindən, sonra isə anasının üzündən öpür. Qısaca hal-əhval tutduqdan sonra onlardan ayrılaraq, mənə tərəf gəlir. Onlar da evlərinə qayıdırlar. Bu arada yalnız Hüseynin təqsirkar hesab olunmasından çox narahatam. Bilirəm ki, söz-söhbət yaranmasın deyə, qaynanamgilə getmirik. Bəlkə də bu məsələnin həlli üçün daha çox zaman lazımdır.

Hüseyn maşına minib mühərriki işə salır. Ona deyirəm ki, kaş bizim də səninlə gəlməyimizə icazə verərdin. Bəlkə uşaqları görüb fikirlərindən dönərdilər .

-Məni bir az özümlə baş-başa burax.

Susuram. Uşaqlar Hüseyni pərişan görəndə sakit olub, pəncərədən küçəyə baxmağa başlayırlar. Mütəhhəri prospektinə tərəf gedirik. Əgər açıq mağaza olsaydı, uşaqlar üçün bir az parça alardım. Yolda dondurma dükanına rast gəlirik. Ab-havanı dəyişmək üçün deyirəm: "Uşaqlar, bir baxın, dondurma dükanı. Belə havada dondurma yemək çox xoşdur."

Hüseynə baxıb gülümsəyirəm. Fatimə arxadan Hüseynin boynunu qucaqlayıb deyir: "Dondurma, dondurma istəyirəm."

Hil, gülab, püstə və vanil ətri, ağzımızın dadını dəyişir. Dondurmanın ləzzət və şirinliyini dadaraq bir-birimizə baxırıq. Hüseyn qızlarımıza gülür. Ona deyirəm ki, Hüseyn, nə üçün hər həftə anangilə gedirsən? Yorulmadın? Keçən bir il ərzində kifayət qədər zülm çəkmisən.

Ağzına bir qaşıq dondurma qoyaraq, baxışlarını uzaqdakı bir nöqtəyə dikir.

-Elə bilirsən ki, mənim üçün rahatdır? Düşünürsən narahat olmuram? Dəfələrlə anamın evinə gedərkən,

şeytan mənə qayıt, deyib. Amma mən şeytanın belini sındırmaq istəyirəm. Özümə sübut etmək istəyirəm ki, fikrimdən geri dönməyəcəyəm.

Deməyə sözüm yoxdur. Mən də şeytan kimi vəsvəsə edib onu fikrindən daşındırmaq istəmirdim.

Bir gün bayramdan bir neçə ay keçməmiş Hüseyn sevincək evə qayıtdı. Bir qutu şirniyyat almışdı, sevincdən üzü parlayırdı. Samovarın kənarında oturub çay süzdüm. Hüseyn samovar çayını çox sevir. Çayına nabat atıb ona uzadıram. Mənə deyir ki, ayağa qalx və uşaqları geyindir, anamgili görməyə gedirik.

Əlim uzanmış halda qalır.

-Nə xəbər var, nə olub?

-Anam bir qədər öncə zəng vurub, evlərinə gəlməyimizi istədi. Dedi ki, ailə üzvlərimiz bu münaqişədə geri çəkilmişlər. Anam özü qardaşımla söhbət edib. Ona deyib ki, qohumluq əlaqələrinin və aramızdakı get-gəllərin yenidən bərpa olunmasını istəyir. Mən də onun bu sözlərindən sonra evlərinə getdim. Bu günə qədər neçə dəfə anamı görməyə getmişəm. Anam səninlə uşaqları görmək istəyir. Məndən sizi xəbər alırdı. Bu gün hamımız birgə Nişapura gedirik. Hamı artıq oradadır.

Heç nə demədim. Hüseynin sevincinə şərik oluram. Dua edirəm ki, daha heç bir problemlə üzləşməyək. Uşaqlarla birgə qonaq getməyə hazırlaşırıq. Allaha şükürlər olsun ki, ilin təhvil olduğu anda etdiyim dua müstəcab oldu.

-Vay! Ata boğulduq, bu nə iydir belə!

-Deyəsən, bu ətrafda zibilayırma zavodu var. Tullantılar toplanaraq, yenidən emal olunmaq üçün çeşidlənir. Sizə, hər dəfə artıq zibil yaratmayın,

deməyimin səbəbi elə budur. Bir görün oranın işçiləri necə çətinlik çəkirlər.

Pəncərənin şüşəsini qaldırıram.

-Anacan, tez ol, şüşəni qaldır. Vay! Ürəyim bulanır.

-Mənim təqsirim yoxdur ana qurban, bir az dözün, indi buradan ötüb keçəcəyik.

Məhla ilə Fatimə burunlarını yaylıqları ilə tutublar. Hər ikisi qaşqabaqlarını sallayaraq, baxışlarını uzağa dikiblər. Hüseyn güzgüdən uşaqlara nəzər salır.

Baxışlarım yola dikilir. Artıq yarım saat olar ki, şəhərdən çıxıb, Məşhəd-Tehran avtobanı ilə hərəkət edirik. Hüseynin güman etdiyi kimi, axşam saat səkkizdə Tehranda olacağıq. Bu, həyatımızın ilk dörd nəfərlik səfəridir.

Uşaqlar çamadanlarını bir həftə öncədən yığaraq səfərə çıxmağa hazırlaşmışdılar. Səfər öncəsi isə sevindiyindən gözlərinə yuxu getmirdi. Hüseynin boş vaxtı olduğu bu dövrdə görəcəyimiz ən düzgün iş səfərə getmək idi; xüsusilə də belə bir səfərə ehtiyac duyduğumuz halda.

Pəncərənin şüşəsini bir qədər aşağı çəkirəm ki, sərin hava gəlsin. Xoşagəlməz qoxu artıq hiss olunmur. Uşaqların üzünə gün düşür. Günqorucuyularını şüşəyə yapışdırıb uşaqlara baxıram. Dərin yuxuya gediblər.

-Onlara qibtə edirəm. Bir bax necə də rahat yatıblar. Heç nəyin fikrini çəkmirlər.

-Elədir, şükür Allaha. İnşallah həmişə sağ-salamat olub kədər-qəm görməsinlər.

Əyilib ayağımın altındakı qabdan bir alma götürərək qabığını soymağa başlayıram.

-Nəzərimcə, uşaqlıq qədər şirin bir dövr yoxdur. Rahat və qəm-qüssədən azad bir dövran.

-Elə deyil canım, uşaqlıq dövrünün də özünəməxsus çətinlikləri var. Sadəcə olaraq, onları xatırlamırıq. Mən özüm uşaq vaxtı o qədər döyülmüşəm ki... Həmişə yara-xora içində olardım. Atamdan da çox qorxardım. Daha demirəm nə kimi... Bunlar da bir növ çətinlik hesab olunur. Bir də ki, fikrin öz övladlarımıza getməsin, onların ata-anası var. Bu şəhərdə qarınlarını belə doyuzdura bilməyən uşaqlar yaşayır.

Hüseynə bir dilim alma verirəm.

-Düz deyirsən. Allah bizi övladlarımızın başı üstündən əskik etməsin.

-Allah bütün ata-analara can sağlığı versin. Zirək ol Mərziyə, dua edəndə həmişə hamını nəzərdə saxla.

Ona yenidən bir dilim alma uzadıram. Almanı tez-tez çeynəyib udur.

-Bununla tələsik ağzımı yumdun ki, daha danışmayım?

Gülüb deyirəm:

-Avtobanda təkcə bizik, ikimiz, iki aşiq.

-Əgər sənin ailənlə getsəydik tənha olmazdıq. Onlar da şimala, dənizə gedəcəkdilər, bizim də xərcimiz az çıxardı. Bunlar bir tərəfə, əgər qədimdən aramızda hər hansı anlaşılmazlıq qalmış olsaydı belə, yolda həll olub gedərdi.

Hüseynin qanı qaralır. Bəlkə də dediklərim yersiz idi.

-Mərziyə can, sən ki, hər şeyi bilirsən, daha niyə bunları dilinə gətirirsən? Bizə birlikdə xoş keçir. Atamla uşaqlar da öz getdikləri səfərdə şad-xürrəmdirlər.

Belə daha yaxşıdır. Hər kəs öz bildiyini edir. Belə olan halda aramızdakı xətir-hörmət də yerində qalır.

Günorta vaxtı Hüseyn namaz qılmaq, həmçinin nahar və istirahət etmək üçün maşını yolun kənarında saxlayır. Uşaqlara ehtiyatlı olub yola qaçmamağı tapşırdıqdan sonra, maşından çıxmalarına icazə veririk. Əllərindən

tutub onları yolun kənarındakı biyabana, yağış suyundan öz-özünə cücərmiş yaşıllığa tərəf aparıram. Qarışqa yuvası görəndə təəccüblərindən donub qalan uşaqlar qarışqalara tamaşa etməyə başlayırlar. Hüseynə kömək etmək üçün qayıdanda, artıq bütün işləri bitirdiyini görürəm. Hüseyn xalçanı yerə sərərək termosu və stəkanları hazırlamış, yemək qazanını isə primusun üstündə qızmağa qoymuşdur.

Namaz qılmağa başlayanda, mən də onun arxasında namaz qılıram. Namaz bitəndən sonra deyirəm: "Niyə mənə xəbər vermədin ki, gəlib sənə kömək edim?"

-Bir iş yox idi.

Burada hamı deyib-gülməklə məşğuldur. Mən isə aram oturmuşam. Hüseynin kənarında olanda həmişə bu daxili sakitliyi duyuram. Onun mənə bəxş etdiyi bu hüzurun mahiyyəti fərqlidir. Uşaqlar qışqıra-qışqıra qaçıb özlərini dizlərimin üstünə atırlar. Hər biri bir qucaq gül və yarpaq yığıb. Uşaqlar çox sevinirlər. Fatimənin yanağına toxunuram. İyun ayının sonudur, hava istidir.

-Ana can, niyə şlyapanı özünlə gətirməmisən? Bax, üzün gündə yanıb.

Gün kremini çantamdan çıxarıb uşaqların üzünə və əllərinə çəkirəm.

Hüseyn dincələndən sonra yenidən yola düşürük. Uşaqlar Hüseynlə birgə şer oxuyurlar. Axşama yaxın maşının içindəki hay-küy sakitləşir. Uşaqlar maşınla səyahət etməkdən yorulub yuxuya gediblər.

Hüseynə baxıram. Qara rəngli qalın bığ-saqqalı və hündür qədd-qaməti onu daha da heybətli nəzərə çarpdırır. Baxışımın fərqinə varıb mənə ötəri nəzər salır.

-Nə olub? Niyə mənə belə baxırsan?

-Heç bir şey, öz-özümə fikirləşirdim.

-Nə barədə?

-Keçmiş günlərim barədə. Atamın evində olduğum vaxtları düşünürdüm, bizə elçi gəldiyin günü. İllər sanki ildırım sürəti ilə ötüb keçdi. Sən heç belə olacağını ağlına gətirə bilərdin? Allahın bizə iki övlad verəcəyini və həyatımızın bu qədər enişli-yoxuşlu olacağını güman edə bilərdin?

-Bu sadaladıqların hər kəsin həyatının bir hissəsidir. Amma mən həmin ilk gündən səni bu həyat üçün seçmişdim, çünki yaxşı yol yoldaşı olduğunu bilirdim.

-Niyə? Sənin teztovluğuna, daim iş yerini dəyişməyinə və dözülməz xasiyyətinə dözdüyüm üçün?

Məni gülmək tutmuşdu. Onunla zarafat etmək istəyirdim, amma birdən-birə niyə ciddiləşdiyini anlaya bilmədim.

-Düz sözündür, Mərziyə? Xasiyyətim doğrudan da dözülməzdir? Belə olan halda necə şəhadət arzusunda ola bilərəm? Danış Mərziyə, yəqin ki, xoşagəlməz bir iş görmüşəm. Sən mənim əlimdən narahatsan?

Bu məsələni zarafatla həll etməyə çalışsam da, Hüseyn olanları yaddan çıxara bilmirdi. Sonralar da tez-tez bu barədə soruşaraq məndən halallıq istəyirdi.

Şəhərə çatanda uşaqlar yuxudan ayıldılar. Tehranın səs-küyü, böyük mağazaları, ticarət mərkəzləri və hündür binalarının görünüşü uşaqları təəccübləndirmişdi. Həmin gecəni bir oteldə keçirib səhər yola düşdük. Uşaqlar güman edirdilər ki, əvvəl ticarət mərkəzinə, ya da əyləncə məkanlarından birinə gedəcəyik. Fatimə durmadan soruşurdu:

-Hara gedirik?

-Yaxşı yerə gedirik. Səbirli ol, özün görəcəksən.

Maşın şəhərdən çıxdı. Biz Behişt Zəhraya, imam Xomeyninin hərəminə gedirdik. İlk dəfə idi ki ora gedirdim. Bu yerin mühitini, ab-havasını çox sevirdim. Behişt Zəhranın genişliyi, hündür ağacları və yaşıllığı insanı məftun eləyirdi. Tehran kimi böyük bir şəhərin, şübhəsiz ki, belə geniş məkana ehtiyacı vardı.

Əlimizdə su butulkası şəhidlərin məzarlarını axtarırdıq. Hüseyn qəbir daşlarını su ilə yuyur, uşaqlar isə əllərini yuyulmuş daşlara çəkirdilər. Biz qəbir daşları arasında gəzişirdik, Hüseyn isə şəhidlərin içində öz oxşarını tapmağa çalışırdı. Bu işdə uşaqların da köməyindən istifadə edirdi. Bunu bir məzəli oyuna döndərmişdi. Uşaqlar qəbirlərin arasında qaçaraq şəhidlərin şəkillərinə baxırdılar. Günortaya qədər könlümüzü oxşayan, cazibəsi və yeniliyi ilə seçilən bütün məkanları gəzdik. Namazımızı oradakı məsciddə qıldıq. Uşaqlar nahara pizza yemək istəyirdilər.

Onlara dedim ki, ataları necə desə, elə də olacaq.

Uşaqlar Hüseynə baxdılar. Səfərin onlar üçün xoş keçməsini istəyirdik, yaddaşlarında əyləncəli və şirin bir xatirə kimi qalmasının arzusunda idik.

Hüseynin də pizza yemək istədiyini bilirdim.

-Aydın məsələdir ki, buradan birbaşa pizza yeməyə gedirik. Qızlarım necə desə, elə də edəcəyik.

Pizzanı ürəyəyatan mühiti olan iki mərtəbəli bir restoranda yedik. Uşaqlar ürəkdən sevinir və gülürdülər. Sifarişimiz hazır olana qədər ketçupla qızarmış kartof yeməklə məşğul idilər.

Hüseynə dedim ki, niyə artıq xərc çəkirsən, bundan daha ucuzlu bir yerə gedə bilərdik.

-Narahat olma, bizə qalan xoş xatirələrdir. Kim bilir bir daha belə bir səfərə gedə biləcəyik, ya yox! Axşamüstü

şah Əbdüləzim hərəmini ziyarət etdik. Hərəmin daxili həyətlərini gəzərək, orada dəfn olunmuş şəhidləri də ziyarət etdik. Hərəmin bazara açılan qapısından xaric olduq. Hüseyn bizim üçün dondurma və müxtəlif çərəzlər aldı. Yenə də həmin üsuldan istifadə edirdi. Ziyarətin uşaqların beynində şirin bir xatirə kimi qalmasını istəyirdi.

Sabahı gün Babolsəra getməyi planlaşdırmışdıq. Uşaqlar özləri üçün dəniz, su və qum haqqında nağıllar uydururdular. Axşamüstü yüngül və müxtəsər şam yeməyi yeyəndən sonra tez yatıb, istirahət etmək qərarına gəldik. Fatimənin yuxusu qaçmışdı. Çarpayıda o tərəf bu tərəfə çevrilərək soruşurdu ki, ana can, dəniz çox böyükdür?

-Bəli, ana qurban, çox böyükdür.

-Dənizdə üzsən boğularsan?

-Üzməyi bacarsan boğulmazsan.

-Mən üzsəm boğularam.

Onu qucaqlayıb bağrıma basdım.

-Mənim balam, sən axı üzməyi bacarmırsan. Əgər yaxşı yemək yeyib böyük qız olsan, səni üzgüçülük sinfinə yazdıraram. Bax onda üzməyi öyrənərsən.

-Əgər elədirsə, mən dənizə yaxınlaşmayacağam.

-Qorxma. Ya mən, ya da atan əlindən tutarıq, beləliklə, başına bir iş gəlməz. İndi isə yat, ağıllı balam.

Səhər tezdən maşın yola düşəndə uşaqlar yuxulayırdılar. Lakin meşəyə çatan kimi ayılıb sakitcə tamaşa etməyə başladılar. Şimal rayonlarının yolu Məşhəd yolundan fərqli olaraq, ağaclıq və yaşıllıq idi. Ağaclar dağların qülləsinə qədər hər yeri bürümüşdü. Günortaya yaxın Hüseyn dənizin yaxınlığında balaca bir otaq icarə etdi. Artıq uşaqların səbri tükənmişdi. Qalacağımız yeri müəyyənləşdirdikdən sonra, birbaşa dənizin sahilinə getdik. Dalğaların səsi uzaqdan qulağımıza çatırdı. Ucsuz-

bucaqsız bir su sahəsi. Deyəsən, dalğaların səsi, ya da dənizin bəxş etdiyi daxili sakitlik uşaqları aram etmişdi. Ləpədöyənə getdik. Fatimə əvvəl məndən ayrılmaq istəmirdi. Məhla dənizə tərəf qaçır, dalğanın yaxınlaşdığını görəndə səs-küy salaraq, gülə-gülə geri çəkilirdi. Fatimənin əlindən tutub dedim: "Get Məhla ilə oyna."

-Axı üzməyi bacarmıram, dənizdə boğulmaqdan qorxuram.

Hüseyn Fatiməni çiynində oturdub suya girdi. Ləpədöyəndə oturub ata ilə qızlarının oyununa tamaşa edirdim. Dənizdə keçirdiyimiz həmin bir neçə gün ən yaxşı ailə xatirələrimizdən birinə dönmüşdü. Hüseyn mənə əlimi ağdan qaraya vurmağa imkan vermirdi. Bütün işləri özü yerinə yetirirdi. Hətta yeməyi belə özü boşqablara çəkirdi. Mənə deyirdi ki, sən dənizə, istirahətə gəlmisən. Burada da gündəlik bişir-düşür işlərini görməyə məcbur deyilsən. Dincəl, mən varam.

Səhər qab-qacaq səsinə yuxudan ayılıram. Hüseyn səhər yeməyi hazırlamaqla məşğuldur. Uşaqlar hələ yatıblar. Ona kömək etmək üçün yerimdən qalxıram.

-Belə davam etsə, daha heç vaxt iş görmək istəməyəcəyəm.

-Böyük bir iş görməmişəm ki... bir neçə yumurta qoymuşam bişməyə. Pendir, qaymaq və çörək almışam. Bu da çay, bir neçə dəqiqəyə dəmlənəcək.

İndi qəşəng pürrəngi, təzədəm çay süzəcəyəm ki, birlikdə içək.

Əgər bu dərəcədə gözəl yol yoldaşı olduğunu bisəydim, bundan çox-çox əvvəl bizi səfərə aparmanı istəyərdim. Ümumiyyətlə, bundan sonra hər ay səfərə getməyimizi istəyirəm.

Hüseyn iki stəkan çay süzəndən sonra süfrəyə əyləşirik. İsti çörəkdən bir tikə qoparıb ağzıma qoyuram. Zarafatla soruşuram: “Bu gün nahara nə yeyəcəyik?”

Şimallıların ləhcəsi ilə cavab verməyə çalışır.

-Xanım canın ürəyi hər nə istəsə.

Xanım can balıq istəyir, bu gün balıq yeyək. Şimalda ola-ola balıq yeməmək günahdır.

-Baş üstə. Səhər yeməyindən sonra uşaqlarla dənizə gedin, mən də bazara gedib balıq alım. Sizin üçün elə balıq bişirəcəyəm ki, barmaqlarınızı da yeyəcəksiniz.

Sənin yemək bişirməyinə söz ola bilməz. Amma sahilə birgə getməyimizi istəyirəm. Sənsiz heç yerə getməyi xoşlamıram, nə mənə və nə də uşaqlara heç bir şey maraqlı gəlmir. Dənizdən birbaşa bazara gedib balıq alarıq, sonra da birlikdə xörək bişirərik.

Bu neçə gündə Hüseyn gün uzunu bizimlə olmurdu. Dəniz kənarına gəlməyi sevmirdi. Bəzilərinin hicabsız vəziyyətdə sahildə və dənizdə etdikləri yersiz hərəkətlər onu narahat edirdi. Bu vəziyyəti görməsəm daha yaxşıdır. Hər gün mənimlə uşaqları dənizə yola salaraq, özü əsil evdar xanım kimi, dükan-bazara, bişirib-düşürməyə gedirdi. Uşaqların israrı ilə dənizə gedirdim, amma Hüseynsiz heç xoş keçmirdi. Hüseyn yalnız axşamüstülər bizimlə dənizə gələrdi. Dənizin sahilində qaçaraq, üstümüzə gələn ləpələrdən geri çəkilirdik. Sahildə qumdan ev düzəldirdik. Dördümüz də əl-ələ tutaraq dənizə girir və dizimizə qədər suda islanırdıq. Sonra Hüseyn qumun üstündə şəkillər çəkir, biz də şəkildə nəyin təsvir olunduğunu tapırdıq. Bir sözlə, zamanın necə keçdiyini hiss etmirdik.

Hüseyn maşınla bazara getdi, mən də onun istəyinə uyğun olaraq, uşaqları dənizə apardım. Biz dənizdən

qayıdanda otaqdan gözəl yemək qoxusu gəlirdi. Hüseyn qızlar üçün həsir şlyapalar almışdı. Nahardan sonra istirahət edirik.

Axşam namazından sonra adəti üzrə sahilə gedirik. Hüseyn uşaqlarla qaçdı tutdu oynayır. Sahildə bizdən bir qədər kənarda əyləşən ailələr də var. Hüseynlə uşaqlar qayıdandan sonra, bir yerə yığılırıq. Bir qədər danışıb güldükdən sonra, Hüseyn bizə birgə dua oxumağı təklif edir. Bu gün cümə axşamıdır. Adətən əvvəlki cümə günlərində ya imam Rizanın hərəminə, ya da hüseyniyyəyə gedərdik. Hüseyn cümə axşamı duasını tərk etmək istəmirdi.

Ucadan dua oxumağa başlayır. Ətrafımıza nəzər salıram. Bizim üçün hansısa bir problemin yaranacağından nigaranam. Hüseynin dünya-aləm vecinə deyil, duanı elə gur səslə oxuyur ki, sanki hamının eşitməsini istəyir. Öz-özümə düşünürəm ki, kaş qayıdıb Kumeyl duasını öz otağımızda oxuyardıq. Bir neçə nəfər bizə tərs-tərs baxaraq, kənarımızdan ötüb keçir. Hüseynlə uşaqlar sanki burada deyillər. Duanın içində qərq olublar. Mən də qəlbən duaya qoşulmaq istəyirəm, amma alınmır. Dodaqaltı öz-özümə deyirəm ki, Allah şeytana lənət eləsin, adamı heç yerdə rahat buraxmır.

Çadramı üzümə çəkib fikrimi duaya, Hüseynin səsinə və sahilə çırpılan ləpələrin həzin uğultusuna yönəldirəm. Hüseynin: **يا غياث المستغيثين** (Ya ğiyasəl mustəğisin) nidası eşidilir. Çiyinlərinin titrədiyini görürəm. Qəhərlənirəm. Arxadan duanı bizimlə oxuyan bir neçə insanın səsini eşidirəm. Dua bitdikdən sonra ətrafa göz gəzdirirəm. Bir neçə ailənin bizə qoşulduğunu görürəm. Ətrafımızda əməlli-başlı canlanma yaranıb. Kişilər Hüseyndən onları dua etməsini istəyirlər, xanımlar isə mənə təşəkkür edərək,

Hüseynin səsinin necə də ürəkaçan olub, onları Allahla qovuşdurduğundan danışırlar.

Allaha şükür edirəm. İşin ən düzünü Hüseyn görmüşdü. Həmişə ondan bir addım geri qaldığıma görə narahat idim. Kaş onda olan bu cəsarət, gördüyü işə inam məndə də olardı. Üzümü Hüseynə tutub deyirəm: Allah bəndəsi naşükür olmalı deyil. Sənin kimi bir insanı mənim üçün sirdaş və həyat yoldaşı seçib göndəribsə, bunun özü böyük nemət və bərəkət deməkdir.

-Bəli, xanım, elədir ki, var. Yaxşı həyat yoldaşı insan üçün bir nemətdir. Yəqin ki, mən də yaxşı insanam ki, sənin kimi xanım mənə qismət olub.

Hüseyn süfrəni salır və bişirdiyi dadlı turş toyuq qovurmasını yeməklə məşğul oluruq. Gecənin sonunda uşaqlarla birgə əşyalarımızı toplayırıq. Hərəmiz bağlamalardan birini əlimizə alıb icarə etdiyimiz evə tərəf yola düşürük.

Səhər tezdən İsfahana doğru hərəkət edirik. Səfər boyu İsfahana, Şiraza, Yəzdə, sonda isə Təbəsə baş çəkməyi planlaşdırmışıq. Bu səfər hamımız üçün şirin bir xatirəyə döndü.

# 30

Hüseynin işsiz qaldığı müddət uzanır, evin xərci isə pulsuz ötmürdü. Hüseyni məzəmmət edirəm ki, bir yol tapıb əvvəlki iş yerində qala bilərdi. Fabrikin təsis olunmasının ildönümünə həsr olunmuş qonaqlıqda qalıb, əlini şirniyyat və şərbətə uzatmaya bilərdi. Amma hər dəfə verdiyi cavab eyni idi:

-Mən bu məsələyə laqeyd yanaşa bilməzdim.

Çətinlik bizi sıxanda, atam Hüseynə təklif etdi ki, iş tapana qədər ticarət mərkəzində gözətçi işləsin.

Hüseynlə bu barədə danışanda gözlərinə baxmağa cəsarət etmirdim. Onun məsuliyyətsiz adam olmadığını yaxşı bilirdim. Həmişə bizim rahatlığımız üçün çalışırdı. İstəklərimə diqqətlə yanaşırdı. Bura qədər çoxlu borcumuz olduğunu bilirdim, gələcəkdə başımıza nə gələcəyindən təkcə Allahın xəbəri vardı. Ona dedim ki, bilirəm, gözətçi işləmək sənin şənində deyil, amma nə etmək olar, buna məcburuq.

Bir qədər sükut etdi.

-Əgər istədiyin budursa, gedərəm.

Doğrusu, ürəyimdə bu işə razı deyildim, həyat yoldaşımın ticarət mərkəzində gözətçi işləməsini özümə

sığışdırmırdım, xüsusilə də bu işi ona atamın qohumlarından birinin təklif etdiyi bir halda. Amma həyat bəzən bizi istəmədiyimiz qərarları qəbul etməyə məcbur edir. Hüseyni bu işə düzəldən qohumumuzun vədələri ilə özümə təskinlik verirdim. Deyirdi ki, Hüseyn orada əlini bir işə ilişdirə bilsə, gələcəkdə daha yaxşı vəzifəyə keçib, ticarət mərkəzinin məsul işçisinə çevrilə bilər. Sabahısı gün Hüseyn işə düzəlməyə getdi və sonda onunla iş müqaviləsi imzalandı.

Bu günlərdə bir dəqiqə belə olsun boş vaxtım yox idi. Bütüm günlərim Məhla ilə Fatiməyə həsr olunurdu. Uşaqlarla oynamaq, bişir-düşür və ümumiyyətlə evin işlərinin yoluna qoyulması mənə heç bir şey barədə düşünməyə fürsət vermirdi. Yalnız həyatım haqqında düşünərək gah nigaran, gah da ümidvar olurdum. Uşaqlar yuxuya gedəndə öz-özümə düşünür, Hüseynin iş mühitini və gözətçilərin rəisini gözümün önündə canlandırmağa çalışırdım. Bu işdə Hüseynin heç bir problemlə qarşılaşmayacağından əmin idim.

Bir neçə aydan sonra maddi vəziyyətimiz düzəldi. Hüseyn gözətçi olsa da maaşı yaxşı idi. Borclarımızın bir hissəsini ödəmişdik. Bir sözlə, ailəmizin işləri yoluna düşmüşdü. Hüseynin işi əvvəlki kimi çətin deyildi, artıq fabrikdə dəzgahın qarşısında ayaqüstü dayanmaq məcburiyyətində olmadığından, rəngi-ruhu dəyişilmişdi. Ticarət mərkəzinin ab-havası yaxşı idi. Girəcəkdə bir stul qoyulmuşdu, yorulduğu zaman həmin stulda əyləşərək istirahət edə bilərdi. Bir-iki dəfə alış-veriş üçün deyil, hal-əhvalını soruşmaq üçün ora baş çəkmişdim. Ticarət mərkəzi Canbaz meydanında yerləşirdi, orada satılan mallar isə mənim ala biləcəklərim sırasında deyildi. Alınmağı zəruri olan malları, istər geyim, istər qida,

istərsə də uşaq oyuncaqları olsun, daha sadə və ucuzlu yerdən əldə etməyə üstünlük verirdim.

Hüseyn hər gün işə gedib gəlirdi. Zaman keçdikcə üzündəki narazılıq əlamətləri artırdı. Ondan sual soruşmağa cürətim çatmırdı. Mənimlə dərdləşərək baş verənləri izah etmək istəyəcəyindən, bu minvalla da eşitmək istəmədiklərimi eşidəcəyimdən qorxurdum.

Amma həmin gün qərarlı idi. Uşaqların geyimlərini yerbəyer edirdim ki, məni səslədi:

-Mərziyə, bura gəl, səninlə işim var.

Qorxuya düşdüm. Sanki öncədən nə eşidəcəyimi bilirdim.

-Hüseyn, görürsən ki, əlimdə işim var, söhbəti başqa vaxta saxlayaq.

Bir kənarda əyləşib uşaqların geyimlərini səliqəyə salmağa başladı.

-Sənə kömək edirəm ki, işini bitirib sözlərimi dinləyəsən.

Ona baxmadan Fatimənin balaca köynəyini əlimdə bükərək dedim: "Hüseyn, bizim iki övladımız var, sən daim iş yerini dəyişə bilməzsən. Düzdür, ev kirayəsi vermirik, amma daha belə davam edə bilməz."

Mənə eşq dolu baxışla nəzər saldı.

-Yorulmusan?

-Səncə yorulmamalıyam? Mənim yerimdə hər kim olsaydı, indiyədək cana doyardı.

Başını aşağı salıb astadan dedi:

-Mən səninlə uşaqların qarşısında üzü qarayam. Amma gələcəyimiz üçün qorxuram. Uşaqlarımızın gələcəyi üçün nigaranam. Qorxuram ki, şeytan bütün əlimizdə olanları, o cümlədən, imanımızı da aradan aparıb, bizi quru yerdə qoyar.

Paltarları səliqəyə salmaqdan əl saxlayıb sözlərinə qulaq asmaq üçün divara söykənirəm. Nə dediyini anlamıram.

-İşimin vəziyyəti elədir ki, artıq orada qalıb işləyə bilmərəm. Xanımların geyimi elə vəziyyətdədir ki, işləmək mümkün deyil.

-Onlara baxma, başını aşağı sal.

-Elə danışırsan ki, sanki həyat yoldaşını tanımırsan.

Başımı aşağı salıb dodağımı dişləyirəm. Bu sözü ondan intiqam almaq xətrinə deyil, sadəcə söylədiklərinə bir cavabım olsun deyə, dilə gətirmişdim. Hüseynin naməhrəmə baxmadığını və baxışlarını nəzarətdə saxladığını dəqiq bilirdim, bunu öz gözlərimlə görmüşdüm. Dedim ki, sənin bu etdiklərin xüsusi məharət istəmir. Gedib özünü bir yerdə həbs edə bilərsən ki, heç kim səni görməsin və bu yolla imanını qoruduğunu iddia edəsən. Əgər bacarırsansa, hamının get-gəl etdiyi ümumi bir yerdə baxışlarını naməhrəmdən qoru. O halda imanının dəyəri olar.

-Doğrudan elə düşünürsən ki, belə həssas mühitlərdə axıra qədər öz baxışlarımı qoruya biləcəyəm? Mən başımı aşağı salsam belə, yad qadınların çılğın səsləri ilə necə davranım? Dikdaban ayaqqabılarının tıq-tıq səsi ilə, xanımların yalın biləkləri və topuqları ilə nə edim? Həmin gün bir xanım qucağındakı itlə alış-verişə gəlmişdi. Ona dedim ki, ev heyvanları ilə ticarət mərkəzinə daxil olmaq qadağandır. Həmin an gözüm onun yalın qollarına sataşdı. Namazımı necə qıldığımı bilmədim. Nə vaxta qədər belə davam edəcək? Əgər bu işdə qalsam, imanımı qoruyub saxlayacağıma təzminat verə bilərsən? Gözümün və qəlbimin günaha aludə olaraq, zina mənbəyinə çevrilməsini istəyirsən?

Söylədikləri doğru idi, amma Fatimə ilə Məhla da azyaşlı idilər. Ailə həyatının öz xərcləri var. İki od arasında qalmışdım, nə deyəcəyimi bilmirdim.

-Atama, onun qohumuna nə cavab verəcəyik? Bu dəfə nəyi bəhanə gətirəcəyik?

Başqalarının nə deyəcəyinin onun üçün əhəmiyyəti yox idi. Onun üçün mühüm olan mənim nəzərim idi. Məni isə ya qane edəcəkdi, ya da söylədiklərini qəbul etməyə məcbur olacaqdım. Bilirdim ki, Hüseyn artıq öz qərarını verib. Belə olduğu halda mənim hədsiz etirazlarım yalnız dilxorluğa, narahatçılığa və gələcəkdə sözlərimin təsirsiz olmağına bais olacaqdı.

Yenidən Hüseynin işsiz günləri başladı. Yenidən iş tapmaq üçün ona-buna ağız açmalı idik. Bir neçə aydan sonra o, süd məhsullarının daşınma şirkətində işə düzəldi. Əmək haqqı çox aşağı idi. Hüseyn şirkətdə sürücü işləyirdi, bəzən də məhsulun satışından əldə olunmuş çekləri şirkətə təhvil verirdi. Axşamüstülər hərəmin ətrafında və zəvvarların çox olduğu məkanlarda motosikletdə sərnişin daşımaqla məşğul olurdu. Bu işindən çox razı idi. Dediyinə görə, işi bais olurdu ki, gündə bir neçə dəfə imam Rizanın günbəzinə salam versin. Ruhanilərdən və tələbələrdən pul almayıb, onları havayı mənzil başına çatdırırdı.

Artıq Hüseynin iş rejimi ilə tanış idim. Sübh tezdən evdən çıxıb axşamüstü qayıdırdı. Bir-iki saat istirahət etdikdən sonra motosikleti ilə sərnişin daşımağa gedirdi. Bir müddətdən sonra əmək haqqının aşağı olması üzündən iş yerini dəyişib başqa şirkətə keçdi. Bu şirkət də süd məhsullarının daşınması ilə məşğul olurdu, amma burada əmək haqqı daha yüksək idi.

Lakin Hüseyn yeni iş yerində də çox qala bilmədi. Daim gileylənirdi. Çox vaxt onunla birgə başqa şəhərlərə məhsul daşıyan sürücülərin söhbətləri və danışıq tərzi ədəbdən kənara çıxırdı. Bu hal Hüseynə çox əzab verirdi.

Mənim tərbiyəli və ədəbli həyat yoldaşım fəhlə həyatına öyrəşə bilmirdi. Mədəniyyət səviyyəsi aşağı olan adamlarla dil tapmaq onun üçün çətin idi. Sürücülərin yolda haram musiqiyə qulaq asmalarından tutmuş, araq içmələrinə qədər, bütün gördüyü işlər Hüseyni narahat edirdi. Uzun müddət nümayiş etdirdiyi səbr və dəyanətinə baxmayaraq, sonda bu işdən də əl çəkməli oldu.

Növbəti işi poladəritmə zavodunda fəhləlik idi. Onun iş yeri uzaqda, Gülbahar yaxınlığındakı Firdovsi sənaye şəhərciyində yerləşirdi. Dəmir tullantıları toplanaraq həmin zavoda çatdırılır və orada əridilirdi. Hüseynin işi domna peçinin kənarında deyildi. O, zavodun nəzarət şöbəsinin rəisi idi.

# 31

Xəstəxanalara məxsus olan iydən heç vaxt xoşum gəlməyib. Palatalardakı mühit, hava, hətta pəncərələrdən süzülən gün işığı belə adama qəriblik hissi bəxş edir.

Tibb bacısı gəlib qolumdakı sistemi dəyişir.

Vəziyyətim ağırdır, özümü əzgin hiss edirəm.

-Həkim bir saatdan sonra sizi müayinə etməyə gələcək.

Həkim məni müayinə edib müalicə təyin edir və tibb bacısı yerindəcə iynəmi vurur. Bir qədər istirahət edirəm, gündüz Hüseyn məni görməyə gəlir. Gözləri gülür. Əlimdən tutub özümü necə hiss etdiyimi soruşur, sonra çarpayımın kənarında oturaraq deyir: “Körpə balama özüm qurban!”

Hüseynin yeni dünyaya göz açmış körpəmizə qurban olma istəkləri həddən ziyadə olanda, halımın pisləşdiyini hiss edirəm. Dilxor halda deyirəm: “Daha bəsdir! Hamı sənin nə həddə oğul arzusunda olduğunu anladı.” 2014-cü ilin Şaban ayının 15-i oğlumuz dünyaya göz açdı. Hüseyn körpənin adını Məhəmmədmehdi qoymaq istəyirdi. Ona dedim ki, Məhəmmədməhyar olsun, yəni imam Zamanın köməkçisi.

-Qoy sən deyən olsun. Bundan əvvəlki iki övladımızın adını mən seçmişəm. Bu seçim isə səninlə olsun. Onu imam Zaman ağanın əsgəri niyyəti ilə böyüt.

Hüseyn xəstəxanadan tərxis edilmə işlərini yerinə yetirdi. Qızlarımı görmək üçün burnumun ucu göynəyirdi. Məhla ilə Fatimə mənim və kiçik qardaşlarının yolunu gözləyirdilər. Evə gələndə halım düzəldi. Uşaqlar ətrafıma yığıldılar, Fatimə məni qucaqladı. Hüseyn onu qaldırıb çiynində oturtdu.

-Ananız bir az halsızdır. Gərək hamımız ona qulluq edək ki, halı tezliklə yaxşılaşsın.

Hüseyn qutunu açdı və uşaqlar ləzzətlə şirniyyat yeməyə başladılar. Ətrafımda yığılıb təəccüblə Məhəmmədməhyara baxırdılar. Anam bizim üçün yemək bişirmişdi. Mənim üçün çaldığı quymağı gətirib, uşaqları otaqlarına apardı. Hüseyn yanımda oturdu.

-Quymağı ye ki, halın düzəlsin, Mərziyə can.

Quymaqdan bir qaşıq ağzıma qoyuram. Gözlərindən sözlü adama oxşadığını görürəm.

-Nə baş verib?

-Mərziyə can, mənim oğul istəməyim bu dünyadan səndən tez gedəcəyimi bildiyim üçündür. Mən olmayanda sənin və qızlarımızın yanında bir kişinin olmasını istərdim.

Gülümsədim.

-Xeyir ola, hara hazırlaşmısan?

-Bu dünyanı səndən tez tərk edəcəyimi bilirəm, Allahdan bircə istəyim odur ki, şəhid kimi dünyadan gedim.

Baxışlarımı Hüseyndən çəkirəm. Nədənsə qəhərlənirəm, gözlərim yaşla dolur. Baxışlarımı Məhəmmədməhyara dikirəm. Məsum balam şirin-şirin yatır.

-Gedəcəyin haqda eşitmək belə istəmirəm, Hüseyn. Yol yoldaşı, həyat yoldaşı olacaqdıq, bir-birimizi yarı yolda buraxmaq qərarımız yox idi.

Məhəmmədməhyarı qucaqlayıb öpdü.

-Heç bilirsən ki, Rza İsmailinin uşağı da Məhəmmədməhyarla bir gündə dünyaya gəlib? Amma atası yoxdur, şəhid olub.

Ürəyim yandı. Həmin səhnəni gözlərimin önündə canlandırdım. Qadın yenicə körpəsini dünyaya gətirib, amma həyat yoldaşı onunla deyil və qulluğunda dura bilmir. Qadın dünyaya gəlməzdən öncə yetim qalmış körpəsi ilə tək-tənhadır. Hüseynə dedim: "Yazıq körpə yetim dünyaya gəlib."

-Məgər Allahın himayəyə götürdüyü uşağa yetim deyirlər? Məhəmmədməhyarın başının üstündə mən varam, Rza İsmailinin körpəsini isə Allah himayə edir.

Hüseyn məni dəli etdiyini düşünmürdü. Özümü Rza İsmailinin həyat yoldaşının yerində hiss edə bilmirdim. Qəhərləndim, Hüseyn əlimi sıxdı.

Uşaqların qışqırıq səsləri eşidildi. Yəqin yenə də ya oyuncaqları, ya da başqa məsələyə görə sözləşmişdilər.

Anam otağın qapısını açdı və uşaqlara mənim üstümə atılmamalarını tapşıraraq, çarpayımın kənarında əyləşdi. Hüseynlə söhbətimiz yarıda qaldı. Nə o, bir söz dedi və nə də mən bir şey danışdım.

Məhəmmədməhyarın dünyaya gəlişindən yeddi gün keçəndən sonra, atamın istəyi ilə oğlumuz üçün əqiqə qurbanı kəsməyi qərara aldıq. Hüseynlə mən bu təklifi məmnuniyyətlə qəbul etdik. Atam qoyun almağı öz öhdəsinə götürdü. Qurban kəsəcəyimiz gün Hüseyn və uşaqlarla birgə atamgilə getdik. Ata evinin böyük həyəti

vardı. Bir də ki, bütün ailənin bir yerə yığılmasının öz ləzzəti var.

Məhəmmədməhyar Hüseynin qucağında idi. Uşaqlar çox sevinirdilər. Atamgilin həyətinə girməzdən öncə, qoyunun mələməsini eşidən uşaqların gülüşləri kəsildi.

Hüseyn ya Allah deyən kimi, ata-anam, Raziyə və yığışanların hamısı qapıya çıxdılar, bizi qarşılayıb evə apardılar. Çay içib doyunca güləndən sonra, kişilər qoyunu kəsib ətini bölməyə getdilər. Atam qəssab dəvət etmişdi. Kişilər həyətə düşdülər, mən də Məhəmmədməhyarı qucağıma alaraq onların ardınca getdim.

Bir vedrə suyu heyvanın qarşısında qoyduq ki, doyunca içə bilsin. Bir kənarda dayanıb üstündə əqiqə duası yazılmış kağızı çıxardım ki, qoyunu kəsməzdən öncə duanı oxusunlar. Hüseyn mənə və əlimdəki kağıza nəzər salıb yazılanları oxudu.

-Bu ki, əqiqə duasıdır, Mərziyə!

-Əlbəttə, əvvəl gərək duanı oxuyaq.

-Mən Məhəmmədməhyarı imam Zamana nəzir etmişəm, bu kəsilən qoyun da imam Zamanın adına qurban edilməlidir.

Ona təəccüblə baxdım. Həmin ana qədər mənə bu barədə heç nə deməmişdi. Söylədiklərinin mənasını anlamaqda çətinlik çəkirdim. Bunu baxışlarımdan bildi.

-Bilirsən, biz bu qoyunu ağanın adına qurban etsək, yalnız imam Zamanın deyil, bütün imamların duası bizə və övladımıza şamil olar. Onlar körpəmizin sağlamlığı və aqibətinin xeyirli olması üçün dua edərlər.

Dəlilləri məntiqli idi. Hüseyn həmişəki kimi məndən bir addım öndə idi.

Onun istəyi ilə qoyunu imam Zamanın adına qurban kəsib, ətini böldük. Gündüz hamımız qovrulmuş qoyun əti ilə cızbız yedik. Çox dadlı yemək idi. Qızlar əvvəlcə yeməyə əl uzatmırdılar. Deyirdilər ki, bu, həyətdəki balaca qoyunun ətidir və bu üzdən yeməyə əl vurmaq istəmirdilər. Amma bir az keçəndən sonra yemək yeməyə razılaşdılar. Hüseyn atam və qardaşım İbrahimlə zarafatlaşırdı. Bir sözlə, məclisimiz çox şən keçirdi.

Süfrə yığıldıqdan sonra Hüseyn öncə atama və qardaşıma, sonda şirin-şirin yatan Məhəmmədməhyara baxaraq, əyilib qulağıma pıçıldadı: "Yaxşıdır ki, ətrafında sənə məhrəm olan çoxlu kişi var. Mən olmayanda sənin və uşaqların qeydinə qalacaqlar."

Hüseynin bu tərzdə danışıqlarına ciddi yanaşmırdım. Nəzərimcə, məhz Məhəmmədməhyarın dünyaya gəlişindən sonra şəhadət haqqında zümzümələri daha çox eşitməyə başlamışdım. Namazdan sonra səcdəyə gedəndə deyirdi: "Şəhid olmağım üçün dua et."

Ərəfə duasında əyilib qulağıma pıçıldadı: "Allahı imam Hüseynin(ə) adına and ver ki, həyatımı şəhadətlə sona çatdırsın."

-Özün dua et. Mən belə dua edə bilmərəm. Nə üçün bu qədər şəhadətdən danışırsan?

-Allah bu duanı sənin dilindən eşitmək istəyir, o səbəbdən sənə deyirəm.

-Nəyə görə?

-Sənin də şəhid yoldaşı olmağa hazırlığın olsun deyə.

İstəyirdim deyim ki, mən belə bir şeyin arzusunda deyiləm. Amma Hüseynin baxışından sezdiyim naməlum bir hiss ağzımı açmağa imkan vermədi.

Məhz həmin günlərdə Hüseynin Suriyaya getmək barəsində söhbətləri başladı. Bilirdim ki, bunun yeganə

səbəbi Məhəmmədməhyarın dünyaya gəlişidir. Onun şəhadət istəyinə meyilli olmadığım bir halda, aramızdakı dostluq və səmimiyyət hisslərinin aradan getməsindən qorxurdum. Hüseyn əlinə düşən hər fürsətdə getmək barədə danışırdı, mən isə körpə Məhəmmədməhyarımıza baxırdım; ata qayğısına ehtiyacı olan körpə oğluma. Oğul böyütməyin məsuliyyətinin qıza nisbətdə daha ağır olduğunu bilirdim.

Özümü küləyin axınına düşmüş yarpaq kimi hiss edirdim. Çarəsiz qalıb atama üz tutdum. Baş verənləri danışanda atam dərin fikrə getdi. Ona iştirak etdiyimiz heyətlər və şəhidlərin dəfn mərasimləri barədə danışdım. İkimiz birlikdə bu məsələnin həll yolunu tapmağa çalışırdıq. Amma deyəsən yeganə çıxış yolu Hüseyni bu kimi mühitlərdən uzaq saxlamaq idi.

Nəhayət, atam soruşdu: “Niyə Gülbahara, Hüseynin iş yerinin yaxınlığına köçmürsünüz? Belə həm özün, həm də həyat yoldaşın üçün yaxşı olar.”

Yaxşı fikir idi. Bu məsələ barədə Hüseynlə danışmalı idim. Hərçənd, ona hələ bir söz deməmiş, razı olmayacağını bilirdim. Hüseyn hər gün imam Rizanın hərəmini ziyarət etmək eşqiylə yaşayırdı.

Bu günlər əlimə düşən hər fürsətdə evi dəyişib buradan köçmək barədə söz salıram. Hüseyn Suriyaya getmək fikrindədir, mən isə onu bu fikirdən daşındıraraq, Gülbahara köçmək niyyətindəyəm. Kaş sözlərimə qulaq asıb istəyimi yerinə yetirərdi.

Hüseyn hər gün işə gedib-gəlir. Düşünürəm ki, əgər vaxtında səbirli olub işıq idarəsində qalsaydı, indi hansısa bir vəzifəyə yiyələnib, daha rahat iş şəraitinə malik olardı.

Hüseyn gələn kimi ona bir stəkan çay süzdüm. Məhla mənə kömək etmək üçün qənddanı gətirdi. Uşaqlar adət

etmişdilər ki, atalarının yorğunluğu çıxana qədər onu narahat etməsinlər. İş yolunun uzaq olması və get-gəl onu əməlli başlı yorurdu. Ona ürəyim yanırdı. Dedim ki, Hüseyn can, işıq idarəsində qalaraq, bütün bu illər ərzində iş yerini dəyişməsəydin, bu qədər çətinliyə də davam gətirmək məcburiyyətində olmazdın. Nəzərincə, belə daha yaxşı olmazdı?

-Birincisi, orada iş müqaviləsi əsasında işləyirdim, daimi əsasda yox. Mənim bu günə kimi orada qalacağıma heç kim təzminat verə bilməzdi. İkincisi də bütün bu çətinliklərə sinə gərmək mənim üçün baldan da şirindir.

Həmin an Hüseynin sözlərinin dərinliyinə vara bilmədim. Yalnız bir gün müəyyən bir sənədə görə, qardaşım İbrahimin maşını ilə Hüseynin iş yerinə getməyə məcbur olanda, onun nə demək istədiyini anladım.

Əldən-ayaqdan uzaq bir yer idi. Poladəritmə zavodunun çoxlu sənaye tullantısı olduğundan, onu şəhərdən mümkün qədər uzaq məsafədə inşa etmişdilər. Təhlükəsizliyin təmin olunması üçün zavodun ətrafı keşikçi itlərlə dolu idi. Hüseyn də səhər tezdən günortaya qədər, qızmar günəş altında zavodun ətrafını gəzib dolanaraq, keşik çəkməyə məcbur idi. Ona ürəyim yandı. Dedim ki, şəhərin mərkəzində yerləşən rahat ticarət mərkəzini qoyub, biyabanın ortasında bu itlərlə birgə keşik çəkməyə gəlmisən? Axı sən nəyə görə belə çətinliyə qatlanmalısan?

-Fikri və ruhi sakitliyimin əlimdən alındığı bir yerdə qalmaqdansa, bu itlərin yanında olmağım daha yaxşıdır.

Sevinirdi, gülüb danışaraq maraqla ətrafı bizə göstərirdi. Gözləri yorğun idi. Bunu çox aydın görə bilirdim, xüsusilə bu günlərdə. Zavodun işi artdığından, onun iş növbəsi çatanda hər iyirmi dörd saatdan yalnız üç

saatını istirahətə sərf edə bilirdi. İstirahət üçün bu qısa zamandan başqa fürsəti yox idi.

Onun üçün nigaran idim. Arıqlamışdı, yorğun nəzərə çarpırdı. Çox vaxt evdə olmurdu, iş növbəsi çatdığından işdə olurdu. Birlikdə daha çox vaxt keçirməyimizi istərdim. Artıq üç övladımız vardı. Məhlanın on iki yaşı, Fatimənin altı yaşı, Məhəmmədməhyarın isə bircə ayı tamam olmuşdu. Beş nəfərdən ibarət bir ailəyə çevrilmişdik. Mən də bu ailənin xanımı olaraq, onu səbr və hövsələ ilə idarə etməli idim.

Bilirdim ki, bütün çətinliklərə baxmayaraq, Hüseyn bu işdən razıdır. Bəzən uşaqlar atalarını görmək istəyirdilər. Mən də hər dəfə onları bir bəhanə ilə sakitləşdirərək, başlarını sevdikləri əyləncələrlə qatırdım. Hüseyn evdə olanda uşaqların ona necə darıxdığından danışırdım. O, isə həvəslə mənə gecələrdən, biyabanın səssizliyindən və Əmir əl-möminin duasını necə oxuduğundan danışardı. Söhbət əsnasında gözləri elə parlayırdı ki, şikayət etməyə ürəyim gəlmirdi. Deyirdi ki, gecənin bir aləmində dua oxuyarkən, bütün varlıq aləminin onunla birgə dua oxuduğunu hiss edir. İşini, yuxusuzluğunu, üç saatlıq istirahətini, Quran oxumasını, hətta gecənin səssizliyini belə, ruhunu kamala çatdıran bir yol kimi görürdü. Bu sözləri eşidən kimi, uşaqlar Hüseynin ətrafına yığılaraq maraqla onun söhbətlərinə qulaq asırdılar. Kitablarının çoxunu iş yerinə aparmışdı. Bəzən kitab oxumaqla məşğul olurdu.

Hüseyn iki il həmin zavodda işlədi. Gülbahara köçmək üçün nə qədər israr etsəm də, faydasız oldu.

Hüseyn evdə olmayanda, atama zəng vurub hər şeyi danışıram. Qərara alır ki, gəlib Hüseynlə söhbət etsin. Hüseynin atama hörmətlə yanaşdığını bilirəm, onun

sözünü yerə salmayacaqdı. Axşamüstü atam evimizə gəlir. Hüseyn hələ işdən qayıtmayıb. Atama çay süzüb Hüseynin gəlməyini gözləyirəm. Nigaranam, atam məni Hüseyni inandıra biləcəyinə əmin edir. Hüseyn evə gələn kimi, sevincək, atamla qucaqlaşır. Bir-birlərini nə qədər çox istədiklərini bilirəm. Atam söhbəti açanda, Hüseyn mənə ötəri nəzər salır. Bunu mənim istədiyimi anlayır. Oradaca başını aşağı salıb atama deyir:

-Qoy siz deyən olsun. Əgər sizinlə Mərziyənin istəyi budursa, mənim heç bir etirazım yoxdur.

# 32

Fatimə məktəbə getdiyi il məni çox incitdi. Mənə çox bağlandığından, ayrı qalmağa taqəti çatmırdı. Amma dərslərini yaxşı oxuyurdu. Məhla kimi çalışqan və bacarıqlı idi. Dərs ilinin başlanmasından mart ayına qədər keçən altı ayı rahatlıqla başa vurduq. Məhla ilə birgə dərsə gedib gəldiyindən, Fatimənin dərsləri baxımından rahat idim. Dərslərini birgə hazırlayırdılar. Çox vaxt Məhla müəllimə, Fatimə isə şagird olurdu. Bayram tətilləri bitdikdən sonra Fatimənin bu on üç gün ərzində tənbəlləşərək, daha dərsə getmək istəməyəcəyindən qorxurdum. Bu səbəbdən, məktəbə gedəcəkləri gün Hüseyndən onları yola salıb, sonra da qarşılamağını xahiş etdim. Bilirdim ki, Fatimə atasını çox sevir. Maşına minmək isə ən xoşladığı əyləncələrdəndir.

Nahara səbzi qovurma hazırladım. Uşaqlar bu yeməyi çox sevirlər. Qazanın qapağını açdım. Qovurma bişmiş və yağa düşmüşdü. Qaşıqla dadına baxdım. Dadlı və turş idi. Düyünün də suyu qaynamaqda idi. Düyünü təzəcə suya tökmüşdüm ki, qapının səsi gəldi. Uşaqlar səs-küylə içəri girdilər. Qonaq otağına getdim. Hüseynin üst-başını

görəndə çox təəccübləndim. Ondan nə baş verdiyini soruşdum.

-Köynəyin niyə cırılıb? Düymələri niyə tökülüb?

Divanın üstündə oturdu.

-Bir şey olmayıb.

Köynəyinin yaxası sökülmüşdü.

Uşaqlar heç nə demədən, öz otaqlarına keçdilər. Onunla üzbəüz əyləşdim.

-De görüm, axı nə baş verib? Nigarançılıqdan öldüm ki...

-Küçədə iki cavan oğlan bir-biri ilə dalaşırdılar. Onları ayırmaq istəyəndə anladım ki, küçənin o biri tərəfində dayanmış açıq-saçıq qıza görə dava edirlər. Qız küçənin o biri tərəfində dayanaraq, sakitcə saldığı mərəkəyə tamaşa edirdi. Cavanları bir-birindən ayırmağa çalışırdım ki, qəfildən biri cibindən bıçaq çıxarıb, o birini vurmaq istədi. Min bir əziyyətlə onları bir-birindən ayırdım, amma vurduqları zərbələrin çoxu mənə dəydi. Oğlanlar gedəndən sonra qız da çıxıb getdi. Ardınca getdim. Evinin zəngini vurub içəri girdi. Tez yaxınlaşıb qapını döydüm. Qapını bir qadın açdı. Bir qədər söhbət etdikdən sonra qızın anası olduğunu anladım. Ona hər şeyi danışıb dedim ki, sizin açıq-saçıq qızınıza görə bu gün iki cavan oğlan az qala bir-birlərini öldürəcəkdilər. Əgər bədbəxt hadisə baş versəydi, sizin də qızınız məsuliyyətə cəlb olunacaqdı. Qadın ağlayaraq qızını səslədi. Onunla söhbət etdim, ümidvaram sözlərim ona müsbət təsir edər.

Nə deyəcəyimi bilmirdim. Həmin an yalnız gözünü qan tutmuş bir cavanın əlində tutduğu bıçağı düşünürdüm. Qəfildən Hüseynə dəysəydi necə? Əgər başına bir iş gəlsəydi, o qarışıqlıqda heç kim heç nəyi boynuna almayacaq və olan yalnız Hüseynə olacaqdı.

Dedim ki, bu qədər adamın içində niyə məhz sən boş yerə döyülməli idin?

-Bircə anlıq o oğlanlardan birinin sənin qardaşın, ya da oğlun olduğunu düşün. Belə olan halda, yenə də bu dediyini təkrar edəcəksən? Düşünürsən ki, gərək keçib gedərdim və icazə verərdim ki, bir-birlərini öldürsünlər?

-Əlimdə qaşıq tutduğum halda yerimdən qalxdım.

-Mən sənə görə nigaranam. Bir az da bizimlə özünü düşün. Allah göstərməsin, başına bir iş gəlsəydi, heç kim deməyəcəkdi ki, bu Allah bəndəsinin ailəsi var. Hamı səni tez bir zamanda unudacaqdı.

-Əzizim, diqqətim üstümdə idi. Səninlə uşaqlar mənim üçün dünyada hamıdan əzizsiniz.

Uşaqlar mətbəxə keçib qışqırdılar:

-Ana can, qazan!

Mətbəxə qaçdım. Düyünü ocağın üstünə qoyduğumu xatırladım. Bütün suyu çəkilmişdi. Nə qalmışdısa, düyü ilə birgə aşsüzənə tökdüm.

Uşaqlar mənə kömək etmək istəyirdilər ki, uca səslə dedim: "Hüseyn köynəyini çıxar ver uşaqlara. Cırıq-cırıq olub. Ondan yalnız mətbəx əskisi çıxar."

Uşaqlar ataları ilə oynayırdılar ki, qapının zəngi çalındı. Düyünü dəsmalla örtüb dəmə qoydum. Sonra çadramı başıma atıb qapını açmağa getdim. Gələn təzə qonşumuz idi. Bu məhəlləyə yenicə köçmüşdülər. Əşyalarını maşından boşaldırdılar. Əşyalarını evə daşımaq üçün kömək istədiklərini düşündüm. Qonşu hal-əhval tutduqdan sonra soruşdu: " Peyk antenamızı sizin evinizin damında yerləşdirə bilərik?" Bizim evimiz bir mərtəbəlidir. Antena tutmur, siz də ondan istifadə edə bilərsiniz.

Sözlərindən təəccüblənmədim. Məhəlləyə yenicə köçdüklərindən, bizi yaxşı tanımırdılar. Onlara ehtiramla

nə cavab verəcəyimi düşünürdüm ki, Hüseyn əyninə köynək geyinmiş halda, arxada zahir oldu. Onlara salam verdikdən sonra bircə cümlə ilə cavab verdi: “Ayətulla Behcət buyurmuşdur ki, peyk antenası Yezidin bayrağıdır.”

Bu söz qonşu qadının xətrinə dəydi. Xahişini əsaslandırmaq üçün dedi: “Bu nə sözdür? Hamıda peyk antenası var. Açıqca deyin ki, icazə vermirik.”

Hüseyn geri çəkilmədi.

-Antenanı damımızda yerləşdirməyinizə icazə verə bilmərəm, amma onu heç öz damınızda da yerləşdirməyin.

Qonşu dilxor oldu və bizimlə sağollaşaraq getdi. Üzümü Hüseynə tutub dedim: “Belə bir istəyi olan adamın, sənin nəsihətinə qulaq asacağını düşünürdün?

Mən vəzifəmi yerinə yetirdim, xanım. Bundan sonra nə baş verəcəyinin mənə dəxli yoxdur. Sanki, peyk antenası ilə bağlı əhvalatlar bizdən əl çəkmək istəmirdi. Bu hadisənin üstündən çox keçməmiş, təsadüfən öyrəndik ki, köhnə qonşularımızdan biri bizdən icazə almadan, damımıza peyk antenası qoyub. Aşağıdan antenanı görmək olmurdu. Özümüz də onu təsadüfən görmüşdük. Antenanın boşqabı nəzərə çarpmasın deyə, üzərini həsir kisə ilə örtmüşdülər. Qonşumuzdan belə bir iş görəcəyini gözləmirdik. Hüseyn çox hirslənmişdi.

-İndi gedib antenanı öz damlarına qoyacağam.

-Tələsmə, antenalarını zədələyə bilərsən, səbr elə nərdivan gətirim. Mən nərdivanı gətirənə qədər, Hüseyn divarın kərpiclərindən tutaraq, dama qalxa bilmişdi. Sonra isə antenanı götürüb qonşunun damına qoymuşdu. Aşağıdan ona baxırdım. Nərdivanı divara söykədim. Hüseyn damdan enəndə köynəyinin cırıldığını gördüm. Sinəsi və qarın nahiyəsi yaralanmışdı.

-Niyə özünü belə hala salmısan?

Yaralarına fikir vermədən dedi: “Az qala ürəyim partlayacaqdı, sənin qayıtmağını gözləməyə taqətim çatmadı.”

Yay fəsli yaxınlaşırdı. Uşaqlar yenicə tətilə çıxmışdılar. Gəzməyə getmək üçün evdən çıxdıq. Bu zaman uşaqların gözü qarpız satanın maşınına sataşdı. Qarpızlar nübar idi. Uşaqların ürəyi bir dilim sərin qarpız istəyirdi.

Günəş qızmar idi. Hüseyn maşını saxladı. Mən də uşaqlarla birgə maşından endim. Satıcı ağız dolusu qarpızları tərifləyirdi.

-Satdığım qarpızlar bal kimi şirindir, şirin... Yüz faiz şirin.

Hüseyn qarpızlara və satıcıya ötəri bir nəzər saldı.

-Qarpızın içindən xəbəriniz var?

Satıcı nə deyəcəyini bilmirdi. Hüseyn gülə-gülə qarpızlardan birini seçdi.

-Heç vaxt satdığın qarpızların yüz faiz şirin olduğunu demə. De ki, inşallah qarpızlar şirin çıxar. Özünü niyə minnət sahibi edirsən, ay kişi?

-Sən deyən olsun. Qarpızı kəsib yoxlamaq şərti ilə al, ağa can.

-Mən şərtlə satılan heç nə almıram. Qarpız yetişməmiş olsa belə, Allahın mənə göndərdiyi ruzidir. Allah bütün qarpızların şirin olmasına and içməyib ki... Qarpızın yetişməmiş olmasının başqa bir dəlili var. Sən də satış xətrinə özünü belə şeylərlə narahat etmə. Qarpız yetişməmiş olsa belə, mənim səndən irad tutmağa haqqım yoxdur. Heç bir məntiqə uyğun gəlmir.

Satıcının Hüseynin sözlərinə yenə də bir cavab tapa biləcəyini düşündüm. Amma bu dəfə satıcı fikrə getdi. Hüseynin sözlərində həqiqət vardı.

-Satıcı cavab verdi: "Düz deyirsən, niyə camaat mənə minnət qoysun ki?"

Hüseyn qarpızı tərəziyə qoydu.

-De ki, inşallah əgər bu günlük ruziniz şirin qarpız yeməkdirsə, bəs payınıza şirin qarpız düşəcək. Heç vaxt şərtlə satma. Bizim problemimiz ondadır ki, elə bilirik, bu işimizlə daha çox qarpız sata biləcəyik. Lakin hər satıcı sata biləcəyi qədər qarpız satır. Hər kəsin ruzisi öncədən müəyyən edilib, bu sözlərinlə yalnız malının bərəkətini aradan aparırsan.

Satıcı qarpızı çəkdikdən sonra Hüseyn pulunu ödədi. Bu günə qədər heç kim mənə bu sözləri deməmişdi. Allah səndən razı olsun, cavan.

Bir-birlərinə əl verdilər. Hüseyn qarpızı maşına qoydu.

Uşaqlarla maşına oturduq. Hüseyn mühərriki işə saldı. Gülümsəyərək gözucu ona baxdım.

-Şükür Allaha sənin sözünü eşidib qəbul edən birisi tapıldı.

-O cür adamlar var xanım, özü də çoxdur. Sadəcə, çoxlarının dediklərimdən xəbəri yoxdur. İnsanlara ürək yandırıb, bir-birimizə sadə həqiqətləri xatırlatmağımız kifayətdir. Belə olan halda hamı sözlərimizi qəbul edər.

Evə çatandan sonra uşaqlar oturub qarpızın nə vaxt kəsiləcəyini gözləyirdilər. Sinini qonaq otağına gətirdim. Hüseyn yuyulmuş qarpızı siniyə qoydu. Bıçağı gətirdim. Hüseyn bismillah deyərək qarpızı kəsdi. Qarpız iki hissəyə böləndü qıpqırmızı və şirin idi.

Bir qədər sonra, hamımız əşyalarımızı yığmaqla məşğul oluruq. Hər şey yeşiklərə yığılıb, ev tör-töküntü içindədir. Uşaqlar deyinirlər. Əhval-ruhiyyələrini dəyişmək və gərginliyi azaltmaq üçün onları anamın evinə aparıram. Artıq qürubdur. Açarı çevirirəm. Fatimə ilə Məhla əl-ələ

tutaraq içəri qaçırlar. Məhəmmədməhyarın qundağı qucağımda idi. Məhlanı səslədim ki, çantanı əlimdən alsın, mən də evə girim.

Məhəmmədməhyarı beşiyə qoyanda qapının zəngi çalınır. Çadranı başıma atıb qapıya gedirəm. Məhla ilə Fatimə əyinlərini dəyişirdilər. Onları səslədim ki, mən qayıdana qədər uşaqdan muğayat olsunlar. Qapını açdım, qarşımdakı xanımı tanıyırdım, qonşu qadın idi; onunla salam-əleykimiz vardı. Salamlaşaraq, onu içəri dəvət etdim, lakin dəvətimi qəbul etmədi. Yaxın zamanda bu evdən köçəcəyimizi eşidib bizə təşəkkür etməyə gəlmişdi.

Ondan nə üçün təşəkkür etdiyini soruşdum.

-Allah həyat yoldaşınızdan razı olsun. Əgər kömək etməsəydi, heç bilmirəm başımıza nə gələcəkdi. Kiməsə bir söz deməyə üzümüz gəlmirdi, onu sanki Allah bizim üçün göndərmişdi. Sözlərini eşidəndən sonra kirayədə yaşadıqlarını anladım. Qadının həyat yoldaşı işsiz olduğundan, bir neçə ayın kirayə haqqını ödəyə bilməmişdi. Hüseyn yardım məqsədilə onlara əlli min tümən vermişdi.

Xanım dedi: "Allah şahiddir ki, həmin əlli min tümən bizim nə qədər işimizə yaradı, nə qədər çətinliklərimizin düyününü açdı. Allah köməyiniz olsun, çox çətin vəziyyətdə idik. Ev sahibi əşyalarımızı küçəyə tökmək istəyirdi."

Hüseynlə söhbət etdikdən sonra başa düşdüm ki, o, qonşulara kömək etmək üçün məscid camaatından pul toplamış və yığılan pulların üzərinə əlli min tümən qoyaraq onlara təhvil vermişdi.

Hüseynin bu xeyirxahlığının haradan qaynaqlandığını bilirdim. Nəhcül bəlağə ilə yaxından tanış olandan sonra, hər gün sədəqə ayırmağımıza israr edirdi.

Həmin məhəllədən köçənə yaxın başqa xəbərlər də eşitmişdim; misal üçün, Hüseyn qonşumuzun oğlu üçün bir cüt ayaqqabı almışdı. Məktəbə gedərkən uşağın ayağında yırtıq və köhnə ayaqqabı olduğunu görmüşdü.

# 33

Hüseyn maşını gətirib əşyalarımızı yığana qədər xeyli vaxt keçdi. Məhlanı, Fatiməni və Məhəmmədməhyarı maşına otuzdurub özüm də onların yanında əyləşirəm.

Soyuducu, qutu, asılqan, divan...

Bu, Fatimənin səsidir. O, uca səslə maşına yığılan əşyaları sayır. Artıq ikinci dəfədir ki, köçürük. Axırıncı dəfə olmasını istəmirəm. Hələ Gülbahara köçməmiş, artıq orada çox qalmağı düşünmürdüm. Xüsusilə də Hüseynin narahat olduğuna görə; o, daim şikayətlənərək imam Rizadan ayrı düşdüyünü deyirdi. Axı bu Gülbahara köçmək fikri haradan ağlına gəldi? Bütün bu müddət ərzində ora gedib-gəlmişəm, yenə də bu minvalla davam edə bilərdim.

-İnsan həmişə imam Rizanın (ə) hərəminə yapışıb qala bilməz ki... Mühüm olan insanın ürəyidir. Bir müsəlman dünyanın hər yerindən öz imamını ziyarət edə bilər.

Verdiyim cavablar Hüseyni qane etməsə də, susmağı üstün tuturdu, bu söhbəti davam etdirmək istəmirdi. Əgər Hüseyn daim Suriyaya getmək barədə söz salmasaydı, mən də Məşhəddən bu qədər uzağa köçmək üçün israr etməzdim. Gülbaharın Məşhəddən nə qədər uzaq

olduğunu yaxşı bilirəm. Oradan Məşhədə gedib gəlmək çox çətindir. Bunlar bir tərəfə, orada nə qədər qalacağımızı bilmədiyimdən, uşaqların məktəbi sarıdan nigaran idim.

Məhəmmədməhyarın ağlamaq səsi eşidilir, sonra gözləməkdən cana doymuş Fatimə qışqırmağa başlayır. Əlimi qırmızı zənbilə aparıb meyvə qabını çıxarıram. Meyvələrin qabığını soya-soya onlara yeni evimiz barədə danışıram, tezliklə onu görəcəyimizi deyirəm. Fatimə deyir: "Atama de ki, oyuncaqlarımı yaddan çıxarmasın."

-Aydın məsələdir ki, yaddan çıxarmayacaq. Atanın Fatimə adında yalnız bir qızı var. Adam da qızının oyuncaqlarını unudar?!

Hüseynlə dostu işlərini bitirərək maşına əyləşirlər. Hüseyn öz işlərinə görə qohumları zəhmətə salmağı sevmir. Mən isə tam əksinə düşünürəm. Onların köməyə ehtiyacı olanda Hüseynin getdiyi kimi, bizə də kömək lazım olanda, onları çağıra bilərdik. Amma Hüseyn fərqli düşünürdü: "Əzizim, camaatı üzr istəməyə vadar etmə. Bəlkə gəlməyə imkanları yoxdur? Qarşımızda üzü qara olmalarını istəmirəm."

-Hansı camaatdan danışırsan? Öz qardaşımı deyirəm. Sənin qardaşını, əmioğlunu, dayıoğlunu, nə bilim, bizə qolu güclü bir neçə cavan lazımdır.

Hüseyn gülə-gülə deyir: "Mən özüm on nəfərin əvəzinə sənin üçün işləyə bilərəm. İnanmırsan?"

Sualları və sözləri ilə ağzımı yumub, danışmağa qoymurdu.

Gülbahara yola düşürük. Açıq şüşədən üzümüzə isti külək vurur. Uşaqlarla birgə, tam səssizlikdə yolu və yolun ətrafındakı evləri, şirkətləri və mağazaları nəzərdən keçiririk. Yol o qədər uzundur ki, uşaqları yuxu tutur.

Məşhəddən hələ çox uzaqlaşmamışdıq ki, Hüseyn ayağını tormoza basaraq maşını saxladı. Məhəmmədməhyar qucağımda ağlayırdı. Uşaq tərləmiş və istidən taqətsiz olmuşdu. Hüseynin ardınca mən də maşından düşürəm. O, üzünü Məşhədə tərəf çevirərək əli ilə məni göstərib dodaqaltı deyir:

-Ya İmam Riza, mən öz istəyimlə getmirəm. O, məni aparır, məni özü ilə aparır.

Heç nə demirəm. Maşının arxasından su butulkasını götürüb Məhəmmədməhyarın üzünü yuyuram. Yenidən maşına otururuq. Gülbahara çatanda artıq günortanı keçmişdi. Uşaqları maşında saxlayıb pəncərənin şüşəsini aşağı salıram ki, bir az sərin hava gəlsin. Evimiz sakit bir küçədə, torpaq yolun kənarında yerləşirdi. Hər tərəf göz işlədikcə biyaban, çöllük və səssizlik idi. Hüseyn iki fəhlə çağırmışdı. Onlar istidən tər tökərək əşyalarımızı evə daşıyırdılar. Maşın hələ boşalmamış, qonşunun qapısını döyüb ondan iki qəlib buz alıram. Tez bir qab sərin şərbət düzəldib Hüseyni səsləyirəm:

-Hüseyn can, fəhlələrə şərbət apar, istidir, yazıqdırlar.

Şərbətdən bir stəkan süzüb Hüseynə verirəm.

-Bunu da siniyə qoy. Fəhlələrlə birgə içsəm daha yaxşı olar.

Evimiz yeni tikilib, böyük və genişdir. Amma bu evdən qürbət, tənhalıq və səssizlik duyulur.

Hüseyn maşını dostuna verdi ki, Məşhədə qayıda bilsin. Şəxsi əşyalarımızı və qırmızı zənbili maşından götürürəm, dostu ilə sağollaşandan sonra içəri giririk. Hər kəs bir işlə məşğuldur. Uşaqlar yatıb dincəldikdən sonra acdıqlarını deyirlər. Mətbəxə gedirik. Qazın şlanqını sobaya qoşuruq. Mən tavanı və yağı axtarıb tapana kimi Hüseyn bir qutu yumurta və isti çörək alıb gətirdi. Uşaqlar süfrəni salıb isti

çörəyə cumdular. Yağa vurduğum yumurtaları götürüb özümü süfrə başında əyləşən uşaqlara çatdırıram.

Uşaqlar üçün boşqaba yemək çəkib qalanını elə tavada ikimizin qarşısına qoyuram. Pəncərəni açıq qoymuşuq, sərin külək əsir. Hüseyn gülərək deyir: "Allah öz təbii kondisionerini də bizim üçün işə saldı, adama daha nə lazımdır?"

Məhla gülərək deyir: "Ventilyator, ata can."

Hüseyn yeşiklərin içində ventilyatoru axtarmağa gedir.

Onu səsləyirəm: "Əvvəl yeməyini ye, sonra axtararsan. Uşağın hər sözünə qaçmazlar ki..."

Ventilyator işə salındıqdan sonra Hüseyn süfrə başına əyləşir. Uşaqlar altdan-altdan gülüşürdülər. Bunu görən Hüseyn yenə də zarafat etməyə başlayıb uşaqları əyləndirir. Yemək yedikcə, maraqla uşaqlıq xatirələrini danışan Hüseynə baxıram. Evdəki qarışıqlığa, süfrənin ətrafında əyləşən gülərüz və şən övladlarıma nəzər salandan sonra fikrim biyabanın ortasındakı tənha evə qayıdır.

Öz-özümə deyirəm ki, həyat elə budur. Bütün bu çətinliklər qurban olsun həyat yoldaşımla övladlarıma.

Hüseynin iyirmi dörd saatlıq istirahət növbəsi sona çatdıqdan sonra işə çıxmalı olur.

Keçən gecə küçə itlərinin səsindən gözümüzə yuxu getməmişdi. Gecə yarısı bu səsləri eşitməyə öyrəşməmişdik, uşaqlar qorxmuşdular. Nəyin bahasına olursa olsun, zarafatla, nağılla, onları yatırda bildim. Hüseyn gedəndən sonra mən də mətbəxin və otaqların canına düşüb əşyalarımızı yerbəyer etməyə başladım. Uşaqlar mənə kömək etmək istəsələr də, əl-ayağıma dolaşmamalarına üstünlük verdim. Məhlaya tapşırdım ki, uşaqların başını bir şeylə qatsın.

Hüseynin iş növbəsi hər 24 saatdan bir idi. Bir sutka evdə, bir sutka isə işdə olurdu. Onun iş rejiminə öyrəşsək də, məhəlləmizə və yeni evimizə alışa bilmirdik. Bu məkana öyrəşməyimiz və bu şəraitə alışmağımız üçün hələ çox vaxt tələb olunurdu.

Ürəyimdən keçirdi ki, Hüseynin işdə olduğu bu gecəni uşaqları anamgilə aparım. Amma yol o qədər uzundur ki, fikrimdən daşınıram. Digər tərəfdən də Hüseyn səhər işdən qayıdanda evdə olmağımızı istəyirəm.

Axşam uşaqları həmişəki vaxtdan tez yatırdıram ki, itlər hürəndə dərin yuxuda olub heç nə eşitməsinlər. İşığı söndürüb "Dörd Qul" surələrini, Ayətəl-kürsini və ümumiyyətlə bildiyim bütün surələri oxuyub uşaqların üzünə üfürürəm. Başımı balışa qoyanda dua edirəm ki, heç olmasa bu gecə itlər möhkəm səslə hürməsinlər və uşaqlar həmişəkindən də yaxşı yatsınlar.

Yorulmuşam, kürəyim ağrıyır, amma gözümə yuxu getmir ki, getmir. Bir müddətdən sonra uşaqların yuxuda necə nəfəs almalarına qulaq asıram. Nə qədər vaxt keçdiyini bilmirəm, amma tədricən itlərin hürüşmə səsi artdı. Salavat çevirərək qapıya baxıram. Bu biyabandan qorxuram, məhəlləni də tanımıram. Qapını möhkəm bağlayıb qıfıllamışam. Sabah bir-iki qonşu ilə tanış olub onlardan ətrafdakı məktəblər barədə soruşmağı qərara alıram. Evimizə yaxın olan məktəbin harada yerləşdiyini bilmirəm.

Bunları düşünə-düşünə necə yuxuya getdiyimi bilmədim. Açarın səsinə yuxudan ayıldım. Gələn Hüseyndir. Qapını açıram. Evi təzə çörək ətri bürüyür.

-Qapını qıfıllamışdın? Maşallah, bax gör neçə nəfərsiz, oğrudan qorxursuz?

-Evin kişisi evdə deyildi.

Beşikdə yatan, beş-altı aylıq ağbəniz və toppuş balamız Məhəmmədməhyara işarə edərək deyir:

-Buyur, bu da evin kişisi!

Məhəmmədməhyarın yanaqlarından öpüb, balaca toppuş əllərindən tutur.

-Bəs bu nə işlə məşğuldur? Hər kim sizi narahat etsə, Məhəmmədməhyarı göndər ki, onunla bir şir kimi təkbətək döyüşsün.

-Əvvəl gərək həmin şir halal süd əmsin ki, diş çıxarsın. Dişsiz şir heç bir işə yaramır.

-Dişsiz, yalsız və quyruqsuz bir şir.

-Yalı uzanacaq, qəm yemə, səhər yeməyini ye. Uşağı tərpədirsən, yuxudan ayıla bilər. O zaman bütün işlərim tökülüb qalacaq.

Çaydanı qaynamağa qoyuram, pendirlə pomidor-xiyarı boşqablara yığıb süfrəyə gətirirəm. Hüseyn razılıq dolu baxışlarla ətrafı nəzərdən keçirir.

-Maşallah çox zirəksən. Mən olmayanda bütün işləri görmüsən. Daha mənlik bir iş qalmayıb.

-Yorğun olduğunu düşünürdüm, bir az istirahət etsən pis olmazdı.

-Yox canım, nə istirahət? Orada yatıram. İstirahət etməyə də kifayət qədər vaxtım olur.

İyirmi dörd saat ərzində cəmi üç saat istirahət edə bilirsən.

-Bəs adımızı niyə kişi qoymuşuq. De görüm, bu gün nə işin var?

Səsində xahiş, demək olar ki, yalvarış eşidilir. Mənə elə gəlr ki, sualına cavab verməsəm, kişiliyini və mənliyini təhqir etmiş olaram.

-Yaxınlıqda yaxşı bir məktəb tapmaq istəyirəm.

-Yaxşı, özüm axtarıb taparam. Allah səndən razı olsun, bura köçməyimiz yerinə düşdü. Bu gün evə tez çatmışam, yol yorğunu da deyiləm. Bilirsən, əvvəllər Məşhədə çatmaq üçün nə qədər yol getməli idim? Evə çatana qədər yorğunluqdan az qala həlak olurdum.

Hüseyn səhər yeməyindən sonra getdi. Mən isə yenə də uşaqlarla evdə qalaraq, səliqə yaratmaq və əşyalarımızı yerbəyer etməklə məşğul olmalı idim.

# 34

Hüseynin olmadığı günləri və gecələri, onun kənarında olacağımız saatların ümidi ilə keçiririk. Gülbahara gəldiyimiz gündən Hüseyn çox razı nəzərə çarpır. O, durmadan mənə təşəkkür edir. Ruhiyyəsinin dəyişildiyini hiss edirəm. Bəzən elə işlər görür ki, bu günədək onu tanımadığımı düşünürəm. Məhəlləmizdəki məscidə gedir. Qıldığı namazlar, hətta xasiyyəti belə dəyişib. Yuxusuz keçirdiyi gecələrin təsirsiz keçmədiyindən əminəm. Hüseyn aram və səbirli olmuşdu.

Uşaqlar gün-gündən böyüyür, biz isə bütün çətinliklərə baxmayaraq, yeni evimizə öyrəşməyə başlayırdıq.

Fatimə ilə Məhla məktəbə gedirlər. Məhəmmədməhyarın isə bir yaşı tamam olub.

Otağa daxil olanda görürəm ki, Hüseyn Fatiməni dizində oturdaraq onunla söhbət edir.

-Rüblük qiymətinin əla olması çox yaxşıdır, amma təlim-tərbiyə və nizam-intizamının yaxşı olması ondan qat-qat mühümdür. Bütün dərslərindən əla qiymət alsan da, təlim-tərbiyən yaxşı olmasa, bu qiymətlərin mənim üçün zərrə qədər əhəmiyyəti olmayacaq.

Bu, Hüseynin həmişəki adəti idi. Bəzən övladlarımıza uşaq dili ilə öyüd-nəsihət verərək, onlara həyat qanunlarını başa salırdı. Zənnimcə, bu tərzdə söhbətlər son dərəcə tərbiyəvi əhəmiyyət daşıyaraq, çox vaxt təsirli olurdu.

Uşaqların tərbiyəsinə gəlmişkən, heç vaxt birbaşa müdaxilə etməzdim, həmişə son sözü Hüseynin öhdəsinə buraxaraq, özüm də uşaqlarla birgə onun dediklərinə sözsüz əməl edərdim.

Hüseynin rəftar tərzini bəyənirdim. Bunun bariz nümunəsi Məhlanın çadraya keçməsi idi. Qızımızın üç-dörd yaşı olandan bəri, Hüseyn onu çadralı olmağa həvəsləndirirdi. Əyləncə məqsədilə olsa belə, çadralıq parçalarımın artıq qalan tikələrindən onun üçün balaca çadra tikməyimə təkid edirdi. Qara çadra, rəngli çadra, ağ satin parçadan olan çadra, ərəb çadrası... Məhlanın uşaqlıqdan beş-altı növ çadrası vardı. Toya gedəndə belə, başına güllü çadra atardı. Atasının onun bu işindən razı qaldığını və onu daha çox tərifdiyini hiss etmişdi.

Fatimə üçün də eyni işi görürdü. Bu cəhətdən, Hüseynlə həmfikir idim, onun rəftar tərzindən tamamilə razı qalırdım. Məhla ilə Fatimənin geyim tərzinə, ya da seçdikləri geyim növünə irad tutmazdı, yalnız etdikləri tərif və təşəkkürlərlə bizə hansı geyim tərzini üstün olduğunu anladardı. Hüseyn hər bir şeyə özünəməxsus nəzmlə yanaşırdı. Bizi də o tərzdə tərbiyə edərək, həmin yanaşma növünə alışdırmışdı. Biz onun həyat tərzini qəbul etmişdik, o da gündəlik həyatımızı elə planlaşdırırdı ki, yerinə yetirəcəyimiz əməllər bizim də zövqümüzü oxşasın. Hər il məhərrəm və səfər aylarında heyətə getməyimiz də bu qəbil əməllərdən olub, bizim üçün mühüm həyati amilə çevrilmişdi. Hətta uşaqlar da bu günlərin intizarında olurdular. Hüseynlə mən bir söz demədən, artıq axşam

heyətə gedəcəklərini bilirdilər. Həvəslə geyinərək qapıda bizi gözləyirdilər. Yolda Hüseyn uşaqları sevindirərək, onlara sevdikləri çərəzlərdən alır və uşaqlara qarşı hədsiz məhəbbət və qayğıkeşlik nümayiş etdirirdi.

Mən də övladlarımın və Hüseynin ruhiyyəsinə bələd idim. Uşaqlar yorğun olmasın deyə, onları gündüzdən yatırdar və sevdikləri xörəkləri onlar üçün bişirərdim. Süfrə salıb onları yedirdərdim. Beləliklə də, qarınları tox və sevincək halda heyətə getmiş olardılar. Bəzən Hüseyn bizi bir ruhaninin xütbələrinə qulaq asmağa aparardı. Cənab Nəzafət bir neçə yerdə söhbət edərkən, vaxtımızı elə bölüşdürürdük ki, onun bir məkanda etdiyi xütbə bitdikdən sonra, özümüzü o biri məkana çatdıra bilək. Bu hörmətli ruhani ilə eyni zamanda bir yerdən digər yerə yola düşürdük ki, onun bütün söhbətlərindən bəhrələnə bilək.

Məhla kiçik olanda qışda motosikletlə heyətə gedərdik. Hüseyn yol boyu motosikleti elə idarə edirdi ki, həmişə avtobusların arxasında hərəkət edək. Belə olan halda həm külək üzümüzə az vururdu, həm də avtobusların motorlarından hasil olan istilik canımızı qızdırırdı. Hər dəfə avtobus dayanacaqda dayananda, biz də tormoz verərək, avtobusun yenidən yola düşməsini gözləyərdik. Bu minvalla və heyətdən sonra yorğun və əzgin halda evə çatırdıq. Çox vaxt Məhla ilə mən günortaya qədər yatardıq, Hüseyn isə səhər yuxudan ayılıb işə gedirdi.

Məhərrəm ayları həmişə bizim üçün xoş xatirələrlə yadda qalardı. Bir çox maraqlı get-gəl, yeni insanlarla tanışlıq və s. Nəvid şəhərciyindəki evimizdə məhərrəm aylarında rövzə məclisləri təşkil edərdik. Hüseyn rövzə məclislərini sevir və onları keçirməyimizə israr edərdi. Amma bu il əldən-ayaqdan uzaq yerdə olduğumuzdan, ilk

dəfə idi ki, həmişəki məhərrəm ab-havasından xəbər yox idi.

Bu il məhərrəmdə nə edəcəyimizi soruşdum. Görəsən bu şəhərcikdə məhərrəm ayı üçün xas bir tədbir nəzərdə tutulmuşdu? Uşaqlar qəmli halda oturmuşdular ki, qəfildən Hüseyn mərsiyə oxuyaraq sinə vurmağa başladı. Hüseynin gözəl səslə mərsiyə oxumağından ruhlanan uşaqlar özləri də sinə vuraraq, ona qoşuldular.

Fatimə ilə Məhla qaçıb çadralarını başlarına atdılar, Məhəmmədməhyar isə onlara təqlid edərək, mənim yaylığıma büründü və bu minvalla üçü də yan-yana əyləşib sinə vurmağa başladılar.

Hüseyn mərsiyə oxuyanda Məhlanın çiyinləri çadranın altında titrəməyə başladı. Gülərək dedim ki, maşallah sənin ürəyin lap dolu imiş ki...

Məhla çadranın altından gülürdü. Hüseyn ona məhəbbət dolu nəzərlərlə baxırdı.

-Mənim qəşəng qızım ilə nə işin var?

Məhlaya dedim: “Ana qurban, niyə yalandan özünü ağlamağa vurursan?”

Sinə vurub oxumaqları, ya da başqa sözlə desək, yalandan səs-küy salmaları bitəndən sonra Hüseyn söz verdi ki, ya bu yaxınlıqda məhərrəm ayına xas tədbirlərin keçiriləcəyi bir yer tapacaq, ya da heç olmasa bir gündən bir uşaqları Məşhədə, heyətdə iştirak etməyə aparacaq.

Uşaqlar bir-bir oynamağa getdilər. Hüseyn masanın kənarına bir miqdar pul qoyub dedi:

-Mərziyə can, işim çətinə düşüb, çarəsi yalnız sənin verəcəyin həzrət Abbas süfrəsindədir.

Hər dəfə Hüseynin qarşısına bir çətinlik çıxanda bu sözləri deyərdi. Cavab verdim ki, gözüm üstə.

Pulu götürdüm. Gərək sabahdan süfrə üçün alış-veriş edərək, kimi dəvət edəcəyimi düşünüm.

# 35

Hüseynin poladəritmə zavodunda işlədiyi müddətdən iki il keçdikdən sonra, o, yenə işsiz qaldı. Səbəbini elə də doğru-dürüst anlaya bilmədim. Hüseyn məni narahat etməmək üçün başqa yerə keçirildiyini və işlərin qaydaya düşəcəyinə qədər evdə, mənimlə uşaqların kənarında qalacağını dedi.

Hüseynin yeni işi Tus otelində idi; hərəmlə üzbəüz. Gözətçi işləyəcəkdi. Vəzifəsi maşınları qarşılayaraq, lazımı məkanda park etmək idi. İşindən razı deyildi. Orada işlədiyi bir il ərzində daim şikayətlənirdi. Müsafirlərin əyin-başlarından, zahiri görkəmlərindən, geyim tərzlərindən, habelə qadınların rəftarından narazı idi.

Hüseyn şikayət etdikcə, mən sanki kar adamlar kimi özümü eşitməzliyə vururdum. Bəzən davranışımı izah etmək üçün vəziyyətə aydınlıq gətirirdim: "Hüseyn, hər kim sənin yerində olsaydı, vəziyyəti belə olacaqdı. Gərək ətrafındakı adamların və hadisələrin müqabilində möhkəm dayanmağı öyrənəsən."

Lazımı biliyə və təcrübəyə malik olmadan məsləhət verərək yersiz səbr və hövsələ tələb edən birisinə dönmüşdüm. Hüseyni dərk edə bilmirdim. Mən sadəcə bir

ana idim; üç övlad anası. Fəhləlik edən həyat yoldaşım isə hər dəfə küləyin əsməsi ilə nəzərini dəyişərək, ağlını olmazın fikir və xəyallarla doldurardı. Övladlarım üçün aram bir həyat arzusunda idim. Ürəyimdən keçirdi ki, Hüseyn hər hansı bir işin qulpundan möhkəm yapışaraq, daimi iş müqaviləsi əsasında işə düzəlsin. Mən də artıq gündəlik həyatımızın xərcinə görə narahat olmayım. Uşaqlar böyüdükcə xərcləri də artırdı. Mən özümü maddi cəhətdən arxayın hiss etmək istəyirdim. Uşaqları geyindirib-yedirtməyin, ev kirayəsinin, borc-xərcin fikrini çəkmək istəmirdim.

Hüseyn öz fərqli dünyası olan möhkəm etiqada sahib bir insan idi. "Mən isə yalnız onu tanıdığımı iddia edə bilərdim. Evə qayıtdığı həmin gecə son sözü bu oldu: Məni işdən çıxartdılar."

Sözləri kəskin və qətiyyətli idi. Üzündə elə bir ifadə vardı ki, etiraz edə bilmədim. Gecə, uşaqlar yuxuya gedəndən sonra soruşdum: "Heç olmasa nə baş verdiyini deyə bilərsən?"

-Bu gün bir xanım mənə yaxınlaşaraq maşınını dayanacağın münasib bir yerində saxlamağımı xahiş etdi. Onun xahişini yerinə yetirmək üçün sükan arxasında oturan kimi, gəlib mənim yanımda əyləşdi. Ona dedim ki, mənim yanımda oturmağına ehtiyac yoxdur, özüm maşını münasib bir yerdə saxlayacağam. Təəccüblə dedi: "Buna bir bax, nə qədər geridə qalmış və qədim düşüncəli bir adamdır! Mən maşından düşməyəcəyəm." Ona dedim ki, maşında ya siz qalacaqsınız, ya mən. Qadın maşından enmədi. Belə olan halda özüm maşından düşüb açarı geri qaytardım. O, da otelin müdiriyyətinə şikayət edərək onu təhqir etdiyimi bildirdi. Məni öz xoşumla işdən azad etdilər.

Məhəmmədməhyarın ağladığını eşidib ayağa qalxdım. Qayıdanda Hüseyn artıq, yerinə girib yatmışdı. Bu gecə rahat yatacağını bilirdim. Mənim isə bütün gecə gözümə yuxu getmədi. Onun yenə də işsiz qalması məni əməlli-başlı fikrə salmışdı. Bəlkə də bütün narahatçılıqlarımın və qəm-qüssələrimin səbəbi Allaha təvəkkül etməməyim idi. Hüseyndə bu xüsusiyyət vardı, məndə isə yox.

Gülbahara köçsək də, Hüseynin işləri eynilə əvvəllər olduğu kimi idi, heç nə dəyişməmişdi. Həftədə üç dəfə Məşhədin Gülşəhr məhəlləsinə gedərək, Suriyaya ezam olunması işlərinin nə yerdə olduğunu öyrənirdi. Bundan başqa, şəhidlərin dəfn mərasimində iştirak edərək, cümə axşamları şəhidlər xiyabanını ziyarət edərdi. Məscid, hərəmin ziyarəti, rövzə məclisləri də öz yerində. Elə bilirdim ki, Məşhəddən uzaqlaşsaq, bu işlərdən soyuyacaq, daha Suriyaya getmək fikrinə düşməyəcək, lakin səhv etdiyim gün kimi aydın idi. Hüseyn öz planlarının heç birindən əl çəkməmişdi, hər şey eynilə Məşhəddə olduğu kimi davam edirdi. Ənsarul-Cəvad heyəti onun həmişəki oylağı idi, ailəvi yığıncaqlar üçün ora gedərdik. Yaxşı dostları vardı; Rza Qonabadi, Əmir Səidi və s. Onlara o qədər bağlanmışdı ki, ailələrimiz arasında da sıx dostluq münasibəti quruldu və mərasimlərin çoxunda ailəvi iştirak etməyə başladıq.

İşdən çıxarıldıqdan bir neçə ay sonra, Hüseyn dostlarından birinin köməyi ilə fabrikdə işə düzəldi. Bir müddətdən sonra əvvəlcə fabrikin bəsic təşkilatının, daha sonra isə Aşura batalyonunun bəsic təşkilatını üzvü oldu. İndi o, hərbi ixtisas kurslarında iştirak edir və əksər hallarda evdə olmurdu.

Cümə günü idi. Qaş qaralırdı, Hüseyn evdə deyildi. Hərbi ixtisas kurslarında iştirak etmək üçün Təbəsə

getmişdi. Hərbi manevrlər keçirməli idilər. Dəstəyi əlimə alıb nömrəni yığdım. Gözucu Məhəmmədməhyara baxırdım. Oğlum divanın kənarında oturub zar-zar ağlayırdı. Evdə olmadığı günlərin sayının artdığını görən Hüseyn özünə bir mobil telefonu almışdı ki, uşaqlar onun üçün darıxanda atalarına zəng vursunlar. Telefon xətti əvvəlcə məşğul idi, sonra bir neçə dəfə zəng çalındı. Bir neçə dəfə təkrarlasam da cavabsız qalmağım məni nigaran etdi. Məhla dərslərini oxuyurdu.

-Ana can, nə oldu, nədən narahatsan?

-O qədər zarıyırsız ki... O sənin ağlağan qardaşın, siz iki bacı da bir şey olan kimi bir-birinizin canına düşürsüz.

Üzümdən öpdü.

-Bağışla, ana can, bundan sonra yaxşı qız olacağam.

Onu qucaqlayıram.

Bu hərbi kurslar da mənim üçün problemə çevrilib. Gecənin sonuna kimi neçə dəfə zəng vururam, amma heç kim cavab vermir. Bu gecə evə qayıtmalı idi. Telefon sönəndən sonra həyəcanlanıram. Artıq gecdir, saat 12-ni keçib. Günortadan bəri dilimə heç nə dəyməyib. Hüseynin dostlarına zəng vura bilmərəm. Heç nədən xəbərləri yoxdur, bu axşam zənginin onları nigaran edəcəyini bilirəm. Quran oxuyaraq, bir az sakitləşməyə çalışıram. Manevrlər haqqında bəzi söhbətləri eşitmişdim. Bədbəxt hadisənin baş verəcəyindən qorxurdum.

Uşaqlar artıq yuxuya gediblər. Qapının səsini eşidən kimi yerimdən qalxıram. Gələn Hüseyndir. Ümidsizlik səhrasına yağan ümid yağışı kimidir. Ah çəkirəm. Ürəyim yerinə gəldi. Sanki sinəmdən ağır bir daş götürüldü. Hüseyn gülür. Üzü gündən qaralıb, əyin-başı toz içindədir. Saatına nəzər salır.

-Neçə saat yolumu gözləmisən? Əgər yatmayıb yolumu gözlədiyini bilsəydim, özümü daha tez çatdırardım.

-Narahat olma, Allaha şükürlər olsun ki, sağ-salamat gəlmisən. Çantasını əlindən alıram. Səssizcə mətbəxə yola düşürük ki, uşaqlar yuxudan ayılmasınlar. Hüseyn uşaqları nəzərdən keçirərək, gülə-gülə mənim yanıma gəlir. Çaydanı qaynamağa qoyuram. Çay dəmlənənə qədər duş qəbul edərək əynini dəyişir. Yanımda əyləşir. Çay stəkanını qarşısına qoyuram.

-Hüseyn can, bu manevrlərdə daha iştirak etməyə bilərsən?

- Olmaz, əzizim. Orada öhdəmdə olan vəzifələr var. Bir çoxlarına hərbi təlim keçməliyəm. Daha gələ bilməyəcəyimi deyə bilmərəm.

Gülə-gülə deyirəm:

-Yüksək hərbi dərəcə aldığını bilmirdim.

-Bəli, bəs nə bilmisən! Sən məni hələ yaxşı tanımamısan!

-Məgər İslam Keşikçiləri Korpusu və ordunun hərbi büdcəsi yoxdur? Sənin verdiyin hərbi təlimlərin nə faydası var?

-Bu məsələlərlə işim yoxdur canım, mən imam Zaman əsgəriyəm.

Həmişə hazır olmalıyam. Mənə ehtiyac duyulan yerdə xidmət etməyə hazır olmalıyam.

-Belə yaşamaq olmaz axı, Hüseyn can! Sən olmayan günlər uşaqların nə qədər darıxdığını bilmirsən. Heç xəbərin var ki, bu gün neçə dəfə sənə zəng vurmuşam? Nigarançılıqdan az qalıb bağrım çatlasın.

Ayağa qalxıb ciblərini və çantasını axtarmağa başlayır, telefonunu tapmaq istəyir.

-Bağışla, Mərziyə. Telefonumu haradasa qoymuşam. Gərək sabah gedib axtarım.

-Əgər telefonunla maraqlanmırsansa, onu niyə almısan?

Səsimin tonunun dəyişildiyini hiss etmirdim. Bu müddət ərzində keçirdiyim tənhalıq və nigarançılıq hisslərini birnəfəsə bildirmək istəyirdim. Hüseyn bir söz demədi. Yalnız qulaq asırdı. Hirsimin soyuyacağını gözləyirdi. Sonra dəfələrlə üzr istəyərək, bir daha belə bir hadisənin baş verməyəcəyinə söz verdi. Lakin söhbət vəzifə və məsuliyyətlərdən gedəndə, Hüseynin hər şeyi unudacağını yaxşı bilirdim. Kiminsə haqqını tapdalayacağından qorxurdu. Həmişə deyərdi ki, sizi bir cür razı salıb, ürəyinizi ələ ala bilərəm. Amma mənə tapşırılmış məsuliyyətdən rahatlıqla vaz keçə bilmərəm.

Mən bu vəziyyətə alışmalı idim. Suriya və müharibə haqqında söhbətləri eşitmək istəmirdim. Amma nə qədər çalışırdımsa, bu söhbətləri yatırmağa müvəffəq ola bilmirdim. Naməlum qorxu bütün vücudumu bürümüşdü.

# 36

Qaş düzəldən yerdə vurub gözünü də çıxardın. Başqa işlərin azmış kimi, bu “salehlər” kursu haradan peyda oldu?

-Mənim nə günahım var, canım! Deyirlər ki, sənin yaxşı danışıq qabiliyyətin var, gərək gələsən. Amma bu tədbirlər axşamlar olacaq, namazdan sonra, özü də çox vaxt almayacaq.

-Yaxşı, amma bir şərtlə, Məhəmmədməhyarı da özünlə aparmalısan. Sən olmayanda xiffətini çəkir.

Hüseyn bəsicin və İslam Keşikçiləri Korpusunun üzvü olmaqla bərabər, indi də “salehlər” kursuna yazılmışdı. Evdə daim mütaliə ilə məşğul idi. Növbəti dəfə iş yerini dəyişmiş, indi də menecer olmuşdu. Mağazalara yeni növ məhsullar təklif edirdi. Hər gün səhər tezdən gedir və axşamüstü qayıdırdı. Əmək haqqı dəqiq olaraq, işlədiyi vaxt müqabilində ödənildiyindən, Hüseyn heç nə edə bilmirdi. İş yerində daha çox qala bilərdi, amma az qalmağı mümkünsüz idi. Bəzi işçilərin işə barmaqarası yanaşmasını anlamışdı. Halal çörək qazanmaq barəsindəki sözlər onların qulağına batmırdı. Çoxları bu cəhətdən

Hüseynlə həmfikir deyildilər və yalnız iş vaxtını keçirmək barədə düşünürdülər. Bu adamların sözü bir idi: “Bəzi mağazaların bizə sifariş vermədiyini yaxşı bilirik, sadəcə olaraq gedirik ki, vaxtımız keçsin.”

Bu günlərdə Hüseynin başı əməlli-başlı qarışıq idi. Əl-ayağına dolaşmırdım, işə gedib-gəlməsi və işindən razı olması mənə bəs edirdi.

Məhəmmədməhyarın bir yaşı olanda, Hüseyn dostları ilə birgə Ərbəin yürüşündə iştirak etmək üçün yola düşdü. Ürəyimdən keçirdi ki, mən də qızlarla birgə bu yürüşdə iştirak edim. Amma Məhəmmədməhyar hələ belə səfərlər üçün çox kiçik və zəif idi. Digər tərəfdən də yolun uzun və izdihamlı olduğunu eşitmişdim. Hüseyn də sanki getməyimə razı ola bilmirdi. Bəzən kişilərin öz dostları ilə birgə vaxt keçirmələrinə ehtiyac duyduqlarını yaxşı bilirdim. Əgər biz Hüseynlə getsəydik, qol-qanadını bağlamış olardıq. O, daha sürətlə hərəkət edə bilməyəcəkdi. Təhlükəsizlik cəhətindən də İraqın vəziyyəti çox acınacaqlı idi. İŞİD-n İraqa hücumundan iki il keçmişdi. Bununla belə, Ərbəin yürüşü barədə söhbət düşəndə heç kim İŞİD-i düşünmürdü. Bu işdə qorxu mənasız idi. Qohum, dost, qonşu, kişi, qadın, tanıdığım hər kəs bu yürüşdə iştirak edirdi. İŞİD-n çəkinmələrinin ən mühüm səbəbi qadınların hörmətinin və iffətinin qorunması istəyi idi. Belə ki, zalımlar məzlum insanların başını kəsib, onları öldürəndə, qarşılarındakının kişi, ya qadın olduğuna baxmırdılar.

Hüseynin səfər çantasını yığanda dedim: “İraqda vəziyyət yaxşı deyil, Allah eləməmiş başına bir iş gələr.”

-Cümlə cahan qurban olsun imam Hüseynə, mənim dəyərsiz canım da o cümlədən. Bir şiə imam Hüseyni (ə) ziyarət edə bilmək üçün canından belə keçər. Heç bilirsən

imam Hüseyni (ə) ziyarət etmək üçün bu günə kimi nə qədər insan qurban gedərək, həyatını itirib?

Sonra yanımda əyləşib mənim üçün olub-keçənlərdən, keçmiş günlərdən, zalım hakimlərdən, şəhidlərdən və bu yolda əl-ayağını itirənlərdən danışdı. Törədilən maneələrdən, təhlükələrdən, bu yola görə təyin olunan cəzalardan söhbət açdı. Yolun üstündə pusqu quran quldur və qatillərdən danışdı. Bununla belə, bu təhlükələrin heç biri insanların imam Hüseyn (ə) ziyarətinin eşqi ilə döyünən ürək odunu söndürə bilməmişdi.

Hüseyn getdi, mən isə ürək dolu həsrətlə qaldım.

Hüseyn qayıdanda gündə yanmış, arıqlamış və xəstələnmişdi. Bir müddətdir ki, evdə ona qulluq edirəm. Əhval-ruhiyyəsi və qıldığı namazlar fərqli olub. Onun bu mənəvi halına qibtə edirəm. Nə yol, nə hərəm, nə qarışıqlıq, nə izdiham, nə də yolun çətinliyi haqqında heç nə demir. Ziyarətin şirinliyi haqqında da heç nə danışmır. Eynilə hamının dediyi sözləri təkrar edir. Amma sonralar mənə danışdı ki, sən demə o qədər ağlamışdı ki, huşunu itirmişdi. Dostlarını zəhmətə saldığı üçün dilxor olmuşdu. Bu sözlərin arxasında deyilməmiş gizli məfhumların olduğunu bilirdim.

Ona ürək-dirək verdim: “Bəzən belə işlər baş verir. Əgər bu hadisə dostlarının başına gəlsəydi, sən də onların gördüyü işi görərdin.”

Dodaqaltı pıçıldadı: “İmam Hüseyndən cihad icazəsi aldım. Çətinliklə olsa belə, özümü hərəmin qübbəsinin altına çatdırıb, imamın şəxsən özündən şəhadət istədim. Mən bu lütfə layiq deyiləm. İmam şəxsən mənə nəzər salmalıdır.”

Heç nə demədim. Artıq onun bu sözlərinə alışmışdım. Neçə vaxt idi ki, imam Riza (ə) ordusunda hərəm

müdafiəçilərinin bəsic qüvvələrinə təlim keçdiyini yaxşı bilirdim. Bu işləri necə yoluna qoyub, özünü o məqama çatdırdığından xəbərim yoxdur, bircə bunu deyə bilərəm ki, qarşısını kəsməkdə aciz idim. Bu, onun öz istəyi idi. Digər tərəfdən işlərini elə planlaşdırmışdı ki, mənimlə uşaqlara da vaxt ayıra bilsin. Hüseynin bu kimi tədbirlərdə iştirak etməsi nigarançılığıma bais olurdu. İraqdakı vəziyyətdən xəbərdar idim. Ölkədəki vəziyyət yaxşı deyildi. Hüseynin günlərin bir günündə İraqa göndəriləcəyi xəbərindən qorxurdum. Əl-ayağa düşdüm. Tanıdığım hər kəsdən bu barədə soruşurdum. İraqa ezam olunmanın hansı şərtlər altında baş verdiyini öyrənmək istəyirdim. Axır ki, qohumlardan birinin vasitəsilə öyrəndim ki, bəsicilərdən heç birini İraqa göndərmirlər. Ürəyim sakitləşdi. Orada döyüşənlər yalnız xaricilər idi. Hətta fəaliyyət göstərən bəsiciləri belə, İraqa ezam etmirdilər. Bu sözlərdən sonra rahatlıq tapdım. Bu səbəbdən Hüseynin keçirdiyi hərbi təlimlərlə işim yox idi. Onun bu tədbirlərdə necə həvəslə iştirak etdiyini görürdüm. Əhval-ruhiyyəsi dəyişilmişdi. Əvvəlkindən daha gülərüz olmuşdu, davamlı idmanla məşğul olduğundan, bədəninin qüdrəti artmışdı.

Həmin günlər, tezliklə məndən nə istəyəcəyindən xəbərim yox idi.

# 37

Günlər bu minvalla keçirdi. Hüseynin ailəsi ilə münasibətimiz çox gözəl idi. Amma sanki yaşadığımız xoş günlər içində, xoşagəlməz bir hadisə baş verməli idi ki, bütün yaxşılıqları aradan silib aparsın, günümüzü qara etsin.

Hüseynin yaxın qohumlarından biri üçün elçi gəlmiş, nişan və toy mərasimləri ilə bağlı bütün məsələlər yoluna qoyulmuşdu. Uşaqların sevincinin həddi-hüdudu yox idi. Keçiriləcək mərasimləri sevinclə gözləyirdilər. Hər biri üçün bir dəst təzə paltar aldım. Məclisin onlar üçün xoş keçməsini arzulayırdım.

Toy günü uşaqlarla gözəllik salonuna getdik. Hüseyn bizi toya aparmaq üçün salona gəldi. Hüseyn də özünü səliqəyə salmışdı. Maşını şadlıq evinin kənarında saxladıq, uşaqlar sevincək maşından endilər. Hələ daxil olmamış mahnı, rəqs və sayrışan rəngli işıqlar diqqətimizi cəlb etdi. Uşaqlar boylanaraq bizim gəlib çatmağımızı gözləyirdilər ki, Hüseyn arxadan məni səslədi. Nə deyəcəyini yaxşı bilirdim. Baxışlarımı üzünə dikərək danışmağa macal vermədən dedim: “Bu şəraitdə görmək istədiyin bir iş

varsa, meydanda təksən. Bizi bu məsələyə qatma. Mən uşaqlarla birgə toy zalına gedirəm.”

Heç nə demədən üzümə baxdı. Ürəyindən keçirdi ki, maşına minib evə qayıdaq. Amma mən bu işin pis sonluqla bitəcəyini yaxşı bilirdim. Hüseynin nəyin bahasına olursa-olsun bu gecənin xeyrindən keçərək susmasını gözləyirdim; heç nə demədən və öz istəklərini nəzərə almadan. Növbəti dəfə qohumlar arasında narahatçılığın yaşanmasını istəmirdim. Əgər toy sahibi öz toyunda hən hansı növdən olan musiqi çalınmasını istəyirdisə, bizim sükut etməkdən başqa çarəmiz yox idi. Mən Fatimə və Məhla ilə birgə içəri girdim; çox sadə və heç nə olmamış kimi. Geyimimizi dəyişərək məclisin sonuna kimi qaldıq. Hədiyyələri təqdim etmə anı gəlib çatdı. Telefonum zəng çaldı. Hüseyn deyirdi ki, bəylə gəlinin hədiyyəsini mən özüm təqdim edim. Təkidlə xahiş etdim ki, qaydalara uyğun, hamı kimi salona daxil olub hədiyyəni təqdim etsin. Razılaşmadı, bu iş ürəyincə deyildi. Hədiyyəni Hüseyndən alaraq, bəylə gəlinə təqdim edib geri qayıtdım. Hər şeyin xoşluqla bitdiyini düşünürdüm. Hüseynin qarşısında dayanaraq, yeni kin-küdurətin qarşısını aldığım üçün sevinirdim.

Evə çatanda uşaqlar geyimlərini dəyişmək istəmirdilər. Qaçdı-tutdu oynayırdılar. Fatimə tüldən olan uzun zərif geyimində fırlanaraq, özünü gəlin bilirdi. Hüseynlə həmkarlıq etmədiyim üçün məndən narahat olduğunu bilirdim. Öz-özümə düşündüm ki, bu söhbəti başqa vaxta saxlasaq yaxşıdır. Uşaqları yatırtdım. Səhər yenicə açılmışdı ki, bir-birinin ardınca telefon zəngləri çalınmağa başladı. Hüseyn bütün zənglərə cavab verərək dəlil gətirir, Quran ayələrini misal çəkərək and içirdi ki, əgər öz doğma

qızının toy məclisində də haram musiqi çalınardısa, həmin məclisə ayaq basmazdı.

Hüseyn çox əsəbləşmişdi. Verdiyi cavablardan anladım ki, şadlıq evinə daxil olmayıb. O, müxtəlif bəhanələrlə küçədə dayanaraq toyun bitməsini gözləmişdi. Qohumlar onun bu işindən narahat olaraq deyirdilər ki, Hüseyn toyu yas məclisi ilə səhv salaraq küçədə dayanmışdı.

Onun bu həddə qətiyyətli davranmasına inanmazdım. Mənim də əlimdən narahat idi.

-Sən məni tək buraxdın, məndən uzaqlaşdın.

Nə deyəcəyimi bilmirdim. O gündən Hüseynin ailəsi qarşısında dəlil-sübut gətirərək, bu hərəkəti izah etməyə məcbur olmuşdum. Əlimdən gələni etsəm də, yenə onunla ailəsi arasında küskünlük yarandı.

İkimiz də eyni fikrə gəldik ki, bir müddətdən sonra gəlinlə bəyi evimizə dəvət edib, bu yolla kin-küdurəti aradan aparaq. Hüseyn onlar üçün hədiyyə aldı və bütün qaydalara uyğun olaraq, ayaqaçdı mərasimi keçirdik. Öz-özlüyümüzdə elə düşünürdük ki, düşmənçiliyə son qoyuldu, halbuki, bu küdurət illər uzunu davam etdi.

Hüseyn deyirdi ki, zühurdan qabaqkı dövr elə bu cür olmalıdı. Dinini saxlamaq üçün döyüşməlisən, başqaları kimi olmadığın üçün əziyyət çəkməlisən.

# 38

-Mərziyə can, bura gəl, sən mənim canım, demə ki, gəlmirsən.

-Mən ki sənə bir söz demirəm, elə deyil? İstəyim yalnız budur ki, imkan ver uşaqların böyüsün, sonra hara istəsən, gedə bilərsən.

-Sən Həzrət Zeynəbin hərəminə qarşı hörmətsizliyə dözə bilərsən? İraqda yerləşən müqəddəs məkanlarımız, Nəcəf, Kərbəla, Kazimeyn və Sammiradakı məqbərələrin dağılmasını eşidəndə nə hala qalarsan? Bədbəxt İraq xalqı, çarəsiz arvad-uşaqlar yazıq deyillər?

-Yaxşı, de görüm İrana hücum olunanda, kimsə bizə kömək etdi? Qoy onlar da gedib öz ölkələrini qorusunlar, sayları da az deyil, maşallah.

-Öz vicdanını sakitləşdirmək istədiyin üçün dəlil-sübut gətirirsən? Özün də gözəl bilirsən ki, dediklərinin heç biri düz deyil.

-Bu mənim son sözümdür.

-Yaxşı, belə olan halda həzrət Zeynəbin cavabını da özün verərsən, sabah qiyamət günü səndən səbəbini soruşsalar, bir cavabın olmalıdır ya yox!

Onun bu sözləri məni həddən artıq sarsıtdı, verəcək heç bir cavabım yox idi. Hüseyn haqlı idi, mən isə özümü aldadırdım.

Hüseynin getmək haqqında söhbətləri başlayandan, gizlicə dua edirdim ki, işi alınmasın, istəyinə çata bilməsin. Qəlbim hələ də onun getməyinə razı olmurdu. Uşaqlara baxanda ürəyim əsirdi. Onları atasız, arxasız, pənahgahım olmadan necə böyüdə bilərdim?

Məhəmmədməhyar hələ çox kiçik idi. Əgər uşaqlar xəstələnsələr, ya bədbəxt hadisə baş versə, nə etməli olduğumu bilmirdim. Hüseynsiz həyatın necə olacağından xəbərim yox idi. Bizimlə olmayacağı ehtimalı məni dəli edirdi. Evimin kişisinin kənarımda olmasını istəyirdim. Məhəmmədməhyar bizim oğlumuz idi. Onu yalnız sözdə evimizin kişisi hesab edə bilərdik. Ailədə hər kəsin öz yeri var idi. Bununla belə, Hüseynin getmək həvəsi gün-gündən güclənirdi. Daim Suriya barədə kliplərə və sənədli filmlərə baxırdı. Uşaqlarla mən də özümüz istəmədən bu işlərin içində idik. Bəzi sənədli filmlərə birgə tamaşa edirdik.

Amma həmin gün internetdən yeni klip tapmışdı. Bu, İmam Xameneinin Fatimiyyun şəhidlərinin ailələri ilə görüşündən olan kadrlar idi. Bir anlıq da olsa belə, özümü şəhid xanımlarının sıralarında təsəvvür edə bilmirdim. Əziz Rəhbərimiz üzünü şəhid ailələrinə tutub dedi:

-Mən sizinlə fəxr edirəm. Həm Məşhəddən olan yerli şəhid ailələri ilə, həm də əfqan xalqına mənsub şəhid ailələri ilə fəxr edirəm.

Hüseyn həyəcanlı halda dedi: “Ağa can, görəsən mənimlə də iftixar edəcəyiniz gün gəlib çatacaq?”

Hüseynə nəzər salıram. Bu klipi mənə nə üçün göstərdiyini bilirdim; cavabımı vermək üçün. Ona

demişdim ki, Rəhbərimiz nə Suriyaya getmək barəsində, nə də bu yolun doğru olub olmaması barədə bir söz deməyib.

Amma bu klip və deyilən sözlər mənim yanıldığıma bir sübut idi. Bu, mənim iddialarımı boşa çıxaran sonuncu mərhələ idi.

Hüseynin getmək arzusu gün-gündən çoxalırdı. Onun halını görərək, yox deməyə dilim gəlmirdi. Canamazımı yerə sərərək Allahdan səbr diləyirəm. Dodaqaltı zümzümə edirəm: "Allahım, qəlbimi aram et, mənə olanları qəbul etməyə səbr ver." Bəla gələndə tək gəlməz deyərlər. Məhəmmədməhyarın bir yaşı tamam olmamış, qayınatamın sağlıq durumunun yaxşı olmadığını eşitdik. Hüseyn bəzən tək, bəzən də bizimlə birgə tez-tez evlərinə gedərək xəstə atasına baş çəkirdi. Qısa müddət ərzində qayınatamın vəziyyəti o qədər ağırlaşdı ki, əməliyyat olunmaq məcburiyyətində qaldı. Həkimlər onun ürək klapanının dəyişilməsi barədə qərar qəbul etmişdilər. Qayınatam yubanmadan xəstəxanaya yatırılaraq əməliyyat olundu. Ürək əməliyyatından çox keçməmiş, ağ ciyərlərinin iltihab etdiyini eşitdik. Həkimlərin hərəsi bir söz deyirdi. Yatdığı xəstəxanalar bir neçə dəfə dəyişilsə də, qayınatamın halı gün-gündən pisləşirdi.

Hüseyn atasının ürək əməliyyatı zamanı ağciyər iltihabına düçar olduğunu deyirdi. İltihabın kəskin olmasına görə qayınatamla görüşməyimizə icazə vermirdilər. Biz onu yalnız monitorların ekranından müşahidə edə bilirdik. Hüseynin atası sapsağlam halda, öz ayaqları ilə əməliyyat otağına daxil olmuşdu. İndi isə yavaş-yavaş sönməkdə idi. İnanmağım gəlmirdi. O, artıq bir nəfəsə bənd idi. Qayınatamın ölüm xəbərini eşidəndə,

Hüseyn yalnız bir cümlə dedi: انا لله و انا اليه راجعون (İnna lillahi və inna iləyhi raciun)

Onun bu sakitliyi məni də aram edirdi. Hamı qışqırıb ağlaşır, Hüseyn isə vəziyyətə nəzarət etməyə çalışırdı.

Qayınatamın dəfn olunduğu gün Hüseyn məni anasıgilə çatdıraraq, qardaşları ilə birgə dəfn-kəfn işlərini həll etməyə getdi. Evdə hamı bir-birinə dəymişdi. Hüseynin anasının halı yaxşı deyildi. Onun ürək xəstəsi olduğu hamıya məlum idi. Lakin bununla belə, artıq heç kim öz hisslərinə hakim ola bilmirdi. Hüseynin bacıları vay-şivən edir, mən isə qohumlarla birgə onları sakitləşdirməyə çalışırdım. Nə qədər vaxt keçdiyini bilmirdim, amma bir müddətdən sonra xəbər verdilər ki, hamımız imam Riza qəbiristanlığına getməliyik. Oradakı vəziyyət evdəkindən də pis idi. Bütün qohumlar yığışmışdılar. Bu qədər adamın içində baxışlarım yalnız Hüseyni gəzirdi. Əynində qara köynək vardı. Gələnləri qarşılayaraq işləri yoluna qoyurdu. Tabutu gətirəndə bir qədər uzaqda dayanaraq, oradan baş verənlərə ötəri nəzər salırdım.

Hüseyn öz əlləri ilə atasını qəbrə qoydu. Təlqin oxuyaraq qəbir daşlarını yerləşdirdi və həzrət Rüqəyyənin rövzəsini oxuya-oxuya ağladı. İşlərini bitirəndən sonra yuxarı qalxaraq üç dəfə "ya Hüseyn" demişdi. Atanı itirmək ağır dərd olsa da, qəbirdəki işləri yoluna qoymaq ondan da ağır idi. Bunu nə vaxtsa edə biləcəyimi fikrimə belə gətirə bilməzdim.

Mərasim bitəndən sonra ehsan vermək üçün evə qayıtdıq. Hara baxırdımsa və hər kimdən soruşurdumsa Hüseyndən bir xəbər yox idi. Nigaran qaldım. Axırda qayınlarımdan biri dedi ki, Hüseyn bir neçə nəfərlə atamın qəbri üstündə qaldı.

Bu gecə ilk qəbir gecəsi olduğundan, bir neçə saat onunla qalacaqlar. Bəlkə indilərdə qayıtdılar.

Məhəmmədməhyarı qucağıma götürüb qonaqların yanına qayıtdım. Uşaqlar bir neçə gün idi ki, məktəbə getmirdilər. Onları evdə tənha qoya bilməzdim. Daim öz evimizlə anam və qayınanamın evi arasında get-gəldə idilər. Yas məclisini adət-ənənələrə uyğun keçirdikdən sonra evimizə qayıtdıq. Hüseyndən nigaran idim. Onunla danışmaq istəyirdim, çalışırdım ki, ürəyinə ağırlıq edən sözləri dilinə gətirərək rahatlıq tapsın.

Uşaqları yatırtdım. Onun üçün nabatla borace çiçəyi dəmləyib yanında oturdum.

-Allah atana rəhmət eləsin, kaş mənim də sənin qədər səbrim olaydı. Atanın ölüm xəbərini dəyanətlə qarşıladın.

-Heç bilirsən atamı sellofanın içində görəndə nə hala düşdüm?

Səssizcə səbr etdim ki, ürəyini boşaltsın.

-Bir anlıq atamı o vəziyyətdə... Bilirsən atamı kəfənin içində, sellofanda görəndə şəhidləri xatırladım. Atamı qanlı yaralarına görə sellofana bükmüşdülər. Həmin an öz-özümə düşündüm ki, kaş atam şəhid olaydı. Bilirsən, Mərziyə, gərək adam gözəl ölüm üçün təlaş etsin. Ölüm haqdır, hamımız öləcəyik, amma nə vaxt, necə və hansı şəraitdə öləcəyimiz çox mühümdür. Zənnimcə, atam İraq-İran müharibəsində iştirak etməli idi. O, zəhmətkeş bir insan idi. Ailəsi üçün halal çörək qazanırdı. Amma... Atamın müharibəyə getdiyi halda mütləq şəhid olacağını deyə bilmərəm. Amma təlaş etməli idi.

-Nə deyim? ...Atan o vaxt yaşlı bir insan idi. Müharibəyə gedə bilməzdi, özü də başqa ölkədə gedən müharibəyə. Yoxsa səninlə birgə İŞİD-lə döyüşəcəyini düşünürdün?

-Əgər bu iş baş tutsaydı əla olardı. Artıq bu sözlərdən keçib. Atam böyük bir fürsəti əldən verdi.

-Hər kəsin həyata və ölümə dair özünəməxsus baxışı var. Hamı üçün eyni tale arzulamaq olmaz.

-Gözəl ölümün tale yazısına və həyata baxışa heç bir dəxli yoxdur.

-Bilmirəm, yəqin ki, sən haqlısan. Dediklərin düzdür.

-Allah eləsin ki, atam şəhid atası olsun.

Borace çiçəyindən dəmlədiyim çayı onun qarşısına qoydum.

-Atanın ölümündən bir gün sonra gəldiyin üçün nigaran idim. Halın heç yaxşı deyildi. O gecə səni çox axtardım. Kaş mənə əvvəldən deyərdin ki, imam Riza qəbiristanlığında qalacaqsan. Əlbəttə ruhi vəziyyətinin yaxşı olmadığını bilirdim, amma ürəyimdən keçirdi ki, səninlə qalım, bəlkə mənim də sənə köməyim dəyərdi.

-Belə vaxtlarda adam ətrafındakıları düşünmür. Haqqını halal et, Mərziyə can. Bacımla qaldım. Deyilənlərə görə, yenicə dünyasını dəyişən şəxs hələ təzə evinə alışmadığı üçün qorxur. Bacımla birgə Quran və Aşura ziyarətini oxuduq, qaş qaralana yaxın od yandırdıq. Qaranlıq idi, artıq qayıtmaq vaxtı çatmışdı. Şəhid Cavad Məhəmmədi Müfrədə təvəssül etdim. Atamın dəfn günü şəhid Məhəmmədinin üçü ilə eyni günə təsadüf edirdi. Şəhiddən atam üçün duaçı olmasını istədim.

Hüseynlə bu şəhid arasında qəribə rabitə yaranmışdı. Hər dəfə Behişti-Rzaya gedəndə onun qəbrini ziyarət edər, Quran oxuyub Fatihə verərdi. Hüseynin şəhid Məhəmmədi Müfrədə belə ürəkdən bağlanmasının səbəbini bilmirdim, amma onun hər şeyə qarşı diqqətli olub şəhidlərdən kömək istəməsi, ona olan hörmətimi birə min artırırdı. Düşünürəm ki, Hüseyn bu şəhidə ağız açaraq, ondan atası

üçün dua etməsini istəmişdi. Ona dedim ki, xoş atanın halına ki, sənin kimi oğlu var. Kaş Məhəmmədməhyar da böyüyəndə bu dərəcədə bizə sayğı göstərəydi.

-O, çox yaxşı uşaqdır, amma mən yaxşı övlad deyildim. Sən də ümidlərini heç kimə bağlama. İnsan özü öz fikrində olmalıdır. Övladlara və ətrafdakılara bel bağlamaq əsaslı səhvdir.

Hüseyn bir müddət qara geyinəndən sonra əza geyimini əynindən çıxardı. Atasının ölümünə görə qara geyinməsini həzrət Fatimənin (s) şəhadət günlərində, habelə məhərrəm və səfər ayında qara geyinməsi ilə müqayisə edirdim. Nə vaxt ona desəydim ki, qara geyinmək yaxşı deyil, iki ay ardıcıl olaraq qara geyimdə gəzmək xeyir gətirməz, gəl bu daşı ətəyindən tök, yalnız əza günləri qara geyimdə ol. Mənə verdiyi cavab belə olardı: İmamlar elə yüksək hörmət və məqam sahibi idilər ki, onların vaxtsız şəhadətinin qəmini nəzərə alsaq, görə biləcəyimiz yeganə iş onlar üçün əza saxlayaraq, iki ay ardıcıl qara geyinməkdir.

# 39

Qayınatamın yas mərasimi bitdikdən sonra Hüseynin sərhədi keçmək üçün göstərdiyi səylər də öz axarı ilə davam etməyə başladı. Başqa tərəfdən, Fatimiyyun döyüşçülərinin şəhadət və dəfn mərasimi xəbərləri artıq ictimaiyyətin qulağına çatmışdı. Hansı bölgəyə şəhid gətirərdilərsə, Hüseyn özünü ora çatdıran ilk adam olardı. Dəfn mərasimi həmişə cümə axşamları keçirilərdi. Şəhidi Məhdiyyədən yola salaraq, təvaf üçün hərəmə və şəhidlər xiyabanına gətirər, sonra Behişti-Rzanın şəhidlərə aid hissəsində dəfn edərdilər. Həmin gün Fatimiyyun batalyonundan olan yeddi şəhidin dəfn mərasimi keçirilməli idi. Biz də həmişə olduğu kimi mərasimdə iştirak edirdik. Dəfn mərasimi çox təntənəli şəkildə keçirildi. Çox sayda insan gəlmişdi. Rövzə oxuyurdular, biz də ağlayırdıq. Hamılıqla hərəmin ətrafında təvaf etdikdən sonra Behişti-Rzaya tərəf yola düşdük.

Uşaqları bacıma tapşırmışdım. Onlar sarıdan rahat idim. Hüseynlə şəhidlərin məzarları arasında gəzişirdik. Onun dostlarından bəziləri də bizimlə idi. Özlərini rahat hiss edə bilmələri üçün bir qədər onlardan aralı, mərmər daşının üstündə əyləşərək uzaqdan onlara tamaşa edirdim.

Fatimiyyun şəhidlərinin dəfn olunduğu hissədə analardan bəziləri hələ də oğullarının məzarları üzərində əyləşərək, onlarla dərdləşirdilər. Öz qəlbimi onların qəlbi ilə müqayisə edə bilməzdim. Məhəmmədməhyar hələ kiçik idi və onun böyüdüyü zaman... Yox. Onun şəhid ola biləcəyini fikrimə belə gətirə bilməzdim. Övladdan keçmək çox çətindir. Buna davam gətirmək hər adamın işi deyildi. Şəhid oğlunun şəklini sinəsinə yapışdıran anaya nəzər salıram. Şəkilin altında hərəm müdafiəçisi, şəhid Höccət Xavəri yazılmışdı. Şəkildəki cavan oğlan idi. Sonralar Hüseyndən bu şəhidin Fatimiyyun batalyonunun ali rütbəli komandirlərindən biri olduğunu eşitmişdim. Şəhidin cənazəsi tamamilə yanmışdı, onun bədənindən heç bir şey geri qayıtmamışdı. Yəni, bu şəhidin tabutu və qəbri bomboş idi. Hüseyn dostu ilə birgə şəhidin anasına yaxınlaşdı. Birgə söhbət edirdilər. Qəfildən Hüseynin çöhrəsinə təbəssüm gəldi. Üzündə elə bir razılıq ifadəsi vardı ki, sanki indi qanad çalıb uçacaqdı. Hüseyn şad-xürrəm halda yanıma gəldi.

-Mərziyə bir bura gəl, gör şəhid anası nə deyir.

Ardınca getdim. Şəhid anası ilə salamlaşaraq hal-əhval tutdum. Hüseyn üzünü ona tutaraq dedi: “Ana can, mənə söylədiklərinizi bir dəfə də təkrar edə bilərsiniz?”

-Mənə həyat yoldaşının da burada olmasını demədin, yoxsa sənə bu sözləri deməzdim. Əvvəl Hüseynə, sonra şəhid anasına nəzər saldım. Nə haqda danışdıqlarını bilmirdim. Şəhid anası gözünü məndən çəkdi. Sanki, göz-gözə gələcəyimizdən çəkinirdi. Hüseynin səbri tükəndi və o, yenidən israr etməyə başladı: “Ana can, həyat yoldaşım mənimlə həmfikirdir, bir dəfə də dediklərinizi təkrar edin.”

Şəhid anası Hüseynə baxaraq heç nə demədi.

Hüseyn dözməyib dilləndi: “Ana deyir ki, mən tezliklə şəhid olacağam. Üzüm şəhidlərin üzünə bənzəyir.”

Hüseynin dostu soruşdu: Bəs mən necə, ana can?

-Yox, sən hələ bizimləsən.

Hüseyn körpə uşaq kimi sevinərək gülürdü. Onun tam əksinə, mənim əhvalım pozuldu, canıma qorxu düşdü. Hüseynin şəhadət arzusunda olduğunu bilirdim. Nədən birdən rəngim ağardı və halım pisləşdi? Bir kənarda oturdum. Şəhid anası halımın necə olduğunu anlayıb mənə yaxınlaşdı.

-Kaş bu sözləri deməzdim. Mənə sizin də burada olduğunuzu demədi. Cavab vermədim. Sanki burada deyildim və heç nə eşitməmişdim. Dilim tutulmuşdu. Uzaqdan sinə vurmaq və rövzə səsi eşidilirdi. Hamı öz işində idi. Amma mənim üçün zaman sanki dayanmışdı.

Hüseynlə dostu söhbət edirdilər. Özümə gələndə, şəhid anası artıq getmişdi. Bəlkə məni görməyə daha taqəti çatmırdı. Su kranlarına yaxınlaşıb əl-üzümü yudum. Hüseyn ardımca gələndə halım artıq düzəlmişdi. Həmişəki kimi Müqəddəs Müdafiə dövrünün şəhidlərinin məzarlarına tərəf yola düşdük, xüsusilə şəhid Burunsini ziyarət etmək istəyirdik. Hüseyn bu şəhidə çox bağlı idi və ondan ülvi hisslər duyurdu. Şəhid Burunsinin məzarına çatanda orada bir neçə xanımın olduğunu gördük. Hüseyn məzarın kənarında əyləşib əlini qəbir daşının üzərinə qoydu və üç dəfə təkrar etdi:

-Şəhid olmağın üçün neçə dəfə həzrət Zəhradan (ə) vasitəçilik etməsini istəmisən? İndi özün mənim üçün vasitəçilik et.

Sonra onu ağlamaq tutdu. Yerindən qalxıb getdi. Hüseyn şəhid Burunsinin həzrət Zəhraya (ə) olan məhəbbət və hörmətindən xəbərdar idi.

Mənim diqqətim isə məzarın ətrafındakı xanımlara yönəlmişdi. Hüseynin sözlərini eşidib doluxsundular və ucadan ağlamağa başladılar. Hüseynin ardınca getdim. O zaman həmin xanımların şəhid Burunsinin qızları olduğunu bilmirdim, amma onları tanıdıqdan sonra aramızda dostluq əlaqələri yarandı.

Evə çatanda Hüseynin qardaşının bizi gözlədiyini gördük. Şaban ayının on beşi bayram keçirəcəklərini xəbər verməyə gəlmişdi. Uşaqlar bu xəbərə çox sevindilər. Hüseyn necə kömək edə biləcəyini soruşur: "Alış-veriş etmək, hər hansı işləri yoluna qoymaq, düzəltmək, bir sözlə nə edə bilərik? Qardaşı cavab verdi ki, bu işlərlə məşğul olan xüsusi quruma sifariş vermişik, özləri lazım olan hər şeyi gətirəcəklər." Bayram günü hazırlaşaraq uşaqlarla birgə Turqəbəyə tərəf yola düşürük. Hüseynin qardaşının orada böyük bir villası var.

Çatan kimi Hüseyn evin kişilər olan tərəfinə, mən də uşaqlarla birgə xanımlar üçün nəzərdə tutulmuş hissəsinə gedirəm. Ürəkaçan bir mənzərədir. Süfrə salınıb, çoxsaylı qonaqlar dəvət olunub. Bir qədər sonra bayramı keçirmək üçün xüsusi dəvət olunmuş qrup da gəlib çıxır. Aparıcı ilə qrup iştirakçıları mərasimin xoş keçməsi üçün bəzi qonaqları səhnəyə dəvət edərək, onlara müxtəlif suallar verirlər. Məhəmmədməhyar bir qədər narahatdır. Onu sakitləşdirməyə çalışıram. Bu zaman Fatimə işarə ilə bildirir ki, ana can, atam da səhnədədir. Hüseyn xüsusi düzəldilmiş hündürlükdə dayanıb. Aparıcı onunla zarafat edərək bir neçə sual soruşduqdan sonra üzünü qonaqlara tutub dedi:

-Elə fikirləşin ki, cibimdə müxtəlif ölkələrə olan təyyarə biletləri var. Hər kimə yaxınlaşsam, istədiyi ölkəni seçib, niyə məhz bu ölkəyə getmək istədiyini

əsaslandırsın. Bir-bir hamıya yaxınlaşaraq həmin sualı verir. Camaatın gülüş səsi ilə aparıcının zarafatları məclisdə xoş ab-hava yaradıb. Növbə Hüseynə çatır. Aparıcı ondan soruşur: "Bəs siz necə, hara getmək istərdiniz?"

-Mən Suriyaya getmək üçün bilet istərdim.

Aparıcı Hüseyni tanıdığı üçün soruşdu:

-Ürəyiniz istəmir ki, imam Zamanın xeyməsi qurulmuş yerə gedəsiniz? Hər şey bir tərəfə, axı bu gecə imamın mövlud gecəsidir.

Hüseyn güldü:

-İmam Zamanın (əc) xeymədə nə işi var, ay qardaş? İmam Zaman indi Suriyadadır, müqavimət qüvvələrinin arasında. Mən də ora getmək istəyirəm ki, inşallah Qüdsün azad olunması üçün bir addım atım. Bu günlərdə imamın mücahidlərə ehtiyacı var, oturub onun zühurunu gözləyənlərə yox.

Onun bu cavabından sonra məclisə ağır sükut çökdü. Mən isə əhvalım dəyişdi. Sözlərinin şüar olmadığını bilirdim, Hüseyn həqiqəti söyləmişdi. Aparıcı bir neçə dəqiqəlik sükutdan sonra yenə də məclisi ələ alaraq, Hüseynin sözlərini təsdiqlədi. Sonra səhnədə olan qonaqlara təşəkkür edərək onları alqışlarla yola saldı. Beləliklə, səhnədəkilər keçib yerlərində əyləşdilər. Bayram tədbiri davam edirdi, lakin mən artıq orada deyildim, ürəyimdə vahimə hissi vardı.

# 40

Yoldan keçənlərin ağır baxışlarına davam gətirə bilmirdim. Bəziləri bizə gülür, bəziləri laqeyd halda kənarımızdan ötüb keçir, digərləri isə ayaq saxlayaraq, dəlilərə baxırmış kimi, təəssüflə başlarını yellədirdilər. Hüseyn isə sanki orada deyildi. Öz işi ilə məşğul idi. Heç kimə fikir vermirdi. Harada olduğunu və yoldan keçənlərin ona qarşı necə münasibət göstərdiyini nəzərə almadan işini görürdü. Fatimə əlimi dartıb soruşdu:

-Ata niyə bu işi görür?

-Hamıya göstərmək istəyir ki, azan vaxtıdır.

-Bəs nə üçün adamlar ona belə baxırlar?

-Belə bir şeyin olacağını gözləmirdilər. Onlar düşünürlər ki, azan yalnız məsciddən verilə bilər.

Fatimənin sualını cavablandıraraq dediyim sözlərə diqqət yetirirdim ki, Hüseyni və gördüyü işi uşağın gözündən salmayım. Amma düzünə qalsa, ürəyimdə bu vəziyyətin mümkün qədər tez bitməsini və buradan çıxıb getməyimizi istəyirdim. Gözucu Hüseynə baxırdım.

Azan verəndən sonra üzərində namaz qılmaq üçün karton axtarmağa getdi. Ona dedim ki, Hüseyn can, yolun

kənarında niyə namaz qılmalısan ki? Gəl gedək axtaraq, buralarda mütləq məscid olmalıdır.

Uşaqlarla birgə ondan bir qədər aralı dayanmışdım. Hüseyn heç kimin baxışlarına fikir vermirdi. Gülümsəyərək dedi: "Çox çəkməyəcək. Namazımı qılım gedirik."

O, məğrib namazını qılandan sonra rahat nəfəs aldım. Camaatın məzhəkəsinə çevrilmək istəmirdim, xüsusilə də cümə günü. Əhmədabad küçəsi adamlarla və maşınlarla dolu idi. Hüseyn bizə yaxınlaşdı və yolumuza davam etdik. Başını aşağı salmışdı. Çalışırdı ki, münasib geyimdə olmayan açıq-saçıq qızlara və qadınlara baxmasın. Onun nə qədər əzab çəkdiyini yaxşı bilirdim. Bəlkə də elə bu səbəbdən bizimlə getmək istəmirdi. Çünki İbrahimin mağazasının bu tərzdə geyinən adamların çoxluq təşkil etdiyi bir məkanda yerləşdiyini bilirdi.

Mağazaya çatanda uşaqlarla birgə içəri girdik. Bizim üçün stul gətirdi. İbrahimin çanta və ayaqqabı mağazası vardı. Qardaşım uşaqlarla birgə ayaqqabı seçməyə getdi. Mənim üçün isə gileylənməyə fürsət yarandı:

-Bu işi görməyinin səbəbi nə idi? Məscid tapana qədər səbr edə bilməzdin? Mütləq Əhmədabadın mərkəzində dayanıb azan verməli və namaz qılmalı idin? Sənin bu işin hətta uşaqlarla mənə qəribə göründü, o ki qaldı başqalarına!

-Mən burada, bu mühitdə bütün xanımlara tək-tək deyə bilmərəm ki, hicabınıza riayət edin. Namaz qılmağımla həm vacib əməlimi yerinə yetirdim, həm də yaxşı işlərə dəvət edərək, pis işlərdən çəkindirmək vəzifəsinə əməl etdim.

Ona verəcək cavabım yox idi. Hüseyn həmişə gördüyü işlər üçün dəlil gətirə bilirdi.

Bu günlər Hüseyn Suriyaya getmək üçün özünü oda-közə vurur. Ona mane ola bilmirəm. Özünün istəyi bu idisə, ona mane olmaq istəsəydim, sevdiyimin haqqında zülm etmiş olardım. Hüseyn demişkən, uşaqların da Allahı var. Daim Hüseynin sözlərini beynimdə götür-qoy etməyə çalışırdım: "Məzlumların müdafiəsi, xanım Zeynəbin hərəminin qorunması, İŞİD-n məhv edilməsi, Vətənin ərazi bütövlüyünün və xalqın namusunun qorunması."

Hüseynin olmayacağı günlər üçün, uşaqların ruzisini həzrət Zeynəbdən istəyirəm. Ey kaş, Allah qəlbimə daha çox rahatlıq bəxş edərdi. Kaş Hüseyn ürəyimdə baş verənlərdən xəbərdar olardı. Vücudunun bir hissəsini elə bir yerə göndərmək istəyirsən ki, sağ-salamat qayıdacağına belə əmin deyilsən. Kaş bunun nə qədər səbr tələb etdiyini anlayardı.

Daim salavat çevirərək, Allahdan kömək istəyirəm. Hüseyn də bir yerdə qərar tuta bilmir. Ünvanını alıb getmədiyi yer qalmamışdı. Bu günləri tezliklə rahatlıq tapmaq ümidi ilə keçirirəm. Allahdan istəyirəm ki, tezliklə İŞİD-n kökünü kəssin ki, Hüseyn onlarla döyüşməyə məcbur olmasın. Həqiqəti qəbul etmək istəməyən bir uşağa bənzəyirəm.

Səhər tezdən yuxudan ayılıram. Uşaqları məktəbə yola salmalıyam. Hamımız süfrəyə əyləşirik. Hamıdan əvvəl Hüseyn gedir. Bu gün ona verilən yeni ünvana müraciət edərək, onun müharibəyə ezam olunması işlərini yoluna qoyan şəxslə görüşməlidir. Tələsir. Ardıcıl olaraq, təkrar edir:

-Mərziyə, dua et ki, bu dəfə alınsın.

Uşaqlar mənə baxırlar. Heç nədən xəbərləri yoxdur. Düşünürəm ki, hələ bir hadisə baş verməmiş onları boş yerə nigaran etməyin mənası yoxdur. Allah günahımdan

keçsin; qəlbimin dərinliklərində Hüseynin işinin bu dəfə də alınmayacağına və onun heç yerə gedə bilməyəcəyinə inanıram. Müharibəyə ezam edilmənin çox çətin olduğunu bilirəm. Bunu dəfələrlə Hüseynə də demişdim: “Boş yerə özünü yorub onun-bunun qapısına getmə, alınan iş deyil.” İranlı şəhidlərdən xəbərim yox idi. İran ordusunun bu günə kimi şəhid verib-vermədiyini bilmirdim. Xəbərlərdə bu barədə heç bir məlumat yox idi. Yalnız İraqda və Suriyada yaşanan qarşıdurmalardan danışırdılar. Hüseyn gedəndən sonra qızlar da dərsə getdilər. Mən isə Məhəmmədməhyar, evin işləri və nigarançılığımla yalqız qaldım. Mətbəxə keçdim. Soyuducunun, mətbəx dolablarının qapılarını açıb-bağlayıram. Nə istədiyimi, nə bişirəcəyimi bilmirəm. Əlim evə və ev işlərinə yatmır. Bir müddətdir ki, fikrim çox dağınıqdır. Uşaqlar məktəbdən qayıdan kimi evimiz səs-küylə doldu. Hüseyn gec qayıtdı. Yorğun idi. Üzünün ifadəsindən anladım ki, işi düzəlməyib. Ona bir stəkan çay süzüb yanında əyləşirəm.

-Gəmilərin hansı dənizdə batıb?

-Hara gedirəmsə, mənə baş qoşmurlar. Məni tanıyan və istəyimdən xəbəri olan çoxları isə təəccüblə soruşurlar ki, sən hələ getməmisən?

-Səni məsxərəyə qoyurlar. Axı niyə yenə də onlara üz tutub müraciət edirsən? Onlar sənin üçün iş görən deyillər, özün başa düşmürsən?

Gözlərinə baxanda ürəyim yanırdı, baxışlarında sanki dünyanın qəm tablosu əks olunmuşdu. Şikayət etməsə də ürəyinin qan ağladığını bilirdim.

-Eybi yoxdur əzizim, bunlar hamısı mənim hesab-kitabıma yazılacaq.

-Bəlkə onların heç günahı yoxdur. Onlar adi məmurdurlar və sənin işini yoluna qoymaqda acizdirlər.

Qanun kimlərisə cəbhəyə aparmağı qadağan edəndə, özbaşınalıq etmək olmaz ki. Mən deyirəm ki, bir müddət gözlə, bəlkə orada vəziyyət düzələr. Kim bilir, bəlkə ölkələrindəki sabitlik yenə də bərpa olundu? İnşallah özləri İŞİD-i məhv edərlər. Mən gecə-gündüz bunun üçün dua edirəm.

Çaydan bir qurtum içərək özündən razı halda gülümsəyib deyir:

-Əli ağa ilə bəzi planları müzakirə etmişik.

Əli onun səmimi dostlarından idi. Onu uzaqdan-uzağa tanıyırdım. Poladəritmə zavodunda iş yoldaşı idilər. Döyüşə getməyi düşündükləri ilk gündən birlikdə olmağı və birlikdə getməyi qərara almışdılar.

-Hansı planları? Məgər getmədiyiniz yer və görmədiyiniz iş qalıb?

-Eşitmişəm ki, İsfahandan ezam olunmaq daha rahatdır. Buradakı qədər çətinlik yaratmırlar. Əli ilə birgə qərara gəlmişik ki, inşallah bu günlərdə bilet alıb İsfahana gedək və oradan müharibəyə ezam olunaq.

Bir qədər düşünəndən sonra qətiyyətlə deyirəm: "Yox, bu baş tutan iş deyil."

Təəccüblə mənə baxdı. Nə demək istədiyimi anlamırdı.

-Necə yəni baş tutan iş deyil?

-Bu, o deməkdir ki, ola bilməz Məşhəddə çətin olsun, İsfahanda isə asan. Qanun hamı üçün eyni yazılıb. Məgər isfahanlıların canı can deyil? Əgər ezam qadağandırsa, vəziyyətin hər yerdə eyni olduğuna əmin olacaqsan. İsfahandan da ezam ola bilməyəcəksən.

Sözlərim Hüseynin ruhdan düşməsi üçün deyildi, sadəcə olaraq, oradan bu şəkildə ezam oluna bilməyəcəklərini yəqin etmişdim.

-İşallah biz gedərik, işimiz alınar, sən də bu söhbətlərin şayiə olmadığına əmin olarsan.

Gülüb dedim:

-Yaxşı, qoy sən deyən olsun. Sağ-salamat gedin, mənim sözüm yoxdur.

Stəkanını götürdüm ki, ona bir stəkan da çay süzüm.

-Bir stəkan da süzüm?

-Mərziyə can, mənim vəziyyətim dənizdə boğulanın halı kimidir, əlimə düşən hər çubuqdan yapışıram. Öz-özümə düşünürəm ki, bu alınmadı, heç nə olmaz, başqa bir yolu sınayarıq. Amma bütün yollardan keçmək istəyirəm ki, sabah vicdanım qarşısında xəcalət çəkməyim.

Sözləri məntiqə uyğun idi. Özümü Hüseynin yerində hiss etmədiyimdən, yalnız onu dinləyərək dərk etməyə çalışırdım.

Sabahısı gün Əli ilə bilet almağa getdi. Əşyalarını yığmaqla məşğul idim, ürəyimdə zərrə qədər nigarançılıq yox idi. Çantasını verəndə əlindən, alnından öpüb onu Quranın altından keçirdim. Sağ-salamat qayıdacağını bilirdim. İsfahandan uzağa getməyəcəyinə şübhəm yox idi. Düz deyirlər ki, eşqin gözü kordur. Hüseyn İsfahana çatan kimi, ezam olunacağını zənn edirdi. Bu qədər yolu ayaq döyərək əliboş qayıdacağını təsəvvürünə belə gətirmirdi. Qurduqları plana uyğun olaraq, Hüseyn özünü bir əfqanıstanlı kimi, Fatimiyyun batalyonunun döyüşçüləri arasına salıb onlarla birgə Suriyaya getməli idi. Amma bu işlər də belə rahatlıqla baş tutmur. O, zahirdə hər şeyi öyrəndiyini zənn etmişdi. Orada insanların hansı təlim keçdikləri ilə heç kimin işi yox idi. Səfərbər olunanlar adlarını qeydiyyatdan keçirən kimi İranın daxilində 30-35 günlük təlim görərək, birbaşa Suriyaya ezam olunurdular.

Gələcək döyüşçülərin hərtərəfli tanınması üçün aparılan sorğu-suallar görüləcək işlərdən ayrı idi.

Hüseynə dedim: “Sağ-salamat get, amma qayıdacağını bilirəm. Bu işin ağlasığmazdır.”

Bir qədər dilxor olsa da, büruzə vermədi. Uşaqları öpərək, onlara sözümə qulaq asmalarını tapşırdı. Maşın yola düşdü, mən də arxasınca bir kasa su atdım.

# 41

Telefon zəng çalır. İki yaşlı Məhəmmədməhyarımı qucağımdan yerə qoyub telefona tərəf qaçıram. Hüseynin nömrəsini görən kimi sevincək dəstəyi qaldırıram.

-Alo, salam, yaxşısan, Hüseyn can?

Səsi həmişəki kimi deyil, qəmlidir. Nigaran qalıram. Hüseyn deyir: “Mən indi şəhid Möhsün Xizabın məzarı üstündəyəm. Narahatam, halım o qədər də yaxşı deyil.”

Danışıq tərzindən anlayıram ki, Suriyaya ezam olunması məsələsi hələ də düzəlməyib. Bunu dünənki telefon danışığında xəbər vermişdi. Dediyinə görə, ona ehtiramla cavab verərək bildirmişdilər ki, daha iranlıları Suriyaya ezam etmirlər.

Saxta əfqan sənədləri də işə yaramamışdı. Deyəsən, Əli ilə birgə zirəklik edərək, saxta sənədlər ala bilmişdilər. Buna baxmayaraq, İsfahandakı dövlət məmuru ona demişdi ki, görünüşündən və danışığından iranlı olduğun aydın bilinir, ay qardaş!

Hüseyn min bir ümidlə İsfahana getsə də, hal-hazırda naümid halda şəhidlər xiyabanına pənah aparmışdı. Ona dedim: “İşin düzəlməyibsə tez evə qayıt, uşaqlar səni soruşurlar, darıxıblar.”

Bir qədər susdu.

-Gəlmişəm ki, şəhidlər mənim üçün vasitəçilik etsinlər. Onlara danışdım ki, həyat yoldaşım hələ öncədən qayıdacağımı demişdi. Mən də bu üzdən evə qayıtmağa xəcalət çəkirəm.

-Sən axı nəyə görə xəcalət çəkməlisən ? Niyə özünə bu qədər əziyyət verib bizi də nigaran edirsən?

Hüseyn müraciət etdiyi yerlərdən danışır, mən isə uşaqların onun üçün necə darıxdıqlarından söz açırdım.

-Bir nəfər var, deyirlər çox adamı Suriyaya göndərməyə müvəffəq olub. İstəyirəm onunla görüşüb növbəti reys üçün adımı yazdırım. Dua et ki, inşallah bu dəfə işim düzəlsin.

-Vay! Sən yorulmadın hələ? Yenə də ezam olunmaq üçün yollar axtarırsan?

-İndi telefonu şəhidin məzarının üstünə qoyuram. Sən seyid balasısan, onunla danış ki, mənim üçün duaçı olsun.

Onun bu qədər israr etməsindən cana doymuşdum. Nə vaxt yorulub geri çəkiləcəyini bilmirdim. Əsəbləşərək qışqırdım: “Mən heç kimlə söhbət etmək istəmirəm. Vəssalam! Sağlıqla qal!”

Dəstəyi asdım. Sabahısı gün geri döndü. Məyus və əliboş qayıtdığı məlum idi. Başına gələnlərdən, haralara gedib nələr gördüyündən xəbərim olmasa da, içəri girən kimi gözlərinin yaşardığını aydın görürdüm.

-Gördün ki, sən deyən oldu. Yenə də qayıdıb gəldim.

Nə deyəcəyimi bilmirdim. Kaş Hüseyni yola salanda söylədiklərimi dilimə gətirməzdim. Onun üçün borace çiçəyi çayı dəmləyərək içinə nabat atıram. Özüm üçün də bir stəkan çay süzüb Allahdan səbr diləyirəm.

-De görüm, nə var, nə yox? Doğrudan, işinin düzəlmədiyini bəhanə edərək bizim üçün heç bir sovqat

gətirməmisən? Bu dəfə boyun qaçırdın, amma gələn dəfə harasa getsən, hər birimiz üçün kiçik də olsa, bir sovqat gətirməlisən.

Mənim üçün Qum səfərindən və Ayətullah Misbah Yəzdi ilə görüşündən danışır. Onu təsadüfən həzrət Məsumənin hərəmində görmüşdü. Cangüdənlər ona yaxınlaşmağa icazə verməsələr də, Ayətullah Misbah Yəzdi işarə ilə onun keçə biləcəyini bildirmişdi. Bu xatirəni həvəslə danışırdı. Çox sevinirdi, bu görüş onun ruhiyyəsində yaxşı təsir qoymuşdu.

-Mərziyə, Misbah ağa alnımdan öpdü. Ona bir kəlmə belə deməyə macal tapmamış, buyurdu ki, aram ol. Çətin olduğunu bilirəm, amma istəyinə çatacaqsan.

Baxışları gözlərimə dikilir.

-Ağanın bu sözü məni sakitləşdirdi.

-Xoş halına ki, sənə belə səadət nəsib olub.

Ramazan ayına çox az qalıb. Bu ayı birgə keçirəcəyimizə sevinirəm. Birlikdə olduğumuz bu günlərin hər dəqiqəsini qənimət bilərək asudə nəfəs alıram. Hüseynin işinin hər an düzələ biləcəyi və onun gedəcəyindən narahatam. Şəxsiyyətinin necəliyinə bələdəm. Hər bir işdə o qədər təlaş edir ki, sonda istədiyinə çatır. Hüseynin təklifi ilə hər axşam iftarımızı Gülbaharın şəhidlər xiyabanında açırıq. Bu ayın hər gecəsi səfa-səmimiyyətlə doludur. Uşaqlar da sevinirlər. Gündüzdən supu bişməyə qoyub iftara bir saat qalmış qazanın altını söndürürəm. Bu arada göyərtini arıtlayıb, pendir, meyvə və çərəzlərlə birgə səbətə qoyuram. İftara yarım saat qalmış yola düşürük.

Səbəti açıb çayı, xurmanı, bamiyəni, pendiri və boşqabları süfrəyə düzürəm. İftardan sonra uşaqlar oynamağa gedirlər. Hüseyn Məhəmmədməhyarı çiynində

oturdur və beləliklə biz şəhidləri ziyarət edib Fatihə vermək üçün məzarlara doğru yola düşürük. Şəhid Hüseyn Eşqabadinin məzarına çatanda ayaq saxlayırıq. Hüseyn nəyisə xatırlayıb gülümsəyir. Onun bu şəhidə xüsusi hörməti var, bəlkə də adaş olduqları üçündür.

-Mərziyə, İsfahana gedəndə soraqlaşıb, şəhid Eşqabadinin evini tapmışdım. Allah razı olsun, çox ürəyiaçıq valideynləri var. Oğullarının məzarı evimizin yaxınlığında olduğundan, onu tez-tez ziyarət edib bizim üçün duaçı olmasını istədiyimizi eşidər-eşitməz, əllərini göyə qaldırıb, canımıza dua etdilər. Kaş şəhidin anasının necə sevindiyini görəydin. Məni qonaq edərək ürək sözlərini bölüşdülər; sən demə, yolun uzaqlığına görə şəhidin məzarını tez-tez ziyarət edə bilmirlər. Anası dedi ki, oğlumun orada qərib olduğunu düşünürdüm, amma indi ürəyim rahatdır, çünki, sənin kimi cavanların olduğunu görürəm.

-Həmişəki kimi zirəklik edib, onların ürəyində özünə yer etmisən.

-Şəhid anasından xahiş etdim ki, mənim də şəhid olmağım üçün dua etsin. İsfahana nə səbəbdən gəldiyimi ona danışdım.

-Nigarançılıqla soruşdum: "Sonra nə oldu?"

-Heç nə, mənim üçün dua etdi, uzun-uzadı dua etdi.

Həmin il Ramazan ayı sanki başqa illərdən fərqli idi. Evimizin şəhidlər xiyabanı yaxınlığında yerləşməsi, hər axşam şəhidləri ziyarət etməyimiz, orada iftar etməyimiz, bütün bunlar mənəviyyatımızın yüksəlməsinə səbəb olmuşdu. Uşaqlar gün ərzində axşamın nə vaxt gəlib çatacağını səbirsizliklə gözləyirdilər. Gecələr isə onları çox çətinliklə evə gətirə bilirdik.

Əvvəlki illərdə olduğu kimi, bu il də qədr gecələrini şəhidlərin məzarı üstə keçirməyi qərara almışdıq, amma evimizin yaxınlığındakı şəhidlər xiyabanında deyil, Behişti-Rza məzarlığının şəhidlər xiyabanında. Orada qədr gecəsinə aid tədbir keçirilir, rövzə və Cövşən-Kəbir duası oxunurdu.

Ramazan ayının iyirmi birinci gecəsi idi. Maşını hərəm müdafiəçilərinin məzarları yerləşən hissədə saxlayırıq. Əşyalarımızı maşından çıxarıb yerbəyer etdik. Uşaqlar üçün içində reyhan toxumu olan sadirotu şərbəti düzəltmişdim. Məhla zəif idi, Fatimə isə bəzən yarım gün oruc tuturdu. Uşaqların əldən düşməsini istəmirdim, xüsusən də günlərin uzun olduğu isti yay fəslində. Yerə xalça sərib oturduq. Hüseyn Məfatih əl-cinanı açıb dua oxumağa başladı. Mən isə uşaqlara qulluq etməklə məşğul idim. Ətrafımızda bir-birindən aralı oturan başqa ailələr də vardı. Hüseyn şərbətlə dolu stəkanı məndən alanda, gözü səkinin kənarında oturmuş bir nəfərə sataşdı. Yerindən qalxaraq həmin adamın yanına getdi və onunla hal-əhval tutub, oradan-buradan danışmağa başladı. Ruhanilərə xüsusi hörməti vardı. Mən uşaqlara yemək çəkirdim ki, Hüseyn həmin adamı süfrəyə dəvət etdi. Hüseynlə birlikdə bizə yaxınlaşaraq, salamlaşdı və hal-əhval tutduqdan sonra xalçanın üstündə əyləşdi. Yeni tanışımız əli əsalı, ucaboy və uzunsov üz quruluşuna malik bir insan idi. O, özünü təqdim edib dedi: “Mən Ayətullah Seyid Əli Qazinin nəvəsiyəm.”

Bu adı eşidcək qulaqlarımı şəklədim. Onun haqqında bir sənədli filmə baxmışdım, xüsusi məqam və mənsəb sahibi olduğunu bilirdim. Ayətullah Seyid Əli Qazinin nəvəsi də nəfsinə qalib gələrək, bir sıra yaxşı xüsusiyyətləri özündə cəmləşdirən insanlardan biri idi.

Həmişə belə insanlara qibtə etmişəm. Bilmirəm, onlar hansı xüsusiyyətlərə malik idilər ki, mən və mənim timsalımda olan başqa insanlar bu səciyyələrdən məhrum idik? Bəlkə də bunun əsas səbəbi o idi ki, biz dünyamızı istəyirdik, onlar isə yox.

Kişi Hüseynlə söhbət edirdi. Məhla ilə Fatimə isə sakitcə onlara qulaq asırdılar. Məhəmmədməhyar isə sanki uca səslə narazılığını bildirirdi. Onu qucağıma alaraq yaxınlıqda bir qədər gəzişdim ki, sakitləşsin. Məhəmmədməhyar sakitləşəndən sonra yenə də süfrə başına qayıtdım. Hüseynlə qonağımız arasında olan söhbət artıq bitmişdi. Hüseyn ona məhəbbət dolu baxışlarla baxırdı. Zənnimcə, onun sözlərinə, mənəvi simasına və rəftarına məftun olmuşdu. Hüseyn üzünü ona tutub dedi ki, ağa, bu gecə sizinlə görüşməyimiz bizim bu günlük ruzimiz idi. Siz nəfsinizə sahibsiniz, mənim üçün dua edin ki, cihad yolunda sabitqədəm olub şəhadətə çatım.

Məhəmmədməhyar yenə də məni incidirdi. Səbətdən meyvə götürüb ona bir dilim alma verdim. Ruhani başını aşağı salmış və təsbeh çevirərək zikr deyirdi. Hüseyn sözünə davam etdi.

-Keçən gecə bir yuxu görmüşəm, əgər mümkünsə, onu mənim üçün təbir edin. Yuxuda imam Rizanın (ə) hərəmində idim. Boynuna ipək şal salmış bir ağa yaxınlaşıb mənə bir alma verdi. Almanın yarısını yedim, yarısını isə saxladım. Sizcə bu yuxunu necə yozmaq olar?

-İnşallah sənə çox gözəl mənəvi ruzi çatacaq. Ehtiyatlı ol ki, onu əldən verməyəsən.

-Allaha təvəkkül. Allah qoysa Suriyaya getmək istəyirəm.

-İnşallah aqibətin xeyirli olar.

Ondan bizim üçün duaçı olmasını istədik. Təşəkkür edib vidalaşdı və bizi tərk edərək bir qədər aralıda əyləşdi. Hüseyn də bizim yanımıza qayıdıb Məhəmmədməhyarı qucağına götürdü.

-Eşitdin Mərziyə, məni gözəl bir mənəvi ruzi gözləyir.

Bu artıq ikinci dəfə idi ki, Behişti-Rzada, hərəm müdafiəçiləri şəhidlərinin hüzurunda bu barədə söhbət olurdu. Keçən dəfə şəhid Xavərinin anası bizə gələcəkdən xəbər vermiş, bu dəfə də tanış olduğumuz ruhani ona bənzər sözlər danışmışdı. Ürəyimin dərinliyində qəribə bir hiss baş qaldırmaqda idi. Hüseynin nəzərdə tutduğu cavabı dilimə gətirməkdən qorxurdum. Bu barədə düşünmək belə istəmirdim. Belə olan halda bəhsi dəyişmək və cavabdan qaçmaq üçün dedim: "Razıyam, dediyin həmin ruzi hər şey ola bilər; gecə namazı, imam Rizanın (ə) ziyarəti, bir sözlə, bütün yaxşı işlər."

Məhəmmədməhyar əlindəki almanı hirslə dişləyirdi. Ağzının suyunun axdığını gördüm. Sözümə belə davam etdim: "Bax, gör almanı necə dişləyir, zənnimcə, yenə də diş çıxarır."

Hüseyn sanki sözlərimi eşitmədi, bəlkə də nə dediyimə heç fikir vermədi. Həmin ağanın söylədikləri barədə olan söhbətimizi davam etdirmək istəyirdi.

-Xeyr. O, dedi ki, çox böyük ruzi, olduqca böyük, başa düşürsən? Baxışını və dodaqaltı gülüşünü sezdim. Ruhaninin sözlərindən çıxardığı nəticəni məhz mənim dilimdən eşitmək istəyirdi. Laqeydliklə cavab verdim: "Ay Allah, bezdim artıq, sən hər şeyi Suriyaya bağlamaq istəyirsən. İstəyirsən deyim ki, o kişi sənin Suriyaya gedəcəyini nəzərdə tuturdu? Amma mən belə yozmayacağam, qoy Allah necə istəyirsə, elə də olsun."

Cavabımı bəyənməyib namaz qılmağa başladı. Biz də qədr gecəsinin namazını qılaraq səsgücləndiricidən yayımlanan Cövşən-Kəbir duasını oxuduq. Gecə yarıdan keçmişdi. Göydə ulduzlar sayrışırdı. Həmin ruhani çəfiyəsini yerə sərərək ibadətlə məşğul idi. Dua bitən kimi Hüseyn yenə də onun yanına getdi. Bu dəfə ruhaniyə dediyi sözə görə əhvalım dəyişdi. Eşitdiklərim barədə nə deyəcəyimi, bu sözlərə hansı reaksiya verəcəyimi bilmirdim. Hüseynin sualı belə idi: "Şəhid olsam, cənazə namazımı qılmağa gələrsiniz? Məni qəbirə özünüz qoyun, həmin bu hissədə, hərəm müdafiəçilərinin yatdığı yerdə."

Bu necə danışıq tərzi, necə istək idi? Özü də bizimlə olduğu bir halda, bu gecə, burada... Bilmirəm, dediyi bu sözlər Hüseynin qəlbinin dərinliklərindən gələn bir nida, yoxsa həmişəki kimi bir söz idi, deyib keçmişdi. Uşaqlar mənə baxırdılar. Yuxulu və bir qədər süst idilər. Onlar yorğun olsalar da mən tamamilə gümrah idim. Bəlkə, ömrüm boyu bu dərəcədə gümrah olmamışdım, çünki, verilən cavabı çox aydın şəkildə eşitdim: "İnşallah."

Evə qayıdanda deməyə heç bir sözüm qalmamışdı. Bu gecə Hüseyn dilinə gətirdiyi fikirlərlə son sözünü demişdi. O, artıq bu dünyanın adamı deyildi. Yol boyu eyni cümləni zümzümə edirdi:

-Bu gecə şəhadət aşiqinin sənədləri imzalanacaq.

# 42

Evdə bizi həmişəki kimi yeni macəralar gözləyirdi. Suriyaya ezam olunma prosesi öz yolu ilə davam edirdi. Amma bu dəfə Hüseyn yeni adamlar və yeni yollar axtarışında idi. Qüds ordusu sıralarında bir nəfərlə tanış olmuşdu. Bu tanışlığın necə baş tutması barədə mənə mətbəxdə balıq təmizlədiyim zaman danışmışdı. Başıma yaylıq bağlayaraq əlimə bir bıçaq alıb, qarşıma qoyduğum sinidəki böyük balığın pullarını təmizləməklə məşğul idim. Hüseynin səsi xəbərdarlıqdan daha çox fəryada bənzəyirdi. Diksindim, uşaqların başına bir iş gəldiyini düşündüm. Qışqıraraq məni səsləyirdi: "Mərziyə, Mərziyə, tez bura gəl."

Səsinin tonu məni narahat etdi. Əlimi dəsmalla silib qapıya qaçdım. Hüseyn qapının kandarında dayanıb, ayaqqabılarını çıxarırdı.

-Buyur, xanım, həll oldu.

-Nə? İşsizlik müavinəti? Yoxsa səni yenidən işə götürmək istəyirlər? Poladəritmə zavodundan yenicə ixrac olunduğu üçün bizə bir neçə ay idi ki, işsizlik müavinəti ödənilirdi. Hüseyn təəccüblə mənə baxdı. Belə cavab alacağını gözləmirdi.

-Yox canım, hansı müavinə, hansı qayıtmaqdan danışırsan? Suriyaya getmək məsələsini deyirəm, həll olmaq üzrədir. Qüds ordusunun döyüşçülərindən biri mənə dedi ki, Fatimiyyun batalyonu sıralarında Suriyaya ezam olunmaq istəyim səhv idi. Bu məsələnin düzgün həlli Livanın Hizbullah təşkilatının vasitəsi ilə hərəkət edərək, müqavimət qüvvələrinə qoşulmaqdır. Gör bir necə də asandır. Mən isə bütün bu müddət ərzində sağ əlimlə sol qulağımı qaşıyırdım.

Bunu deyib zarafatla sağ əlini sol qulağına yaxınlaşdırdı. Guya bu üsulla qulağını qaşımaq istəyirdi.

Sən demə bir içim su kimi asan idi.

Durmadan danışır və gələcək planları haqda söhbət edirdi. Nəhayət, mənim susduğumu görüb soruşdu: "İndi sözün nədir?"

Onun bitməyən təlaşlarından cana doymuşdum. Lakin Hüseyn belə asanlıqla əl çəkən deyildi, hər gün yeni ideya ilə alışıb-yanırdı. Nalə çəkərək dedim: "Ay Allah, bu da təzə nağıldır? Artıq yorulmuşam."

Bilirdim ki, getməsinə razılıq verməyim onun üçün çox mühümdür, ürəkdən razılaşmayana qədər getməyəcəkdi. Mən isə dəfələrlə olduğu kimi, bu dəfə də onun sözlərini ciddi qəbul etmədim. Amma bu həna, o hənadan deyildi, bu dəfə tam fərqli şəkildə israr edirdi. Hətta uşaqları da öz tərəfinə çəkmişdi. Fatimə ilə Məhlaya hara, necə və nə səbəbdən getdiyini izah etmişdi. Təəccüblə izləyirdim ki, uşaqlar Hüseynin nə vaxt yola düşəcəyini gözləyirlər. Sanki ataları əyləncə dolu bir səfərə gedirdi. Onlara haqq vermək olardı. Gələcəkdə hansı çətinliklərlə üzləşəcəklərindən xəbərsiz idilər. Şəhadət, qazilik, itkin düşmüş, döyüşdən qayıtmamış və atasızlıq kimi məfhumlarla hələ tanış deyildilər.

Onları qınamırdım, amma məni razı salmaq cəhdləri, xüsusən də Məhla tərəfindən, çox qəribə görünürdü. O, daim təkrar edirdi: “Ana can, sən axı seyidsən, belə etməli deyilsən. Bir bax, həzrət Zeynəbin hərəmi zəvvarsız qalıb. Təsəvvür et ki, düşmənlər hərəmi dağıdıblar, üstündən yüz il keçəndən sonra tarixi mütaliə edənlər deməzlər ki, o dövrün adamları necə də insafsız idilər, belə bir fəlakətə laqeyd yanaşaraq, özlərini görməzliyə vururdular? Bu halda peyğəmbərin və imamların dövründə yaşayan adamlarla nə fərqimiz var?”

Bütün bu dediklərinin Hüseynin sözləri olduğunu bilirdim. Məhla yaşından böyük danışırdı. Ondan soruşdum ki, bu dediklərini atandan eşitmisən? Başını qaldırıb mənə baxdı. Onun gözlərinin içinə baxa-baxa “sizi yetimçiliklə, atasız böyütmək istəmirəm”, cümləsini dilimə gətirə bilmirdim.

Balalarımın atasının, evimin kişisinin yanımda olmasını istəyirdim. Üç uşağı tək-tənha böyütmək iqtidarında deyildim; hətta bu fasilə bir gün çəksəydi belə. Övladlarımızın dünyası gözəlliklərlə dolu idi, onlar çətinliyin nə olduğunu dərk etmirdilər.

Həmin gün bacım bizə gəlmişdi. Ürəyimin üstünə sanki ağır daş basmışdılar, bununla belə, heç nə deyə bilməzdim. Onun nigaran qalmasını istəmirdim, yəni bu işi görməyə haqqım yox idi. Evində belə söhbətlərin olmadığını bilirdim. Bacımın həyat yoldaşı işi, həyatı, uşaqları və qohumlarından başqa heç nə barədə düşünmürdü. Görəsən nə üçün mənim həyat yoldaşım belə deyildi?! Aralarındakı bu fərqin səbəbini anlamırdım. Raziyə mənə şübhə dolu nəzərlərlə baxırdı:

-Yaxşısan?

Heç də yaxşı deyildim. Bəlkə də ürəyimdən ağlamaq keçirdi. İstəyirdim deyim ki, Hüseynin cəbhəyə gedərək məni üç uşaqla tək qoymasına razı deyiləm. Bu amansız müharibə nə üçün bitmək bilmirdi? Bu mənfur İŞİD niyə aid olduğu yerə, cəhənnəmin dibinə qayıtmaq istəmirdi? Nə üçün dünyada sülh bərqərar olmurdu? Məgər insanların rahat yaşamaq haqları yox idi? Bir yığın cavabsız sual...

Raziyə getdi. Mən isə həmin ev və həmin həyat yoldaşı ilə baş-başa qaldım; məni üç uşaqla qoyub getmək istəyən həyat yoldaşı ilə... "Mərziyə can, sən razı olmasan, mən heç yerə getməyəcəyəm" deyən həyat yoldaşı ilə... ilk görüşümüzdə, onu Allahdan uzaqlaşdıran deyil, Allaha yaxın edəcək bir xanım arzusunda olduğunu deyən həyat yoldaşı ilə.

Hüseyn daim Livana edəcəyi səfərdən danışırdı. Lakin mən bu getmək istəyinin qarşısında qətiyyətlə dayanmağı qərara almışdım. Razılaşmasaydım, heç yerə getməyəcəyini yaxşı bilirdim. Kiçik bir nöqtəni də nəzərinə çatdırmaq heç də pis olmazdı; ödəməli olduğu yol xərclərini.

Yanında əyləşdim. Uşaqlar oynayırdılar. Məhladan səs salmamalarını xahiş etmişdim, ataları ilə danışmalı olduğum söhbət vardı. Mənim nə barədə danışacağımı bilirdi. Evin böyük qızı, mənim dayağım, çətin günlərimin həmdəmi idi.

Hüseyn soruşdu: "Nə olub? Yoxsa razı olduğunu elan edib, məni sevindirmək istəyirsən?"

-De görüm, sən Livana getmək üçün lazım olan yol pulunu haradan tapacağını düşünmüsən? Ora çatmaq üçün sənə ən azı beş milyon tümən pul lazımdır. Tutaq ki, bu

pulu düzəldə bildin, birdən Livanda bir neçə ay qalası oldun, onda necə?

Belə çıxır ki, sən bizim qənaət edərək yığdığımız bütün pulları özünlə aparmalı olacaqsan. Çox güman ki, heç bu məbləğ də sənə çatmayacaq, onda nə edəcəksən?

-Bu yolda xərclədiyimiz bütün pulun sonuncu qəpiyinə qədər, neçə bərabər, Allah tərəfindən bizə qaytarılacağını dəqiq bilirəm. Yaxşı olar ki, sən pulumuzun nə dərəcədə dəyərli olduğunu düşünəsən, biz onu cihad yolunda xərcləyəcəyik.

-Pulu harada istəsən, orada da xərcləyə bilərsən. Sən getməsən, pul da xərclənməyəcək.

Bu qədər iradə və imanın haradan qaynaqlandığını bilmirdim, özüm Hüseyndə olan bu yəqinin heç bir zərrəsinə də çatmamışdım.

Şəhid gətirilən günlər Hüseyn Məşhəddə olurdu. Gülbahardan Məşhədə qədər olan yolu qət edirdi ki, dəfn mərasimində iştirak edib, şəhidi son mənzilinə yola sala bilsin. Çox vaxt onunla gedərdim. Dəfn mərasimində elə sidq ürəklə işləyirdi ki, çoxları onun şəhidin qohumu olduğunu zənn edirdilər. Evə qayıdanda Hüseyn ya mütaliə edər, ya da uşaqlarla oynayardı. Bəzən isə televizoru yandırıb "Üfüq" kanalından yayımlanan "Hərəmin xidmətçiləri" verilişinə baxardı. Bu verilişdə hərəm müdafiəçiləri haqqında sənədli filmlər yayımlanırdı. Televizora baxmadığı vaxtlar isə məddahlara qulaq asaraq sinə vurar, uşaqları başına yığıb birgə mərsiyə oxuyardı. Hüseyn getmək eşqi ilə alışıb-yanırdı. Bunu gördüyü işlərin hər birindən anlamaq olurdu, lakin ürəyim onun getməyi ilə barışa bilmirdi.

Mənə deyirdi ki, Mərziyə icazə ver gedim! Məni unut.

Lakin bu asanlıqla özümü razı sala bilmirdim.

# 43

"Ya Allah" kəlməsini eşidən kimi qaçıb çadramı götürdüm. Qonağımız vardı. Kimin gəldiyini bilmirdim. Xeyirdir inşallah, görəsən nə baş vermişdi ki, qonaq vaxtsız gəlmişdi. Uşaqlar məktəbdə idilər. Məhəmmədməhyar oyuncaqları ilə oynayırdı. Hicabımı bağlayan kimi qapıya çıxıb ucadan dedim: "Buyurun, xoş gəlmisiz."

Gələn Hüseynlə böyük qardaşı idi. Barmağımı dişlədim, nədənsə onların bu vaxtsız gelişlərinin Hüseynin Suriyaya getmək istəyi ilə əlaqəsi olduğunu düşünürdüm. Sonda gümanımın düz çıxdığına əmin oldum.

Hüseynlə qardaşı içəri keçdilər. Mətbəxə gedib qonağı lazımi qaydada qarşılamaq üçün tədarük görməyə başladım. Hüseyn Məhəmmədməhyarı qucağına götürüb qardaşı ilə söhbət etməyə başladı. Böyük qardaşı Məhəmmədlə nəzərləri və düşüncə tərzlərinin eyni olduğunu bilirdim. Tez-tez zəngləşib görüşərdilər. Onun öz işlərini qaydaya salaraq, münasib fürsətdə Hüseynlə birgə Suriyaya getmək istəyindən də xəbərim vardı. Amma bu günə kimi heç nə edə bilməmişdi, yalnız Hüseyn getmək üçün israr edirdi.

Qonağın qarşısnda çay, şərbət, meyvə qoyub hal-əhval tutduqdan sonra, söhbət məni narahat edən mövzuya yönəldi. Hüseyn qardaşını gətirmişdi ki, məndən onun Suriyaya getməsi üçün razılıq alsın. Nə deyəcəyimi bilmirdim. Onun xətrini çox istəsəm də, verəcəyim qərar qohumlar arasındakı xətir-hörmətə və ailədəki böyük-kiçik münasibətlərinə söykənə bilməzdi. Hüseyn məni çətin vəziyyətə salmışdı. Həmin an nə cavab verəcəyimi bilmirdim. Ürəyim hələ də Hüseynin getməsi ilə razılaşa bilmirdi.

Hüseyn mənə dəlil gətirərək son sözünü dedi: “Sən Allahın seçilmiş bəndələrindənsən, çünki böyük ehtimalla şəhid xanımı olacaqsan.”

-Mən istəmirəm! Şəhid ailəsi olmaq istəmirəm! Bunu sənə hansı dildə deməliyəm?!

Göründüyü kimi, qardaşını gətirməyi də faydasız idi. Odla alov arasında qalmışdım. Hüseyn getmək üçün səbirsizlənirdi. Bunu qıldığı gecə namazlarından rahat anlamaq olardı. Namaz üstə ağlayır və qunutda Allahdan və məsumlardan kömək diləyirdi.

Hər şeyi eşidib dərk edirdim. Hüseyn gün-gündən şam kimi əriyir, mən isə yalnız öz sözümü deyib dururdum: “Getməyinə razı deyiləm!” Sonda bilmirəm necə oldu ki, bir gün dedim: “Yaxşı, mən razıyam, get. Artıq sənin gecə namazlarında ağlayıb ah-nalə çəkməyinə dözə bilmirəm.”

Getməzdən öncə bütün işlərini yoluna qoydu. Kirayə verdiyimiz evi təhvil alsa da, ucqar yerdə yerləşdiyindən başqa kirənişin tapılmadı. Evimizi dəyişərək Gülbahardan Məşhədə köçdük.

Ev əşyalarını yük maşınına yığıb yola düşdüyümüz gün Məşhədin yaxınlığına çatırdıq ki, dərindən ah çəkib dedi:

"Sizi imam Rizanın (ə) himayəsinə verdiyim üçün ürəyim rahat oldu."

Yeni evimiz ensiz bir küçədə yerləşirdi. Yaxşı sürücü deyildim, bir neçə dəfə yol qəzasına düşmüşdüm, bu üzdən maşını satmaq qərarına gəldik. Hüseyn maşını on milyon tümənə satdı. Pulun yarısını mənim hesabıma köçürüb dedi: "Bu məbləğ ev xərcləri üçün hələlik bəsdir."

Bütün işlərini sürətlə yerinə yetirirdi. Bəlkə də fikrimi dəyişəcəyimdən qorxurdu. Bəlkə də artıq məqsədinə çatdığını düşünərək, getmək üçün tələsirdi.

Bütün işlərini bitirəndən sonra Livana birgə gedəcəyi bir qrup adamla Tehran-Livan reysinə təyyarə bileti aldı. Hüseynin qrup komandirinin adı Əbu-Zəhra idi, İranda isə ona Yasir deyə müraciət edirdilər. Yasir özü beş dəfə müxtəlif cəbhə bölgəsində olmuşdu. Hizbullah təşkilatının üzvi idi. Hüseynlə yaşıd olardı. Yol yoldaşlarının adı Kumeyl və Ümid olsa da, özləri üçün seçdikləri mücahid adları Əbu-Qubad və Əbu-Fazil idi. Qrupda bir neçə başqa adam da vardı. Hamısı da bir-birinə bənzəyirdi. Öz istəkləri ilə bu səfərə yollanaraq, xərclərini özləri ödəyəcəkdilər. Həm canları, həm də malları ilə cihad edirdilər.

Şəxsi əşyalarını yığdığı gün üzünü mənə çevirib dedi: "Mənimlə danışmaq istəmirsən? Ölkə xaricinə səfər edirəm, İsfahana getmirəm ki! Bax, sonra vicdan əzabı çəkəcəksən."

Əlim heç bir işə yatmırdı. Yerimdən qalxıb Quran gətirdim. Onu Quranın altından keçirdim. Uşaqları öpdü. Getməyini elə vaxta salmışdı ki, hamımız evdə olaq.

Getməzdən öncə Quran açdı. Gözümüzün önündə bu ayə zahir oldu:

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

**“Heç vaxt güman etmə ki, Allah yolunda qətlə yetirilənlər ölülərdir. Onlar Rəbləri yanında ruzi verilmiş dirilərdir.”**[1]

Uşaq kimi sevinərək dedi: “Mən artıq qayıtmayacağam. Bu, şəhadət ayəsidir.”

Halım onsuz da pis idi, bir az da pisləşdi. Məhəmmədməhyarı qucağıma götürdüm. Uşaqlarla mən, Behişti-Rzada tanış olduğumuz şəhid Ümid Pardadın anası və qaynım Məhəmmədlə birgə Hüseyni hava limanına yola salacaqdıq. Qardaşı Məhəmməddən başqa, nə mənim, nə də Hüseynin ailəsindən heç kimin bu işdən xəbəri yox idi. Bu, Hüseynin istəyi idi. Heç kimi nigaran etmək istəmirdi.

Hava limanında qəlbim təşviş və iztirabla dolu idi, amma səbr etməkdən başqa çarəm yox idi. Hüseynin yol yoldaşları orada deyildi. Livana ayrı-ayrılıqda çataraq, orada görüşməyi qərara almışdılar. Əbu-Zəhra hamıdan öncə yola düşərək, yerləşəcəkləri məkanı seçməli və bütün məsələləri yoluna qoymalı idi. Hüseyn kiçik yol çantasını çiyninə keçirdi. O, hələ yola düşməmişdi, amma Məhlanın gözlərindəki iztirab və xiffəti aydın görə bilirdim. Fatimə ilə Məhəmmədməhyar oynayırdılar və atalarının hara və nə üçün getdiyini dərk etmirdilər.

Tabloda reysin nömrəsi elan olunan kimi Hüseyn qapılara tərəf yola düşdü. Bizə yalnız ona baxmaq qaldı. Məhla ilə uşaqlar əllərini yelləyir, mən isə özüm belə inanmadan sakitcə, onun necə uzaqlaşdığına tamaşa edirdim.

---

[1] Ali-İmran surəsi, ayə 169.

# 44

Zəng səsini eşidən kimi telefona tərəf qaçıram. Danışan Hüseyndir. Sanki ondan uzaq düşdüyümdən illər keçir. Sevinə-sevinə sözə başlayıb deyirəm:

- Haradasan? Nə var, nə yox?

- Tehrana çatmışam. Beyrut reysinə hələ çox vaxt var. İstəyirəm Tehran və Şəhriyarda yerləşən hərəm müdafiəçisi şəhidlərinin məzarlarını ziyarət edim, xüsusilə də şəhid Sədrzadə və Məhəmməd Ajəndini.

- Sağ-salamat. Mənim üçün də dua edərsən.

- Yaxşı. Beyruta çatan kimi, sənə zəng vuracağam. Nigaran qalma.

- Özünü qoru.

Uşaqlara yemək bişirməyə gedirəm. Evin mühitinin həmişəkindən fərqli olduğunu hiss edirəm. Hüseynin yeri boşdur. Bu ayrılığın nə qədər sürəcəyindən xəbərim yoxdur. Hüseynin tezliklə qayıtması üçün dua edəcəyəm. Mümkün qədər tez qayıtsın.

İki gündür ki, Hüseyndən heç bir xəbər yoxdur. Heç birimizin halı yaxşı deyil, nə mənim, nə uşaqların. Evdə həmişəki ab-havanı qoruyub saxlamağa çalışsam da, Hüseynin yoxluğu hiss olunur, bu boşluğu doldurmaq

olmur. Uşaqlar tez-tez Hüseyni soruşurlar, xüsusilə də Fatimə, axı o, atasına çox bağlıdır. Kiçik bir şeyi bəhanə edərək ağlamağa başlayır. Dərdinin nə olduğunu yaxşı bilirəm. Məhla ilə söhbət etdim, o, yaşca daha böyük və daha ağıllıdır.

Evi birlikdə idarə etməyi qərara alırıq. Məhlaya deyirəm ki, qəlbində hiss etdiyin bu xiffət və tənhalığın xətrinə, atandan müharibəni və Suriyanı unudaraq evə qayıtmağını xahiş et. Qətiyyətlə cavabımı verib deyir: "Atamı yolundan döndərmək istəmirəm. Deyəsən, çox aydın şəkildə cavabımı aldım, daha deyəcək sözüm yoxdur."

Anam zəng vurub, evlərinə gəlməyimizi istəyir. Amma mən bir an olsun belə, evi tərk etmək istəmirəm. Qorxuram ki, Hüseyn zəng vurar, biz də evdə olmarıq. Artıq neçə gündür ki, zəngini gözləyirəm. Günlər və saatlar çox yavaş keçir. Nigaranam. Hərəmə də gedə bilmirəm. Suriyada vəziyyətin necə olduğunu bilmirəm, bəlkə də Hüseyn evə zəng vurmaq istədi.

Axır ki, intizar sona çatır və evə tanınmayan nömrədən zəng gəlir. Dəstəyi qaldırıram. Uşaqlar da evdədir. Səsimdəki sevinci duyan uşaqlar, oyunu kənara qoydular.

-Hüseyn sənsən? Nə yaxşı! Bu günə kimi harada idin? Niyə zəng vurmurdun?

-İndi Dəməşqdəyəm. Hizbullah təşkilatının döyüşçüləri ilə Suriyaya çatıb Dəməşqdə ev kirayə etmişik. Hizbullahla həmkarlıq edəcəyik. Həzrət Zeynəblə həzrət Rüqəyyənin hərəmlərini ziyarət etmişəm.

-Bizim üçün də dua et.

-Əgər internet bağlantısı qura bilsəm, sənə şəkil göndərəcəyəm inşallah. Amma təhlükəsizlik məsələlərinə görə, göndərəcəyim şəkilləri heç kimə göstərmə.

Hərəmdən çıxanda çiynim general Mürtəzəvinin çiyninə dəydi. Məndən soruşdu ki, sən burada nə edirsən? Kiminlə gəlmisən? Mürtəzəvinin adını eşitmişdim. Hüseyn onun haqqında dəfələrlə danışmışdı. Məşhəddə hərbi qüvvələrin Suriyaya ezam olunmasına cavabdeh olan məsul şəxs idi. Hüseyn dəfələrlə ona müraciət etsə də, müsbət cavab ala bilməmişdi. Onun sözlərindən belə başa düşdüm ki, general Mürtəzəvinin dediklərinə əsasən, Hüseynin Suriyaya bu yolla gəlməsi qanuna zidd olduğundan, şəhid olarsa, Behişti-Rzada dəfn olunmasına icazə verməyə bilərlər. Yəni o, heç yerdə rəsmən şəhid hesab olunmayacaq. General dönə-dönə Hüseynə Məşhədə qayıtmasını tövsiyə etmişdi. Söz vermişdi ki, Məşhədə qayıtdıqdan sonra ilk fürsətdə özü şəxsən Hüseyni Suriyaya ezam edəcək. Çünki, bu vəziyyətdə burada qalması heç də məqbul deyil.

-İndi nə edəcəksən?

-Heç nə. Ona dedim ki, bura kimi mənə çox söz veriblər, amma verdikləri sözün üstündə dayanmayıblar.

-Deməli, inadkarlıq etmək istəyirsən? Axı o adamın sözündən elə çıxır ki, bu yolla Suriyaya getməyin cinayət kimi də qiymətləndirilə bilər.

-O, da belə dedi. Axırda heç cür razılaşmadığımı gördü və üzünü həzrət Zeynəbin hərəminə tutub dedi: “Bir halda ki, özünü bura çatdıra bilmisən, deməli, Allahın sevib seçdiyi bəndə kimi, müharibəyə ezam olunmalısan. Mən bu vəzifəni üzərimə götürüb sənə kömək edəcəyəm.”

Hüseyn bu sözləri deyəndən sonra susdu. Qəmli idi, səsi titrəyirdi. Bu səssizlik, araya çökmüş bu sükutun tərəddüd nişanəsi olduğunu bilirdim. Hüseyn bir tərəfdən Suriyada qalmaq istəyir, digər tərəfdən isə, qanunu pozaraq, məcazi mənada cinayətkara dönmək istəmirdi.

Qətiyyətlə dedim: "Zənnimcə, qayıtmağın daha yaxşıdır. Əgər Allah göstərməsin, başına bir iş gəlsə, heç kim bizə xəbər verməyəcək."

-Əgər şəhid olsam, böyük ehtimalla, cənazəmi Beyruta çatdırıb bir yerdə kəfn-dəfn edəcəklər.

Bilirəm ki, Hüseyn son qərarını vermək üçün düşünüb bir nəticəyə gəlməlidir. Belə olan halda, mən də bundan artıq israr etmirəm. Səsində qəm çalarları var. Hətta bəhs etməyə belə halı yox idi. Yalnız bunu deyə bildi ki, görək, nə olur.

Onunla vidalaşıb dəstəyi asandan sonra, ürəyimin dərinliklərində ümid işığı parlamağa başlayır. Yəni, Hüseynin qayıtması mümkündür? Misal üçün bu gün, sabah, ya başqa bir gün, sadəcə olaraq, çantasını götürüb qayıtsın və bir daha heç yerə getməsin. Öz-özümə deyirəm: "Çox qorxuram, Hüseyn, qayıt. Mən bildiyin qədər də möhkəm deyiləm." Danışası çox sözüm var, amma sözlər boğazımda ilişib qalır. Belə baxanda, ziyarətə getdiyi üçün çox sevinirəm. Bəlkə bundan sonra döyüşüb cihad etməyin ona qismət olmayacağını özü də dərk edər.

Hüseyn bir həftədən sonra zəng vurdu. Halı pisdir. Səsi titrəyir. Yola düşdüyünü və hal-hazırda Tehranda olduğunu deyir. Bir neçə dəqiqə bundan öncə, Hüseynin qayıdacağı halda sevindiyimi düşünürdüm, amma onun qəhərləndiyini, səsindəki bu ahəngi, sözlərindəki qəm-qüssəni duyduğum üçün narahat olub kədərlənirəm.

Səs kəsiləndən sonra dəstəyi asıram. Mən də qəhərlənmişəm. Güman edirdim ki, Suriyaya çatıb hərəmi ziyarət etsə, bir qədər orada qalandan sonra, əhval-ruhiyyəsi düzələr və daxili sakitlik tapar. Lakin, bütün proqnozlarım boşa çıxdı.

Məhəmmədməhyar ətəyimdə oturur. Onunla oynamağa həvəsim yoxdur. Pərişan idim, bu telefon zəngi məni bir az da pərişan etdi. Hüseyn qayıdandan sonra nə işlə məşğul olacağını bilmirəm. Yəqin ki, yenə də özünə qapanaraq bir neçə gün narahat olacaq. Bəlkə də bu narahatçılıq müvəqqətidir. Allahın işini bilmək olmur, bəlkə də bu son səfəri olar və bir daha heç vaxt müharibənin sorağına getməz.

Günorta ailə dostlarımızdan biri zəng vurur. Şəhid qızıdır, neçə vaxtdır ki, ailəvi get-gəlimiz var. Bəzən onunla dərdləşirəm. Axşam bizə gələcəyini deyir.

-Buyurun, gözümüz üstə yeriniz var.

Telefon danışığında ona baş verənləri bildirmək istəmədim. Qonağım qaş qaralanda gəlib çatdı. İki stəkan çay süzüb əlimdə meyvə qabı otağa keçirəm. Oradan-buradan danışırıq. Fikrimi cəmləyə bilmirəm, Hüseyni düşünürəm. Ondan mesaj gəldi ki, Məşhədə çatan kimi dayanacaqdan birbaşa hərəmə gedəcəyəm. Əgər evə gəlsəm, ürəyim partlayacaq.

Artıq gecdir. Hüseyndən isə bir xəbər yoxdur. Mobil telefonumu yoxlayıram. Gündüz mənə göndərdiyi fotoşəkilə baxıram. Şəhid Sədizadənin məzarının kənarında matəm içərisində, qəmgin halda əyləşib. Gözlərinin halından ağladığını güman etmək olur. Bilirəm ki, evə gəlib çatsa, yenə də köhnə hamam, köhnə tas olacaq. Bir yerdə qərar tuta bilmədiyi günləri öz gözümlə görmüşəm. Artıq yəqinə çatmışam ki, Hüseynin bu təlaşları belə rahatlıqla zehnindən silinməyəcək. Telefonun qalereyasındakı fotoşəkilləri vərəqləyərək, yenisinə rast gəlirəm. Bu şəkildə Hüseyn imam Rizanın hərəmindədir. Bu şəkili göndərib ki, ondan nigaran qalmayım, amma mənim nigarançılığımın bu şəkillərlə aradan getmədiyini

haradan bilsin axı. Məni nigaran edən Hüseynin özüdür, vücudunda yaranan qəribə ikitirəlikdir. Onun cismi və bədəni burada olduğu halda, ruhu, fikri və düşüncələri buralardan çox-çox uzaqlardadır.

Uşaqlar danışıb gülürlər. Qonağım söhbət edir, mən isə heç nə eşitmirəm, sanki burada deyiləm. Mənə elə gəlir ki, taqətim kəsilib, səbrim də tükənib. Hüseyndən mesaj gəlir, yazmışdı evə qayıdıram.

Hüseyn evə qayıdanda ona nə deyəcəyimi düşünürəm. Görəsən ona necə deyim ki, üzündəki matəm ifadəsindən, ora-bura ayaq döyməsindən cana doymuşam? Mənimlə uşaqların nə təqsiri var?

Məhəmmədməhyar ayağımdan tutub deyir: “Ata!”

Onu qucağıma alıram.

-Atan evə qayıdır.

Fatimə sevincək səsimə səs verir: “Ata gəlir!”

Amma Məhla narahat oldu. Onun zehnində Hüseynin qəmli və ümidsiz qayıdışları ilə bağlı heç bir xoş xatirə yoxdur. O, atasının hələ bir müddət pərişan olacağını yaxşı bilirdi. Hüseynin Suriyaya ezam olunmaq üçün nə qədər israr etdiyi hələ də yadında idi. Məhla heç nə deməsə də, baxışlarından hər şeyi anlayıram. Sakit səslə deyir: “Ana can, atam bu dəfə çox üzüləcək.”

Qonağımız Hüseynin Suriyada olduğunu düşündüyü üçün təəccüblə mənə baxır. Özümü tamamilə sakit göstərməyə çalışıram. Gülümsəyərək deyirəm: “Hüseyni geri dönməyə məcbur etdilər, deyilənlərə görə bu yolla Suriyaya getməsi qeyri-qanuni idi.”

Bu səfərin hekayəsini danışmaq istəyərkən, qapının zəngi çalındı. Gələn Hüseyndir. Üzünün rəngi qaçıb, özü də çox üzgündür, pərişan saçlı və pərişan görkəmli. Yol çantası əlində olsa da, görkəmi çox səliqəsiz idi. Bu gələn

adamın həmişə səliqəli geyimli, görkəminə qarşı diqqətli olan Hüseyn olduğuna inanmırdım. Təsadüfən küçədə onunla rastlaşsaydım, çətin ki, Hüseyn olduğuna inanardım.

Onu qarşılayıb dedim: “Allah zyarətini qəbul etsin. Ziyarətə getdin? Axtardığın rahatlığı tapa bildin?”

Heç nə demədən üzümə baxdı. Mat-məəttəl üzümə baxırdı. Heç nə demirdi.

Yenə dillənib dedim: “Artıq başa düşdün ki, qismətində cihada getmək yoxmuş? Talehinə ziyarət yazılıbmış, şükürlər olsun ki, sağ salamat ziyarət edib qayıtdın. Xahiş edirəm bu get-gəllərə son qoy, daha bu oyunları davam etdirmə. Nə üçün özünü bu qədər oda-suya vurursan?”

Baxışlarını məndən çəkib əl çantasına dikdi.

-Mən yenicə cihad icazəsini həzrət Zeynəbdən (s) almışam, gələn dəfə getməyim qətidir, heç şübhən olmasın.

Onun bu sözləri məni dəlilik həddinə çatdırdı. Qəzəbimdən fəryad etmək istəyirdim. Bu oyunu bitir, deyə, ucadan qışqıraraq ona artıq cana doyduğumu bildirmək istəyirdim. Baxışlarımı gözlərinə dikdim. Çantasını yerə atdı. Övladlarımın və qonağımın otaqda olmasını nəzərə almadan, ixtiyarsız olaraq ona acıqlanıb dedim:

-Rədd ol gözümün qabağından, səni görmək belə istəmirəm.

Həmin an heç nə düşünmürdüm. Əslində, həmin an onu görmək istəmirdim. Bu qədər əziyyətdən, get-gəldən sonra mənə cavaba bax! Bu sözləri ilə mübarizəni davam etdirəcəyini bildirmək istəyirdi. Həmin an Hüseynin göstərə biləcəyi yeganə əks-əməl evdən çıxıb getmək idi. Ayaqqabılarını geyinib getdi. Qapının çırpılmasını

eşidəndə, qəlbim qırıldı. Bu günə kimi Hüseynlə belə danışmamışdım. İlk reaksiya Məhla tərəfindən idi.

-Ana can, atamla niyə bu cür danışdın. Atam həzrət Zeynəbin zəvvarı idi. Heç nə yeməmişdi, yorğun idi.

Məhlanın söylədikləri vicdan əzabımı daha da artırdı. Qəzəb hissi ilə vicdan əzabı arasında çaşıb qalmışdım. Getdikcə bu iki əzablı hissə peşmançılıq da əlavə olundu.

Dostum əlimdən tutdu. Stulda əyləşdim. Məhla mənə bir stəkan su gətirdi. Su boğazımdan keçmirdi. Məhla məni sual dolu baxışlarla süzdü.

İndi atam hara gedəcək?

O əyin-başla anasının evinə getməyəcəyini yaxşı bilirdim. Anamgilə də getməyəcəkdi.

Hüseyni gözləmədik. Qayıtmayacağını bilirdim. Uşaqları yatmağa göndərdim. Dostum susur və heç nə demirdi. Söylədiyi yeganə cümlə bu oldu: “Heç vaxt hirsli vəziyyətdə bir iş görməyə, ya da bir söz deməyə çalışma.”

Yatağımda uzansam da səhərə qədər gözümə yuxu getmədi. Bəlkə də həmin gecə ömrümün ən çətin, ən pis gecəsi idi. Öz-özlüyümdə özümü qınayır və daim təkrar edirdim: “Kaş evə çatmağını gözləyib bir neçə saatdan sonra sözümü deyərdim. Öz təqsiri idi, elə danışmalı deyildi. Əgər həmin sözləri deməsəydi, mən də əsəbləşməzdim.”

Özümü qınamaqla keçən daxili dialoqum səhərə qədər davam etdi. Dostum səhər yeməyindən sonra getdi. Mən isə gözləyə-gözləyə qaldım.

Hüseynin telefonu sönmüşdü, sonra isə onun kiminləsə danışdığı və telefon xəttinin məşğul olduğunu başa düşdüm. Günortaya yaxın evin telefonu zəng çaldı. Tanımadığım bir nömrə idi. Zəng vuran xanım hal-əhval tutduqdan sonra özünü təqdim etdi.

-Mən şəhid Sədrzadənin həyat yoldaşıyam. Tehrandan sizə zəng vururam.

Hal-əhval tutdum. Təəccüblənmişdim. Nə baş verdiyini və bu telefon zənginin nə məqsədlə olunduğunu bilmirdim.

Yenə eyni sözləri eşitdim: "Həyat yoldaşınız soraqlaşaraq məni tapıb və xahiş edib ki, sizi onun getməyinə razı qalım.

Dərdim açıldı. Taleyi eynilə mənə bənzəyən, həyat yoldaşı Suriyaya getməyə can atan birisi ilə danışmağıma sevinirdim. Bu növ ayrılığa davam gətirə bilən qəhrəman qadın. Düzdür, o, məndən çox-çox qabaqda idi, bununla belə, mən yenə də özüm haqqında danışmaq istəyirdim; özümüz haqqında, son zamanlar Hüseynin getmək üçün etdiyi israrlarından, olmazın həddə çətinləşmiş həyatımızdan danışmaq istəyirdim.

Sözlərimi dinlədi. Sonda dedim: "Bilirsiniz nə var, söhbət ümumiyyətlə mənim razılığımdan getmir. Onu Suriyaya ezam etmirlər. Mən ilk günlərdən onun getmək istəyi ilə birtəhər razılaşmışdım, amma bu get-gəllər daim təkrar olunan bir kabusa döndü. Onun narahat olub kədərlənməsi, mənim də qəm-qüssə çəkməyimə bais olub. Doğrudan da artıq nə edəcəyimi bilmirəm. Ailə həyatımızın əsasları bir-birinə dəyib."

-Mən belə həyatı təcrübə etmiş bir şəxs kimi yalnız bunu deyə bilərəm ki, cənab Mehrabidən əlinizi üzün, onu azad buraxın.

-Necə yəni əlinizi üzün?

-Mənim həyat yoldaşım Mustafa da belə bir insan idi. Həyat yoldaşını rahat burax. Ondan ümidini üz, mən özüm də nə vaxtsa bu mərhələyə çatmışdım. Mustafanı da neçə dəfə evə qaytardılar, eynilə cənab Mehrabi kimi. Mən

Mustafadan əl çəkib, ondan əlimi üzməyənə qədər ezam oluna bilmədi. Siz də əlinizi ondan üzün, xanım Mehrabi. Ağa Mustafa və cənab Mehrabi kimi şəxslər başqa heç nə ilə ovuna bilmirlər. Bir qədər söhbətdən sonra dedim ki, Məşhədə gəlmək istədiyi vaxt buyurub evimizə gəlsin. Sonda xahiş etdim ki, onu axtarıb tapan adamların vasitəsilə Hüseynə xəbər göndərsin ki, evinə qayıtsın.

Telefon danışığından iki saat keçməmiş Hüseyn evə qayıtdı.

Şad və xürrəm halda onu qarşılamağa çıxdım. Hüseyn gülürdü.

-Dünən gecə harada idin?

-Hərəmdən başqa gedəsi yerim var?

Dünənki kimi dağınıq və səliqəsiz görkəmdə idi. Birbaşa hamama getdi.

-Sən çay dəmləyənə qədər mən bir duş qəbul edib qayıdıram.

Hüseynin qayıtması, dodaqlarından əskik olmayan təbəssümləri sanki canıma can qatdı. Çayı süfrəyə gətirənə qədər Hüseyn də gəlib çatır; həmişəki kimi enerjili, səliqəli və üzügülərdir. Yanında əyləşirəm.

-Bilmək istəyirsən başıma nə gəldi?

Mənə general Mürtəzəvi ilə hərəmdəki görüşündən danışır. Onu maraqla dinləyirəm, ya da ki, dinləməyə çalışıram. Sevinə-sevinə güldüyü zaman baxışımı üzünə düşən qırışlara dikirəm.

-Mərziyə, general məni yaxalamışdı. Məni evə qaytarmaları üçün İslam Keşikçiləri Korpusunun təhlükəsizlik xidmətinə təhvil vermək istəyirdi. Bir düşün, sanki, mənə qulaqburması verib evə qaytarmaq istəyirdi. Ona and verdim, yalvarıb dedim ki, bu işi görmə. Səni həzrət Zeynəbə and verirəm, bu işi görmə. Allahın mənə

rəhmi gəldi ki, bu söhbət zamanı hərəmdə idik. Əks halda, Allah bilir başıma nələr gələcəkdi. Sonda sözümü qəbul edib dedi: “Evinə qayıt. Gələn dəfə özüm səni ezam edəcəyəm.” Ona dedim ki, həzrət Zeynəbin qarşısında mənə söz ver. Əvvəl hərəmin günbəzinə, sonra mənə nəzər salaraq dedi: “Söz verirəm ki, sağ qalsam, səni də özümlə gətirəcəyəm.”

Hüseyn bunu deyib bir qurtum çay içdi. Onun üçün meyvə soydum, dilimləyib qarşısındakı boşqaba düzdüm. Sözünə davam edib deyir:

-Söyləsəm də inanmayacaqsan. Mərziyə, məni İslam Keşikçiləri Korpusunun təhlükəsizlik xidmətinə təhvil verdi. Onlara tapşırmışdı ki, mənimlə düşmən kimi rəftar etməsinlər, amma gözlərindən uzağa da qoymasınlar. Təyyarəyə minənə kimi məni nəzarətdə saxlasınlar. Məşhədə uçan təyyarə havaya qalxdıqdan sonra qayıdıb gələ bilərlər. Hara gedirdimsə ardımca gəlirdilər. Kirayə tutduğumuz evə getdim. Ardımca gəlib məni Dəməşqin hava limanına apardılar. Üç-dörd saatdan sonra Dəməşq-Məşhəd reysi ilə uçan təyyarə havaya qalxacaqdı. Məni evə qayıdan Fatimiyyun batalyonunun döyüşçüləri ilə birgə Məşhədə yola saldılar. Hüseyn hekayəsini şövq və zövqlə anladarkən, mənə yalnız mat-məəttəl qulaq asmaq qalırdı.

Sonda dedi: “Mindiyim təyyarə məni Dəməşqdən uzaqlaşdırdığı vaxt “İmam Hüseynin karvanından ayrı düşmək” ifadəsi gözümdə canlandı.

Hüseyn baş vermiş olaylarda həzrət Zeynəbin (s) xüsusi nəzəri olduğunu düşünürdü. Mən isə özümlə mübarizə aparırdım ki, şəhid Mustafanın həyat yoldaşının dediklərinə əməl edim.

Ondan əlimi üzmək istəyirdim.

# 45

-Yuxuda gördüm ki, həzrət Zeynəbin hərəmindəyəm. Bir səs eşitdim, haradan gəldiyini bilmirdim. Yalnız bunu eşitdim ki, hər hərəm müdafiəçisi şəhidinin bir Zeynəbi olmalıdır.

Hüseyn böyük qızımız dünyaya gəldiyi zaman onun adını Məhla deyil, Zeynəb qoymağı təklif etdiyini unutmuşdu. Ona dedim ki, yadındadır, sən qızımızın adının Zeynəb olmasını istədin, mən isə razı olmadım.

Məhla sevindi.

-Atam adımı Zeynəb qoymaq istəyirdi? Niyə razılaşmadın, ana can?

Hüseyn hər ikimizə nəzər salır. Mat-məəttəldir. Məhla yalvarıb deyir:

-Ana can, indi qəbul edərsən? Nə deyirsən, ana? Mən adımın Zeynəb olmasını çox istərdim, bu gündən məni Zeynəb deyə səsləyə bilərsiniz?

Fatimə ilə Məhəmmədməhyar o biri otaqda oynayırlar. Məhlanın saçını sığallayaraq deyirəm: “Əlbəttə ki, canım.”

-Yaşa! Min yaşa!

Adının Zeynəb olması üçün nədən bu qədər israr etməsini anlamıram. Bu, Məhlanın imam Hüseynə, həzrət

Zeynəbə ya da imam Hüseynin ailəsinə olan məhəbbətindənmidir, yoxsa, bunun başqa səbəbləri var? Öz-özümə deyirəm ki, niyə Zeynəb, niyə Rüqəyyə deyil, məhz Zeynəb? Axı Hüseyn imamın üç yaşlı şəhid balasına xüsusi məhəbbət bəsləyir. Yadıma düşdü ki, qızımın üç yaşı olanda, ərbəin yürüşünə qoşulmaq üçün evimizdən imam Rizanın hərəminə tərəf yola düşdüyümüz zaman, Hüseyn ayaqqabılarını çıxararaq, ayağıyalın qalmış və uzaqdan körpəyə tamaşa edərək imam Hüseynin üç yaşlı balası üçün göz yaşı tökmüşdü.

Məhlanın səsi uşaq otağını bürüdü. Fatimə, Məhəmmədməhyar, mən artıq Məhla deyiləm, bundan sonra məni Zeynəb deyə səsləyin, yaxşı? Heç kimin məni Zeynəbdən qeyri adla səsləməyə haqqı yoxdur, aydındır?

Hüseynin gördüyü bu yuxudan sonra Məhla Zeynəbə çevrildi; atanın yol yoldaşı və pənahgahına. Bu günlər Hüseyn bir yerdə qərar tuta bilmir. Daim mobil telefonu əlində, kimlərləsə danışıq halındadır. Əksər hallarda zəng vurduğu adamlarla küçədə danışmağa üstünlük verir. Bu telefon zənglərinin məni incitdiyini bilir. Hərçənd, hisslərimi büruzə vermədən, onu tədricən buraxmağa, ürəyimdən çıxarmağa çalışıram.

General Mürtəzəvi hər ehtimala qarşı, mobil telefonunun nömrəsini Hüseynə vermişdi. Hüseyn dəfələrlə ona zəng vursa da, hələ cavab ala bilməyib. Cavabsız qalmağı onun rahatlığını pozurdu. Onun halına yanıram. Kaş heç olmasa bir faiz onun halını dərk edə bilərdim! Rahatlıq tapmaq üçün adəti üzrə şəhidlərin dəfn mərasimində, Nüdbə və Kumeyl dualarında iştirak edirdi. Mən də onunla birgə gedirdim. Özümü tezliklə əzizini itirəcək birisi kimi hiss edirəm. Bunun nə zaman baş verəcəyindən xəbərim yoxdur, amma içimdəki səs deyir

ki, Hüseyn bu qədər ayaq döydüyü üçün, mütləq istəyinə çatacaq.

Növbəti cümə axşamı gəlib çatdı, yenə də şəhidləri ziyarət etməyə gəlmişik. Hüseyn camaatın içindədir. Gəlib gedən adamlara göz qoyuram. Hüseynə nəzər salıram, kiminləsə söhbət edir. Tərəf müqabilinin kim olduğunu bilmirəm. Qəfildən ürəyim əsdi. Hüseynin danışıqlarını yadıma saldım, onun sadaladığı əlamətlər gördüyüm insana aiddir. Hər ikisi bir qədər irəliləyir. Hüseyn qaça-qaça mənə yaxınlaşır. Sevincdən özünü itirmiş haldadır.

-Allahın işinə bir bax, bu, general Mürtəzəvinin özüdür. Dünya nə qədər kiçikdir. Gəl, mənimlə gəl.

Əlimdən tutub məni özü ilə aparmağa çalışır.

General deyir ki, sənin ailən, üç övladın var, çox güman ki, onlar sənin getməyinə razı deyillər. Gəl, özün onunla danış. Ona sizlərin də burada olduğunuzu və mənim getməyimlə razılaşdığınızı dedim. Özü səninlə söhbət edib bütün söylədiklərimi şəxsən, öz qulaqları ilə eşitmək istəyir.

Addımlarımı sürətləndirirəm. General dayanıb bizi gözləyir. Fikri qəbir daşları və şəhidlərin məzarındadır. İrəli çıxıram. Özüdür ki, var. Gözlərində eynilə Hüseynin dediyi kimi, qalın linzalı eynək var. Hüseynlə general Mürtəzəvinin həzrət Zeynəbin hərəmində görüşmələrinin təsadüfü olmadığını anlayıram. İrəli çıxıb generalın qarşısında dayanıram. Hüseyn məni təqdim edir:

-Buyurun, bu da mənim həyat yoldaşım. Özünüz ondan soruşun.

Hal-əhval tuturam. Başını aşağı salıb məndən soruşur ki, xanım Mehrabi, həyat yoldaşınızı Suriyaya ezam etməyimə razısınız?

Yubanmadan, mənbəyini belə duymadığım bir əminliklə möhkəm cavab verirəm: “Bəli, hacı ağa, razıyam.”

Bir qədər susur. Sanki, hələ də razı olmağıma əmin deyil. Kənarda gülümsəyərək gözləyən Hüseyni barmağı ilə göstərib yenidən dillənir: “Bu, gedib şəhid olacaq, ha!”

Generala nəzər salıram. O, bir qədər susandan sonra yenə də təkidlə söyləyir: “Sözlərimi burada yatan şəhidlərin hüzurunda deyirəm, bu adam Suriyaya getsə şəhid olacaq.”

Sakitcə dedim: “Nədir, olmaya paxıllığınız tutur?”

Verdiyim cavabdan duruxdu. Belə bir söz eşidəcəyini gözləmirdi. Mənə tərəf çevrilir, eynəkini düzəldərək baxışlarını üzümə dikir. Sükut etməsindən anlayıram ki, belə cavab eşidəcəyini ağlına belə gətirməzdi. Onun susduğunu görüb sözümə davam edirəm:

-Siz ona söz vermisiniz.

General heç nə demir, verə biləcəyi cavab yalnız budur:

-İnşallah, Allah istəyən olsun.

Hüseynlə general Mürtəzəvi məndən bir qədər uzaqlaşaraq söhbətlərini davam etdirirlər. Hüseyn şad-xürrəm qayıdır.

# 46

Bu günlər Hüseyn demək olar ki, evdə olmur. Evdə olduğu vaxtlar isə boynuna düşən vəzifələrin bir çoxunu yerinə yetirmir. Şkafın siyirtməsini açıram. Sığorta dəftərçələrinin istifadə möhləti bitib, onları yeniləmək lazımdır. Dəftərçələri uşaqların pasportları ilə birgə sellofan paketə yığıb Hüseynin qarşısına qoyuram. Sənədlərlə bağlı işləri adətən özü yoluna qoyardı. Həmişəki kimi dedim: "Dəftərçələrin etibar müddəti bitib."

Kitab oxuyur. Gözucu mənə və dəftərçələrə nəzər salır.

-Özün apar, etibar müddətini uzat.

-Özüm gedim? Niyə?

-Gələcəkdə özün bu işləri yerinə yetirməyi bacarmalısan.

Yerimdə donub qalaraq Hüseynə baxıram. Gördüyü bu işlərin qarşısında nə deyəcəyimi bilmirəm.

-Sən bu evin kişisisən, özün də işsizsən. Qısa müddətdə bunlara möhür vurdurub qayıda bilərsən. Mənim getməyim çox uzun sürəcək. Cavab vermək əvəzinə kağızın üzərində sığorta idarəsinin ünvanını, qəbuluna düşməli olduğum məmurun adını və otağının nömrəsini

yazıb deyir: “Sosial təminat idarəsinə filan məmurun qəbuluna get, özü sənin üçün dəftəçələrə möhür vuracaq.” Bu, o deməkdir ki, sözsüz-söhbətsiz özüm bu işin öhdəsindən gəlməliyəm. Ona deyirəm ki, heç olmasa məni maşınla çatdır.

-Yox, özün get.

Bu işi nədən gördüyünü anlayıram. İndidən onun yoxluğuna alışaraq evin həm kişisi, həm də qadını olmalı idim. Özümü o yerə qoymadım, geyimimi dəyişib evdən çıxdım. Zilhiccə ayı idi. Ərəfə gününü öncədən razılaşdığımıza əsasən, Behişti-Rzada keçirməyi qərara alırıq. Məzarlığa çatan kimi Hüseynlə birgə, palaz salıb əyləşmək üçün dinc bir yer axtarmağa başlayırıq; yayımlanan duanın eşidiləcəyi və bizim rahat ibadət edə biləcəyimiz bir yer. Ürəyimizə yatan bir məkan axtarışında idik ki, qəfildən Hüseynin gözü cənab Delbəryana sataşdı. Onu uzaqdan-uzağa tanıyırdım. Müqəddəs Müdafiə illərinin və cənub məntəqələrində baş verən hadisələrin rəvayətçisi idi. Ona yaxınlaşırıq. Hüseyn zarafatla soruşur: “Bu günə kimi necə sağ qala bilmisiniz? Sizin yerinizdə olsaydım, ürəyim çoxdan partlayardı. Gedəsən müharibəyə, bütün dostların şəhid ola, sən isə...”

Cənab Delbəriyan Hüseynin kürəyindən vurdu. Hüseynin sözünə zarafatla, ya ciddi yanaşdığını deyə bilmərəm, mənə gəldikdə isə, onun sözlərini ciddi qəbul etmişdim. Hal-əhval tutandan sonra məndən bir qədər aralandılar. Çox keçməmiş Hüseynin hönkürtü ilə ağladığını eşitdim. Nigaran qaldım. Tez onlara tərəf gedirəm.

-Nə baş verib?

Cənab Delbəryan bizdən bir qədər uzaqlaşdı. Başımı Hüseynin başına yaxınlaşdırıram.

-Hüseyn can, nə baş verib?

-Ətayi! Mürtəza Ətayi şəhid olub.

Yenə ağlamağa başlayır. Ağlaya-ağlaya sözünə davam edir:

-Özüm ona dedim ki, bu dəfə haqqını tələb et, Mürtəza, imamların kölgəsinə sığın.

Cənab Dilbəriyan bir az su gətirdi. Hüseyni səkinin kənarında oturtdum.

-Mürtəza bu dəfə gedəndə məni də özü ilə aparacaqdı.

Həmin gün uşaqlara birgə Ərəfə duasını oxuduq. Cənab Dilbəriyan bizimlə vidalaşıb getdi.

Evə çatan kimi Hüseyn bir neçə yerə zəng vurur. Mürtəzanın cənazəsinin vətənə nə vaxt qayıdacağını xəbər alır. Onun şəhadət xəbəri hər yerə yayılıb, şəkli bütün telekanallarda əks olunub.

Mürtəza Ətayinin cənazəsinin Məşhədə çatdırılması beş gün çəkdi. Hüseyn artıq onun atasının və ailəsinin görüşünə getmişdi. Mürtəzanın dəfn günündə Hüseyn yox idi. Ezam işlərini yoluna qoymaq üçün Tehrana getmişdi.

Tehrandan qayıdanda ondan heç nə soruşmadım. Zənnimcə, nə qədər az bilsən, bir o qədər sakit olarsan. Həmişəki kimi, cümə axşamı Behişti-Rzaya gedirik. Mürtəza Ətayinin məzarını da ziyarət edirik. Hüseyn onun qəbri üstündə həsrət göz yaşları tökür.

Məzarlıqda əyləşmişdik ki, cənab seyid Rza Əlizadəni gördük. Hüseynin dostu və Məşhədin tanınmış məddahlarından idi. Hal-əhval tutduqdan sonra Hüseyn ona istəyini bildirdi:

-Mənim üçün həzrət Rüqəyyənin rövzəsini oxu.

Həmin rövzənin onun yaralı qəlbinə məlhəm olduğunu bilirdim. Lakin cənab Əlizadə tələsirdi, getməli idi.

-İndi işim var. Qəbiristanlığın arxa tərəfinə baş çəkib on dəqiqəyə qayıdıram.

On beş dəqiqə gözləyəndən sonra Hüseyn ona zəng vurub dedi: “Hardasan ay qardaş, bayaqdan səni gözləyirəm, bəs niyə gəlmədin?”

Səsini telefonda aydın eşidirdim.

-Yaxşı, gəlirəm. Əgər həmin rövzəni sənin üçün oxusam, mənə nə verərsən?

-Mən şəhid olmaq üçün Suriyaya gedirəm. Səni şəfaət edəcəyimə söz verirəm.

Əlizadə gülüb dedi:

-Şəhid olacağını haradan bilirsən?

-Üzü qanlı halda şəhid olub ağamın yanına gedəcəyimə yəqinim var.

Əlizadə daha gülmədi. Bir qədər sükut etdi. Amma Hüseynin sözlərini hələ də ciddi qəbul etmədiyi məlum idi.

-Yaxşı, dur gəl yanıma, istədiyin rövzəni sənin üçün oxuyum.

Hüseyn telefonu söndürdü.

-Biz də səninlə gələ bilərik?

-Yox, tək olmaq istəyirəm.

Qəbiristanlığın arxası çox uzaqda deyildi. Hüseyn yola düşmək istəyəndə Əlizadə özünü bizə çatdırdı. Yerdə əyləşdilər. Əlizadə oxumağa başlayan kimi Hüseynin hönkürtü səsi göyə ucaldı. Sanki, bir qığılcıma bənd olan, partlayışa hazır barıt anbarı idi. Onun belə yanıqlı ağlaması məni də kövrəltdi. Rövzə tamam olan kimi Hüseyn cənab Əlizadəyə təşəkkür edib onunla vidalaşdı. Onun belə acı-acı ağlaması uşaqların halını pozur. Hüseynin ağlamaqdan qızarıb şişmiş gözlərinə baxıb deyirəm:

-Allah qəbul eləsin.

Evə qayıdan zaman şəhidin məzarı üstündə əyləşib göz yaşları tökən bir qadın gördük. Çox yanıqlı ağlayırdı. Məzara nəzər saldım. Qəbrin üstündə ucaboy və xoşsima bir cavanın şəkli vurulmuşdu. Ürəyim sıxıldı. Bu gün necə də göz yaşları ilə dolu bir gün idi. Hüseyn ondan bizim üçün duaçı olmasını istədi. Sonra dözməyib dedi: “Anacan dua et ki, mən də oğlunun getdiyi yerə gedim.” Hüseynin bu növdən olan dua istəklərinə artıq alışmışdım. Şəhid anası qəfildən bizə tərəf çevrildi, göz yaşlarını silə-silə soruşdu: “Hara? Döyüşmək istəyirsən?”

- Suriyaya getmək istəyirəm. Yetər ki, ləyaqətim çatsın və xanım Zeynəb (s) məni dəvət etsin.

Yaşlı qadın əlini oğlunun məzar daşına çəkib dedi:

-Bunu görürsən? Balam polis idi. Bilmirəm hansı zalım onu şəhid etdi. Özü də Sistan və Bəluçistan sərhədində. Bu sonluq nə mənim, nə də atasının ağlına belə gəlməzdi. Oğlum dünyadan gedəndən sonra bədbəxt olduq. Sən də get həyatını yaşa, bu axmaq fikirləri də başından çıxart. Oğlum şəhid olandan üç-dörd ay sonra gəlinimiz övladlarını başlı-başına buraxıb yenidən ailə qurdu.

Bunu deyib mənimlə uşaqları nəzərdən keçirir. Qadın yenə dilləndi: “Elə bilirsən həyat yoldaşın sənə vəfalı qalacaq? Övladlarına kim baxacaq.”

Səsinin ahəngi qəzəblə dolu idi. Sanki oğlunun ölümündə yeri-göyü günahkar bilirdi. Hüseynin üzü qızarmışdı. Narahat olduğu gün kimi aydın idi. Yaşlı qadının sözləri bitdi. Ona cavab vermədən keçib getdik. Hüseyn Məhəmmədməhyarı çiynində oturtdu. Yan-yana birlikdə maşına tərəf hərəkət edirdik.

-Arvad-uşaq ilahi bir imtahandır. Həmişə sənin və uşaqların gələcəyi üçün nigaran olmuşam, elə indi də

nigaranam. Bu gün Allah bu şəhid anasını qarşıma çıxarmaqla məni bir daha imtahana çəkmək istədi. Mərziyə, bu deyilən sözlər nə qədər ağır olub, məni narahat etsə də, Allahın halal buyurduğunun halal, haram buyurduğunun isə haram olduğunu inkar etmək olmaz. Hətta mənim zərərimə tamam olsa belə, hətta məni narahat etsə belə...

Boğazım qəhərlənmişdi. Öz dili ilə ölümündən sonra baş verə bilənləri mənim üçün açıqlayırdı; həyatda olmayacağı günlər üçün.

Üzünün ifadəsindən bu mövzunun açıqlanmasının onun üçün nə qədər çətin olduğunu, bu cümlələri dilinə gətirmək üçün özünə nə qədər əzab yaşatdığını anlayırdım. Deməyə sözüm yox idi. Ona rahatlıq bəxş etmək üçün deyəcək sözüm yox idi.

Ağzımı açıb bir söz deyəcəyim halda, göz yaşlarımın yanaqlarımdan süzüləcəyinə əmin idim.

# 47

Hüseyn evdə olduğu bu neçə gün ərzində uşaqlara qarşı çox mehriban idi. Onun uşaqlara göstərdiyi bu diqqət məni nigaran edir. Ona deyirəm ki, Hüseyn uşaqları həddən ziyadə nazladığını düşünmürsən? Sən bir neçə gündən sonra gedəcəksən, mən isə üç uşaqla baş-başa qalacağam. Özü də bu neçə gündə onlara öyrətmisən ki, hər nə desəniz odur.

-Mərziyə, mən bir neçə günlük məzuniyyət almışam ki, səninlə uşaqların nazı ilə oynayım. Hər nə istəsəniz, hara getmək istəsəniz sizinləyəm, birlikdə xoş vaxt keçirməyimizi istəyirəm.

-Heç bilirsən ki, Zeynəb sənin haqqında nə deyir?

-Yox, nə deyir?

-Təəccüblə deyir ki, atam neçə gündür çox mehriban olub.

-Ay səni canıyanmış! Məgər mən əvvəl mehriban deyildim?!

Onları bu qədər nəvaziş etmirdin. Uşağın təəccüblənməyə haqqı var.

Cümə günü idi. Axşamüstü evin mühiti çox darıxdırıcı olduğundan, evimizin üzbəüzündə yerləşən parka getməyi

qərara aldıq. Özümüzlə bir qədər meyvə və çay götürürəm. Parkdakı uşaq meydançasına tərəf yola düşürük. Fatimə ilə Zeynəb birlikdə yelləncəkdə oynayırlar. Uşaqların səs-küyü ətrafı bürüyüb. Fatimə yelləncəkdə gülür, Zeynəb arxada dayanıb onu yellədir. Məhəmmədməhyar isə təkdir, Hüseyn addım-addım arxasınca gəzir, onunla qaçdı-tutdu oynayır, oturur, durur, gülür, sürüşkənin pillələrindən qalxır.

Ailəmin üzvləri şad və xürrəmdirlər, mən isə onlara baxmaqdan zövq alıram.

Çayı dadıram, qənd ağzımda əriyir. Məndən aralıda bir neçə ailə əyləşib. Cümə günü olduğundan, park istirahət edənlərlə doludur. Get-gəl çoxdur. Baxışlarımla Məhəmmədməhyarı izləyirəm. Balaca, toppuş əl-ayağı ilə pillələrdən yuxarı qalxıb, digər uşaqlarla birgə növbəsini gözləyir, sürüşkəndən aşağı sürüşəndə isə ətrafa baxır.

Hüseyn bir qədər aralıda dayanıb. Məhəmmədməhyar ağlayır. Ətrafa boylanıram ki, nə baş verdiyini görə bilim. Hüseyn kənarda dayanaraq, göz yaşları içində boğulan Məhəmmədməhyara tamaşa edir. O, dayanmadan təkrar edir: "Ata, ata..."

Hüseynin nə üçün duruxub qaldığını anlamıram. Bir neçə dəqiqə keçir, ata ilə oğulun əks-əməlinin necə olacağını gözləyirəm. Məhəmmədməhyar irəli gedib səhvən başqa bir kişinin ayağından yapışır. Kişi üzünü çevirəndə o, tanımadığı birisinin üzünü görüb şiddətlə və daha ucadan ağlamağa başlayır. Hüseyn ona yaxınlaşır. Uşağı qucağına alıb mənə tərəf gəlir. Məhəmmədməhyarın üzü göz yaşından islanıb.

-Nə olub? Nə üçün əvvəl ona yaxınlaşmadın, bu qədər gec getdin uşağın yanına?

Hüseyn gülümsəyərək uşağın üzünü təmizləyir. Onun üçün çay süzürəm. Qızlar da gəlib çıxırlar. Qürub çağıdır, axşam namazını qılıb evə qayıtmaq üçün əşyalarımızı yığırıq. Namazımızı qılıb şam yeməyini yeyəndən sonra Hüseynin yanında əyləşirəm. Məhəmmədməhyarla oynayır. Uşağı çiynində oturdub, Məhəmmədməhyar isə Hüseynin saçlarından tutub.

-Onu yerə qoy, saçlarını yoldu.

-Saç nəyimə lazımdır? İmkan ver uşaq öz işilə məşğul olsun.

Məhəmmədməhyarı onun çiynindən götürürəm.

-Qoy atan bir az dincəlsin. Zeynəb, gəl qardaşını apar, onunla oyna.

Zeynəb gəlib Məhəmmədməhyarı öz otaqlarına aparır. Hüseyn tərləyib, alnı yaşdır. Gedib bir stəkan su gətirirəm. Dolu stəkanı ona uzadıb gözlərinin içinə baxa-baxa soruşuram: "Bu gün Məhəmmədməhyarı niyə ağlatdığını demədin."

Fikrə gedərək pərişan oldu.

Bəlkə də inanmazsan, amma Məhəmmədməhyarla oynadığım zaman, birgə vaxt keçirib əylənən, şad-xürrəm ata-balaları gördüm. Bir anlıq özümə gəlib düşündüm ki, müharibəyə ezam olunduğum bir halda, qismətimə şəhadət yazılsa və daha həyatda olmasam, uşaqlarım parka gəlib başqa ata-balaları görsələr nə hala qalarlar? Bir də ayıldım ki, Məhəmmədməhyar ata, deyə ağlayaraq, məni səsləyir.

Hüseynin gözləri yaşla dolur.

-Belə olan halda niyə gedirsən? Övladlarının sən olmayanda çətinlik çəkəcəklərini yaxşı bilirsən. Bunlar səni narahat etmir?

-Əvvəllər narahat olurdum. Məhəmmədməhyar tənha qalacaq, toyunda olmayacağam, hətta Fatiməyə elçi

gəldiyi zaman onun atasız olması, bütün bunlar bir vaxt məni narahat edirdi. Bilirsən, şeytan bu yolla adama çox rahat sirayət edə bilir. Balaca Məhəmmədməhyar, ya qızların vasitəsilə. Bu bəhanə ilə yoldan qalmağımı istəyir. Amma mən özümlə şərti şumda kəsmişəm. Övladlarım imam Hüseynin balalarından daha istəkli və daha əziz deyillər. Bu səbəbdən, belə şeylər daha mənim üçün mühüm deyil. Çünki, Allah vədə verib ki, mən olsam da, olmasam da, hamımızın bir böyüyü var, o da Onun özüdür. Mən olmayanda, Allah sizə əvəzini verəcək.

Hüseyn başını aşağı salır, qulaqlarına qədər qızarıb.

-Mən hətta sənin barəndə də düşünürəm, məndən sonra nə qədər tənha qalacağını fikirləşirəm. Övladlarımın başı üstündə atalığın ola bilmə ehtimalı barədə də düşünürəm.

Kövrəlirəm, gözlərimin yaşını silib bundan artıq danışmasına icazə vermirəm. Ona deyirəm: “Hüseyn daha danışma, xahiş edirəm daha heç nə demə.”

# 48

Şalvarının balağlarını qatlayıb, şappıltı ilə ayağıyalın suyun içində gedir. Ayağının altındakı mərmər daşları sürüşkəndir. Sürüşəcəyindən qorxub qışqırıram: “Ehtiyatlı ol, sürüşərsən, ayağın boşa çıxar.”

Hər şeyin öz yolunda olduğunu bildirmək üçün əlini qaldırır və su şlanqını növbəti güldanı sulamaq üçün dartdığı halda, bir az mənim üzərimə də su çiləməyə çalışır.

Uşaqlar bizimlə deyillər. Hüseynlə birgə şəhidlər xiyabanının otuzuncu hissəsinə gəlmişik. Hüseyn hər dəfə gələndə qəbir üstündəki gülləri sulayır, qəbir daşlarını yumağa adət edib. Bu dəfə qəbir üstündə olan bir şəhid anası ona öyrətdi ki, hər dəfə gedib su butulkasını doldurub boşaltmaqdansa, həmin iş üçün bağbanın şlanqından istifadə edə bilər.

Qara mərmər daşının üstündə əyləşirəm. Hüseyn gülləri sulayıb, qəbir daşlarını da yuyub, indi isə bağbanın şlanqını yığmaqla məşğuldur. Şalvarının qatlanmış balağları islanıb. Məni gülmək tutur:

-Yorulmayasan, ay qardaş!

-Min yaşa, ay bacı!

Şalvarının balağlarını aşağı salır. Üzü günə tərəf dayanıb ayaqlarını qurulamaq istəyir. Corablarını cibindən çıxarıb ayağıyalın halda ayaqqabılarını qoyduğu yerə gedir.

Oradan məni səsləyir: "Mərziyə, ayaqqabılarım hardadır?"

Gülüb deyirəm:

-Buyur, bu da şəhidlərin lütfündəndir, ayaqqabılarını kimsə oğurlayıb.

Bir qədər o tərəf-bu tərəfə boylanır.

-Sən yüz dəfə salavat çevirənə qədər, ayaqqabılarım tapılar.

-Sən necə istəyirsən elə də düşün. Ayaqqabılarını oğurlayıblar. Oğurlanan mal geri qayıtmır.

Corablarını əlində tutaraq günün altında dayanıb ki, şalvarının balağları da qurusun. Çox keçmədən, onun təmizlənmiş və kremlənmiş ayaqqabılarını görürəm.

Ucadan qışqırıram: "Hüseyn, bura gəl, ayaqqabıların buradadır."

-Gördün ki, şəhidlər ayaqqabılarımı qaytardılar.

Hüseyn corablarını və ayaqqabılarını geyinmək istədikdə dostlarından biri gəlib çıxdı. Hal-əhval tutandan sonra gülə-gülə deyir: "Yorulmayasan, qoluna qüvvət!"

Hüseynin ayaqqabılarını göstərib deyir: "Nədir, yoxsa ayaqqabılarını itirmişdin?"

Hüseynə nəzər salıram, deyəsən, bu işin içində bir iş var. Dostu sözünü davam etdirib deyir: "Gəlib gördüm ki, buraları yuyursan, gülləri sulayırsan, dedim mən də bir iş görüm. Ayaqqabılarını təmizləyib gətirdim."

Oradan şəhid Məhəmmədi Mofrədin məzarını ziyarət etməyə getdik. Çatanda, qəbir üstündə əyləşib Quran oxuyan bir xanıma rast gəldik. Şəhidin bacısı idi. Hüseyn

onu tanıyırdı. Hal-əhval tutduq. Əyləşərək əllərimizi məzarın soyuq daşının üzərinə qoyduq. Hüseyn yanıqlı bir səslə şəhidin bacısına müraciət edib dedi: “Qardaşınızdan xahiş edin ki, mənə kömək etsin. Dua edin ki, işim yoluna düşsün, mən də Suriyaya gedə bilim. Siz Allah, şəhadətim üçün dua edin.”

Heç nə demirəm, gözlərimi daşdan çəkmirəm.

-Baş üstə. Mən getməyiniz və şəhadətiniz üçün dua edərəm, amma söz verin ki, şəhid olsanız bizə də şəfaət edəsiniz.

Ayağa qalxıb dayanıram. Amma şəhid bacısı aramdır, sakitcə Quran oxuyur. Hüseyn cavab verir: “Əgər əlimdən gəlsə, canla-başla şəfaət edərəm.”

# 49

-Çantamı yığmısan?

-Özümlə bacarmıram.

Onun səfər çantasını yığmağa əlim gəlmirdi. Hələ keçən gecədən tapşırmışdı ki, çantasını hazırlayım. Bununla belə, hər dəfə onun çantasına gözüm sataşanda, halım pozulurdu. Mən otağa girəndə Hüseyn şkafda nə isə axtarırdı. Yanında olub ona kömək etmək istəyirdim. Nəyisə unudacağından nigaran idim.

Yığdığı geyimlərə özüm də bir-ikisini əlavə etdim. Hüseyn yüngül çanta ilə səfər etmək istəyirdi.

-Sənə dedim ki, təkərli çamadan al, belə daha rahatdır. Hər şeyi əlində daşımağa məcbur olmazdın. Çamadanı adam istədiyi hər tərəfə çəkib apara bilər.

-Çamadan nəyimə lazımdır, xanım? Əyləncəli səfərə getmirəm ki.. Belə səfərlərdə yükün nə qədər yüngül olsa, bir o qədər yaxşıdır.

Ürəyimdə fırtınalar qopsa da büruzə vermirdim. O, zarafat edirdi, mən də gülürdüm. Çalışırdım ki, özümü o yerə qoymayım.

-Bu gün ad günü axşamındır, sentyabrın iyirmi biri.

-Elədir ki var. Görəsən həzrət Zeynəb mənə nə hədiyyə etmək istəyir?

-Mən nə hayda, sən nə hayda!

Köynəklərindən birini üstünə atıb deyirəm: “Bunu da çantana qoy.”

Gülür.

-Baş üstə, komandir!

-Sənin üçün hədiyyə almışam. Nə olduğunu bilmək istəmirsən?

Mənə baxdı, sonra köynəyini büküb çantasına qoydu.

-İndiyə kimi on dörd dəfə sən mənə hədiyyə vermisən. Bu ilki ad günümün hədiyyəsini də qoy həzrət Zeynəb (s) versin.

Televizordan Qədir-Xum bayramı münasibəti ilə gözəl bir musiqi yayımlanırdı. Bu il Hüseynin ad günü ilə Qədir-Xum bayramı eyni günə təsadüf etmişdi. Hüseyn çox sevinirdi.

-Buradan gedən kimi, mücahid adımı seyid Hüseyn qoyacağam. Qədir-Xum bayramıdır, artıq peyğəmbərin ailəsinə məhrəm oldum.

-Sən hər şeyi bir-birinə qoşmağa alışmısan.

-Yaxşı, artıq getməyimə səmimi qəlbdən razısan, elə deyilmi?

-Bir şərtlə.

- Hansı şərtdir bu?

-Cihadın əcri sənə, şəhadətinin savabı isə mənə çatsın.

-Yaman zirək olmusan ha! Bu sənə artıqlıq edər.

-Daha özün bilərsən.

Cavabımı vermədi. Zənnimcə, sükut razılıq nişanəsi idi.

-Getməzdən öncə vidalaşmaq üçün, sonuncu dəfə imam Rizanı (ə) ziyarət etmək istəyirəm.

Dilxorluqla deyirəm: “İmam Rizanı bir daha ziyarət etməyəcəyini haradan bilirsən? Nə üçün bunun sonuncu ziyarət olduğunu düşünürsən?”

Hüseyn cavab vermədi. Çantasını yığıb kənara qoydu və həmişəkindən fərqli olaraq bu dəfə ziyarətə tək getdi.

Ziyarətdən qayıdanda fərqli əhval-ruhiyyədə idi.

-Allah qəbul eləsin.

Gülə-gülə deyir:

-Ömrümün ən şirin ziyarətinə getmişdim. Sanki, İmam Rizanın (ə) ağuşunda idim. Sonra xoşsöhbət bir kişi ilə tanış oldum; hərəmin xadimi idi. Birgə bütün hərəmi gəzib dolaşdıq.

Gecəni narahat yatmışdım. Hüseyn məni sübh namazına ayıldırdı:

-Mərziyə, Mərziyə can, qalx, namazın indicə qəza olacaq.

Hələ də başım ağrıyır. Keçən gecə dərman içib yatmışam. Hüseynin də gözləri qızarıb, yorğun nəzərə çarpır. Keçən gecə yatmadığını anladım. Canamazını yerə sərib. Məfatih əl-cinanı da canamazın kənarında açıq vəziyyətdədir. Masanın üstündə yeddi-səkkiz əzilib-büzülmüş kağız vərəqi, bir də qələm var. Dəstəmaz alıb namaza başlayıram. Salamları verdikdən sonra Hüseyn yanımda əyləşir.

-Mərziyə bunu etibarlı bir yerə qoy, mən getməzdən öncə oxuma. Vərəqi açmadan onun vəsiyyətnamə olduğunu anlayıram. General Mürtəzəvi ilə Behişti-Rzadakı görüşümüzdən iki həftə sonra, Kumeyli familiyalı bir şəxsin vasitəsi ilə Hüseynin Tehrana ezam olunması barədə qərar qəbul olundu. Razılaşdığımız kimi, hamımız Hüseynin döyüşə getməsinə hazırıq. Məndən fərqli olaraq, uşaqların sevinci aşıb-daşırdı. Hüseyn onlara demişdi ki,

həzrət Zeynəbə məktub yazın, mən də məktubları sizin üçün zərihə ataram.

Fatimə ilə Zeynəb də oturub məktub yazdılar. Hüseyn üç gündür ki, işə getmir. "Şərq almazı" binasının tikintisində bənnalıq edir. Böyrəyindəki ağrılara görə israr edirəm ki, bu işə getməsin. İşsizlik müavinətinin ödənildiyi bir halda bu pula ehtiyacımız yox idi. Onun üçün nigaranam, yanında əyləşirəm. Əlimdən tutur. Bənnalıq etdiyinə görə əlləri qabar bağlayıb. Gözləri hələ də yorğundur, istirahət etməyib. Bu müddət ərzində Hüseynin gecə ibadətlərinə alışmışdım.

-Get bir az yat. Sən axı nəyə görə istirahət etmirsən? Gözlərinə qan dolub.

-İstirahət edib yatmaq üçün hələ çox vaxt olacaq.

Geyinib çölə çıxır. Almalı olduğu bəzi şeylər var. Məndən soruşur ki, sənə bir şey lazımdır?

Bir qədər susub düşünürəm.

-Sağ ol. Hər şey var. Heç nəyə ehtiyacımız yoxdur.

Hüseyn işi olduğunu deyib getdi. Daha yata bilmirəm, mətbəxə keçərək biş-düş və təmizlik işləri ilə məşğul oluram. Hüseyn qayıdır. Əlində çoxlu sellofan paket var. Qutuları və aldığı əşyaları evə daşıyır. Uşaqlar üçün çoxlu rəngli esmartiz konfetləri, neçə qutu keks, peçenye və müxtəlif çərəzlər, ev üçün isə ət, toyuq və düyü almışdı. Dayanıb təəccüblə ona baxıram:

-Nə olub, aclıq və müharibə gözlənilir?

Gülərək aldığı şeyləri uşaqlarla birgə mətbəxə daşıyır. Uşaqlar ürəkdən sevinirlər. Bazarlığı özü yerbəyer etdi.

Gördüyü bu işin mənasını anlamırdım.

-Düşünürsən ki, evə bazarlıq etməklə fikrin bizim cəhətdən asudə olacaq? Yəni sənin yoxluğunda bizə lazım olacaq şeylər yalnız bunlardır?

Bu sözü deyəndə onun yanımızda olmasını nəzərdə tuturdum. Biz konfetlə peçenye istəmirdik, onun özünü istəyirdik. Əti soyuducuya yerləşdirərək gözucu mənə baxır.

-Bu, əlimdən gələn yeganə işdir, haqqını halal et.

Bazarlığı yerbəyer etdikdən sonra qaz piltəsini söndürdü.

-Nə edirsən, nahar hazırlayırdım.

-Bu gün xörək bişirmə, restorandan nahar alacağıq. Günortaya qədər evdən çıxmayıb uşaqlarla oynadı. Zeynəblə güləşdi, Fatimə ilə Məhəmmədməhyar isə bir neçə dəfə çiyninə çıxıb düşdülər. Oyundan sonra Hüseyn ciddiləşdi. Uşaqları ətrafına yığaraq getməsindən söz açdı. Onlara müəyyən tövsiyələr edəndən sonra məni qorumağı tapşırır. Uşaqlarla birgə oturub Hüseynin boy-buxununa tamaşa edirəm. O, hələ getməyə macal tapmamış, artıq onun üçün darıxıram. Üzünü mənə çevirib deyir:

-Cihad əlinə tüfəng alıb döyüşmək deyil, hər kəsin özünə məxsus cihadı var, vəzifələr müəyyən olunub. Uşaqlardan muğayat ol, uğrunda öləcəyim hədəfdən muğayat ol, bu mənim üçün çox mühümdür.

Bundan öncə də bəzi şəhid ailələri ilə tanış olmuş və bir çox sözlər eşitmişdim. Ürək ağrıdan məsələlər çox idi. Onların ürəyini dağlayan tənəli sözlər danışırdılar. Deyirdilər ki, onlara həddən artıq yüksək maaş verirlər, əlavə olaraq ev, maşın və bir çox sosial güzəştlər nəzərə alıblar.

-Sən olmayanda camaatın tikanlı sözlərinə necə dözüm?

-Mərziyə can, bu sözlər heç də yeni deyil. Peyğəmbərin vaxtında olub, bizim zamanımızda da var. Qoy sənin

ürəyin onunla təskinlik tapsın ki, Allah mücahid ailələrinin məsuliyyətini öz üzərinə götürüb.

Uşaqlar bir söz demədən qulaq asırdılar.

-Zeynəb, Fatimə bundan sonra evinizi Allahın özü idarə edəcək. Mən gedəndən sonra Allah sizdən muğayat olacaq. Bircə ehtiyatlı olun, çünki şeytan həmişə adamı vəsvəsə edir. Həmişə xatırlayın ki, bıçağın tiyəsinin üzərində gəzirsiniz. Hüseynin sözləri və tövsiyələri onun bir daha geri qayıtmayacağından xəbər verirdi. Uşaqlar fikrə dalaraq üzüntülü görünürdülər. Əlimlə işarə etdim ki, Hüseyn, daha bəsdir.

Baxışımı görüb uşaqlara işarə etdiyimin fərqinə varır.

-Yaxşı uşaqlar, deyin görüm, kim daha çox acıb? Mən ki, acından ölürəm. Nə alım sizin üçün?

Fatimə hamıdan cəld tərpənib deyir:

-Toyuq kababı al, ata can, mən toyuq kababını xoşlayıram.

Hüseyn yemək almağa gedir. Aldığı beş pors toyuq kababı ilə qayıdır. Uşaqlar süfrəni salaraq yemək yeməyə başlayırlar. Zeynəbin baxışlarından nigaran olduğu sezilir. Hüseyn Məhəmmədməhyarı dizinin üstündə oturdub yedirdir. Fatimə ilə Zeynəb iştahasız yeyirdilər. Sanki heç kimin boğazından yemək keçmirdi. Hüseyn də az yeyir. Son zamanlar çox az yeyirdi, hətta onun üçün işə qoyduğum yeməyi belə geri qaytarırdı.

Ona baxıb deyirəm: "Məgər toyuq kababını xoşlamırsan?"

-Xoşlayıram, dadlıdır...

Yorğun olduğuna baxmayaraq üzü gülür.

-Bu gün səhər açılandan sevincəksən.

-Dünən yaxşı yuxu görmüşəm.

Sual dolu baxışlarımı üzünə dikib yuxusunu danışacağını gözləyirəm.

-Yuxuda imam Rizanın (ə) hərəmində olduğumu gördüm. Əziz Rəhbərimiz yemək paylayırdı. Saysız-hesabsız insanlar sıraya düzülmüşdü. Növbə mənə çatanda ağa gülümsədi. Mən də gülümsədim. Ağa mənə bir qab yemək verdi, mən də kənarda əyləşib yeməyə başladım.

Maraqla üzümə baxır.

-Gör bir necə yaxşı yuxu görmüşəm. Böyük ehtimalla işim düzələcək.

Zeynəbin fikri bizdədir.

-Ata can, imam Riza (ə) hacətini verəcək.

-İnşallah, ata qurban, inşallah.

Mən yemək yeməyə başlayıram. Hüseyn isə bizə baxmaqdan həzz alır.

Süfrə yığılandan sonra, Hüseyn Məhəmmədməhyarın əl-üzünü yuyaraq yatırtmaq üçün ayaqlarının üstünə qoyur.

-İndi onun yatmaq vaxtı deyil. Özünü yorma, yatmayacaq.

-Yox, nə danışırsan, səhərdən bir xeyli onunla oynamışam. Yorğundur, yatacaq.

Məhəmmədməhyarı ayağında o qədər yellətdi ki, uşaq xumarlanıb yatdı. İşi bitən kimi geyinməyə getdi. Mən də tez qızlara hazır olmalarını tapşırdım. Vidalaşmaq üçün onunla birgə getmək istəyirdim.

-Siz hara?

Onun bu sualına nə cavab verəcəyimi bilmirdim.

-Uşaq yatıb, evdə qalın, bu qədər yolu niyə gedəsiniz ki, yorularsınız.

Məhəmmədməhyarı niyə yatırdığını indi anladım. Getməyimə təkid edib deyirəm:

-İcazə ver, səninlə gələk.

-İnan ki, mənə belə rahatdır. Siz mənimlə gəlsəniz, getməyim çətinləşəcək.

Çox yalvarsam da faydası olmadı. Sonda, gedə bilməyəcəyimizi qəbul edirəm. Qızlar siniyə Quran və bir kasa su qoyurlar. Hüseyn çantasını açıb içindən ilk səfərində aldığı bir dəst hərbi geyim formasını çıxarır. Bu geyimin alınma səbəbi, yalnız öz pulunu xərcləyərək beytül-mala əl vurmamaq istəyi idi. Hərbi geyimi mənə uzadır.

-Bunu Məhəmmədməhyar üçün saxla.

Geyimi alıb masanın üzərinə qoyuram. Fatimə sinini əlində tutub irəli çıxır. Birdən Zeynəb nəyisə xatırlayaraq qışqırır: “Atacan səbr et, getmə, indi gəlirəm.”

Hamımız Zeynəbi gözləyirik. O, əlində duzqabı içəri girib sinidəki su ilə dolu kasaya tərəf gedir.

-Ata can, suya duz səpmək istəyirəm ki, tez qayıdasan.

Hüseyn bu sözləri eşidən kimi tez duzqabıya tərəf qaçıb onu Zeynəbin əlindən alır.

-Bunu kənara qoy. Sizin bu işlərinizə görə hər dəfə qayıdırdım.

Hüseynin bu hərəkətinə, duz səpmə məsələsinə bu qədər ciddi yanaşmasına baxıb, özümü gülməkdən saxlaya bilmirəm.

-Uşaq bir sözdür də dedi, sən niyə bu qədər narahat olub təşvişə düşürsən?

İlan vuran ala çatıdan qorxan kimi, Hüseynin də gözü hər şeydən qorxmuşdu. Yenə də qayıdacağından nigaran idi. Hamımız qapının kandarına çıxdıq. Məhəmməd-məhyar qucağımda yatmışdı. Hüseyn getməmişdən öncə ayaq saxladı, sonra qayıdıb Məhəmmədməhyarın qulağına nəsə pıçıldadı. Nə dediyini anlamadım. Bu söhbət iki-üç

dəqiqə çəksə də, demək olar ki, səssiz idi, bu üzdən heç nə eşitmədim.

-Ona nə dedin?

-Kiçik bir ata nəsihəti idi.

Üç dəfə Quranın altından keçdi. Quran açdı, Yasin surəsi gəldi. Sevinərək gülümsədi və mənimlə qızlara tapşırdı ki, mənim üçün Yasin surəsini çox oxuyun.

Onun bu sözlərindən sonra ürəyim yerindən qopdu. “Yasini dünyadan gedənlər üçün oxuyurlar”, cümləsini dilimə gətirə bilmədim. Qızlar nigaran baxışlarla bizi izləyirdilər, xüsusilə də Fatimə; o, atasına çox bağlı idi. Qəfildən, özüm də gözləmədən dedim: “Getmə Hüseyn, qayıt, gəl evə.”

Əllərini göyə qaldırıb zarafatla deyir:

Yaxşı, təslim oluram, heç nə oxumayın.

Fatiməni, Zeynəbi, Məhəmmədməhyarı öpdü. Əlimdən tutanda qəhərləndim.

-Hər kim hər nə desə, qətiyyən fikir vermə. Mərziyə can, sən yalnız bu yolun özü və fəzilətləri haqqında düşün. Bu mübarizə ruhu Məhəmmədməhyarda da olmalıdır. Onu bu ruhda böyüt. Bu yolda qarşımı kəsmədiyin üçün çox şadam.

Əlimi buraxıb getdi. Zeynəb arxasınca su tökdü. Hüseyn piyada gedirdi, biz də onun necə uzaqlaşdığına tamaşa edirdik. Zeynəblə Fatimə onu neçə dəfə səslədilər:

-Ata, ata can!

Sanki eşitmirdi, eşitmək belə istəmirdi. Başını çevirmədən, onlara fikir vermədən irəliləyirdi. Küçənin başına çatanda maşına minib getdi. Biz bir daha onu görmədik.

Uşaqlarla birgə evə qayıtdım. Əlim hələ də onun nəvazişindən isti idi. Hələ də Hüseynin əlimi öz əlləri içində necə tutub saxladığını hiss edirdim.

Vəsiyyətnaməsini götürdüm və bir kənarda əyləşib oxumağa başladım:

"Şəhidlərin və sadiq bəndələrin Allahının adı ilə. Könlüm seçdiyim yoldan rahat, ürəyim isə tam arxayın olan bir şəraitdə, sizin hüzurunuzdan ayrılıram. Zeynəb və Fatimə, öz hicabınızla mənə kömək edin. Məhəmmədməhyar, səni tənha qalmış ağama, imam Zamana nəzir etmişəm, özünü onun qulluğuna çatdırmaq üçün hazırla. Məhəmmədməhyar üçün bir dəst hərbi forma və çəkmə almışam."

Ürəyim sürətlə döyünürdü, mənə qəribə bir hal üz vermişdi. Kəlmələri oxumadan, nəzərdən keçirirdim.

"Ana can, haqqını halal et. Şəhid olsam təşvişə düşməyin, şad olun. Mehriban imamın lütfü ilə onların sıralarına qəbul olunacağam."

Öz-özümə üç dəfə təkrarladım: "Qəbul olunacağam." Otaq başıma fırlanırdı.

Zeynəb içəri girəndə vəsiyyətnaməni bağlayıb Quranın arasına qoydum. Ürəyim heç nəyə, heç bir işə yatmırdı. Zeynəbə demək olar ki, yalvardım: "Ana qurban, get bacınla səssiz oyna, bir qədər istirahət etmək istəyirəm."

Amma nə yatdım, nə də istirahət edə bildim. Gözlərim yumulmurdu. Stress və nigarançılığın şiddətindən ürəyim bulanırdı. Ömrüm boyu belə bir hal yaşamamışdım.

Məhəmmədməhyar yuxudan ayılanda uşaqlara dedim ki, hazırlaşsınlar. Hüseyn tapşırmışdı ki, o, gedəndən sonra evdə qalmayaq. Qədir-Xum bayramı idi. Heyətə getdik, bəlkə bu izdihamın içində öz nigarançılığımızı və

həsrətimizi unuda biləK. Uşaqların halının heç də məndən yaxşı olmadığını bilirdim.

# 50

Sabahısı gün Hüseyn evə zəng vurdu. Tehrana çatmışdı, hansısa əsgər kazarmasında idi. Karantində olduğunu bildirir. Ondan soruşdum ki, sizi elə həmin oradan ezam edəcəklər?

-Hə, amma öncə bizə döyüşçü etiketi verəcəklər. Etiket verilən kimi sənə xəbər verəcəyəm ki, məndən nigaran qalmayasan.

Halımızı xəbər alır. Əlaqə kəsiləndən sonra əlim heç nəyə yatmır.

Bir neçə saatdan sonra mənə bir fotoşəkil göndərir. Boynunda döyüşçü etiketi vardı. Bu, intizarında olduğu etiket idi, artıq Suriyaya ezam oluna bilərdi. Mənə mesaj yazdı: "İmam Xomeyni hava limanına yola düşdük."

Çantamı açıb onun üçün nəzir ayırıram. Uşaqlar məktəbdən qayıdıblar. Məndən atalarını xəbər alırlar. Hüseynin gülərüz şəklini onlara göstərirəm.

Növbəti şəkili Suriyanın paytaxtından göndərdi. Ora çatdığı üçün həm sevinir, həm də narahat oluram. Halımın necə olduğunu anlaya bilmirəm. Daim təşviş içindəyəm. İşim hər an mobil telefonu açıb Hüseynin səhifəsinə baş çəkməkdir.

Bu dəfə mənə Dəməşq aeroportundakı şüşəli binada çəkdirdiyi şəklini göndərib. Hüseynin öncəki söhbətlərindən, bu məkanın döyüşçülər üçün son göndəriş məntəqəsi olduğunu bilirəm. Bu şüşəli binaya daxil olandan sonra döyüşçülər hərbi döyüş forması, silah-sursat alaraq qruplara bölünürlər. Bu dəfə işlərinin düzəldiyini və bütün seçim mərhələlərindən keçdiyini anlayıram.

Hüseynin getdiyi gündən bir həftə keçib, məhərrəm ayıdır. Lakin bizim üçün məhərrəm ayının Hüseyn getdiyi gündən başlandığını güman edirəm. Canım ağrıyır. Hüseyn gedəndən bir həftə sonra ayağım sındı. Əlim ağır olduğundan, pillələri çıxanda ayağım burxuldu və üzüaşağı yıxıldım. Qardaşımla xəstəxanaya getdik. Sınmış ayağıma dizimin yuxarısından barmaqlarımın ucuna qədər gips qoyuldu.

Çətin günlər yaşayırıq, hətta çörək almaq üçün belə çətinlik çəkirik. Ayağıma qara sellofan bağlayıb, çətinliklə olsa da, özümü birtəhər çörək dükanına çatdırıram. Hüseynə heç nə demirəm. Onu nigaran etmək istəmirəm. Digər tərəfdən də xanım Sədrzadənin səsi həmişə qulağımdadır: “Ondan əlini üz.”

Hamı israr edir ki, ayağımın sınmasını Hüseynə deyib, bu bəhanə ilə onu qayıtmağa vadar edim. Lakin mən əhd etmişəm ki, onu azad buraxım, öz istəyi ilə qayıdıb gəlsin. Hüseynlə əlaqə qura bilmişik. Bəzən zəng vurur, bəzən mesaj, ya da şəkil göndərir. Zeynəb bu günlərdə daim mobil telefonumu yoxlayır, atasının şəkillərinə baxıb mesajlarını oxuyur.

Göndərdiyi növbəti şəkildə hərbi geyimdə idi. Dağın başında dayanmışdı. Baxışlarından duyduqlarım məni nigaran edirdi. Baxışını uzağa dikmişdi, sanki artıq bizi görmürdü.

Ayağım sınandan sonra bütün qohum-əqrəba onun Suriyaya getdiyindən xəbərdar oldular. Bundan öncə, Hüseynin istədiyi kimi, heç kimə heç nə deməmişdim. Hüseynin anası bizə baş çəkməyə gələndə gileylənməyə başlayır: Ezam olunmamışdan bir neçə gün əvvəl məni görməyə gəlmişdi. Suriyaya getməsi barədə heç nə demədi. Yalnız bunu dedi ki, ana can, ayaqların niyə bu qədər şişib? Baxım görüm ayağına nə olub? Sonra yerindəcə ayağımdan öpüb "ana can, haqqını halal et" dedi.

Qayınanamın gözləri yaşarır. Hüseynin yoxluğunun, ondan əl çəkərək nigaran qalmağının onun üçün də çətin olduğunu bilirəm. Bəlkə ona məndən də çətindir. Adamların ürəyindən, ülvi bağlılıqlarından yalnız Allah xəbərdar ola bilər. Gipsli ayağımla özümü birtəhər qayınanama çatdırıb, əlini sıxaraq deyirəm:

-İnşallah tezliklə qayıdar, nigaran qalmayın.

Göz yaşlarını silib Məhəmmədməhyarı qucağına götürür, üzündən öpüb sözünə davam edir. Ona dedim: "Yəqin ki, Suriyaya getmək istəyirsən." Cavab verdi ki, ana can, nə danışırsan. Sonra da divardakı rəfə özünün son vaxtlar çəkdirdiyi şəklini qoyub getdi.

Hüseynin bacı-qardaşlarının da heç nədən xəbəri yox idi. Öz qardaşım da daxil olmaqla, bütün tanıyanlar Hüseyndən gileylənirdilər.

Bu ilin məhərrəm ayı həmişəkindən fərqlidir. Bir tərəfdən ayağımın gipsdə olması, digər tərəfdən isə Hüseynin yoxluğu daim evdə oturmağımıza bais olub. Uşaqlar durmadan şikayətlənirlər. Nəyin xiffətini çəkdiklərini yaxşı bilirəm, sadəcə olaraq, əsil sözü dillərinə gətirməyib, başqa şeyləri bəhanə edirlər. Evdə

olarkən könüllərini alıb, evin mühitini fərqli etməyə çalışıram.

Bəzən qohumlarımız bizə baş çəkməyə gəlir, amma gəlməsəydilər daha yaxşı olardı. Vurduqları tənələrdən, kinayəli sözlərindən ürəyim sıxılır. Bəziləri Hüseynin getməsində məni müqəssir bilib deyirlər ki, gərək onun getməsinə razılıq verməzdim. Heç kimin olub-keçənlərdən xəbəri yoxdur. Qəlbimin bir hissəsində Hüseyn, bir hissəsində övladlarım, bir hissəsində isə çəkdiyim xiffətlə birgə, tanış-bilişin yaralarımın üzərinə duz kimi səpdiyi kinayəli sözləri yer alıb.

Səfər ayı girəndə nigarançılığm artır. Hər gün nəzir çıxarıram. Səfər ayı ağır ay olduğu üçün çox nigaranam. Hər gün Məfatih əl-cinandan lazımı duanı tapıb oxuyuram. Qırx gün ərzində Səmat duasını oxumağı öhdəmə götürürəm. Öncəki vaxtlar bu duanı onun sakitliyi, indi isə salamatlığı üçün oxuyuram. Bir həftə əvvəl mesaj göndərmişdi ki, Həma məntəqəsində mühasirəyə düşmüşük. İki gün idi ki, su kanalında ilişib qalmışdılar.

Mesajları şifrəli idi. Yazırdı ki, uşaqlardan bir neçəsi “lalə” oldu, onları qucaqladım, əllərimi onların bədənlərinə sürtərək təbərrük etdim. Suyumuz yoxdur, təbərrük olmuş əllərimlə təyəmmüm edib namaz qıldım.

Hüseynin böyrəklərinə görə nigaranam. Su olmadığı bir halda necə davam gətirəcəyini bilmirdim. Keçən gecə mesaj göndərmişdi ki, mühasirədən çıxdıq. Bilmirəm düzünü deyir, ya məni razı salmaq üçün belə danışır.

Namazını oturaq halda qılmasından danışırdı. Bilmirəm oradakı böhranlı vəziyyət ucbatından idi, yoxsa böyrək ağrısından və ayaq üstə dura bilməməsindən. Əgər bu gecə mesaj göndərsə, hər şeyi ondan soruşmaq qərarına gəlirəm.

Axşam uşaqların sevdiyi yeməyi bişirirəm. Artıq ayağımın çolaq olmasına öyrəşmişəm. Əlimi divara söykəyib, yavaş-yavaş özümü qaz piltəsinə çatdırıram. Sonra stula söykənərək, yavaş-yavaş işlərimi görürəm. Bəzən Məhəmmədməhyar ağlayıb ayağımdan yapışır ki, oturub onunla oynayım. Gipsli ayağıma toxunmur. Tez-tez içini çəkərək uf olub deyir. Gipsin möhkəmliyindən bir növ çaşıb qalır.

Makaron hazırlayıram. Ətlə dolu soyuducuya nəzər salanda, getməzdən öncə bazarlıq edərək soyuducunu ərzaqla doldurduğu üçün Hüseynin canına dua edirəm. Məhəmmədməhyar ayağımdan yapışaraq, onu qucağıma götürməyim üçün göz yaşı tökür. Əyilərək min bir zəhmətlə onu qucağıma alıb, qazanın altını söndürürəm. Boşqaba bir az yemək çəkirəm. Uşaqlar məktəbdən gələnə kimi Məhəmmədməhyarı yedirtmək istəyirəm ki, məni incitməsin. Uşaq qucağımda, boşqab da əlimdə qonaq otağına keçirəm. Qəfildən səndələyirəm, boşqab əlimdən yerə düşür. Məhəmmədməhyar qorxub ağlamağa başlayır. Sınmış boşqaba, xalçanın üstünə dağılmış makaronlara və Məhəmmədməhyarın göz yaşlarına baxıb özüm də ağlamaq istəyirəm. Qapının zəngini eşitcək, qəhərimi boğuram. Gələn Zeynəbdir. Otağın bu vəziyyətdə olmasından narahatdır. Yerdə əyləşib Məhəmmədməhyarı qucaqlayıram. Zeynəb süpürgəni gətirib, otağı təmizləməyə çalışır.

Hər yeri səliqəyə salırıq. Uşaqlar nahar edirlər, mən isə Hüseynin zəng vurmasını, ya da mesaj göndərməsini gözləyirəm. Telefonu əl altında qoymuşam. Hüseynə mesaj göndərirəm.

-Halın yaxşıdır? Böyrəklərinin vəziyyəti necədir?

Başımı mütəkkəyə söykəyirəm. Telefondan səs gəlir. Hüseyn cavab ismarıcı göndərib: "Böyrümün ağrısı tutanda, həzrət Zəhraya təvəssül edirəm halım yaxşılaşır."

Böyrək ağrısından əziyyət çəkdiyini anlayıram. Ona mesaj göndərirəm, imkan olan kimi, ilk fürsətdə mənə zəng vur, səndən nigaranam.

Cavab verir: "Get Məhəmmədməhyarı öp və onun səsini mənə göndər."

Ürəyim qana dönür. Uşaqları nə qədər sevdiyini və bu ayrılığın onun üçün nə dərəcədə çətin keçdiyini yaxşı bilirəm. "Ürəyini necə ram edib davam gətirdiyindən xəbərim yoxdur. Dərin yuxuda olan Məhəmmədməhyarın yanına gedirəm. Üzündən öpürəm, göz yaşlarım qeyri-ixtiyari süzülməyə başlayır. Öz-özümə deyirəm: Ürəyin necə tab gətirir, Hüseyn."

# 51

Səfər ayının axırlarıdır. Keçən həftə xəstəxanaya gedib ayağımın gipsini açdım. Onu saxlamağa bundan artıq taqətim çatmadı. Uşaqlar da mənim sınıq ayağım ucbatından evdə əsir olmuşdular. Özüm israr edərək, vaxtından əvvəl ayağımın gipsini çıxarmalarını istədim. Əslində ayağım iki ay gipsdə qalmalı idi. Amma ay yarımdan sonra ayağımdan gipsi çıxararaq, bu oturaq həyata və ahəstə yeriməyə son qoyuram.

Uşaqları gəzməyə aparıram. Zeynəb durmadan ehtiyatlı olmağımı istəyir. Onlar üçün bir qədər alış-veriş edirəm. Ayağım gipsdə olmadığına görə, sanki buludların üzərində yeriyirmiş kimi bir hissim var. Çəkim yoxmuş kimi davranıram.

Sağlamlıq çox böyük nemətdir, qədrini yalnız onu itirəndə bilirsən. Ayağım sağaldığı üçün sevinirəm. Öz-özümə düşünürəm ki, görəsən Hüseyn qayıdanda ona bu barədə bir şey danışım, ya yox.

Hüseynin səfəri uzandıqca, uşaqların da sualları artır: "Atam nə vaxt qayıdacaq?"

Özü səfər ayının axırı qayıdacağını demişdi. Onlara bu xəbəri çatdırıram. O andan bəri, hər biri Hüseynin gəlişi

üçün xüsusi tədarük görməyə başlayır. Zeynəb bir yerdə qərar tuta bilmirdi. Fatimə isə çoxlu şəkil çəkərək kənara qoymuşdu ki, hamısını birdən göstərsin. Mənim ayağımın da şəklini çəkmişdi ki, atası gələndə ona göstərsin.

Zeynəb daxilən fikir çəkərək, hisslərini büruzə vermirdi. Fikrindən nələr keçdiyini bilmirdim. Fatimə çəkdiyi şəkillərdən əlavə, atası üçün çoxlu dadlı çərəz də gizlətmişdi. Hüseyn üçün gəz saxlamışdı. Şirniləri təsadüfən tapdım. Siyirtməni açanda, içərisinin gəzlə dolu olduğunu gördüm. Bundan əvvəl onun gəz xoşladığını bilərək, tez-tez alıb çantasına qoyar və heç nə soruşmazdım. İndi anladım ki, heç birini yeməyib, hamısını atası üçün saxlayıb. Zeynəb isə buzluğun içinə balaca qazança qoymuşdu. İçində məhərrəm ayında paylanan nəzirlərdən pay vardı. Hüseyn bu yeməkləri sevərdi.

Buzluğun qapısını açıq qoyuram: "Uşaqlar, bu nə işdir görürsünüz? Bu qazançanın buzu açılsa, içindəki yeməyin dadı daha əvvəlki kimi olmayacaq."

Zeynəb üzümə baxır. Onun uşaq ağlına və sadəliyinə gülməyim tutur.

-Eybi yoxdur, qoy qalsın, atan qayıdanda yeməyi buzlu-buzlu yeyəcək. Çünki, qızlarının onu nə qədər düşündüyündən xəbər tutacaq.

Axşam Hüseyn zəng vurur. Sabah ziyarət üçün həzrət Zeynəbin və həzrət Rüqəyyənin həreminə gedəcəyini xəbər verir. Ona deyirəm:

-Xoş halına Hüseyn, bizim üçün də dua et.

Beş dəfə həzrət Zeynəbin, üç dəfə də həzrət Rüqəyyənin ziyarətinə gedib. Cəmi səkkiz dəfə ziyarətdə olmuşdu.

-Bu ədədin içində sənin bilmədiyin bir rəmz var.

Bir qədər sükut edirəm, nəyi nəzərdə tutduğunu bilmirəm. Mərziyə can, mən burada hamının ziyarət naibiyəm. Özündən və uşaqlardan muğayat ol, bir sözün yoxdur ki?

-Kaş biz də ziyarətə gələ bilərdik, döyüşçülərin ailələrini ziyarətə apardıqlarını eşitmişəm.

-İnşallah şəhid ailəsi kimi gələrsiniz.

Bunu ciddi, ya zarafatla dediyini bilmirəm, amma bu sözündən heç xoşum gəlmədi. Mövzunu dəyişib deyirəm:

-Qayıdacağını demişdin, səni nə vaxta qədər gözləyək?

-İnşallah Səfər ayı bitən kimi gələcəyəm, cəmi on gün qalıb.

Əlaqə kəsilən kimi fikrə gedirəm. Qayıtmaq üçün günləri sayırdı. Bilirəm ki, səbirsizliklə bizə qovuşmaq istəyir. Özümü bu fikirlərə inandıraraq sevinirəm.

Mesaj göndərir ki, Hələbin nəzarət altında olan hissəsinə gedir və bir müddət bizimlə əlaqə saxlaya bilməyəcək. Mənə şeir göndərir:

*Gözlərim qəlbimdən axan qanlar üçün piyalə olsun,*
*Hər vaxt yaşarmasa, qoy axan qanımla dolsun.*
*Cümə axşamı sizdən pay dilənən dilənçi mənəm,*
*Məni Fuzeyl bilsəz, sanaram ki, nəzərinizdəyəm.*
*Duanın müstəcab olması üçün, gəzmək, ölümdən betər,*
*Əsəri olmayan bu nəfəs, artıq kəsilsin, bəsdir, yetər.*
*İçimdə yanan atəş üçün bir çarə qılmalı,*
*Sipəri orucdan deyil, sizlərdən almalı.*
*Əfv et nidasını göylərə ucaltsam da, nə fayda!*
*Ya Hüseyn deyərək, zikr edin, budur əzəli qayda*
*Qapını döysəm də, heyhat! Üzümə bir kimsə açmaz,*
*Rzaya xəbər verin, o, zəvvarını tənha buraxmaz.*

Axırda da mesaj göndərdi ki, axırıncı misraya xüsusi diqqət ayır.

Ona yazdım ki, daha bəsdir, qayıt.

Cavab verdi: “Bağışlanan hədiyyəni geri qaytarmazlar. Daha mənə uşaqların şəklini göndərmə, mən interneti söndürürəm, qalsın qayıdacağım vaxta.”

Əlaqə kəsilir.

# 52

Hönkürtü ilə ağlaması taqətimi kəsmişdi. Hansı yolla sakitləşdirməyə çalışsam da, alınmadı. Sonda onu qucaqlayıb dedim: "Nə üçün bu qədər nigaransan? Birincisi, hər yuxu çin çıxmır, ikincisi də kim sənə bu yuxunun təbirinin belə olduğunu deyib?"

Gördüyü yuxuya görə durmadan çırpınıb ağlayırdı. Yuxuda görmüşdü ki, hərəmin həyətinə bir şəhid gətiriblər. Sonra imam Rizanın günbəzindən nida gəlir ki, biz atanın hacətini verdik.

Onun ağlayaraq ah-nalə etməyi səbr kasamı daşırırdı. Dedim ki, Zeynəb, sən Allah sakit ol, daha bəsdir. Atanın hacətinin şəhadət olduğu haradan ağlına gəlib?

On gün olardı ki, Hüseyndən heç bir xəbər yox idi. O üzdən, özüm də kifayət qədər təşviş hissini yaşayırdım. Halım onsuz da yaxşı deyildi, Zeynəbin ah-nalə etməsi vəziyyətimi bir az da ağırlaşdırdı. Evdən çölə çıxmaq, habelə Zeynəbi ev mühitindən ayıraraq, narahatçılığını azaltmaq üçün uşaqları heyətə aparmağı qərara aldım. Ona dedim ki, ana qurban, qalx əynini dəyiş, evdən çıxaq. Məhəmmədməhyarı geyindirdim, maşınımız olmadığına görə, böyük qaynıma zəng vurub bizi heyətə aparmasını

xahiş etdim. Əmisi ilə əmisi arvadı evimizə çatanda Zeynəb hələ də ağlayırdı. Məsələni açıqladım. Bir qədər ürək-dirək verəndən sonra, Zeynəblə bacı-qardaşını əzizləyib onlara nəvaziş göstərdilər. Hamımız birgə maşına mindik. İmam Rizanın (ə) şəhadət gecəsi idi. Hər yerdə heyət və əza dəstələri vardı. Həmin gecə sübh namazına qədər heyətdə qaldıq. Namaz qılmaq üçün hərəmə getdik. Qəlbimi zərihin şəbəkəsinə düyünləyib Hüseyn üçün can sağlığı, özümlə uşaqlar üçünsə səbr dilədim ki, bu ayrılıq, bu həsrət mümkün qədər tez sona çatsın.

Namaz qılıb dua edəndən sonra qayınatamın evinə getdik. Onlar hər il adəti üzrə, imam Rizanın (ə) şəhadət günü xərc çəkərək, bir dolu qazan nəzir aşı asardılar.

Evə çatan kimi uşaqları, xüsusilə də Zeynəbi sakit bir otağa salıb yatırtdım. Dünən bütün gecəni yatmamış və yaşının az olmasına baxmayaraq, bəs qədər nigarançılıq çəkmişdi. Ona dedim ki, gir yerinə rahat yat, ana qurban, hamı gələndən sonra səni yuxudan ayıldaram.

Səhər yeməyindən sonra baldızlarım və digər qohumlarımız bir-bir gəlməyə başladılar. Böyük aş qazanında bişən yemək, hər il imam Rizanın (ə) adına nəzir deyilərdi. Hər il kimsə bu məclisdən hacət alardı. Kimsə ev sahibi, kimsə övlad sahibi olardı. Hər kəs öz hacəti və istəyinə əsasən bu nəzirin bişməsində şərik olardı. Hamımız gördüyümüz bu işə qəlbən iman bəsləyirdik. Ailə üzvlərindən hər biri məni görən kimi Hüseyni xəbər alırdı. İçimdə fırtınalar qopsa da heç nəyi büruzə vermirdim.

Bütün qohumlar qazanın kənarında yığılıb, bu il kimin növbəsinin çatması və kimin hacət alacağı haqda nəzər yürüdürdülər.

Hamı mənə baxdı. Dedim ki, Hüseyn burada yoxdur, mənim də Allaha şükürlər olsun həm evim, həm maşınım, həm də övladlarım var.

Hüseynin bacısı sözümü kəsdi: "Gəlin bacı, hacətlər yalnız bundan ibarət deyil. Bir də ki, Hüseynin ürəyindən nələr keçdiyini, hacətinin nə olduğunu heç kim bilmir. İmam Riza (ə) məsafəyə baxmır, haradan olursa olsun, qəlbi qırıq hər kəsə, hacətini verir." Onun bu sözü məni bir az da təşvişə saldı. Sanki hamı, istəmədən Hüseynin hacəti haqda danışmağı qərara almışdı. Deyilənləri qəbul etmək istəmirdim. Hüseynin şəhadət üçün göz yaşı tökərək, namaz üstə ağlayıb Allaha yalvarmasını xatırlamaq istəmirdim. Öz-özümə təkrar edirdim ki, bunların bir-biri ilə heç bir əlaqəsi yoxdur. Dodaqaltı pıçıldadım: "Hüseyn can, tez qayıt."

Evə qayıtdığımız andan Zeynəb bir tərəfdə oturaraq fikrə gedib. Axşam saat səkkizdir, ev səssizlik və kədər içindədir. O qədər narahatam ki, nə etdiyimi belə bilmirəm. Telefon zəng çaldı. Ürəyim yerindən qopdu. Çantama tərəf qaçdım. Zəng vuran qardaşım İbrahimdir. Telefona cavab verdim. Hal-əhval tutur:

-Hüseyndən nə xəbər var?

-On gündür ki, heç bir xəbərim yoxdur. Nə zəng vurub, nə də mesaj göndərib.

-Yaxşı, sabah gəlib sizə baş çəkərəm, hələlik xudafiz.

Telefon yenə zəng çalır. Hüseynin dostlarından biridir. Hüseynə zəng vurduğunu və ondan heç bir xəbər ala bilmədiyini deyir. Hüseynin sorağını məndən almaq istəyirdi.

Ona dedim ki, özümüz də Hüseyndən xəbərsizik.

-Anladım, əgər icazə versəniz, sabah gəlib sizə baş çəkərdim.

Bilmirəm nəyə görə bu sözləri eşidən kimi ürəyim əsdi, halım pisləşdi. Bağlantı kəsilən kimi əyləşib fikrə gedirəm. Çox keçməmiş evin telefonu zəng çaldı. Danışan şəhid Daneşməndin həyat yoldaşı idi. Uşaqların halını soruşdu. Həyat yoldaşı şəhidlər qəbiristanlığının 30-cu hissəsində dəfn olunub. Biz elə orada tanış olub bir-birimizə telefon nömrələrimizi vermişdik. Keçmiş həyat yoldaşı şəhid olmuş polis əməkdaşı idi. Nədənsə gözlənilmədən dedi: "Həyat yoldaşıma demişəm ki, bu gün evə gəlməsin, sizə gəlib uşaqlara baş çəksin, təsəlli versin."

-Niyə?

Dili topuq çalırdı. Nə cavab verəcəyini bilmirdi. Nəyi düzüb-qoşduğu yadımda deyil, yalnız bunu xatırlayıram ki, sonda telefonu söndürüb rahat yatmağımı istədi.

Onunla sağollaşan kimi, mobil telefonumu götürdüm. Özümü o qədər itirmişdim ki, telefonun rəmzini xatırlaya bilmirdim. Sakitləşmək üçün bir neçə dəfə dərindən nəfəs aldım. Beş dəfə salavat çevirib telefonu açdım. Gördüyüm ilk iş Abbasilərin saytını axtarmaq oldu. Bu, Suriyaya və orada şəhid olanlara məxsus bir mücahid saytı idi. Bu saytın postlarını həmişə izləyirdim. Saytda son dəqiqələrdə şəhid olmuş döyüşçünün şəklini qoymuşdular. İnternetə qoşuldum ki, şəkil açılsın. Oxuduğuma, gördüyümə inana bilmirdim.

Bu, Hüseynin şəhid Sədrzadənin məzarında çəkdirdiyi şəkil idi. Şəkilin altında yazılmışdı:

-Hüseyn Mehrabi şəhid Sədrzadədən öz hacətini aldı.

Qollarım yanıma düşdü. Zeynəb gəlib yanımda əyləşdi. Gözü şəklə sataşan kimi dedi:

-Ya Əbəlfəz!

Əlim əsirdi. Səhifəni çevirib, o biri şəklə baxdım. Bu, Hüseynin bir başqa şəkli idi. Üzü qan içindəydi. Həmin an barədə bundan artıq heç nə xatırlamıram. Zeynəb sonralar mənə danışmışdı ki, qışqırıb "ya Əbəlfəz" deyəndən sonra özümdən getmişəm.

Həmin andan başlayaraq, baş verənləri Zeynəblə Fatimə yoluna qoymuşdular. Aşağı mərtəbədəki qonşumuz mənim fəryadlarımı eşitcək evimizə gəlmiş və Zeynəblə bərabər mənim üçün şirin şərbət düzəltmişdilər. Fatimə də qardaşım İbrahimə zəng vurub baş verənləri danışmışdı.

İbrahim hər şeyi bilirmiş. Axşamkı zənginin səbəbi də məhz bu imiş. Sadəcə zəng vurub bizim xəbərdar olub-olmamağımızı bilmək istəyirmiş. Hamı bilirdi, yalnız mən xəbərsiz idim. Düşünürdülər ki, gecəni rahat yatsaq yaxşıdır, sabah hər şeyi bizə aram-aram danışarlar. İbrahim gəlib çatanda ev adamla dolmuşdu. Durmadan məni bu xəbərlərin yalan, ya şayiə olduğuna inandırmağa çalışırdı. Mən xəbərin düzgün olduğunu bilirdim. Zeynəb qarşımda oturub yalnız bir cümləni təkrar edir, atasının dediyi cümləni xatırlayırdı.

-Ana can, yadındadır ata hansı məqsədlə döyüşə getdi? Ana can, yadındadır ki, atam gedəndə bizdən nə istədi? Ana, atam şəhid olmaq üçün günləri sayırdı.

Sanki, Zeynəblə mən yerdəyişmə etmişdik. Həmin an Zeynəb mənim pənahgahım, anam-bacım idi. Qızım bacardıqca mənə təskinlik verməyə çalışırdı. Dəstəmaz alıb canamazını yerə sərdi.

İlahi, hər şey Sənin iradənlədir, qoy Sən istəyən olsun. Əgər Sən atamın şəhid olmasını istəyirsənsə, mən Sənin istəyinə razıyam!

Zeynəbin sözləri və duaları məni bir qədər sakitləşdirdi. Hüseynin sözlərini xatırlamağa başlayırdım; mənəvi

dəyərlər və müqavimət ruhu barəsində dediyi sözləri. Hazırkı vəziyyətdə deyilənləri unutmuşdum. Yavaş-yavaş özümü ələ almağa çalışırdım. Hüseynin getməsinin əleyhinə olan insanların qarşısında dəyanətli görünmək istəyirdim; onun istədiyi kimi.

Öz-özümə dedim: "Hüseyn son anlarında mənə övladlarını, evini, irs-mirasını, mal-dövlətini deyil, hansı dəyərlər uğrunda getdiyini xatırlamağı tapşırdı." Bundan sonra bu məsuliyyəti daşımaq mənim öhdəmə düşürdü.

Hüseynin sözlərini və istəklərini xatırlamağım məni ruhlandırırdı. Bu, Allah tərəfindən ürəyimə göndərilən təskinlik hissi idi.

Səhər açılandan ev adamla dolu idi. Çox adam vardı. Hamıdan əvvəl, Hüseynin şəhadət xəbərini çatdırmalı olan bir qrup məsul şəxs gəlmişdi. Ailələrə şəhadət xəbərini çatdıran xanım Mühaciri, bir neçə şəhid ailəsi ilə artıq bizim evdə idilər. Gələnlər içində şəhid Haririnin, şəhid Arifinin, şəhid İsmailinin və şəhid Əbuhamidin də ailələri vardı. General Mürtəzəvi də şəhadət xəbərini rəsmi surətdə elan etmək üçün özünü çatdırmışdı. Cənab Delbəriyanla cənab seyid Rza Əlizadə də gələnlər içində idilər. Hamı otaq boyu əyləşmişdi. Rəsmi söhbətlər bitdikdən sonra gələnlər bizə baş sağlığı verərək, cənab Əlizadənin sözlərini dinləməyə hazır oldular. O, söhbətə başlayıb dedi:

-Xanım Mehrabi, bura gəlməzdən öncə mənə dedilər ki, bu evin mühiti bəs qədər hüznlüdür, rövzə oxuma. Lakin sizin ailənizi tanıdığıma görə, mütləq rövzə oxuyacağımı bildirdim. İndi isə özünüz deyin, hansı rövzəni oxuyum?

Ona çox sağ ol deyib, dua etdim. Sonra cavab verdim: "Cənab Əlizadə, hansı rövzəni oxumanızı özünüz yaxşı bilirsiniz..."

Cənab Əlizadə oxumağa başladı. Həzrət Rüqəyyənin rövzəsini oxudu. Bir Allah bilir ki, bu rövzə mənə və uşaqlarıma nə qədər kömək etdi. Hüseynin hüzurunu hiss etdiyim anlardan biri həmin an idi. Rövzə bitdikdən sonra cənab Delbəriyan söhbətə başladı. Bir qədər Hüseynin tutduğu yoldan və ailəmizdə gördüyü müqavimət ruhundan söz açdı. Hüseynin böyük qardaşı da həmin məclisdə idi. O, bu sözləri eşidəndə üzünü məclisdə əyləşən xanımlara tutub Zeynəbi səslədi. Zeynəb tez qalxıb ayaq üstə dayandı. Qaynım soruşdu: “Əmi qurban, atanın şəhadətinə necə baxırsan?”

-Onu baldan da şirin bilirəm, əmi, baldan da şirin. Şəhadət hər bir mücahidin arzusudur.

Cənab Delbəriyan bu sözləri eşidən kimi ağlamağa başladı.

Bu günlərdə Zeynəbin varlığı bizim üçün bir nemətdir. Ürəyim onun vücudu ilə təskinlik tapır. Bəzi məqamlarda məni himayə edir, elə məqamlarda ki, özümü müdafiə etməyə söz tapa bilmirəm. Əza mərasimində eşitdim ki, dostlarımızdan biri Zeynəbdən soruşur: “Niyə atanın getməyinə icazə verdiniz? Sən atanın qarşısını almalı idin. Tutaq ki, anan atanın yanında özünü yaxşı göstərmək istəyirdi, sən ki, atanın qızı idin, qanınız eynidir, getməyinə razı olmalı deyildin.”

Zeynəbin cavabı sanki yanar ürəyimə səpilən bir içim sərin su idi:

-Sizin heç nədən xəbəriniz yoxdur. Mən qardaşımı da cihada göndərmək istəyirəm. Xəbəriniz yoxdur ki, bu atamın vəsiyyətidir? O, hətta qardaşım üçün hərbi geyim də alıb.

Zeynəbin cavabı bütün məclisi dolaşır. Bu dəqiq və düzgün cavaba əlavə etməyə sözüm yoxdur.

Hüseynin Məşhədə gəlib çatması və imamını ziyarət etməsi dörd-beş gün vaxt aparır. Bu müddət ərzində dostlar, tanışlar, qohumlar gəlib gedir və baş sağlığı verirdilər. Şəhidimin mübarək cənazəsinin vətənə gəlib çatdığını eşidəndə vücudumu qorxu bürüdü. Hüseynin şəhadəti ağır dərd idi, amma hansı görkəmdə olacağını belə bilmədiyim bir cənazə ilə rastlaşmaq mənim üçün əlavə bir dərd olmuşdu. Yaddaşımda onun həmin qanlı üzü həkk olunmuşdu. Görəsən uşaqları atalarını görməyə necə aparım? Gördükləri həmin sima ömürlük zehinlərində həkk olacaqdır. Xəbər çatdı ki, Hüseyni görmək üçün bizi Behişti-Rzaya aparmalıdırlar. Həmin an görə biləcəyim yeganə iş Hüseynin özünə sığınmaq idi. Öz-özümə deyirəm: "Hüseyn can, mən indi on üç yaşlı Zeynəbi, səkkiz yaşlı Fatiməni və iki yaşlı Məhəmmədməhyarı səni görməyə gətirirəm. Səni Allaha and verirəm, özün birtəhər hər şeyə nəzarət et, mənim əlimdən daha bir iş gəlmir."

"Meracüş-şühəda"[1]-nın məsul işçisinə bildirirəm ki, Hüseynlə görüşümüzün özəl şəraitdə keçməsini istəyirəm. Özümdən asılı olmayaraq, hər hansı gözlənilməz hərəkət etsəydim, bunun kamera vasitəsilə lentə alınmasını istəmirdim. Atalarını görən zaman uşaqların əks-əməlinin necə olacağından xəbərim yox idi. Dövlət məmuru ilk görüşümüzün tamamilə özəl bir şəraitdə keçirilməsini qəbul etdi. Orada yalnız mənimlə uşaqlar olacaqdı.

Biz çatanda Hüseynin qardaşlarının qapıda dayanıb gözlədiklərini gördüm. Qərara aldıq ki, öncə uşaqlarla mən içəri keçək. Böyük bir salona daxil olduq. Divarlar yaşıl parça ilə örtülmüşdü. Bayrağa bükülmüş tabut

---

[1] Şəhidlərin dəfni ilə məşğul olan xüsusi qurum.

salonun mərkəzində qoyulmuşdu. Əvvəl tabuta tərəf qaçdım, sonra ayağım boşa çıxdı. Ayağım yerdən qalxmırdı. Özümə hakim ola bilmirdim. Nə ağlayırdım, nə də ki qəhərdən boğulurdum. Yalnız mat-məəttəl baxa bilirdim. Zeynəb mənim yanımdan keçib tabuta yaxınlaşdı. Tabutun üstü açıq idi. Zeynəb əyilib Hüseynin üzündən öpdü. Sonra ayaqlarına tərəf gedib üzünü atasının ayaqlarına söykədi. Mən yalnız tamaşa edə bilirdim. Üzünü mənə çevirdi, sanki bundan öncə nəyin nigarançılığını çəkdiyimi bilib dedi:

-Anacan, atam elə əvvəllər olduğu kimidir, həzrət Əli Əkbər kimi tikə-tikə olmayıb.

Onun sözlərini, hərəkətlərini, səbrini və şəxsiyyətinin möhkəmliyini görcək, özüm-özümdən utandım. İrəli getdim. Hüseyn burada idi. Üzü təmiz və aram idi. Sanki, yuxuya getmişdi. Üzündə elə bil sükun vardı ki, bu on dörd ildə onu belə görməmişdim. Alnında "Ya Əbəlfəzl" yazılmış baş bağı vardı. Hüseynin üzündəki bu sükun hissindən mənim də vücudumu sakitlik bürüdü. Bundan öncəki bütün nigarançılıqlar, narahatlıqlar, dərdlər və qəmlər yoxa çıxdı. Hamımız onun ayağının altında əyləşib şəhidlərin ziyarətini oxuduq. Məhəmmədməhyar yerində çapalayıb deyirdi: "Atanı yuxudan ayıldaq." Şəhadətin nə olduğunu dərk edə bilməzdi. Onu əmilərinin yanına göndərdim ki, qızlar atalarını rahat ziyarət edə bilsinlər. Zeynəb başını Hüseynin sinəsinə qoydu, Fatimə qəfildən qışqırdı: "Məgər atanın sinəsinə güllə dəydiyini bilmirsən? Başını qaldır, atanın sinəsi ağrıyar!"

Güllənin Hüseynin ürəyinə dəydiyini bilirdi. Zeynəb başını qaldırdı. Dedi ki, anacan, gəl hədisi-Kəsanı oxuyaq. Başımızı tabutun yaşıl parçasının altına salıb hədisi oxuduq. Mən, Zeynəb və Fatimə Hüseynlə birgə hədisi-

Kəsanı oxuduq. Zamanın necə keçdiyini hiss etmirdim. Bu vaxt bir nəfər içəri girib dedi:

-Xanım Mehrabi, bir saatdır ki, camaat qapının önündə sizi gözləyir. Şəhidin ailəsi də öz əzizini görmək istəyir.

Onlara deyin ki, gəlsinlər.

Hamı içəri girdi. Bizim üçün bir saat sanki, on dəqiqə keçmişdi. Çox sakit idik, hər üçümüz salondan çıxdıq. Sanki Hüseyn "daha getsəniz yaxşıdır" deyə bizi bayıra çıxardı. Üçümüzün də vücudunun tutumu Hüseynlə görüşümüzdən və onun məhəbbətindən dolmuş halda, vidalaşıb çölə çıxdıq.

Hələ çox uzaqlaşmamışdıq ki, Fatimə ağlamağa başladı. Qardaşımın köməyi ilə onu maşına oturtdum. Həmin an " Meracüş-şühəda"-nın rəisi əlindəki qara sellofan paketlə bizə yaxınlaşdı.

-Biz bu paketi şəhidin həyat yoldaşına verməliyik.

Paketi açmadan maşına qoydum. Mənim xahişimlə hərəmi ziyarət edib evə qayıtdıq. Anamla qardaşım bizi evə qədər yola saldılar. Hamımız içəri girdik. Gördüyüm ilk iş qara sellofan paketi açmaq idi. İçində Hüseynin şəxsi əşyalarının olduğunu güman edirdim. Paketi açanda ilk gördüyüm şey Hüseynin qara köynəyi oldu. Köynəyi paketdən çıxarıram, yaşdır, ondan damla-damla qan axır. Əllərimə baxdım, qan içindədir. Allah bilir nə hala düşdüm.

Anamla İbrahim nalə, şivən səsimə qaçıb gəldilər. Hüseyn heyətə geyindiyi həmin qara köynəkdə şəhid olmuşdu. Anam paketi bağladı, Fatimə ilə Zeynəbin gözü önündə olmasına imkan vermədi. Qardaşım İbrahim sonralar deyirdi ki, Hüseynin cibindən cırılmış bir məktub tapmışdı. Bizim xəttimiz idi, ona məktub yazmışdıq. Bundan əlavə, köynəyin cibində təsbeh və asma spreyi də

vardı. Hüseynin tənəffüsündəki problemlər o qədər də şiddətli deyildi, bu spreydən yalnız bəzi hallarda istifadə edərdi. Zənnimcə, Suriyanın əlverişsiz iqlim şəraiti Hüseyn üçün ağır olduğundan spreyi daim özü ilə gəzdirməyə məcbur olmuşdu.

Anam onun qanlı köynəyini yuyandan sonra güllənin parçada açdığı dəlik aydın göründü. Onu Məhəmmədməhyar üçün yadigar saxlamaq istəyirdim, mənim üçün əziz idi.

Hüseynin cənazəsi çatmamışdan öncə, Gülbaharın imam cüməsi baş sağlığı vermək üçün evimizə gəlmiş və məndən bir xahiş edib demişdi:

-Şəhid Mehrabini Gülbaharın şəhidlər xiyabanında dəfn olunmasına icazə verin.

Hüseynin vəsiyyətindən və etdiyi sifarişlərdən xəbərim vardı. Dəfn olunacağı məkanı özü təyin etmişdi. Özümə icazə verə bilməzdim ki, vəsiyyətinin xilafına əməl edim. Otağa keçib Hüseynin şəhadət köynəyini götürdüm. Onu çəfiyənin içinə büküb imam cümənin qarşısına qoydum.

-Bu, şəhid Mehrabinin şəhadət anında əynində olan köynəkdir. Bu geyim mənim üçün çox əziz olsa da, onu sizə hədiyyə edirəm ki, şəhiddən bir yadigar kimi şəhidlər xiyabanında saxlayasınız.

Şəhidin dəfn olunacağı yer öncədən müəyyən olunub, mən də onun vəsiyyətinə uyğun əməl edəcəyəm.

Köynəyi şüşəli çərçivəyə salıb, Gülbaharın cümə məscidində Hüseyndən bir yadigar kimi divara asdılar.

# 53

Baldızım məni səsləyib deyir:

-Qapının ağzında bir kişi dayanıb, səninlə işi var.

Çadranı başıma atıb qapıya çıxıram. Qədir gecəsini səhərə qədər şəhidlər xiyabanında bizimlə keçirən həmin ruhani idi. Onun telefon nömrəsini mənə Hüseyn vermişdi. Bəzən istixarə üçün ona zəng vururdum. Sözləri və təbirləri dəqiq olduğundan, Hüseyndən icazə alaraq, onun telefon nömrəsini baldızıma da vermişdim. Əlbəttə, öncədən ona tapşırmışdım ki, söhbəti uzatmasın, çünki, həmin ruhani naməhrəmlə yalnız zərurət həddində danışır, söhbət uzananda, bağlantını kəsir. Baldızımdan xahiş etmişdim ki, ona zəng vurub hadisəni xəbər versin. İstəyirdim ki, o, Hüseyni dəfn etsin və namazını qılsın. Bu da Hüseynin eynilə yerinə yetirilməsini istədiyi arzularından biri idi.

Mənimlə çox qısa hal-əhval tutub dedi: "Şəhadət xəbərini eşidəndə Qumda idim. İlk reyslə Məşhədə gəlmişəm. İndi də hava limanından gəlirəm. Sabah şəhidin namazını qılıb dəfn mərasimini özüm keçirəcəyəm." Ona təşəkkür edib içəri dəvət etdim. Qəbul etmədi. Hərəmə

gedərək səhər dəfn mərasimi üçün məhdiyyəyə gələcəyini dedi.

Sabahısı gün əzəmətli insan seli məhdiyyədən hərəmə tərəf yola düşdü. Həmin cəmiyyətin içində özümü dənizdə su damlası kimi hiss edirdim.

Hüseyn imamını təvaf etməyə, vida ziyarətini yerinə yetirməyə gedirdi.

Rövzənin ah-naləsi, sinə vuranların, məddahlıq edənlərin səsi, üzərliyin tüstüsü, hamısı birgə havada yayılır. Hüseynlə ayaqlaşaraq hərəkət etmək istəyirdim, lakin canımdakı bu yorğunluğun səbəbini anlaya bilmirdim. Ayaqlarım məni saxlamırdı. Addımlarımı sürətləndirsəm də faydası olmadı.

Bir-birinə sıxlaşmış insan seli imam Riza (ə) xiyabanını qət edərək hərəmə tərəf yola düşdü. Lakin mən bu seldəki axırıncı adam idim. Hüseyn orada, hamıdan irəlidə gedirdi. Ağlayıb-sızlayıb dedim: “Hüseyn can dayan, səbr elə, ayaqlarım daha məni saxlamır, gözlə, mən də çatım.”

Məhəmmədməhyarı qardaşıma tapşırmışdım. Fatimə anamla idi. Zeynəb izdihamın içində məni axtarırdı. Gəlib çatanda ona dedim: “Ana qurban, sən irəli keç, mən izdihamla ayaqlaşa bilmirəm, ayaqlarımda güc qalmayıb.”

-Səninlə olmaq istəyirəm, ana. Sənin yanında atamın bizimlə olmasını daha yaxından hiss edirəm.

İmam Rizanın (ə) məqbərəsinin giriş qapısına çatırıq. Hüseynin tabutunu aparanlar ayaq saxladılar. Camaat hərəmə daxil oldu. Biz də özümüzü çatdıraraq, hamı ilə birlikdə ziyarət üçün məqbərəyə daxil olduq. Ziyarətgahın həyətindəyik. Hüseyni, İmam Rizanın (ə) qəbrinin ayaq tərəfinə kimi çatdırıb, təvaf etdirdilər. Ziyarət bitəndən sonra hamımız Behişti-Rzaya tərəf yola düşürük. Hüseyni

torpağa tapşıracağımıza inana bilmirdim. İnanmırdım, əslində qara torpağa yatan mən idim, tənha və gözüyaşlı.

Dostum, həyat yoldaşım, yol yoldaşım və sevgilim bu gündən soyuq torpaqda əbədi yatmalı, mən isə tənha qalmalı idim. Dodaqaltı dedim: “Məni yarı yolda tək qoymalı deyildin.”

Hüseyni gətirirlər. Dəfndə olduqca çox adam iştirak edir, hamı da gözü yaşlıdır. Heç kim şəhidin ailəsini tanımır. Bilmirəm bu nə təqdir idi, necə oldu ki, Hüseyn öz Allahından belə bir aqibət istədi. Sən demə daim bu cümləni təkrar etməsi boş-boşuna deyildi: “Ürəyim sıxılır, gedim ölülərin qəbiristanlığına.”

Hüseyn yaşayırdı. O, hətta göz yaşları axıdan bizlərdən belə canlı idi. Yəqin ki, indi mövlasının yanında axtardığı sakitliyi taparaq, aram olmuşdu.

Hüseyn əbədiyyətə qovuşdu. Ürəyim sıxıldı. Dodaqaltı zümzümə etdim: “Hara gedirsən? Niyə məni özünlə aparmırsan?”

Bu anlardan yadımda qalan yalnız Mahmud Kəriminin oxuduğu İmam Hüseynlə (ə) xanım Zeynəbin vidalaşma rövzəsidir. Yenə də pıçıldayıram: “Axı hara gedirsən? Hara?”

Zeynəb mənim pıçıltılarımı eşidərək dedi: “Ata can, niyə məni də özünlə aparmırsan?” Öncədən danışılmadan, sanki qəlblərin qərarı imiş, hamı bir ağızdan bu rövzəni zümzümə edir: “Hara getmək istəyirsən? Məni niyə aparmırsan? Əmi can, bu son anda məni niyə aparmırsan? Məni niyə aparmırsan?” İnana bilmirəm ki, zaman bitdi, bu səfərin bütün ağırlığı mənim çiynimdədir, Hüseyn, bu son anda necə də imama bənzəyirsən...

Seyid Rza Əlizadə də buradadır. O, da rövzə oxuyacaq. Camaatın bir ağızdan zümzümə etdiyi sözləri eşitcək, elə

həmin rövzəni oxumağa başladı. Rövzə oxunduqca, vida göz yaşları sel-su kimi axırdı.

Həmin anda o rövzənin məni nə qədər sakitləşdirdiyini bir Allah bilir. Əgər həmin rövzəni oxumasaydılar, çətin ki, baş verənlərə taqət gətirə bilərdim. Öz-özümə deyirəm: “Mənim dərdim, Əhli-beytin (ə) dərdinin müqabilində heç nə deyil.”

Əhləd daşlarını düzürlər. Munisim elə oradaca, soyuq torpağın üzərində uzanıb. Mənim həyat yoldaşım uzun illər yolunda çarpışdığı arzusuna çatdı. Öz-özümə pıçıldayıram: “Bəxtəvər başına, Hüseyn can.”

# 54

Uşaqlarla birgə evdəyik. Artıq get-gəllər azalmış və evdəki qarışıqlıq sona çatmışdır. Var gücümlə çalışıram ki, Hüseynin yoxluğunda da həyatın öz yolu ilə gedəcəyini qəbul edim.

Hüseynin bütün şəxsi əşyalarını, geyimini, bir sözlə hər şeyi təmiz və səliqəli halda yerbəyer etmişəm. Məhəmmədməhyar atasızlığını dərk etmir. Özü üçün oynayır, bəzən nəyisə bəhanə edib narahat olanda, Hüseynin şəklinə baxaraq, ata, ata deyə səsləyir...

Daha bir ay bundan öncəki kimi cavab verə bilmirəm ki, bu, atanın şəklidir, ata gələndə Məhəmmədməhyarımı parka aparacaq.

Bu dəfə gözlərim yaşarır, onu qucağıma alıb otağına aparıram. Maraqlı bir şey axtarıram ki, başını qatıb istəyindən yayındırım.

Zəngin səsi eşidiləndə Fatimə ilə Məhəmmədməhyarın diqqəti qapıya yönəldi. İkisi də bir ağızdan qışqırırlar: "Atadır!"

Fatimə dəfn mərasimində iştirak edib atasının cənazəsini yaxından görsə də, yenə də günlərlə onun qayıdacağını gözləyir. Hər dəfə atasının məzarını ziyarət

etmək istəyəndə, necə olursa olsun, onu Behişti-Rzaya aparmağa məcbur oluram. Maşınımız yoxdur. Bu gündəlik get-gəllər, ev işləri və xəbərsiz gələn qonaqlara qulluq etmək məni əməlli-başlı yorub. Fatimənin bu vəziyyətlə nə vaxt barışacağını gözləyirəm.

Çadranı başıma atıb qapıya çıxıram. "Meracüş-Şühəda" tərəfindən bir bağlama gətiriblər. Özümü təqdim edib blankı imzalayıram, sonra təşəkkür edib evə qayıdıram.

Uşaqlar başıma yığılıb soruşurlar:

-Gələn kim idi, ana?

Onlara cavab vermədən bağlamanı açdım.

İçindəki Hüseynin şəxsi əşyaları olan yol çantası idi. Pasportu, şəxsiyyət vəsiqəsi, mobil telefonu və onunla birgə yığdığımız geyimlərin hamısı bu çantada idi. Geyimlərdən hələ də Hüseynin iyi gəlirdi. Çəkmələri də buradadır. Qızların hər biri atasının geyimlərindən birini götürdü. Bundan sonra axşamlar atalarının geyimini qucaqlayıb yatırlar, bəzən hətta bu geyimlərə görə sözləri çəp gəlir.

Hüseynin mobil telefonunu götürüb açıram. Telefonun şifrəsi anadan olduğu tarix idi. Təhlükəsizliyə görə, telefondakı məlumatın bir hissəsinin silindiyi nəzərə çarpır. Mesajlar bölməsinə daxil oluram. Bütün yazışmamız buradadır. Dost-tanışların çoxu onun şəhadət xəbərinin doğru olub-olmadığını yoxlamaq üçün ona zəng etmiş və mesaj göndərmişdilər.

Telefonun internetinə qoşuluram. Səhifədə bir yığın şəkil və mesaj açılır. Əbu Zəhra adlı birisi mesaj göndərir:

-Hüseyn, özünsən? Sağ olduğunu bilirdim. Mən şəhid olmağına inanmırdım.

Ona cavab yazdım: "Mən şəhid Mehrabinin həyat yoldaşıyam. O, şəhid olub."

Onun Hüseynin Suriyadakı döyüş yoldaşı olduğunu anladım. Mənə Hüseyn barədə maraqlı xatirələr yazıb göndərdi; ayaqqabılara krem vurmasından, öz meyvəsini başqaları ilə bölüşməsindən, namazı və Aşura ziyarətini yanıqlı səslə oxumasından və hamıya cihad üçün niyyətini xalis etməyi tapşırmasından yazdı. Malik adlı bir nəfər də mənimlə uşaqlar üçün Hüseyn barəsindəki xatirələrini göndərdi. O, da Hüseynin döyüş yoldaşı idi. Yazırdı ki, Hüseynlə mən ərzaq mallarını təhvil alıb gətirmək üçün Həmadan Dəməşqə getmək tapşırığını almışdıq. Dəməşqin ətrafında Zeynəbiyyə adlanan bir məntəqə var. Ora getdik. Suriya xalqının müxtəlif millətlərdən və dini təriqətlərdən ibarət olduğunu nəzərə alsaq, orada hər dində və hər növ geyimdə olan insanlara rast gəlmək olar; xristianlara, yezidi kürdlərə və s. Çatdıqdan sonra, Hüseyn aşağı düşmədi, maşında qalacağını dedi. Bəzi qadınlar hicablı olmadıqlarına görə cəmiyyət arasına çıxmaq istəmədiyini bilirdim. Qayıdandan sonra gördüm ki, qabaq oturacaqda heç kim yoxdur. Maşına minmədən, oradaca Hüseyni gözləməyə başladım. Bəlkə bir saatdan çox ayaq üstə qaldım. Yavaş-yavaş qaş qaralırdı. Tək qayıtmağı qərara aldım. Qapını açanda Hüseynin ayaqlarını yığaraq oturacaqda uzandığını gördüm. Məni görən kimi dedi: "Axır ki, gəlib çıxdın?" Sonra ayağa qalxıb oturacaqda əyləşdi. Ondan soruşdum ki, bu nə işdir, görürsən? Mən xeyli vaxtdır ki, çöldə səni gözləyirəm. Cavab verdi ki, şəhid məqamından uzaqlaşacağımdan qorxurdum. Mən həzrət Rüqəyyəyə söz vermişəm ki, bir daha gözüm naməhrəmə sataşmayacaq.

Bu xatirələri oxuduqca təskinlik tapıram. Hüseyn nə istədiyini bilirdi. Dostlarının və döyüş yoldaşlarının bəzən Hüseyn haqqında xatirə danışmalarına sevinirəm. Bu

xatirələri diqqətlə dinləyərək, Məhəmmədməhyar üçün yadda saxlayıram. Unutmalı deyiləm ki, bütün bunları ona danışmalıyam.

Bir gün Hüseynin iki döyüş yoldaşı evimizə qonaq gəldi. Qonaqların gəlişindən öncə anama və bir neçə yaxın dostumuza xəbər göndərmişdim. Gəlməyə imkanı olan hər kəsin bu görüşdən faydalanmasını istəyirdim. Gələnlərin Hüseyn haqqında xatirə danışacaqları, ya əhvalat nəql edəcəkləri, ya xasiyyətindəki kiçik xüsusiyyətləri xatırladacaqlarını belə bilmirəm.

Nəticədə, çox səmimi bir məclis alındı. Zeynəb qonaqlara qulluq edir. İbrahim kişilərə qulluq etməyi öz öhdəsinə götürüb. Gələn adamı tanımıram. Ondan adını soruşanda özünü tanıtdırmağa meyilli olmadığını anladım. Yalnız Hüseynin döyüş yoldaşı olduğunu və bizə onun haqqında bir xatirə danışmaq üçün gəldiyini söylədi.

-Mən Hüseynlə Suriyada tanış olmuşam. Hüseyn həmişə deyərdi ki, bir mücahidin ilk arzusu qələbə, sonrakı isə şəhadətdir. Mən isə düşünürdüm ki, şəhadət yalnız İmam Zamanın (əc) rəhbərliyi altında aparılan döyüşlərdə nəsib olmalıdır. Hüseyn də gülərək deyərdi: "Mən nağdı qoyub, nisyənin ardınca qaçan deyiləm. Qoy bu gün burada, Həzrət Zeynəb üçün döyüşərək şəhid olmaq mənim olsun, İmam Zamanın (əc) kənarında şəhid olmaq isə sənin. O zaman həqiqətdən uzaqlaşdığımı anlamırdım, amma indi səhv etdiyimi başa düşürəm."

Sözü tamam olmamış, qəhərələnir. Hamı sükut edir. Bu vaxt Hüseynin digər döyüş yoldaşı, cənab Həsənzadə söhbət etmək üçün söz alır:

-Mən də Hüseyni yaxşı tanıya bilməmişdim. Biz təzə bir-birimizlə dostlaşmışdıq, çox vaxt gecələri oyaq qalıb, bir çox şeylər barədə danışardıq. Düzü, şəhid olmasına bir

neçə gün qalmış, çox mənəvi hisslər yaşayır və daim necə şəhid olacağından danışırdı. İmam Hüseynə (ə) və müqəddəs nahiyənin ziyarətinə çox bağlı idi. Eynilə, imam Hüseyn kimi üzü və saqqalı qanlı halda şəhid olmağı arzulayırdı. Sonda arzusuna çatdı, bunu öz gözlərimlə gördüm. Şəhadət anı onun yanında idim.

Göz yaşlarım axmağa başladı. Teleqram kanalında Hüseynin şəhadət zamanı paylaşılmış ilk fotosu yadıma düşdü. Fotoda üzü və saqqalı qan içində idi. Cənab Həsənzadə sözünü ağlaya-ağlaya davam edir:

-Ürəyinə güllə dəyərək şəhid olması bir göz qırpımında baş verdi; çox qısa zamanda. Yerə yıxıldı, üzü qəlbinin qanına boyandı. Son zikri "Ya Əbəlfəzl" idi. Bu qədər rahat şəhid olduğuna inana bilmirdim. Üzünü çevirəndə artıq bizimlə deyildi, getmişdi. Yaranmış səssizlikdə hamını qəhər boğurdu. Rövzə deyilmədən ağlamağa hazır idik.

Hüseynin qırxı çıxana qədər hər gün qonağımız olurdu. Qayınanamın ürəyi xəstə olduğundan, bu xoşbəxtlik bizə nəsib olmuşdu. Bütün yığıncaqlar, get-gəllər bizim evimizdə olardı. Bu dəfə bizə cənab Nəimabadi gəlmişdi. Hüseynin axırıncı dəfə hərəmi ziyarət etdiyi vaxt tanış olduğu həmin xadim. Hüseyn həmin ziyarət haqqında danışanda deyirdi ki, sanki imamın ağuşunda idim.

Həyat yoldaşı ilə birgə əyləşib fatihə verirlər, gözlərindən yaş axmağa başlayır. Mehriban qocadır, ondan İmam Rizanın (ə) ətri gəlir. Məhəmmədməhyar irəli çıxıb, onu əmi, deyə səsləyir. Bizə Hüseynlə görüşüb, tanış olması əhvalatını danışır:

-Günorta namazına az qalırdı. Adəti üzrə istirahət məkanına gedirdim ki, onu gördüm. Mənə üz tutub dedi: "Hacı, siz İmam Hüseynin (ə) xidmətçilərindənsiz, saç-

saqqalınız ağarıb, ağaya illərlə xidmət etmisiniz. Bilmirəm nədən ağa mənim istəyimi eşitmir, etinasızlıq edir."

Ona dedim ki, belə danışma. Zəvvarı ona salam verib diqqət göstərməyə macal tapmamış ağa özü öz zəvvarına salam verib diqqət ayırır.

Narahat idi, amma baxışlarında diqqətimi cəlb edən bir şey vardı. Yenə də dilləndi: "Yox, mənim cavabımı verməyib. Mən yalnız şəhid olmaq istəyirəm, bütün işlərimi də yerinə yetirmişəm."

Birlikdə gəzişdik. Məqbərənin İnqilab həyətindən keçərək, İmam Rizaya (s) məxsus salavatı çevirəndən sonra hər ikimizin halı dəyişdi. Ona dedim ki, ağadan tezliklə hacətinin rəva olmasını istədim.

Vücudunda elə bir şey hiss edirdim ki, onunla birgə olmaqdan doymurdum. Ona dedim ki, niyə tələsirsən? İnşallah imam Zamanın rəhbərliyi altında şəhid olarsan.

Cavab verdi ki, mən bütün işlərimi yerinə yetirmişəm, bir maşınım vardı satdım, vəsiyyətimi yazmışam, ailəm də razıdır.

Mənə cəbhədən, İŞİD-n, dostlarının şücaətindən danışdı. Ondan soruşdum ki, Şəhid Ətayini tanıyırsan?

Cavab verdi ki, bəli, bir müddət mənim komandirim olub. Onunla çox səmimi münasibətimiz vardı. Şəhid Ətayinin qırxına az qalmışdı. Ona danışdım ki, şəhid Ətayi ilə müqəddəs məkanların restavrasiya qurumunda tanış olmuşdum. Bizimlə çox gözəl işbirliyi edirdi. Cəbhəyə getməzdən bir həftə öncə bura gəlmişdi. Restavrasiya qurumunun qızdırıcı cihazlarında problem əmələ gəlmişdi. Baş barmağının zədələnməsinə baxmayaraq, əlinə çilingər açarı alıb, axşama qədər bütün qızdırıcı cihazları işə saldı.

Dedi ki, onda şəhid Mustafa Ətayinin şəkli və filmləri var.

Hüseyn ağadan xahiş etdim ki, onları mənə göndərsin.

Onu mübarək məkanların ofisinə apardım. Orada çoxlu qədim xalça və şəkil vardı. Gördüm ki, burada olduğuna çox sevinir. Onu daha artıq sevindirmək üçün özümlə bərabər iclaslarımızın keçirildiyi məkana apardım; hərəmin yüksək rütbəli məmurlarının görüşdüyü yerə. Orada imamların ziyarətgahlarının bir çoxunun bayraqları yerləşdirilmişdi; İmam Əlinin (ə), imam Hüseynin (ə), Əskəriyyə (ə) günbəzinin, həzrət Məsumənin (s.ə), həzrət Zeynəbin (s.ə), Şah Çırağın, Əbülfəzl Abbasın (ə). Hamısını öpüb gözünün üstünə qoydu. Oradaca əyləşdik, onu hərəmin məxsus şirniyyatına qonaq etdim. O qədər şad idi ki, gözlərindən çox rahat hər şeyi oxumaq olurdu; ixlas və mənəviyyat hissini. Qonağa daha artıq qulluq etmək üçün, dostlarımdan ona imam Riza ehsanına talon almağa getdik. Allahın istəyi ilə alındı. Belə bir şey hər zaman mümkün olmazdı. Yeməkxana salonuna daxil olarkən gözlərindən yaş axmağa başladı. Hərəmin xadimlərinin nahar etdiyi hissədə süfrəyə əyləşdik. Birgə qiyməplov yeyib qonaq salonundan çıxdıq. Mən gedib xidmət yerimi təhvil almalı idim. Şeyx Tusi girişinədək birlikdə getdik. Orada bir nəfərdən xahiş etdim ki, ikimizin şəklini çəksin. Qucaqlaşıb ayrıldıq. Şəkili ona teleqramda göndərəcəyim barədə söz verdim. O, da mənə şəhid Ətayinin filmlərini göndərəcəkdi. O gündən bir-birimizlə əlaqə saxlayırdıq. Suriyadan da şəhadət xəbəri çatana qədər mənim üçün şəkil göndərirdi.

Söhbətinin bu hissəsində göz yaşları ona aman vermədi.

Son bir neçə gündə bu mövzuda olan xatirələri çox eşitmişdim; Hüseynin gördüyü, eşitdiyi və təcrübə etdiyi şeylər barədə. Mən onlardan xəbərsiz idim. Poladəritmə

zavodunda işləyən bir nəfərin Hüseyn haqqında danışdığı xatirə kimi. Onu bizim üçün danışdı:

-Etdiyim səhvə görə cərimə olunmuşdum. Zavodun ətrafında bir dövr ayaqyalın qaçmalı idim. İtaət etməkdən başqa çarəm qalmırdı, yoxsa işdən çıxarılacaqdım. İkrahla ayaqqabılarımı çıxarıb qaçmağa başladım. Bir neçə addım irəliləmişdim ki, Hüseyn də ayaqqabılarını çıxarıb mənimlə qaçmağa başladı. Dedi ki, gəl birlikdə qaçaq. Mən hər səhər idman edirəm, lakin birlikdə qaçmaq daha çox ürəyə yatır. Birlikdə qaçaraq gülüb-danışırdıq. Daha nə darıxır, nə də bu axmaq tənbehdən xəcalət çəkirdim. Hüseyn zarafatla deyirdi: "Bunlar bizim sağlamlığımızı düşünürlər. Öncə idman edib, sonra işə çıxmağımızı istəyirlər."

# 55

Fatimə bu gün də israr edir; ana gedək, gedək də anacan! Məhəmmədməhyarın bezini dəyişməkdəyəm. Özümü etinasız göstərmək istəyirəm ki, bəlkə bu israrlarından əl çəkə. Sanki söz anlamır, hara gedirəmsə arxamca gəlir. Sonda da bir küncdə əyləşib ağlamağa başlayır.

Ona deyirəm ki, ana qurban, axı niyə ağlayırsan, söz verirəm, sabah gedəcəyik. Sən dünən, srağa gün getmişdin, hər gün gedirsən, gəl bu gün getməyək. Bu gün işim çoxdur. Qardaşını çimizdirməliyəm. Axşamüstü qonağımız var. Bu qədər işi bir günə çatdıra bilmərəm.

Sözlərimə fikir vermir. Ağlamağa davam edib heç cür sakitləşmək istəmir. Onu hər gün olduğu kimi, Behişti-Rzaya aparmağımı istəyir. Onun bu əziyyətləri, hər gün qət etdiyimiz yol, işlərin çoxluğu taqətimi kəsib. Digər tərəfdən də qızımın göz yaşlarını və üzgünlüyünü görə bilmirəm. Məhəmmədməhyarın paltarını dəyişib Fatiməyə deyirəm:

-Qoy sən deyən olsun. Hazırlaş, gedək.

Günorta saat birdir. Zehnimdə hesablayıram ki, saat dörddə evdə olmalıyıq. Hüseynin dostlarından bir neçəsi

həyat yoldaşları ilə birgə baş sağlığı vermək üçün evimizə gəlməlidirlər. Çantamı götürüb içinə baxıram. Puldan demək olar ki, heç nə qalmayıb. Bir müddət olar ki, Hüseyn olmadığı üçün işsizlik müavinətinin ödənişi dayanmışdı. Bundan sonra nə edəcəyimizi bilmirəm. Zəng vurub taksi sifariş verdim. Fatimə və Məhəmmədməhyarla birgə yola düşdük. Zeynəb evdə qaldı ki, gec qayıdacağımız halda qonaqları qarşılasın. Yol çox uzundur. Məhəmmədməhyarı yatırmağa çalışıram ki, axşamüstü məni az incitsin. Fatimə nə isə danışır. Sakitləşib, nə vaxt çatacağımızı gözləyir. Məhəmməd-məhyar qucağımda yuxuya gedib. Gözlərimi yumdum. Çox yorğunam. Dünən gecəyə qədər hədiyyə paketləri düzəltməklə məşğul olmuşam. Hər gecə Zeynəblə birgə qonaqlarımız üçün yadigar olaraq, kiçik hədiyyə bağlamaları düzəldirik. Bu bağlamaların içinə şəhidlərdən birinin vəsiyyətini, digərinin döyüşçü etiketini, bir başqasının şəklini və bu kimi şeylər qoyuruq. Bu hədiyyələrin pulunu öz cibimizdən ödəyirdik. Gələn qonaqların bizdən xatirə hədiyyəsi aparmalarını istəyirdik.

Çatan kimi, Fatimə adəti üzrə susəpəni su ilə doldurub şəhidlərin, o cümlədən, atasının qəbrini sulayır. Hüseynin məzarına şam yandıraraq tamaşa etməyə başlayır. Daha ağlamır, bura gəlməyimiz ona təskinlik verir.

Bir qədər oturandan sonra yola düşürük. Evə qayıdanda dil-dodağım quruyub. Zeynəb çay dəmləyib. Evi bir az səliqəyə salıram, bu an gözüm Hüseynin masanın üstündəki gülərüz şəklinə sataşır.

Gileylənib deyirəm: "Hüseyn can, Fatiməni aram etmək sənin işindir, mən daha bacarmıram. İnan ki, nə qədər səbr etdimsə də faydası olmadı."

Zeynəb bizə iki stəkan çay gətirdi.

-Nə deyirdin, ana can?

-Heç nə.

Ona nəzər saldım, gözümə birtəhər dəyir.

-Nə olub? Sözün var?

Əlimdən tutdu. Barmaqlarını sıxıb başını sığalladım.

-De görüm nə baş verib? Nədən narahatsan?

Sualı verməyimlə ağlamağı bir oldu. Onu qucaqlayıb göz yaşlarını sildim. Bu günə kimi Zeynəbin səbri mənə təskinlik verirdi. Bu göz yaşlarının əsaslı səbəbi olmalı idi.

-Ana qurban, nə olub? Danış görüm, atan üçün darıxmısan? Bir hadisə baş verib?

-Bu gün imtahanım vardı. Dərsimi oxumamışdım. Çox pis qiymət aldım. Müəllimәm əlimdən narahat olub dedi ki, atan özünü bədbəxt etdi, siz də onun bu işinə görə bədbəxt olacaqsınız.

Bu müddət ərzində uşaqlar dərslərdən geri qalmışdılar. Bu hadisə baş verdiyi gündən başları qarışıq idi və dərs oxumaq fürsətləri yox idi. Zeynəbin dərdləşməsinin və sözlərinin bitməsini gözləyirəm. O, davam edir: "Ana can, məktəbə gəl. Müəllimənin uşaqların qarşısında bu sözləri deməyə haqqı yox idi. Əgər sözü var idisə, mənə təklikdə deməli idi."

Səkkizinci sinifdə oxuyurdu, dərsləri çətin idi. Bəlkə də uşaqları başlı-başına buraxdığıma görə təqsirkar idim. Ona dedim ki, bundan sonra bu sözlərdən çox eşidəcəksən. Müəllimənlə özün danış. Çalış ki, dərs oxumağınla və rəftarınla müəlliməni qane edəsən.

Həmin an bu nəticəyə gəldim ki, Zeynəb özü öz problemini həll etməlidir. Mən onunla birgə küçə-bazarda, məktəbdə, universitetdə camaatın cavabını verə bilməzdim. O, indidən belə hazırcavablığa yiyələnməli idi. Hüseynin qızı da özü kimi möhkəm və dəyanətli olmalıdır.

Qonaqlar gəlib gedir. Gecə başımı balışa qoyanda Zeynəbə, Fatiməyə və Məhəmmədməhyara nəzər salıram. Bilirəm ki, Fatimə sabah yenə də Hüseynin məzarını ziyarət etmək istəyəcək. Gözlərimi yumuram. Gərək olduqca tez yuxuya gedib, yaxşı istirahət edim. Övladlarımın güclü anaya ehtiyacı var. Məhəmmədməhyar bir qədər ağlayandan sonra yuxuya gedir. Hüseyn həmişə axşamlar onunla oynayardı, indi Hüseynin yoxluğunu bəhanə edərək yatmaq istəmir.

Səhər tezdən, uşaqlar hələ yuxuda ikən ayılıram. Təzə çörək alıb süfrə açıram. Fatimə ilə Zeynəbi yuxudan ayıldıb süfrənin kənarında əyləşirəm. Fatimə iştaha ilə pendir-çörək tikələrini ağzına qoyur. Ürəkdən sevinərək gülür. Onu nəvaziş edib deyirəm:

-Gözəl qızımın gülüşünə qurban.

-Keçən gecə atamı yuxuda görmüşəm, mənə baş çəkməyə gəlmişdi.

-Onun üçün nə qədər darıxdığını bildiyindən, səni görməyə gəlib.

-Atam dedi ki, hər gün gəlib bizə baş çəkəcək. Dedi ki, qəbir boşdur, orada heç kim yoxdur.

Gözləri ilə evi axtarır. Sözünü davam etdirir: “Ata yanımda əyləşib dedi ki, Fatimə, mən evdəyəm. Axşamlar sənin yanında olacağam. Niyə şəhidlər xiyabanına gəlirsən? Mən ki orada deyiləm.

Məhəmmədməhyar qucağımda nadinclik etməyə başlayır. Onu oyuncaqlarının arasında yerə qoyub, tez Fatimənin yanına qayıtdım. Məndən soruşdu ki, anacan, əgər atam buradadırsa, bəs niyə biz bu qədər şəhidlər xiyabanına gedirik?

Onu bağrıma basıb qəhərləndim.

-Ata hər yerdə bizimlədir, istər evdə, istərsə də şəhidlər xiyabanında.

Gördüyü bu yuxudan sonra Fatimə bir daha atasının qəbri üstünə getməyə israr etmədi. Bundan sonra cümə axşamları hamımız birgə gedirik. Günlər keçdikcə, evimizə gedib gələnlərin sayı azalır. Hamının başı öz iş-gücünə, öz həyatına, öz problemlərinə qarışıb. Heç kimdən intizarımız yoxdur. Amma bəzən, insanların acı sözləri və tənələri Zeynəblə məni incidir. Sanki bərzəx aləmində ilişib qalmışam. Necə rəftar edəcəyimə heç cür qərar verə bilmirəm. Üzülərək göz yaşı axıdanda gileylənirlər ki, özün həyat yoldaşını göndərmisən, belə olacağını əvvəlcədənd fikirləşməliydin, indi yetim qalan balalarını düşünməlisən.

Bəziləri isə deyirlər: "Şəhidin adına veriləcək ilk müavinəti alan kimi hər şeyi unudacaqsan."

Səbr edib özümü soyuqqanlı aparanda da gileylənirlər ki, sən nə qədər laqeyd insansan.

Zehnimi bu sözlərdən və yersiz gileylərdən azad etməyə çalışıram. Belə yaşamaq olmazdı. Gərək başqalarının sözünə laqeyd yanaşmağı öyrənim. Tənha qaldığım zaman, ürəyim sıxılanda Hüseynlə dərdləşirəm. Onun mənimlə evdə olmasını çox aydın hiss edirəm. Hətta qaz piltəsinin kənarında durub yemək bişirəndə belə yanımda dayandığını duyuram.

Bu gün toyuq plov bişirmişəm, uşaqların sevdiyi yeməkdir. Bu yeməyi nə qədər bəyəndiklərini bilsəm belə, yenə də verəcəkləri reaksiyadan nigaranam.

Fatimə ilə Zeynəb məktəbdən gələndə süfrə salıram. Ürəyimdə salavat çevirirəm ki, onlar yeni bir problemlə qarşılaşmasın.

Fatimə sevinir: "Vay! Nə yaxşı! Toyuq plov!"

Zeynəb deyir: “Atam bu yeməyi çox sevirdi.”

Hər ikisi yeməyə baxaraq qəmgin halda süfrədən uzaqlaşırlar. Bu, Hüseynin şəhadətindən sonra gördükləri gündəlik iş idi. Hüseynin sevdiyi heç bir yeməyi dillərinə vurmurdular. Nə edəcəyimi bilmirdim. Əgər belə davam etsə, yeməklərin çoxunun üstündən xətt çəkməli olacaqdım.

Qəfildən ağlıma bir fikir gəldi. Hərəyə bir boşqab, qaşıq və çəngəl verib, bir dəst də öz boşqabımın kənarına qoydum. Bu da atanın boşqabı. Ata həmişə bizimlə olduğundan, dəvət edək, gəlib bizimlə nahar etsin.

Bu işimlə uşaqların xəyallarını bir-birinə vurmaqdan qorxsam da, onlar bu təklifimi çox yaxşı qarşılayıb süfrəyə əyləşdilər. Çox keçmədən uşaqların qəmli baxışları zarafatla əvəz olur: “Çəkil kənara, özüm atanın dizinin üstündə oturacağam.”

Hamımız gülürük, uşaqlar isə yarı zarafat, yarı ciddi qəribə işlər görürdülər.

Hüseynin həmin günlük payını soyuducuya qoydum. Bir müddət orada qaldı. Fatimə soyuducunun qapısını açıb dedi: “Ana, ata yeməyini yeməyib ki...”

Nə yeməyi ata bilirdim, nə də izah edə bilirdim. Sonda dedim: “Ata Allahın hüzurundadır. Cənnətdəki yeməklərdən yeyir, bu yeməkləri qəbul edə bilməz.”

Heç nə demədi. Hüseynin yoxluğuna hələ də alışa bilmədiyimizi qəbul etmək mənim üçün çətin idi. Bizim üçün bu boşqabqoyma mərasimləri eynilə onun Suriyada olduğu zaman etdiyimiz işlərdən biri idi. Bişirdiyim yeməyin, süfrənin və onun süfrədəki yerinin şəklini çəkib ona göndərərdim. Hüseyn çox sevinib şad olurdu.

Ona yazırdım ki, boşqabın süfrənin üstündədir. Uşaqlarla daim səni xatırlayıb yemək yeyirik. Uşaqların,

xüsusilə də Fatimənin atasına hədsiz bağlılığı vardı. Hüseynin dəfninin bütün mərhələlərində Fatimə mənimlə idi. İstəyirdim ki, Hüseynin dəfn olunduğunu görüb atasının yoxluğu ilə barışsın. Amma o, hələ də bu fikirlə razılaşa bilmirdi, hər dəfə qapının zəngini eşidəndə Məhəmmədməhyarla birgə qapıya qaçıb ata gəldi, deyə sevinərdi. Onların bu işi məni dəlilik həddinə çatdırırdı. Bir Allah bilir ki, uşaqların bu işini və bu gözləntilərini görəndə nə hala qalırdım!

Ətrafdakıların tövsiyəsi ilə Fatiməni psixoloqa apardım. Bir neçə seansdan sonra, bizə evimizi dəyişməyi məsləhət bildi. Bu, çox çətin bir qərar idi. Evin hər guşəsində Hüseynlə bağlı xatirələrimiz vardı; əyləşdiyi yer, yemək yediyi yer, mütaliə etdiyi yer... Evin hər yerindən Hüseynin qoxusu gəlirdi. Evə və otaqlara nəzər salıram, mənimlə söhbət edirmiş kimi...

Qərarımla barışıb müəyyən nəticəyə çatmağım çox vaxt apardı. Digər tərəfdən övladlarımın yarpaq kimi saralmış üzləri və iştahasızlığı məni nigaran edirdi.

Seçim etməli idim. Balalarımın gözümün önündə şam kimi əriməsinə baxa bilməzdim. Həmişə şad Fatiməm indi qəm dəryasına batmışdı. Əlimi əlimin üstünə qoyub otura bilməzdim.

Məsələni anam və həyat yoldaşımın ailəsi ilə bölüşürəm. Hamı bizim üçün yeni ev axtarmağa səfərbər olur. Uşaqlarla qərara aldıq ki, ev əşyalarını yavaş-yavaş yığıb, qutulara yerləşdirək. Bunu deyib uşaqlarla qərara gəlsək də, sözümə əməl etməyə öz əlim gəlmirdi. Nə çəkdiyimi bir Allah bilirdi. Hansı əşyaya əl vururdumsa, Hüseyni xatırlayırdım. Ev əşyalarını özü düzmüşdü. Gülbahardan gəldiyimiz gün Suriyaya getmək sevincindən tələsərək, hər şeyi yerbəyer etməyə çalışırdı. Deyirdi ki,

rahat gedə bilməsi üçün hər şeyin hazır və səliqəli vəziyyətdə olmasını istəyir.

Uşaqlar ətrafımda oynayırlar. Hər əşyanı dağlı ürəyimlə, xəyalımda min bir xatirəni canlandıraraq, səliqə ilə götürüb qəzetə bükürəm, çalışıram ki, göz yaşı tökməyim. Zeynəb televizora baxırdı. Kanalı dəyişdi. Futbol matçı yayımlanırdı. Gedib mətbəxdən palaz gətirib yerə sərdi. Günəbaxan tumunu qaba töküb yanına qoydu, eynilə Hüseyn kimi, televizora baxa-baxa tum çırtlamağa başladı. Bu səhnəni görəndə ürəyim od tutub yanmağa başlayır. Fatimə və Məhəmmədməhyar da oturub deyirlər: “Gəl, ata kimi futbola baxaq.”

Hüseyn futbola baxanda, tum çırtlayıb, həyəcandan qabığını ətrafa tökürdü. Mən etiraz edəndə isə deyirdi: “Futbola baxmağın ləzzəti belə tum çırtlamaqdadır.”

O, Suriyada olanda uşaqlar da bu işi görürdülər. Şəkillərini çəkib Hüseynə göndərəndə deyirdi: “Mən ki, bunu tərgitmişəm, uşaqlar niyə təkrar edirlər?”

Düz deyirdi. Son zamanlar bu adətini tərk etmişdi. Bu işin mənasız olduğunu etiraf edirdi. Bilirdim ki, bütün bunlar özünə verdiyi sözün nəticəsi idi. Haram və məkruh əməlləri tərk etmək öz yerində, o, hətta mənasız və əyləncəli işlərdən də uzaqlaşmışdı.

Sonuncu futbol yarışı yaxşı yadımdadır. Televizoru söndürüb otaqda gəzişirdi. Nə qədər əyləşib oyunu izləməsini xahiş etsəm də, faydası olmadı. Fikrini dağıtmaq üçün hamımız birlikdə bazara və mağazadan alış-veriş etməyə getdik. Evdən çıxdıq ki, Hüseyn vəsvəsə olub televizorda sevdiyi futbol matçını izləməyə çalışmasın.

Ürəyim dözmür, ayağa qalxıram, qutuları kənara çəkib deyirəm: “Uşaqlar, qalxın əyləncə parkına gedək.”

Hamıdan əvvəl Məhəmmədməhyar şad-xürrəm qaça-qaça gəlib ayağımı qucaqlayır. Uşaqları sevindirməyi qərara alıram. İçi boş çantama nəzər salıram. Atamın kömək məqsədilə verdiyi pulları çantama qoyub uşaqlarla birgə evdən çıxdım.

# 56

Bir xeyli get-gəldən, müxtəlif məhəllələrə baş çəkərək, cürbəcür evlərə baxdıqdan sonra Şəhid Qərəni prospektində həm kirayə pulu və həm də ölçüləri bizə uyğun olan bir ev tapdıq. Qərara aldıq ki, həftə sonu yaşadığımız evdən yeni evimizə köçək.

Məhəmmədməhyarla birgə evimizin yanındakı ərzaq dükanına yola düşürük ki, bir neçə qutu alıb qayıdaq. Açarla qapını açdım. Əvvəl Məhəmmədməhyar yavaşca salam verib içəri keçdi, sonra mən. Evdən qiymə qoxusu gəlirdi. Yəqin anam mənə kömək etmək üçün gəlib, qaz piltəsində yemək bişirir.

Ucadan dedim: “Salam anacan. Niyə gələn kimi özünü zəhmətə salmısan?”

Anam mətbəxdə idi, göyərti təmizləyirdi. Üzündən öpdüm. Məhəmmədməhyarı otağa aparıb geyimini dəyişdim. Özümdən asılı olmayaraq, əlim Hüseynin şkafına tərəf uzanır. Adəti üzrə Hüseynin geyimlərinə toxunub nəzər salmaq və sevdiyi ətiri qoxulamaq üçün şkafının qapısını açdım.

Qapı açılanda yerimdə quruyub qaldım. Çadra başımdan sürüşüb yerə düşdü. Anam arxadan yavaşca

dedi: “Bu, təkcə mənim fikrim deyildi, həyat yoldaşının ailəsi də bu qənaətə gəlmişdi. Düşündük ki, bu işi görsək həm sən, həm də uşaqlar bir qədər qəm-qüssədən uzaq olarsınız.”

Çevrilib, Hüseynin mizinin üstündəki əşyalarına baxıram. Onlar da yerində deyil. Sanki biz buradan köçdüyümüzə görə, Hüseyn də bizdən inciyib, bütün əşyalarını yığıb getmişdi. Gözümün yaşını sildim. Uşaqların bunu qəbul etməyəcəklərini bilirəm. Özüm də istəmədən qəhərlənirəm. Anam məni qucaqlayaraq ürəkdirək verdi.

Günorta Fatimə məktəbdən qayıtdı. Dəyişikliyi görsə də büruzə vermədi. Lakin Zeynəb mənim halımdan, gözlərimin qızarıb şişməsindən, nəsə bir hadisə baş verdiyini anladı.

-Bir hadisə baş verib, anacan?

-Yox. Get paltarını dəyiş, indi nahar edəcəyik.

Zeynəb otağa keçəndə, onun qışqırıq səsinə hamımız içəri qaçdıq. Bu qışqırığın səbəbini bilsəm də, heç birimiz ondan belə reaksiya gözləmirdik. Mənim sakit və hər şeyi ağılla ölçüb-biçən qızım, indi özündə deyildi.

Yanında dayandım. Hüseynin boş şkafının qarşısında durub ucadan ağlayırdı. Onu qucaqlamağa çalışıram. İcazə vermir, mənim də əlimdən narahatdır.

Dedim ki, ana qurban, mənim təqsirim yoxdur, bu, qohumların qərarıdır. Deyirlər ki, sizin üçün belə daha yaxşı olar, bundan artıq əziyyət çəkmənizi istəmirlər.

Sözlərim faydasızdır. Anam onun üçün şirin şərbət gətirir. Əlini itələyib içmir. Dilxordur. Niyə hər kəsə icazə verirsən ki, gəlib bizə sübut etsin ki, atamız daha həyatda deyil!

-Yaxşı, ana qurban, qoy sən deyən olsun. Hələ də gec deyil. Heç bir şey baş verməmiş kimi, atanın əşyalarını əvvəlki kimi yerinə yığarıq. Buna görə narahat olmağına dəyməz.

Cavab vermədən evdən çıxıb gedir. Hara getdiyini bilirdim. Bibisinin evi bizə yaxın idi. Zeynəb geri qayıdana və ondan bir xəbər tutana qədər dilimə heç nə vurmuram. Dörd-beş saatdan sonra, axşamüstü evə qayıtdı. Sakitləşmişdi. Dedim ki, ana qurban, gəl birgə nahar edək.

-Ac deyiləm, bibimgildə yemişəm. Ona baxdım, gəlib yanımda əyləşdi.

-Ana, atamın bütün əşyalarını yığ.

Nə baş verdiyini bilmirdim. Görəsən bibisinin nəsihətləri onu qane etmişdi, yoxsa özü düşünüb bu nəticəyə gəlmişdi?

-Anacan, düşünüb səhv etdiyimi anladım. Ola bilsin ki, atamdan özüm üçün bir büt düzəltmişdim, onun geyimlərindən, əşyalarından. Bəlkə də Allahın istəyi idi ki, bu yolla zehnimdəki büt sınsın və mən bu geyimlərə, darağa, çəfiyəyə və başqa əşyalara bu həddə bağlı olmayım.

Deməyə sözüm yox idi. Onu bağrıma basdım. Fatimə bizə baxır.

-Düz deyir, anacan, atamın əşyalarını yığ. Onları bir başqasının əynində görmək istəmirəm.

-Bu nə sözdür, qızım? Atanızın geyimləri bir başqasının əynində olmayacaq.

Uşaqların istəyinə uyğun Hüseynin geyimləri anamla qardaşımın qoyduqları yerdə qalacaqdı. Uşaqlığımın keçdiyi otaqlardan birində qoyulmuş qutunun içində.

Anam dedi ki, qoy bu əşyalar elə burada qalsın, uşaqlar böyüyəndə, hər vaxt istəsələr gəlib baxa bilərlər. O zaman ataları barədə olan xatirələrini yada salarlar.

Yeni evə köçməyimizlə Məhəmmədməhyarın qızdırmasının qalxması bir olur. Onun getdikcə yüksələn qızdırmasının səbəbini bilmirdim. Həkimə getdik. Hansı həkimin ünvanını verib, yaxşı mütəxəssis olduğunu deyirdilərsə, həmin həkimə müraciət edirdik. Heç biri bu qızdırmaların səbəbini anlaya bilmirdi. Bizə yalnız qızdırma kəsici, asetominofen[1], antibiotik və bu qəbildən olan dərmanlar yazırdılar. Buna baxmayaraq, hər axşam Məhəmmədməhyarın yenə də naməlum qızdırmasını salmaq üçün əlimdən gələni edirdim. Sanki gecələr qızdırma daha şiddətli, mənim təşvişlərim isə daha artıq olurdu. Kənarında əyləşdim, uşaq həmişəki kimi qızdırmadan yanır. İki qab su ilə dəsmal gətirdim. Durmadan ayaqlarını soyuq su ilə yuyub, alnına nəm dəsmal qoyuram. Çiyinlərim ağrıdan və yorğunluqdan yanır, Məhəmmədməhyar isə inildəyirdi. Nə qədər vaxt keçdiyini bilmirəm. Yorğun və əldən düşmüş haldayam. Nə asetominofen, nə də ki başqa dərmanlar təsir etmir. Hüseynin masanın üstündəki şəklinə baxıram. Şəkildən mənə baxıb gülür.

Yorğun halda gileylənirəm: “Getdin və canını qurtardın. Heç dönüb arxaya da baxmırsan, demirsən ki, mən tək-tənha bu uşaqlarla necə yaşayıram. Məhəmmədməhyarın halı niyə düzəlmir? Niyə belə olub? Niyə heç nə etmirsən?”

Qəhərdən boğularaq ağlamağa başlayıram. Əlimdən bir iş gəlmir. Tənhalıq hissi ürəyimi parçalayır. Hüseyn sağ

---

[1] Qızdırma və ağrı kəsici dərman.

olsaydı, mütləq bir iş görərdi. Hər nə qədər düşünsəm də, Məhəmmədməhyarın xəstəliyinin səbəbini tapa bilmirəm. Güman edirəm ki, yerimizi dəyişib, yeni evə köçməyimiz ucbatındandır. Körpə balamın ürəyindən keçənləri açıqlamaq və narazılığını bildirmək üçün dili yoxdur axı. Yeni evdə artıq, Hüseynin yolunu gözləmir. Hər dəfə qapı döyüləndə və maşın siqnal verəndə, "ata" - deyə səslənmir.

Başımı çarpayının kənarına qoyub düşünürəm ki, görəsən sabah uşağı hansı həkimə aparım; kimə zəng vurum, nə edim, heç özüm də bilmədən, gözlərim yumulur və dərin yuxuya gedirəm.

Yuxunun bir aləmində gördüm ki, qapı açıldı. Əvvəlki evimizdə idik; Hüseynin nəfəs aldığı həmin ev, həmin otaq və həmin fəza. Hüseyn içəri girəndə əynində hərbi geyim vardı. Yanımda əyləşib dedi: "Niyə sizi atıb getdiyimi düşünürsən?"

Ona nəzər saldım. Şəhid olduğunu bilirdim. Ağzımı açıb bir söz demək istəsəm də səsim çıxmırdı.

-Mən hər yerdə səninləyəm. Səninlə birgə Məhəmmədməhyarın yatağının başında oyaq qalıram. Daha heç vaxt səni başlı-başına buraxıb getdiyimi demə!

Ayağa qalxdı. Uşağın çarpayısının kənarında əyləşdi, əlini onun başına qoydu, sonra əyilib alnından öpdü. Mənə sadəcə mat-məəttəl baxmaq qalırdı. Hüseyn necə gəlmişdisə, eləcə də qapıya tərəf gedərək gözdən itdi.

Gözümü açanda bilmirdim ki, yatmışam, ya oyağam. Nə yuxulu, nə də yorğun idim. İlk gördüyüm iş yerindəcə əlimi Məhəmmədməhyarın alnına qoymaq idi. Qızdırmadan əsər-əlamət qalmamışdı. Uşağın qızdırmadan qızarmış üzü öz təbii rəngində idi.

Ayağa qalxıb dəstəmaz aldım. Sübh azanına az qalmışdı. Azan verən kimi namazımı qıldım, Yasin surəsini oxuyub Hüseynə hədiyyə etdim. Məhəmmədməhyarın dərman içməyinin vaxtı çatsa da ona heç bir şey vermədim. Qızdırmanın artıq qayıtmayacağından əmin idim.

# 57

Telefon zəng çalanda Fatimə qaçıb dəstəyi götürür. Hal-əhval tutandan sonra mənə işarə edib deyir:

-Xanım Daneşməndin səninlə işi var.

Dəstəyi əlindən aldım. Səsindən sevinc yağır.

-Gərək vaxt tapanda sizi görməyə gəlim. Xoş xəbərim var.

-Həmişə xoş xəbər olasınız, xanım Daneşmənd.

- Yadındadır, sənə qardaşım arvadının hamilə olduğunu demişdim?

Yadımda idi. Onun üçün çoxlu dua etmişdim. İllərdir ki, övladları olmurdu. Neçə il nəzir-niyaz paylayıb, müxtəlif həkimlərə müraciət etdikdən sonra hamilə olmuşdu. Xanım Daneşmənd uşağın sağ-salamat dünyaya gəlməsi üçün bizlərdən duaçı olmamızı istəyirdi. Lakin bir neçə aydan sonra həkimlər bildirmişdilər ki, döl naqisdir və abort olunmalıdır. Bu, çox pis xəbər idi. Xanım Daneşməndin halı yaxşı deyildi; bir gözü yaş, bir gözü qan ağlayırdı. Əlindən bir iş gəlmirdi. Deyirdi ki, qardaşı nə edəcəyini bilmir.

Xanım Daneşmənd dedi: “Bu dəfə evinizə gələndə bir qutu şirniyyat ilə gələcəyəm. Qardaşım arvadı övladını sağ-salamat dünyaya gətirdi.”

-Uşaq necədir?

-Sapsağlamdır, şükür Allaha bir problemi yoxdur. Qardaşım deyir ki, ana ilə uşaq xəstəxanadan tərxis olunan kimi, ziyarət edəcəkləri ilk yer Hüseyn ağanın məzarı olacaq.

Qardaşının Hüseynin bütün mərasimlərində iştirak etdiyini bilirdim. Bacısının dediyinə görə, vida mərasimində Hüseynə təvəssül edərək, övladının sağlam olmasını diləmiş, elə oradaca, həkimlərin rəyinə qarşı çıxaraq uşağı saxlamaq qərarına gəlmişdi.

Dedim: “Allaha şükürlər olsun ki, uşaq sağlamdır. Qədəmləri mübarək olsun.”

Sevincək halda dəstəyi asdım. Zeynəblə Fatimə dərslərini oxuyurlar. Əynimi dəyişirəm. Fatimə təəccüblə mənə baxır.

-Hara gedirsən, anacan?

-Məhəmməd əminin evinə.

Əmisinin Suriyaya ezam olunmasını onlara demirəm. Qorxuram ki, atalarının getməsi və onunla bağlı xatirələri yenə də baş qaldırar. Məhəmmədin həyat yoldaşına da uşaqları gətirməyəcəyəmi söyləmişdim.

Yalnız mərasimdə iştirak edib, ona sağ-salamat gedib gəlməsini arzulamaq üçün gedirəm.

Məhəmmədməhyarı da aparmıram. Gedəndə Zeynəbə tapşırıram ki, ana qurban, gözün uşaqda olsun. Mən bir-iki saatdan sonra qayıdacağam.

Bacı-qardaşlar yığılıblar. Qayınanam oğlunu qucaqlayıb onun üçün dua edir. Məhəmmədin bir çox cəhətlərdən Hüseynlə həmrəy olduğunu bilirəm. Suriyaya

da birgə gedəcəkdilər. Amma, onun vacib işi olduğu üçün gedə bilməmişdi.

Çalışıram ki, burada çox qalmayım. Hüseynlə vidalaşma anlarımız xatirəmdə canlanır. Hamı hava limanına yola düşəndə mən evə qayıdıram. Onlara dedim ki, uşaqlar evdə təkdilər, Allah göstərməsin, başlarına bir iş gələr.

Uşaqları nəyə görə gətirmədiyimi bilirdilər. Bu cəhətdən heç bir gözləntiləri yox idi. Vidalaşıb evdən çıxdım. Yolda Hüseynlə bağlı xatirələrim canlanaraq gözlərimin önündən keçdi. Nəzərimcə, həyatımız da elə bu qədər qısadır.

Çox keçmədi ki, Məhəmmədin sağ-salamat qayıtmq xəbərini eşitdik. Onu qarşılamaq üçün böyük bir qonaqlıq təşkil olunmuşdu, bütün bacı-qardaşları da bir yerə toplaşmışdılar.

Məhəmməd əynindəki hərbi geyim və əlindəki yol çantası ilə içəri girəndə, hamı onunla görüşüb hal-əhval tutmaq üçün ayağa qalxdı. Ev dolu idi, səs-küydən ağız deyəni qulaq eşitmirdi. Uşaqlar da görüşmək üçün ona yaxınlaşdılar. Məhəmməd bir-bir uşaqların üzündən öpüb onları qucaqlayır. Fatimənin sözlərindən araya sükut çökür:

-Kaş mənim də atam qayıdardı.

Ürəyim od tutub yandı, dərdim təzələndi.

Məhəmməd çantasını açıb aldığı sovqatları çıxarmağa başlayır. Hamı evdəki ağır ab-havanı dəyişmək üçün gülüb zarafatlaşır. Hüseynin yoxluğunun ağrı-acısından çıxmaq istəyirlər.

Məhəmməd çantasını aça-aça deyir: “Şükür Allaha ki, bizimlə gedənlərin hamısı sağ-salamat qayıdıb gəldi. Heç kimin başına bir iş gəlmədi.”

Fatimə yenə də dilləndi: “Mənim atam qayıtmadı.”

Hamı onun başına yığışdı, əmisi isə onu qıdıqlamağa başladı. İlk sovqat Fatimənindir, qəşəng bir namaz çadrası. Əmisi çadranı Fatiməyə uzadıb dedi:

-Bu, mənim Fatimə balam üçündür.

Fatimə çadranı alır.

-Atam da qayıtsaydı, mənim üçün sovqat gətirəcəkdi.

Məhəmməd çantasını bağlayıb Fatiməni qucaqladı.

-Heç bilirsən hara getmişdim? Atanın getdiyi yerə. Atanın intiqamını almağa getmişdim.

-Atamın dostlarını gördün?

Əmisi Fatiməyə təəccüblə baxdı. Bu sualı niyə soruşduğunu bilirdim. Uşaqlar yas mərasimində, Hüseynin evimizə gələn dostlarını sual-cavaba tuturdular ki, onun da Hüseynlə birgə Suriyaya gedərək, hərəm müdafiəçisi olub-olmadığını öyrənsinlər. Bəlkə Hüseynlə bağlı bir xatirəsi vardı? Hüseyn orada nə demişdi, nə iş görmüşdü, uşaqları barədə danışmışdı ya yox, bu kimi suallar soruşurdular.

Həmin günlər mənim də vəziyyətim yaxşı deyildi. Çünki, Fatimə evimizə gələn hər bir adamla üzbəüz dayanıb soruşurdu ki, siz də hərəm müdafiəçisiniz? Mənim atamı görmüşdünüz? O, nə barədə danışırdı? Çox vaxt cavabında sükutla qarşılaşardı, bu sual-cavablarla bir şeyə nail olmurdu. Amma mən onların bu cavab həsrətindən əziyyət çəkirdim.

Məhəmməd cavab verdi: “Bəli, atanın dostlarını da gördüm. Hamısı sizə salam deyirdi.”

Sonra əmisi Fatiməni qucaqlayıb onunla birgə divanda əyləşir. Suriyada olub keçmiş hadisələr, başına gələnlər barədə söhbət edir. Biz də onu dinləyirik. Hüseynin şəhid olduğu məntəqəyə də getdiyini öyrəndim. Sonda Fatimə

əmisinin boynunu qucaqlayıb ağlaya-ağlaya dedi: “Atam üçün çox darıxmışam.”

# 58

Bu günlər evimizin mühiti fərqlidir. Hamımız çamadanlarımızı yığıb səfər üçün lazım olan əşyaları seçməkdəyik. Hərəm müdafiəçilərinin ailələrini Suriyaya ziyarətə aparmalıdırlar. Uşaqlar çox həyəcanlı idilər, hətta balaca Məhəmmədməhyar da.

Təyin olunmuş gün hamımız hava limanına gedirik. Öncədən qohumlarla vidalaşıb, heç kimin hava limanına gəlməsinə icazə vermədik. Yaxınlarımın zəhmətə düşməsinə razı deyiləm. Çamadanları təhvil verib təyyarəyə minirik. Çatan kimi getdiyimiz ilk yer qalacağımız oteldir. Hər ailəyə yerləşəcəyi otağın açarını təhvil verirlər. Bu səfər başqa ailələrlə tanışlıq üçün yaxşı fürsət idi. Qəlbimdən gözəl hisslər keçirdi.

Otelə yerləşən kimi hərəmə gedirik. Küçələrdən, xiyabanlardan, hər yerdən müharibə və dağıntı qoxusu gəlir. Bundan öncə Suriyaya gəlməmişdim, amma indi şəhər tamamilə xarabalığa çevrilmişdi.

Getdiyimiz ilk ziyarətgah həzrət Rüqəyyənin hərəmidir. Buranın ab-havası çox ürəyəyatandır. Hətta körpə Məhəmmədməhyar da buranı tərk etmək istəmirdi. Oradan birbaşa Həzrət Zeynəbi (ə) ziyarət etməyə getdik, məqbərə

olduqca seyrək idi. Məni incidən yeganə şey qürbət qoxusudur. Bura öz ölkəmizdə yerləşən İmam Rizanın (ə) hərəmi ilə müqayisəolunmaz dərəcədə fərqlənir. İmam Rizanın (ə) hərəmini ilin heç bir fəslində boş görmək mümkün deyil. Zərihdən bərk-bərk yapışıram. Bura Hüseynin gəldiyi məkandır. Əllərilə zərihin şəbəkəsindən yapışaraq, özü üçün şəhadət diləmişdi. Dostlarının dediyinə görə, o qədər ağlayıb vay-şivən etmişdi ki, özündən getmişdi. Hüseynin səsini eşidirdim. Hönkürtülərini və yalvarışlarını eşidirdim.

Hərəmdən çıxış vaxtı Zeynəb qapının kənarında dayanaraq dedi: "Anacan, atam burada şəkil çəkdirmişdi, mənim də şəklimi çək." Uşaqlarla birgə Hələbə getmək istəyirdik, Hüseynin şəhid olduğu məkana. Amma icazə vermədilər. Cavabımızda dedilər ki, düzdür, Hələb azad olunub, lakin məntəqədə hələ də sabitlik yoxdur, sizi ora apara bilmərik.

Soraqlaşıb Hələb şəhərinin istiqamətini müəyyənləşdirirəm. Oradaca dayanıb şəhidlərin ziyarətini oxuyuram. Salam göndərib, Hüseyndən istəyirəm ki, uşaqları istədiyi ruhda böyüdə bilməyim üçün mənə kömək etsin.

Axşam yorğun halda otelə qayıtdıq. Səfərimizin sonuna yaxınlaşırıq. Səhər tezdən Zeynəb mənə yuxusunu danışdı: "Atam dedi ki, Kərbəlaya gəlin, sizi orada gözləyirəm."

Kərbəla səfərinə gedə bilməyimiz üçün özümü oda-suya vururam. Öncə səfər yoldaşlarımızın nəzəri ilə maraqlanıram. Hamı belə bir səfərin intizarındadır. Uzun-uzadı söhbətlərdən sonra möcüzəvi şəkildə, Suriyadan birbaşa Kərbəlaya getməyimizə icazə verirlər.

Ayağımızı Kərbəla torpağına basırıq, Hüseynlə getdiyimiz sonuncu ziyarət səfərini yadıma salıram.

Uşaqlara ataları haqda danışıram; namaz qılıb, ziyarət etməsi barədə. Zeynəb dəqiqliklə atasının əməllərini yerinə yetirməyə çalışır. Təll-Zeynəbiyyəyə çatanda onlara danışdım ki, yaxşı yadımdadır, atanız bura gəlmədi. Zeynəb, ana qurban, gəl atanın əvəzində ziyarət et.

Bizi bütün ziyarət məkanlarına apardılar; Hüseynlə getdiyimiz və xatirələri hələ də zehnimdə canlı olan bütün yerlərə. Vadius-salama da getdik. Hüseynin və onun alimlərə olan hörmətinə görə, döyüşçü etiketini zənciri ilə birgə Ayətullah Qazinin məzarından asdım.

Bu səfər də bütün yaxşılığı, şirinliyi və xatirələri ilə birgə tamamlandı, evə qayıtdıq. Hələ uzun müddət uşaqlarla mənim əhvalım bir başqa cür idi. Bu səfəri Hüseynə borclu idik. Novruz bayramı yaxınlaşdığı üçün, yeni il əhval-ruhiyyəsinin təsiri altında, bayram tədarükünə başlayırıq. Uşaqların iş gördüyü üçün, onlara yaşamaq hissi üz verdiyi üçün çox sevinirəm.

Bayram axşamı süfrə salırıq, "Həft sin"[1] bəzəyərək, süfrənin ətrafına otururuq. Hüseynin yeri boşdur. Bu, Hüseynsiz keçən ilk Novruz bayramdır. Uşaqlarda öncəki illərdəki kimi sevinc hissi yox idi.

Öz-özümə etiraf edirəm ki, Hüseynin yerini heç nə ilə doldurmaq olmur. Mənim hədsiz məhəbbətim və diqqətim də işə yaramır. Aparıcı (hicri-şəmsi təqvimi ilə) 1397-ci ilin başlandığını elan edən kimi, hazırlaşıb anamgilə gedirik. Başlarını qatmaq, oturub evdə qəm çəkməkdən yaxşıdır. Novruz görüşlərindən çox keçməmiş, evə qəribə bir telefon zəngi olundu. Xəbər verdilər ki, axşamüstü qonağımız var, bizə baş çəkmək üçün evimizə gələcək.

---

[1] İran mədəniyyətində "S" hərfi ilə başlayan yeddi şey: Alma, sirkə, innab, sikkə, səməni halvası, sumaq, sarımsaq.

Evi səliqəyə saldım, uşaqlar da hazırlaşdılar. Belə görüşlər bəzən baş verirdi. İslam Keşikçiləri Korpusunun məsul şəxsləri, alimlər, ya da adi camaatla keçirilən görüşlərimiz olurdu. İmam Cavadın (ə) mövludu gecəsi evimizə bir nəfər daxil olub, qonağımızın Ayətullah Xamenei olduğunu elan etdi. Əl-ayağımı itirmişdim. Necə rəftar edəcəyimi bilmirdim. Yalnız sevinc göz yaşları tökürdüm. Hüseyn necə də bu görüşün arzusu və həsrətilə yanırdı.

Əziz Rəhbərimizin gəlişi bizim üçün çox dəyərli idi. Ayətullah Xamenei içəri daxil oldu. Rəftarı çox adi və sadə idi, amma vücudunda elə bir cazibə qüdrəti vardı ki, onun kimi birisinə rast gəlməmişdim.

Hüseynin salamını əziz Rəhbərimizin hüzuruna çatdırdıqdan sonra dedim: "Hüseyn ağa mənə tapşırmışdı ki, mən şəhid olandan sonra imam Xameneini görsən, ona salamımı çatdır və de ki, təqdim etmək üçün yalnız bir canım olduğundan, üzü qarayam."

İmam Xamenei cavab verdi: "Şəhidin salamını mənə çatdırdığınıza görı özümü xoşbəxt sanıram."

Ağa Məhəmmədməhyarı dizinin üstündə oturdub üzündən öpdü. Ona dedim ki, bu uşaq sizin əsgərinizdir, canı sizə fəda olsun, aqibətinin xeyirli olması üçün dua edin.

Əziz Rəhbər buyurdu: "İnşallah aqibəti xeyirli olsun."

Uşaqların hal-əhvalını məndən soruşdu. Zeynəb danışmaq üçün icazə aldı.

-Mən şahidəm ki, atam sizin iflic olmuş qazilərlə olan görüşünüzü və onları necə qucaqladığınızı televizordan izləyərkən deyirdi: "Əgər İmam Zamanın (əc) naibi gəlib səni qucaqlayıb dua edərsə, bütün ömrünü oturaq halda əlil arabasında, ya da çarpayıda keçirməyinə dəyər. İndi isə mən deyirəm ki, bir ömür yetimçilik çəkməyinə dəyər,

yetər ki, bir anlıq sizin kənarınızda oturum və əlinizi başıma çəkəsiniz.

İmam Xamenei Zeynəbin başına əl çəkib onun üçün dua etdi, sonra üzüyünü ona bağışladı.

Bərəkətli il oldu. Bunu Həzrət ağanın gəlişinə istinadən deyirəm. Bayram tətilləri bitəndən sonra uşaqlar yenə də öz dərslərinə və ev tapşırıqlarına qayıtdılar. Mən Məhəmmədməhyarla evdə tək qalaraq, Fatimə ilə Zeynəbin dərsdən nə vaxt qayıdacaqlarını gözləyirdik. Uşaqlar məktəbdən qayıdandan sonra nahar edib dərs oxumağa gedirdilər. Mən də Məhəmmədməhyarı yatırdıb, Hüseynin kitablarını mütaliə edirdim. Amma qürub çağları həmişəki kimi deyil. Bu saatlar bütün kişilərin evə qayıtdığı vaxtdır. Evi dəyişməyimizə baxmayaraq, hər gün həmin an Hüseynin qayıdacağını gözləyirəm. Çox qəmgin idim. Onun daha gəlməyəcəyi fikri, sanki dünyanın bütün kədəri qədər ürəyimə ağırlıq edir. Hüseynin yoxluğu mənim üçün heç vaxt adiləşməyəcək. Bu dərdin həmişəyaşar olmasını istəyirəm. Bilirəm ki, sevdiyimiz və ürəyimizə yaxın olan şəxsin istər-istəməz ruhu da bizə yaxın olur. Əminəm ki, qürub vaxtı mənim darıxdığım kimi, Hüseyn də bizim üçün darıxır. Mən bu darıxmaqları çox sevirəm.



Hərəmin xadimi olan cənab Nəimabadi ilə birgə. Hacətini aldığı son ziyarət




Şəhid Sədrzadənin məzarının kənarında



Şəhid Hacı Qasim övladlarım üçün bir əmi, mənim üçün isə bir ata idi.



Fatimənin atası ilə vida anı




Fatimə atasının məzarı kənarında



“Şəhid bacıları” təşkilatının sədri Aram Mehrabi qardaşını belə yad edir.



İmam Xamenei ilə görüşümüz dərdimizi və ağrı-acımızı yüngülləşdirdi.



Hüseynin həyat yoldaşından aldığı son məktub